# TÖVRATDAN HİKMƏTLƏR
# VƏ
# GÖZƏL ÖYÜDLƏR

**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

(Bu kitabda istifadə edilən ayələr Ziya Bünyadov və Vasim Məmmədəliyevin və həmçinin Əlixan Musayevin Quran məalı kitablarından götürülmüşdür)

Birinci nəşr: Fevral, 2008. İkinci nəşr: İyun, 2009

**ARAŞDIRMA NƏŞRİYYAT**

Talatpaşa məhəlləsi, Əmirqazi küçəsi
İbrahim Almaz iş mərkəzi
Blok A, mərtəbə 4, Oxmeydanı-İstanbul
Tel: (0 212) 222 00 88

**www.harunyahya.org - www.harunyahya.net**

**İÇİNDƏKİLƏR:**

**MÜSƏLMANLARIN TÖVRAT VƏ İNCİLƏ BAXIŞ NÖQTEYİ-NƏZƏRİ İLƏ ƏLAQƏDAR ÖNƏMLİ AÇIQLAMA**
**GİRİŞ:**
**TƏHRİF OLUNMUŞ TÖVRATIN İÇİNDƏ GİZLƏNƏN HAQQ KİTAB**
Təhrif olunmuş Tövratdakı gözəl və
hikmətli açıqlamaları imanın nuru ilə görmək
Tövratda axirət inancının olmaması
onun təhrif olunmuş bir kitab olduğunu göstərir
Hz Mehdi təhrif olunmuş Tövratdan
haqq Tövratı çıxaracaq
**TÖVRATDA ALLAH SEVGİSİ**
**TÖVRATDA ALLAH QORXUSU**
**TÖVRATDA ALLAHA YAXINLIQ VƏ İMAN DƏRİNLİYİ**
Tövratda Allaha yaxınlıq
Tövratda Allaha bağlılıq və sədaqət
Tövratda Allaha hörmət göstərmək
Tövratda iman coşğusu və sevinci
Tövratda dərindən düşünməyin əhəmiyyəti
Tövratda iman həqiqətlərini təşviq edən izahlar
Tövratda dünya həyatının keçiciliyi
haqqında izahlar
**TÖVRATDA ALLAHIN SİFƏTLƏRİ**
Tövratda Allahın birliyi
Tövratda Allahın əzəli
və əbədi olması
Tövratda Allahın hər şeyin
yaradıcısı olması
Tövratda Allahın hər şeyi görən,
eşidən və bilən olması
Tövratda Allahın tək qüdrət və
iradə sahibi olması
Tövratda Allahın insana
ruh verməsi
Tövratda Allahın sonsuz
ədalət sahibi olması
Tövratda Allahın sevən, mərhəmət
sahibi və bağışlayan olması
Tövratda Allahın hər an
hər yerdə olması
Tövratda Allahın ruzi verən olması
Tövratda Allahın hakimliyinin
hər şeyi əhatə etməsi
Tövratda Allahın hər cür
nöqsandan münəzzəh olması
**TÖVRATDA AXİRƏTƏ İMAN**

Tövratda yenidən diriliş
Tövratda qiyamət günü
Tövratda hesab günü
Tövratda Cəhənnəm
Tövratda Cənnət
**TÖVRATDA İMANIN GƏRƏKLƏRİ**
Tövratda Allaha şirk
qoşmadan iman etmək
Tövratda Allaha şükür etmək
Tövratda Allaha təvəkkül etmək
Tövratda Allahın əmrlərinə tabe olmaq
Tövratda vicdana uymaq
Tövratda zamansızlıq və qədərə iman
Tövratda duanın əhəmiyyəti
Tövratda mələklərə iman
**TÖVRATDA TÖVSİYƏ EDİLƏN GÖZƏL ƏXLAQ XÜSUSİYYƏTLƏRİ**
Tövratda təvazökar olmaq,
qürur və qürurdan çəkinmək
Tövratda qəzəbi yenmək
Tövratda şəfqət və mərhəmət
Tövratda ədalətlə hökm etmək,
haqqı müdafiə etmək
Tövratda xeyirxahlıq
Tövratda yaxşılıq etmək, pislikdən çəkinmək
Tövratda düzgünlük və dürüstlük
Tövratda səbirli olmaq
Tövratda sədaqət
Tövratda zülmdən çəkinmək
Tövratda sülh və dostluğa
verilən əhəmiyyət
Tövratda ağıl və hikmətə
verilən əhəmiyyət
Tövratda comərd olmaq,
xəsislikdən qaçmaq
Tövratda maddi gücə deyil,
yalnız Allaha güvənmək
Tövratda haqsız qazancdan qaçmaq
Tövratda tənbəllikdən qaçmaq,
çalışqan olmaq
Tövratda istehzadan qaçmaq
Tövratda hüznə qapılmamaq,
Allaha imanla hüzur tapmaq
Tövratda ruh təmizliyi
Tövratda Allahın xoşbəxtlik vəd etdiyi qulları
Tövratda Allahın xoşbəxtlik vəd etdiyi qulları
**TÖVRATDA ALLAHI ANMAQ VƏ GÖZƏL SÖZ SÖYLƏMƏYİN ƏHƏMİYYƏTİ**

Tövratda Allahı anmaq
Tövratda doğru söz söyləmək
Tövratda hikmətli və yığcam danışmaq
Tövratda pis sözdən uzaq olmaq, gözəl sözlü olmaq
Tövratda yaxşılığa çağırmaq,
pislikdən çəkindirmək
Tövratda mənasız söz söyləməkdən çəkinmək
Tövratda qeybətdən uzaq olmaq
Tövratda tövsiyə edilən digər danışıq formaları
**TÖVRATDA QURANA UYĞUN ƏMR VƏ QADAĞALAR**
Yalan danışmamaq
Oğurluq etməmək
Donuz əti yeməmək
Faizlə pul işlətməmək
Fal, cadu kimi işlərlə məşğul olmamaq
Rüşvət almamaq
Hiylə etməmək
Cinayət işləməmək
Zina etməmək
Livatanın qadağan edilməsi
Qanın qadağan olması
Ölü heyvan ətinin qadağan olması
**TÖVRATDA QURANA UYĞUN İBADƏTLƏR**
Tövratda qiyam (ayaq üstə durmaq)
Tövratda ruku (əyilib əlləri dizə qoymaq)
Tövratda səcdə (əyilib alını yerə qoymaq)
Tövratda səcdədən sonra oturuş
Tövratda oruc
Tövratda zəkat-sədəqə ibadəti
Tövratda dəstəmaz
**TÖVRATDA PEYĞƏMBƏRİMİZİN (S.Ə.V.) SÜNNƏSİNƏ UYĞUN İŞLƏR**
Araqçın (başlıq, təkkə) qoymaq
Köynək geymək
Kətan paltarlardan istifadə edilməsi
Sarıqdan istifadə etmək
Cübbə geymək
Tövratda təmizliyə verilən əhəmiyyət
Gözəl ətir vurmaq
Məscidlərin gözəl qoxması
Məscidlərin təmizliyi
Bədən təmizliyinə əhəmiyyət verilməsi
Saç və geyimə baxım
Saçları və başı yağlamaq
Tövratda diqqət yetirilən yemək və içmək
Şorba
Ət

Xurma
Çörək
Bəhməz və üzüm
Bal
Süd
Nar
Zeytun yağı:
Tövratda peyğəmbərimizin (s.ə.v.) sünnəsinə
uyğun digər işlər
Əqiq daşından istifadə:
Möhür üzüyündən istifadə:

**QURAN VƏ TÖVRATDAKI BƏNZƏR İFADƏLƏRİN BİR QİSMİ**

Hər şeyin bir kitabda yazılı olması:
Min illik müddətin Allah qatında bir gün kimi olması:
Günahkarların simalarından tanınması:
İnsanın imtahanda olması:
İnkar edənlərin göndərilən elçilərə istehza etmələri:
Allahın iman edənlərə yaxınlığı, duaları qəbul etməsi:
İnsanın əsl vəzifəsinin Allaha qulluq olması:
Qəlblərin qatılaşması:
İnkar edənlərin peyğəmbərləri öldürmələri:
İman edənlərin Allahın yaratdıqları haqqında dərin düşünmələri:
Allahın hökmlərini heç kimin dəyişdirə bilməməsi:
Dünyəvi zənginlik axirətdə adama fayda verməz:
Allahın nemətlərinin sayıla bilməyəcək qədər çox olması:
Allahın dilədiyini ucaldıb, dilədiyini də alçaltması:
İnsanların öz etdikləri pisliklərin cəzasını çəkmələri:
Əxlaqsızların qaş-göz hərəkətləri ilə razılaşmaları:
İnkar edənlərin göz və qulaq hisslərinin yox olması:
İman edənlərin pisliyə yaxşılıqla cavab vermələri:
Allahın ruzi verən olması:
Heç bir şeyin Allahdan gizli qalmaması:
Heç kim başqasının günahı ilə yüklənə bilməz:
Allaha təvəkkül etməyənlərin nümunəsi:
Yaxşılıq və ya pislik edənlər qarşılığını alacaqlar:
Günahkarlar dərhal cəzalandırılsaydı, yer üzündə heç kim qalmazdı:
Allahın birliyi:
Allahın əsirgəyən və sevən olması:
Allahın Öz yolunda olanları müvəffəqiyyətə çatdırması:
Allah yeri, göyü və ikisinin arasındakıları yaradandır:
İman edənlərin Allaha ümidlə bağlı olmaları:
Qulaqları və gözləri yaradandır:
Hər şeyin Allahın əmri ilə bir anda olması:
Hidayət verən (doğru yola çatdıran) Allahdır:
Allah Özünə sığınılandır:
Qiyamət günü yer üzünün düzləşməsi:

Yaşadan və öldürən Allahdır:
Allahın bütün canlıları insanlara nemət olaraq verməsi:
Allahın istədiyini ucaldıb, istədiyini alçaltması; istədiyinə mülk verməsi:
İman edənlərin Allahdan başqa heç kimdən qorxmaması:
Göylərdəki nizam:
Allahın insana şəkil verməsi:
**ƏLAVƏ HİSSƏ**
**TÖVRATDA ALLAHIN YARATDIĞI GÖZƏLLİKLƏRDƏN NÜMUNƏLƏR**
Allahın camalı
Əşyalardakı gözəlliklər
Gözəl bitkilər
Gözəl yeməklər
Gözəl məkanlar
Gözəl ətirlər
Gözəl söz
**TÖVRATDA KAİNATDAKI NİZAM VƏ YARADILIŞ**
Göylərin və Yer üzünün yaradılışı
İşığın yaradılışı
Gecə və gündüzün yaradılışı
Göy cisimlərinin yaradılışı
Göylərin nizam halındakı yaradılışı
Dünyanın kainatdakı mövqesi
Günəşin orbiti
Küləklərin nizam halındakı hərəkəti
Sulardakı dövr və nizam
Atmosferin qoruyucu xüsusiyyəti
Heyvanların yaradılışı
Bitkilərin yaradılışı
İnsanın yaradılışı
Darvinist "Təbiət ana" inancının azğınlığı
Gözəl əxlaqın sağlamlığa müsbət təsiri
**TÖVRATDA SƏNƏT VƏ MEMARLIQ**
Qızıl örtmələr
Taxta örtmələr
Oyma və yonma sənəti
Bəzəkdə bitki naxışlarından istifadə edilməsi
Qızıldan bəzək əşyaları
Gümüşdən istifadə
Asma tavanlar
Bəzəkli hovuzlar
Qəfəsli pəncərələr
Dəbdəbəli taxtlar
Sütunlar
Həyətlər
Pərdələr
Tikilmiş paltarlar

Qiymətli daşlarla bəzəmə
Allahın verdiyi bir nemət olaraq
Estetika və sənət anlayışı
**QEYDLƏR:**
**ƏLAVƏ HİSSƏ:**
**TƏKAMÜLÜN YANLIŞLIĞI**

## YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin Gözəl Sənətlər fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bunlarla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik bir külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq, adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v.) hatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayınlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını tək-tək ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq "son söz"ü söyləməyi hədəfləmişdir. Çox böyük bir hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu son sözü söyləmək niyyətinin bir duası olaraq istifadə edilmişdir.

Yazıçıın bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur,  İndoneziya, malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd bir tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub, araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqinə varar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik bir inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı axınlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə  öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc hədəflənməmişdir.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli bir xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə

əmək və zaman itkisinə səbəb olacaq. İmanı qurtarmaq məqsədindən çox yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi açıqdır. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə görüldüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb, yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox bürünmək istəndiyi zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu açıqdır. Əks halda çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa bir vəsilə olacaq.

**OXUCUYA**

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi bir yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək çox əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız bəlkə tək bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa, yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilməkdə və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilməkdədir. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəslə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı bir söhbət mühiti şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük bir xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən adam yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görəcək, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzi əsərlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

**ÖN SÖZ:**

## MÜSƏLMANLARIN TÖVRAT VƏ İNCİLƏ BAXIŞ NÖQTEYİ-NƏZƏRİ İLƏ ƏLAQƏDAR ÖNƏMLİ AÇIQLAMA

Allah Quranda müsəlmanların Peyğəmbər əfəndimiz hz Muhəmmədə (s.ə.v.), ondan əvvəl göndərilən bütün peyğəmbərlərə və bu peyğəmbərlərə endirilənlərə iman etdiklərini bildirir. "Bəqərə" surəsinin 4-cü ayəsində Rəbbimiz müsəlmanlar üçün **"O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir..."** buyurur.

Quranda bildirildiyi kimi İncil, Tövrat, Zəbur və hz İbrahimin səhifələri keçmişdə yaşamış peyğəmbərlərə endirilmiş kitablardır. Bu kitabların bir qismi yox olmuş, bir qismi də təhrif olmuş və ya dəyişdirilmişdir. Lakin buna baxmayaraq, içlərində haqq dinə aid bir çox həqiqi və doğru izahlar da yer almışdır. Müsəlmanlar bu kitabları Quran və sünnəyə görə qiymətləndirib, ayə və hədislərə uyğun olan izahların doğru olduğuna hüsnü-zənn edərlər. Dolayısı ilə Quran və sünnəyə uyğun Tövrat və İncil yazıları müsəlmanların istifadə edə biləcəyi izahlardır. Ancaq əsas şərt bu izahların Quran ayələrinə və hədislərə uyğun olmasıdır.

Allah bu kitabların göndərildikləri cəmiyyətlərdə insanlar üçün yol göstərici olduqlarını bildirmişdir. Ayələrdə belə buyurulur:

**Sənə özündən əvvəlkiləri (səmavi kitabları) təsdiq edən Kitabı (Quranı) haqq olaraq O nazil etdi. Tövratı da, İncili də O endirdi. Daha öncə insanları hidayət etmək üçün...** (Ali-İmran surəsi, 3-4)

Bir başqa ayədə Tövrat haqqında belə bildirilir:

**Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır. (Allaha) təslim olan peyğəmbərlər yəhudilər üçün bununla, din xadimləri və baş keşişlər isə Allahın Kitabından qorunub saxlanılanlarla hökm verirdilər...** (Maidə surəsi, 44)

Oxumaqda olduğunuz bu kitabda Tövratda keçən yazılardan təhrif edilmiş və pozulmuş hissələr götürülməmiş, yalnız Qurana və Peyğəmbərimizin (s.ə.v.) hədislərinə uyğun gələnlər istifadə edilmişdir. Ancaq yenə də Tövratdakı Allahın Zatına yönələn bəzi bənzətmə şəkilləri Qurandakı üslubdan fərqlənir. Uca Rəbbimiz bütün nöqsan sifətlərdən münəzzəhdir və Onun heç bir bənzəri yoxdur. Bu baxımdan Tövratın bir neçə qisminə şərh (açıqlama) əlavə edilmişdir.

## GİRİŞ:

## TƏHRİF OLUNMUŞ TÖVRATIN
## İÇİNDƏ GİZLƏNƏN HAQQ KİTAB

**Təhrif olunmuş Tövratdakı gözəl və**
**hikmətli açıqlamaları imanın nuru ilə görmək**

Tövrat Allahın hz Musaya vəhy etdiyi mübarək bir kitabdır. Allah bir Quran ayəsində Tövratın "nur" olaraq endirildiyini bildirir:

**Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır. (Allaha) təslim olan peyğəmbərlər yəhudilər üçün bununla, din xadimləri və baş keşişlər isə Allahın Kitabından qorunub saxlanılanlarla hökm verirdilər. Onlar (hamısı) buna şahid oldular...** (Maidə surəsi, 44)

"Ənam" surəsində isə hz Musaya endirilən kitabın "hidayət və rəhmət" olduğu belə bildirilir:

**Sonra Biz Musaya – yaxşı iş görən kimsəyə (nemətimizi) tamamlamaq məqsədilə, hər şeyi müfəssəl izah edən, doğru yolu göstərən bir rəhbər və mərhəmət olaraq Kitab verdik ki, bəlkə onlar öz Rəbbi ilə qarşılaşacaqlarına iman gətirələr.** (Ənam surəsi, 154)

Ayrıca Quranda Musaya vəhy edilən kitabın insanlara "yol göstərici" edildiyi (Səcdə surəsi, 23); "rəhbər və rəhmət" olduğu (Əhqaf surəsi, 12); onları "qaranlıqlardan nura çıxarması" üçün endirildiyi (İbrahim surəsi, 5); "Rəblərindən qorxanlar üçün hidayət və rəhmət" olduğu (Əraf surəsi, 154) və bu kitabda "hər şeydən öyüd-nəsihət və hər şeyin təfsilatı" olduğu (Əraf surəsi, 145) bildirilir.
Günümüzdəki Tövrat Quran ayələri və Peyğəmbər əfəndimizin (s.ə.v.) hədisləri ilə birlikdə araşdırıldığında içində haqq dinə aid bir çox mövzunun qorunduğu və bir çox gözəl və hikmətli açıqlamaların olduğu görünər. Allahın birliyi, Allah qorxusu, Allah sevgisi, Allaha itaət və təslimiyyət, şükür və dua, iman çoşğusu və sevinci, yenidən diriliş, qiyamət günü kimi inanc əsaslarının təhrif olunmuş Tövratda dağınıq da olsa, mövcud olduğu görünür. Bundan başqa günümüzdəki Tövratda ədalət, şəfqət, mərhəmət, təvazökarlıq kimi əxlaqi dəyərlərlə yanaşı oğurluq etməmək, zinadan çəkinmək, hiylə etməmək, faizlə pul istifadə etməmək, donuz əti yeməmək kimi haqq dinə aid bir çox hökmlərə də rast gəlmək olar.
Lakin Tövrat yenə Quranda bildirildiyi kimi, sonradan təhrif edilmiş və içinə insan sözləri qatılaraq haqq kitab xüsusiyyətini itirmişdir. Bu səbəblə, bu gün əlimizdəki Tövrat "təhrif edilmiş Tövrat"dır. Tövratın dəyişildiyi və təhrif olunduğu Quranda bu ayələrlə bildirilir:

**Yəhudilərin bir qismi (Tövratdakı) sözlərin yerini dəyişib təhrif edir və dillərini əyərək dinə (islama) tənə vurmaq məqsədilə (sənə qarşı): "Eşitdik və qəbul etmədik; eşit, eşitməz olasan (kar olasan) və raina", - deyirlər. Əgər onlar: "Eşitdik və itaət etdik; eşit və bizə tərəf bax!",- desəydilər, əlbəttə, onlar üçün daha xeyirli və daha doğru olardı. Lakin Allah onları öz küfrləri ucundan lənətə düçar etmişdi. Onların yalnız az bir hissəsi iman gətirmişdir.** (Nisa surəsi, 46)

**Siz sizə inanacaqlarınamı ümid edirsiniz? Halbuki onlardan bir zümrə var idi ki, Allahın Sözünü eşidib anladıqdan sonra, bilə-bilə onu təhrif edirdilər.** (Bəqərə surəsi, 75)

**Verdikləri əhdi pozduqlarına görə Biz onları lənətlədik və qəlblərini sərtləşdirdik. Onlar (Kitabda olan) kəlmələrin yerlərini dəyişdirirlər. Onlar (özlərinə )öyrədilmiş şeylərin bir hissəsini unutdular. İçərilərindən az bir qismi istisna**

**olmaqla, sən onlardan daim xəyanət görəcəksən. Onları əfv et və (təqsirlərindən) keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevir.** (Maidə surəsi, 13)

**Ya Peyğəmbər (Ya Rəsulum!) ürəklərində inanmadıqları halda, dildə (ağızları ilə): "İnandıq", deyənlərin (münafiqlərin), yəhudilərdən yalana qulaq asanların, sənin hüzuruna gəlməyən başqa bir camaata qulaq asanların (onlara casusluq edənlərin) küfr içində vurnuxanları səni kədərləndirməsin. Onlar (Tövratdakı) sözlərin yerini sonradan dəyişib təhrif edir və deyirlər: "Əgər sizə bu (təhrif olunmuş dini hökm) verilsə, onu qəbul edin. Əgər verilməsə, ondan qaçının". Allahın fitnəyə (azğınlığa) düşməsini istədiyi şəxs üçün Allaha qarşı sənin əlindən heç bir şey gəlməz. Onlar elə kəslərdir ki, Allah onların ürəklərini təmizləmək istəməmişdir. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük (dəhşətli) bir əzab gözləyir!**
**Onlar yalana qulaq asanlar və haram yeyənlərdir. Əgər yanına gəlsələr, aralarında hökm et və ya onlardan üz çevir. Əgər onlardan üz döndərsən, sənə heç bir zərər verə bilməzlər. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Allah ədalət sahiblərini sevər!** (Maidə surəsi, 41-42)

"Ali-İmran" surəsində isə Allah "Ey kitab əhli, nə üçün bilə-bilə haqqa yalan donu geyindirir və doğrunu gizlədirsiniz?" (Ali-İmran surəsi, 71) deyə buyurur. Bir başqa Quran ayəsində uca Rəbbimiz İsrail oğullarını Tövratla əlaqədar belə xəbərdar edir:

**"...İnsanlardan qorxmayın, Məndən qorxun. Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi (kitab və şəriət) ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər! "** (Maidə surəsi, 44)

Ayələrdə də xəbər verildiyi kimi, Tövratda haqq olduğuna hüsnü-zənn etdiyimiz qisimlərlə yanaşı, əhəmiyyətli pozulmalar da mövcuddur. Axirət inancı dinin gərəyi olduğu halda bu inanca aid izahların çoxu çıxarılmış, hətta bunu rədd edən ifadələr qoyulmuş (Vaiz 9:5-6; Vaiz 1:4); Peyğəmbərlərlə bağlı böhtan mahiyyəti daşıyan ifadələr əlavə olunmuş (Huşə 12:3; Yaradılış 32:28; Yeremya 23:14; Qanunun təkrarı 18:20 22); hamısından önəmlisi hər cür nöqsandan münəzzəh olan uca Rəbbimizin Zatına yönələn səhv izahlara (Yaradılış 2:2; Misirdən çıxış 34:14; Yaradılış 5:1 Yeşaya 51:9; Zəbur 74:23; Yeşaya 63:9; Yeremya 31:9; 2 Padşahlar 17:17-18) və buna bənzər batil inanc və açıqlamalara yer verilmişdir (Allahı tənzih edirik). Tövratın endirildiyi İsrail oğulları arasında hz Musanın öndərliyində ikən belə Allahın hökmlərinə tabe olmayanlar və hz Musaya baş qaldıranlar olmuşdur. Bəzi İsrail oğullarının bu üsyankarlığı həm Quranda, həm də Tövratda təfsilatı ilə açıqlanmışdır. Quran ayələrində belə bildirilir:

**De: "Ey kitab əhli! Dininizdə haqsız yerə ifrata varmayın. Əvvəlcə yolunu azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir tayfanın nəfsinin istəklərinə uymayın!"**
**İsrail oğullarından kafir olanlara həm Davudun, həm də Məryəm oğlu İsanın dili ilə lənət oxundu. Bu onların üsyan etmələrinə və həddi aşmalarına görə idi.**
**Onlar etdikləri pis əməldən əl çəkmirdilər. Onların gördükləri iş necə də pis idi!**
**Onların (kitab əhlinin) bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən. Gör nəfslərinin əvvəlcədən onlar üçün hazırladığı şey (küfr) necə pisdir ki, Allahın onlara qəzəbi tutmuşdur. Onlar əbədi əzaba düçar olanlardır!**
**Əgər onlar Allaha, Peyğəmbərə və ona nazil olana inansaydılar, onları (kafirləri) özlərinə dost tutmazdılar. Lakin onların çoxu itaətdən çıxmış fasiqdirlər!** (Maidə surəsi, 77-81)

"Ənam" surəsinin 91-ci ayəsində isə Rəbbimiz İsrail oğullarının hz Musaya endirilən kitabın çoxunu göz ardı etdiklərini belə bildirir:

**Onlar: "Allah heç bir bəşərə bir şey (Quran) nazil etməmişdir", - deməklə Allahı layiqincə qiymətləndirmədilər. De: "Musanın insanlara bir nur və hidayət olaraq gətirdiyi kitabı (Tövratı) kim nazil etmişdir? Siz onu vərəqlərə yazıb**

**göstərir, bir çoxunu da gizlədirsiniz. (Əslində) siz (Quran vasitəsilə) özünüzün və atalarınızın bilmədiklərini öyrənmiş olursunuz. (Ya Rəsulum!) Sən: "Allah!" deyib çağır, sonra da onları burax ki, düşdükləri bataqlıqda oynaya-oynaya qalsınlar. (Özlərinin dedi-qodularında, pis işlərində və yaramaz əqidələrində davam etsinlər).** (Ənam surəsi, 91)

Allahın hikməti olaraq Tövratda da hz Musanın qövmü haqqında özündən sonra Tövrat hökmlərini pozacaqlarını düşündüyü və kitabı qorumağa ehtiyac hiss etdiyi açıqlanır:

**Musa Qanunun sözlərini əskiksiz olaraq kitaba yazmağı bitirincə Rəbbin razılaşma sandığını daşıyan levililərə bu tapşırığı verdi: "Bu Qanun kitabını alın, Allahınız olan Rəbbin razılaşma sandığının yanına qoyun. Orada sizə qarşı bir şahid kimi qalsın. Çünki sizin baş qaldıran, dikbaş adamlar olduğunuzu bilirəm. Bu gün mən sağ ikən, aranızda ikən belə Rəbbə qarşı çıxırsınız; ölümümdən sonra daha nə qədər çox baş qaldıracaqsınız. Oymaqlarınızın bütün irəli gələnlərini, vəzifəlilərinizi yanıma gətirin. Bu sözləri onlara eşitdirəcəyəm. Yeri, göyü onlara qarşı şahid tutacağam. Ölümümdən sonra tamamilə pozulacağınızı, sizə buyurduğum yoldan sapacağınızı bilirəm. Son günlərdə pisliklərlə qarşılaşacaqsınız. Çünki Rəbbin gözündə pis olanı edəcək və etdiklərinizlə Onu hirsləndirəcəksiniz."** (Qanunun təkrarı; 31:24-29)

Dərhal ifadə etmək lazımdır ki, söz mövzusu adamlar hz Musanın təbliğ etdiyi haqq dini qəbul etməmiş, bu səbəblə, degenerasiya etməyə cürət edən, səmimiyyətsiz və mənfəətgüdən insanlardır. Bununla yanaşı, şübhəsiz səmimi şəkildə Allaha inanan və Rəbbimizə qulluq etməyə çalışan bir çox dindar yəhudi haham və digər din adamları da tarix boyunca yəhudilikdə mövcud olmuşdur. Allah Quranda bu səmimi, gözəl əxlaqlı yəhudilərdən belə xəbər verir:

**Həqiqətən, kitab əhli içərisində elələri də vardır ki, onlar Allaha, həm sizə, həm də özlərinə nazil olanlara inanır, Allaha boyun əyərək Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəndir.** (Ali-İmran surəsi, 199)

Tövratın pozulan bu qisimləri şeytanın müdaxiləsinin, təsirinin hiss olunduğu hissələrdir. Bunlar təmizləndiyində geriyə şeytani müdaxiləyə məruz qalmamış qisimlər qalır. Bu da təhrif olunmuş Tövratdakı dəyişdirilmiş, sonradan əlavə olunmuş hissələr diqqətli şəkildə ayrıldıqda həqiqi Tövratın ortaya çıxacağı mənasını verir. (Ən doğrusunu Allah bilir.) Bu ayrılmış hissələr oxunarkən qəlbə şəfa olan, ruha nur və fərahlıq verən sözlərdir. "Maidə" surəsinin 44-cü ayəsində bildirildiyi kimi, "hidayət və nur" olan qisimlərdir. Hazırda oxuduğunuz bu kitabda yer alan Tövrat izahları da yalnız Quran ayələrinə və Peyğəmbərimizin (s.ə.v.) sünnəsinə uyğun hissələr və hikmətli, gözəl nəsihətlərdir.

## Tövratda axirət inancının olmaması<br>onun təhrif olunmuş bir kitab olduğunu göstərir

Axirət inancı dinin təməlidir və imanın əsaslarındandır. Axirətə iman olmadan din olmaz, imtahan mühiti qalmaz, yaxşılarla pislər bir olar. Bu da Allahın dünyanı nöqsanları ilə müvəqqəti yaratmaq məqsədinə və Rəbbimizin sonsuz ədalətinə ziddir. İlahi ədalətin reallaşması, yaxşılarla pislərin ayrılması, hər kəsin layiq olduğu qarşılığı alması axirətdə reallaşacaq. Dünya həyatı müvəqqəti qaldığımız bir imtahan yeridir. Heç kimin bu dünyada etdikləri qarşılıqsız qalmayacaq. Allah axirətdə ədalətini təcəlli edəcək və heç kimə "xurma çəyirdəyindəki tel qədər zülm edilməyəcəkdir" (İsra surəsi, 71). Bu Allahın İlahi ədalətinin gərəyidir.

Bir adamın dünyada hər cür əxlaqsızlığı edib həyatının ölümlə sona çatması və etdiklərinin qarşılığını görməməsi Allahın ilahilik xüsusiyyətinə uyğun deyil. Möminlər axirətə qəti bir bilgi ilə iman edər və Allahın razılığını qazanmaq, Allahın əzabından qorunmaq üçün ümid və qorxu arasında dünya həyatlarının son anına qədər səy göstərərlər. Quranda Allah möminlərin axirətə inanclarını belə bildirir:

**O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər.**
**O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar.**
**Onlar öz Rəbbindən (gələn) doğru yoldadırlar. Məhz onlar nicat tapanlardır.**
(Bəqərə surəsi, 3-5)

Allah kitab əhli olan yəhudilərdən müttəqi olanların da axirət gününə iman etdiklərini belə bildirir:

**... Kitab əhli içərisində düzgün bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyurlar. Onlar Allaha, axirət gününə inanır, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər.**
**Onların yaxşılıq naminə etdikləri işlərdən heç biri inkar edilməz (mükafatsız qalmaz). Şübhəsiz ki, Allah müttəqi olanları tanıyır!** (Ali-İmran surəsi, 113-115)

İnkarçılarla iman edənlərin ayrılacağı, Allaha imanda səmimi olanlarla saxtakarların ortaya çıxacağı axirət həyatının varlığı Tövratın və İncilin Rəbbimizin Qatından endirildiyi haqq hallarında və Quranda vardır. Bu həqiqət Quranda “Tövbə” surəsinin 111-ci ayəsində belə bildirilir:

**Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu, böyük qurtuluşdur (uğurdur)!** (Tövbə surəsi, 111)

Quranda yüzlərlə ayədə axirət həyatı və qiyamət gününə aid məlumat varkən Tövratda belə həyati, dinin təməli olan bir mövzuda haradasa dəqiq bir məlumat yoxdur. Hətta buna görə bir qisim yəhudi məzhəbləri axirətin olduğuna inanmırlar. Tövratda axirətlə əlaqəli çox az saydakı izahlar isə ancaq Quran ayələri ilə birlikdə düşünüldükdə nəzərdə tutulan aydın olur. Tövratın haqq olaraq qorunmadığının önəmli əlamətlərindən biri axirət inancının çıxarılıb yerinə dünyanın sonsuza qədər davam edəcəyi, həyatın ölümlə sona çatacağına yönələn səhv izahların əlavə olunmasıdır (Vaiz, 9:5-6; Vaiz, 1:4). Bu cür əlavələr edənlər, dünyəvi mənfəətlərinə uyğun gəlməyən qisimləri dəyişdirənlər saxtakar, imansız insanlardır. Bu təhrif olan qisimlər ehtimalla o dövrün dinsizlərinin əxlaqsızlıqlarına və mənfəətlərinə bəhanə gətirmək cəhdləridir.
Necə ki, Tövratda da "saxta" peyğəmbərlərdən çox bəhs edilmiş, onların Allah adına yalan danışdıqları bildirilmişdir: "Peyğəmbər də, kahin də Allahsızdılr; məbədimdə belə pisliklərini gördüm" deyir Rəbb. "Yerusəlim peyğəmbərləri arasında bu qorxunc şeyi gördüm: Zina edirlər, yalan arxasındadırlar. Pislik edənləri gücləndirdiklərindən heç kim pisliyindən dönmür…". Bu səbəblə, hər şeyə hakim Rəbb peyğəmbərlər üçün belə deyir: "… Allahsızlığın bütün ölkəyə yayılmasına səbəb oldular". Hər şeyə hakim Rəbb deyir ki, "Sizə peyğəmbərlik edən peyğəmbərlərin dediklərinə qulaq asmayın, onlar sizi aldadır. Rəbbin ağzından çıxanları deyil, öz düşündükləri fikirləri izah edirlər. Məni küçümsəyənlərə davamlı olaraq “Rəbb deyir ki: Siz xoşbəxt olacaqsınız!” deyirlər. Ürəklərinin inadcıllığı yönü ilə davrananlara “Başınıza fəlakət gəlməyəcək” deyirlər. Bu peyğəmbərləri mən göndərmədim, amma tezcə ortaya çıxdılar. Onlara heç səslənmədim, yenə də peyğəmbərlik etdilər. "Adımla yalançı peyğəmbərlik edənlərin nə dediklərini eşitdim… Özlərindən uydurduqları hiylələri yazan bu yalançı peyğəmbərlər nə vaxtadək bunu davam etdirəcəklər?... Budur, buna görə sözlərimi bir-birlərindən oğurlayan peyğəmbərlərə qarşıyam" deyir Rəbb. "Bəli, öz sözlərini söyləyib “Rəbb belə deyir” deyən peyğəmbərlərə qarşıyam" deyir Rəbb… "Mən onları nə göndərdim, nə də təyin etdim. Bu xalqa heç bir faydaları yoxdur" deyir Rəbb… Bundan belə, “Rəbbin bildirişi” sözünü ağzınıza almayacaqsınız. Hər kəsin sözü öz bilgisi olsun… Hər şeyə hakim Rəbbin… sözlərini təhrif edirsiniz siz. (Yeremya, 23:11-36)
Tövratda bəhsi keçən və Allah adına yalan danışan saxta din adamları Allaha qarşı gələnlərə etdiklərində görə başlarına bir iş gəlməyəcəyini söyləyirlər. Bu da Allah adına yalan danışanların axirət inancını ortadan qaldırmağa yönələn saxtakarlıqlarıdır.

Quran təhrif olunmuş Tövratdakı bütün bu əskikləri aradan qaldıran, içindəki haqq izahları təsdiqləyən və həmçinin Tövratın içindəki səhvləri açıqlayan və ortadan qaldıran bir kitab olaraq endirilmişdir. Beləcə, anlaşılmayan mövzular açıqlanmış, sonradan əlavə edilən batil və səhv inanclar təmizlənmişdir. Dolayısı ilə Tövratın Quranla uyğun gələn, Quranın təsdiq etdiyi qisimləri gerçək Tövrata aid haqq izahlardır. Allah Quranın bu yönünün aağıdakı ayələrdə xəbər vermişdir:

**Onlara Allah tərəfindən özlərində olanı təsdiqləyən bir Kitab (Quran) gəldikdə (onu inkar etdilər). Halbuki əvvəllər kafirlər üzərində qələbə diləyirdilər. Onlara tanıdıqları (peyğəmbər) gəldikdə isə onu inkar etdilər. Allah kafirlərə lənət etsin!** (Bəqərə surəsi, 89)

**Onlara: "Allahın nazil etdiyinə inanın!"– deyildikdə, onlar: "Biz özümüzə nazil edilənə inanırıq"– deyib onun ardınca gələni inkar edirlər. Halbuki (Quran) onların yanında olanı təsdiqləyən bir həqiqətdir. De: "Əgər siz inanan idinizsə, bəs nə üçün əvvəllər Allahın peyğəmbərlərini öldürürdünüz?"** (Bəqərə surəsi, 91)

**Hz Mehdi təhrif olunmuş Tövratdan haqq Tövratı çıxaracaq**

Peyğəmbərimiz (s.ə.v.) axırzamanda gələcək hz Mehdinin Tövratı açıqlayacağını bildirmişdir. Allahın izni ilə Tövratın təhrif olmuş qisimlərindən təmizlənmiş, Qurana uyğun hissələrinin ortaya çıxarılması hz Mehdinin gəliş əlamətlərindən biridir. Peyğəmbərimizin (s.ə.v.) hədislərində bu mövzu belə yer almışdır:

Cabir bin Yezid əl-Cofi imam Muhəmməd Baqirdən rəvayət edir: "…Mehdinin Mehdi adlandırılmasının səbəbi budur ki, gizli bir işə yönləndiriləcək, Tövrat və digər səmavi kitabları Antakyada bir mağaradan çıxaracaq və yəhudilər arasında Tövratla, xristianlar arasında da İncillə hökm edəcək".

Harun bin Məruf Zəmrə bin Rəbiyədən, Abdullah bin Şevzəbdən rəvayət edir:
Şübhəsiz ki, Mehdi Mehdi deyə adlandırılmışdır. Çünki O, Şam dağlarından bir dağa doğru hidayət olunar (yönləndirilər), "Tövrat" kitablarını oradan çıxarar və onlara əsaslanıb yəhudilərlə müzakirə edər və (nəticədə) bir qrup yəhudi onun əli ilə müsəlman olar.
Muhəmməd bin Əli əs-Süləmi imam Muhəmməd Baqirdən rəvayət edir:
Mehdinin Mehdi adlandırılmasının səbəbi budur ki, gizli bir işə doğru yönləndiriləcək, xalqın könlündə olan şeylərə hidayət olacaq... Tövratı Antakyada bir mağaradan çıxararaq...
"Ona Mehdi deyilməsinin səbəbi Şamdakı dağlardan birinə yönəlməsidir. Oradan (həqiqi) Tövrat kitablarını çıxaracaq, yəhudilərə qarşı dəlil gətirəcək". (Süyuti, əl-Havi lil-Fətəva, II. 81)

Hədisdə hz Mehdinin "Şam dağlarından bir dağa doğru yönələcəyi" bildirilir. Şam axırzaman hədislərindəki açıqlamalarda "uzaq bir yer, Məkkə və Mədinəyə uzaq olan" mənasını da daşıyır. Bu bənzətmə düşünüldükdə Tövratın müqəddəs şəhərlərdən uzaq bir yerdə ortaya çıxarılacağı aydın olur. Zamanla hədisdə bildirilən ifadələrin doğru mənası düşünülərək mağaralarda Tövrat axtarıldığı da olur. Ancaq "Həqiqi Tövrat" əslində günümüzdəki Tövratın içində gizlənmişdir. Əlbəttə ki, Tövratın haqq halının olması üçün mağaralara da baxıla bilər. Lakin nəzərdə tutulanın ən əmin yer kimi birbaşa Tövratın öz içi olduğu aydın olur. hz Mehdi də insanların gözündən gizlənib saxlanmış həqiqi Tövratı təhrif olunmuş Tövratdan çıxaracaq. (Ən doğrusunu Allah bilir.)
Məşhur yəhudi alimi İbni Meymun (Maimonides) Tövratdakı Qanunların açıqlaması olan kitabında Mehdinin (onların təsviri ilə Məsihin) xüsusiyyətlərindən birini belə açıqlayır:
"... Onun (Mehdinin) dövründə (Tövratın) bütün qanunları əvvəldə olduğu kimi əvvəlki halına gətiriləcək... (Maimonides, Mişna Tora, Padşahların qanunları 11:4)

Yəhudilər  axırzamanda gələcək Mehdinin yer üzünü Allaha imanla dolduracağına (Yeşaya, 11:9), Allahdan elm və hikmətlə hərəkət edəcəyinə (Yeşaya, 11:2) və Tövratdakı Allahın əmrlərinin Musa dövründəki kimi tətbiq olunacağına inanırlar. İndiki dövrdə dindar yəhudilər gəlişini şövq və ümidlə gözlədikləri hz Mehdinin Tövratı açıqlayacağına və anlaşılmazlıq mövzusu olan sualları cavablandıracağına da inanırlar.
Necə ki, hədislərdə də Peyğəmbərimiz (s.ə.v.) hz Mehdinin yəhudilərə Tövratla hökm edəcəyini xəbər vermişdir. Buna Quranda da işarə edilmişdir. (Ən doğrusunu Allah bilir.) Allah Peyğəmbərimiz hz Muhəmmədə (s.ə.v.) belə bildirir:

**Tövrat göndərilməmişdən əvvəl İsrailin  yalnız özü özünə haram etdiyi şeylərdən başqa bütün təamlar  İsrail övladına halal idi. (Ya Rəsulum! Yəhudilərə) de: “Əgər doğru danışanlarsınızsa, (düzgün, əsl) Tövratı gətirin və onu oxuyun!”** (Ali-İmran surəsi, 93)

Əlinizdəki bu kitab  hz Mehdinin gəlişinə zəmin hazırlamaq niyyəti ilə təşkil edilmiş cüzi bir səydir. Hz Mehdi müjdəsini gözləyən və onun gəlişinə hazırlaşan müsəlmanların Peyğəmbərimizin (s.ə.v.) hədisləri və Quran işığında Tövratdan pozulmadığına qərara gəldiyimiz izahları bilmələri ayrı bir gözəllik olacaq.
Əlbəttə ki, müsəlmanlar yalnız Qurana tabe olmağa vəzifəlidir. Lakin Tövratdan Allahın sözləri olduğuna hüsnü-zənn etdiyimiz qisimlər üzərində düşünə bilər, bunlardan öyüd ala bilər və hikmətindən faydalana bilərlər. Allahın izni ilə bu kitab da müsəlmanların imanın güclənməsinə bir vəsilə, dindar yəhudilərdən səmimiyyətlə səhv izahlara uyanlar üçün də bir nəsihət və xatırlatma olacaq.

## TÖVRATDA ALLAH SEVGİSİ

Allahınız Rəbbi bütün qəlbinizlə, bütün canınızla, bütün gücünüzlə sevəcəksiniz. (Qanunun təkrarı, 6:5)
… Allahınız Rəbb Özünü bütün qəlbinizlə, bütün canınızla sevib-sevmədiyinizi anlamaq üçün sizi sınayır. (Qanunun təkrarı, 13:3)
… Allahınız Rəbb sizdən nə istəyir? Tək bunu istəyir: Allahınız Rəbbdən qorxun, Onun yollarında gedin, Onu sevin; bütün ürəyinizlə, bütün canınızla Ona qulluq edin; üzərinizə yaxşılıq gəlsin deyə bu gün sizə bildirdiyim buyruqlarına, qanunlarına tabe olun. (Qanunun təkrarı, 10:12-13)
Allahınız Rəbbi sevin. Nəsihətlərinə, qayda və qanunlarına, buyruqlarına həmişə tabe olun. (Qanunun təkrarı, 11:1)
Məni sevənləri mən də sevərəm... (Süleymanın məsəlləri, 8:17)
Amma Məni sevən, buyruqlarıma uyan minlərlə nəsilə sevgi göstərərəm. (Misirdən çıxış, 20:6; Qanunun təkrarı, 5:10)
Allahınız Rəbbi sevin... (Qanunun təkrarı, 30:20)
… Allahınız Rəbbi sevin, tamamilə göstərdiyi yolda gedin, buyruqlarını yerinə yetirin, Ona bağlı qalın, Ona candan və ürəkdən xidmət edin. (Yeşua, 22:5)
Allahınız Rəbbin Allah olduğunu bilin. O, etibarlı Allahdır. Özünü sevənlərin, buyruqlarına uyanların... razılaşmasına bağlı qalar. (Qanunun təkrarı, 7:9)
Allahınız Rəbbi sevmək, bütün ürəyinizlə, bütün canınızla Ona qulluq etmək üçün, bu gün sizə bildirdiyim buyruqlara yaxşıca qulaq assanız, Rəbb ölkənizə ilk və son yağışı vaxtında yağdıracaq… (Qanunun təkrarı, 11:13-14)
Ey göylərin Allahı Rəb! Uca və əzəmətli Allah! Səni sevənlərlə, buyruqlarına uyanlarla etdiyin razılaşmaya bağlı qalarsan. (Nehemya, 1:5)
Sevirəm, ya Rəb… əzəmətinin olduğu yeri. (Zəbur, 26:8)
Ey hər şeyə hakim Rəb, nə qədər sevərəm dərgahını!... İçim yanır; ürəyim, bütün varlığım Sənə, yaşayan Allaha sevinclə səslənir. (Zəbur, 84, 1-2)
... Allahınız Rəbbi sevməyə çox diqqət yetirin. (Yeşua, 23:11)
Allahınız Rəbbi sevin. Xəbərdarlıqlarına, qayda və qanunlarına, buyruqlarına həmişə tabe olun. (Qanunun təkrarı, 11:1)
... Onu (Allahı) bütün ürəyinizlə, bütün canınızla sevəsiniz və yaşayasınız. (Qanunun təkrarı, 30:6)
Rəbbi sevin, ey Onun sadiq qulları! Rəbb Özünə bağlı olanları qoruyar... (Zəbur, 31:23)

Səni sevirəm, gücüm Sənsən, ya Rəb! (Zəbur, 18:1)
Rəbbi sevirəm... Yaşadığım müddətcə Ona səslənəcəyəm. (Zəbur, 116:1-2)
"Məni sevdiyi üçün onu qurtaracağam" deyir Rəbb... (Zəbur, 91:14)
Ey sizlər, Rəbbi sevənlər, pislikdən diksinin. O sadiq qullarının canını qoruyar, onları pislərin əlindən xilas edər. (Zəbur, 97:10)
Bu gün sizə Allahınız Rəbbi sevməyi, yollarında getməyi, buyruqlarına, qayda və qanunlarına tabe olmağı buyururam. Belə ki... Allahınız Rəbb tərəfindən müqəddəs hesab ediləsiniz. (Qanunun təkrarı, 30:16)
Allahınız Rəbbi sevmək, bütün ürəyinizlə, bütün canınızla Ona qulluq etmək üçün, bu gün sizə bildirdiyim buyruqlara yaxşıca qulaq assanız, Rəbb ölkənizə ilk və son yağışı vaxtında yağdıracaq... (Qanunun təkrarı, 11:13-14)
Allahınız Rəbbi sevmək, həmişə Onun yollarında getmək üçün, bu gün sizə bildirdiyim bütün bu buyruqlara tabe olsanız... (Qanunun təkrarı, 19:8-9)
Tabe olmağınız üçün sizə bildirdiyim bu buyruqları nöqsansız yerinə yetirər, Allahınız Rəbbi sevər, yollarında gedər, Ona bağlı qalsanız... (Qanunun təkrarı, 11:22)
Sevinsin Sənə sığınan hər kəs, sevinc həyəcanı göstərsin davamlı... Sevinclə coşsun adını sevənlər Səndə. (Zəbur, 5:11)
Rəbb qoruyar Özünü sevən hər kəsi... (Zəbur, 145:20)

**TÖVRATDA ALLAH QORXUSU**

Amma Rəbb Özündən qorxanları sonsuza qədər sevər... (Zəbur, 103:17-18)
Müdrikliyin təməli Rəbb qorxusudur, Onun qaydalarını yerinə yetirən hər kəs ağıl sahibi olar… (Zəbur, 111:10)
Rəbbə qorxu ilə xidmət edin, titrəyərək sevinin. (Zəbur, 2:11)
Nə xoş Rəbbdən qorxana, Onun yolunda gedən! Əməyinin məhsulunu yeyəcəksən, xoşbəxt və müvəffəqiyyətli olacaqsan… Rəbbdən qorxan adam belə müqəddəs hesab ediləcək. (Zəbur, 128:1-4)
Allah qorxusu dolğun və dərdsiz bir həyata qovuşdurar. (Süleymanın məsəlləri, 19:23)
Özünü müdrik biri olaraq görmə, Rəbbdən qorx, pislikdən uzaq dur. Beləcə, vücudun sağlamlıq və fərahlıq tapar. (Süleymanın məsəlləri, 3:7-8)
Rəbbdən qorxan tam təhlükəsizlikdədir... Rəbb qorxusu həyat qaynağıdır... (Süleymanın məsəlləri, 14:26-27)
Rəbb qorxusu insanı pislikdən uzaqlaşdırar… (Süleymanın məsəlləri, 16:6)
Rəbb qorxusu müdriklik öyrədər... (Süleymanın məsəlləri, 15:33)
… Davamlı Rəbb qorxusunda yaşa. Beləcə, bir gələcəyin olar və ümidin boşa çıxmaz… (Süleymanın məsəlləri, 23:17-18)
… Allahınız Rəbb sizdən nə istəyir? Tək bunu istəyir: Allahınız Rəbbdən qorxun, Onun yollarında gedin, Onu sevin; bütün qəlbinizlə, bütün canınızla Ona qulluq edin... (Qanunun təkrarı, 10:12-13)
Allahınız Rəbbin ardınca gedin, ondan qorxun. Buyruqlarına uyun, Onun sözünə qulaq asın. Ona qulluq edin, Ona bağlı qalın. (Qanunun təkrarı, 13:4)
Rəbb qorxusu pakdır, sonsuza qədər qalar… (Zəbur, 19:9)
Musa... "Allah sizi sınamaq üçün gəldi; Allah qorxusu üzərinizdə olsun, günah işləməyəsiniz deyə". (Misirdən çıxış, 20:20)
Yaşadığınız vaxtın zamini Odur. Bol-bol qurtuluş, məlumat və müdriklik təmin edəcək. Xalqın xəzinəsi Rəbb qorxusudur. (Yeşaya, 33:5-6)
"Bu kitabda yazılan Qanunun bütün sözlərinə uymayıb Allahınız Rəbbin uca və heybətli adından qorxmasanız, Rəbb sizi və soyunuzu qorxunc bəlalarla, böyük və davamlı bəlalarla və ağır, sağalmaz xəstəliklərlə vuracaq. (Qanunun təkrarı, 28: 58-59)
Yeşua "Buna görə Rəbbdən qorxun, səmimiyyətlə və bağlılıqla Ona qulluq edin" deyə davam etdi. (Yeşua, 24:14)
Hər şeyə hakim Rəbbi müqəddəs sayın. Qorxunuz, vahiməniz Ondan olsun. (Yeşaya, 8:13)
Allahınız Rəbbdən qorxun, Ona qulluq edin. Ona bağlı qalın və Onun adı ilə and için. (Qanunun təkrarı, 10:20)
… Allahınız Rəbbin buyruqlarına uyun. Yollarında gedin, Ondan qorxun. (Qanunun təkrarı, 8:6)
Həyatınız boyunca siz, uşaqlarınız və nəvələriniz sizə verdiyim bütün qaydalara, buyruqlara tabe olub Allahınız Rəbbdən qorxun ki, ömrünüz uzun olsun… (Qanunun təkrarı, 6:2)

Tərifləyin Rəbbi! Nə xoş Rəbbdən qorxan insana, Onun buyruqlarından böyük zövq alan! (Zəbur, 112:1)
Ey sizlər, Rəbbdən qorxanlar, Onu tərifləyin!... (Zəbur, 22:23)
Müqəddəslər birliyində Allah qorxu oyadar, ətrafındakıların hamısından ulu və müdhişdir. (Zəbur 89:7)
Rəbbdən qorxmaq pislikdən nifrət etmək deməkdir… (Süleymanın məsəlləri, 8:13)
Müqəddəslər birliyində Allah qorxu oyadar... (Zəbur 89:7)
Dostuyam bütün Səndən qorxanların, şərtlərinə uyanların. (Zəbur, 119:63)
Kaş ki, məndən qorxaydılar və bütün buyruqlarıma tabe olmağı həmişə ürəkdən istəyəydilər! Onda özlərinə və uşaqlarına davamlı yaxşılıq gələrdi. (Qanunun təkrarı, 5:29)
... Valideynlər Allahdan qorxan kəslər idi... Valideynlər Özündən qorxduqları üçün Allah onları ev-eşik sahibi etdi. (Misirdən çıxış, 1:17, 21)
Us ölkəsində Əyyub adında bir nəfər yaşayırdı. Qüsursuz, doğru bir adam idi. Allahdan qorxar, pislikdən qaçardı. (Əyyub, 1:1)
Dağlar Rəbbin qarşısında titrəyər, əriyər təpələr. Yer sarsılar önündə. Dünya və üzərində yaşayanların hamısı titrəyər. (Nahum, 1:5)
Padşahlığımda yaşayan hər kəsin Danielin Allahından qorxub titrəməsini buyururam... (Daniel, 6:26)
Kim Rəbbdən qorxsa, Rəbb ona seçəcəyi yolu göstərər. Hüzur içində yaşayacaq o insan... (Zəbur, 25:12-14)
… Vəzifənizi Rəbb qorxusu ilə, bağlılıqla, bütün ürəyinizlə etməlisiniz. (2 Salnamələr, 19:9)
Rəbb qorxusudur biliyin təməli. (Süleymanın məsəlləri, 1:7)
Bir-birinizə haqsızlıq etməyəcək, Allahınızdan qorxacaqsınız. Allahınız Rəbb Mənəm. (Levililər, 25:17)
Əgər Rəbbdən qorxub Ona qulluq etsəniz, Onun sözünü dinləyib buyruqlarına qarşı gəlməsəniz… Tək Rəbbdən qorxun, Ona bağlılıqla və bütün qəlbinizlə qulluq edin. Onun sizlər üçün necə əzəmətli işlər gördüyünü bir düşünün! (1 Şamuel, 12:14, 24)
Xalqı (kişi, qadın, uşaq və şəhərlərinizdə yaşayan qəribləri) yığın. Belə ki, hər kəs eşidib öyrənsin, Allahınız Rəbbdən qorxsun. Bu qanunun bütün sözlərinə tabe olmağa diqqət yetirsin… Yaşadığınız müddətdə Allahınız Rəbbdən qorxmağı öyrənsinlər. (Qanunun təkrarı, 31:12-13)
Rəbb Özünə yalvaran, səmimiyyətlə yalvaran hər kəsə yaxındır. Diləyini yerinə yetirər Özündən qorxanların… (Zəbur, 145:18-19)
Bütün yer üzü Rəbbdən qorxsun, dünyada yaşayan hər kəs Ona hörmət etsin. Çünki O söyləyincə hər şey var oldu; O buyurunca hər şey meydana çıxdı. (Zəbur, 33:8-9)
Allahınız Rəbbdən qorxacaqsınız; Ona qulluq edəcək və Onun adı ilə and içəcəksiniz. Başqa ilahların, ətrafınızdakı xalqların tapındığı heç bir ilahın ardınca getməyəcəksiniz. (Qanunun təkrarı, 6:13-14)
Kara lənət etməyəcək, korun önünə maneə qoymayacaqsan. Allahından qorxacaqsan. Rəbb Mənəm. (Levililər, 19:14)
... Yaşlılara hörmət göstərəcəksən. Allahından qorxacaqsan. Rəbb Mənəm. (Levililər, 19:32)
Oğlum, müdrikliyə qulaq asıb ürəkdən ağıla yönələrək sözlərimi qəbul edib buyruqlarımı ağlında tutsan; bəli, ağılı çağırıb ona könüldən səslənsən, gümüş axtaran kimi onu axtarsan, onu axtarsan xəzinə axtaran kimi, Rəbb qorxusunu anlayar və Allahı yaxından tanıyarsan. Çünki müdrikliyin qaynağı Rəbdir. (Süleymanın məsəlləri, 2:1-6)
Müdrik adamı öyrətsən, daha müdrik olar; doğru adama öyrətsən, məlumatını artırar. Rəbb qorxusudur müdrikliyin təməli. Ağlı müqəddəs olanı (Allahı) tanımaqdır... (Süleymanın məsəlləri, 9:9-10)
Rəbb mehriban və lütf edəndir... Özündən qorxanlara qarşı sevgisi də o qədər böyükdür... Rəbb Özündən qorxanlara mehriban davranar... (Zəbur, 103:8, 11-13)
Rəbb qorxusu ömürü uzadar, pislərin ömrü isə qısadır. (Süleymanın məsəlləri, 10:27)
Doğru yolda gedən Rəbbdən qorxar... (Süleymanın məsəlləri, 14:2)
Rəbbin mələyi Ondan qorxanların ətrafına düşərgə qurar, qurtarar onları… Rəbbdən qorxun... çünki Ondan qorxanın nöqsanı olmaz. (Zəbur, 34:7-9)
… Rəbb sizdən nə istəyir? Tək bunu istəyir: Allahınız Rəbbdən qorxun, Onun yollarında gedin, Onu sevin; bütün ürəyinizlə, bütün canınızla Ona qulluq edin; sizə yaxşılıq gəlsin deyə bu gün sizə bildirdiyim buyruqlarına, qaydalarına uyun. (Qanunun təkrarı, 10:12-13)

… Sən ulusan, möcüzələr yaradarsan, tək Allah Sənsən. Ya Rəb, yolunu mənə öyrət, Sənin həqiqətinə görə gedim, qərarlı et məni, tək Sənin adından qorxum. (Zəbur, 86:10-11)
Ey Rəbbdən qorxanlar, Rəbbə güvənin, Odur köməkçiniz və qalxanınız (qoruyanınız)!... Böyük-kiçik, Özündən qorxan hər kəsi müqəddəs hesab edəcək. (Zəbur, 115:11-13)
Rəbbə şükür edin, çünki O, yaxşıdır, sevgisi sonsuzdur... "Sonsuzdur sevgisi!" desin Rəbbdən qorxanlar. (Zəbur, 118:1-4)
... Rəbbi tərifləyin, ey Rəbbdən qorxanlar! (Zəbur, 135:20)
Rəbb Özündən qorxanlardan, sevgisinə ümid bağlayanlardan xoşlanar. (Zəbur, 147:11)
Müdrik adam (Allahdan) qorxduğu üçün pislikdən uzaqlaşar… (Süleymanın məsəlləri, 14:16)
Yoxsul olub Rəbbdən qorxmaq, zəngin olub qayğı içində yaşamaqdan daha yaxşıdır. (Süleymanın məsəlləri, 15:16)
Təvazökarlığın və Rəbb qorxusunun mükafatı zənginlik, şərəf və həyatdır. (Süleymanın məsəlləri, 22:4)
Qüsursuz həyat sürən, ədalətli davranan, ürəkdən həqiqəti söyləyən (adam)... Rəbbdən qorxanlara hörmət edər. (Zəbur, 15:2-4)
Rəbb "Qulum Əyyuba baxıb heç düşündünmü?" dedi, "… Qüsursuz, doğru bir adamdır. Allahdan qorxar, pislikdən qaçar…" (Əyyub, 2:3)
Yaxşılığın nə böyükdür ya Rəb, onu Səndən qorxanlar üçün saxlayarsan… (Zəbur, 31:19)
… Rəbbin gözü Özündən qorxanların, sevgisinə ümid bağlayanların üzərindədir. (Zəbur, 33:18)
Gəlin ey uşaqlar, dinləyin məni. Sizə Rəbb qorxusunu öyrədim. Kim həyatdan zövq alıb yaxşı günlər görmək istəyirsə, dilini pislikdən, dodaqlarını yalandan uzaq tutsun. Pislikdən çəkinin, yaxşılıq edin. Sağlamlığı məqsəd qoyun, ardınca gedin. (Zəbur, 34:11-14)
Gəlin dinləyin, ey sizlər, Allahdan qorxanlar, (Allahın) mənim üçün nələr etdiyini sizə bildirim. (Zəbur, 66:16)
Qayda və qanunları xalqa öyrət, izləmələri lazım olan yolu, edəcəkləri işi göstər. Bununla yanaşı, xalqın arasından Allahdan qorxan, qabiliyyətli, haqsız qazancdan nifrət edən dürüst adamlar seç... (Misirdən çıxış, 18:20-21)
Xalqlar Sənə şükür etsin ey Allah, bütün xalqlar Sənə şükür etsin!... Dünyanın dörd bucağındakılar Ondan qorxsun! (Zəbur, 67:5-7)
Bir qardaşın yoxsullaşıb möhtac olsa, ona kömək etməlisən. Aranızda qalan bir qərib, yaxud qonaq kimi yaşayacaq. Ondan faiz və qazanc götürmə. Allahından qorx ki, qardaşın yanında həyatını davam etdirə bilsin… Ona ağalıq etməyəcək, sərt davranmayacaqsan. Allahından qorxacaqsan. (Levililər, 25:35-36, 43)
Tək Sənsən qorxulması lazım olan... (Zəbur, 76:7)
… Sadiq qullarına xoşbəxtlik sözü verəcək, təki bir daha ağılsızlıq etməsinlər. Bəli, O, Özündən qorxanları qurtarmaq üzrədir... (Zəbur, 85:8-9)
... Rəbbdən qorxub Ona və qulu Musaya güvəndi. (Misirdən çıxış, 14:31)
Bu qanun nümunəsini yanında saxlayacaq, həyatı boyunca hər gün onu oxuyacaq. Belə ki, Allahı Rəbbdən qorxmağı, bu qanunun bütün söz və qaydalarına tabe olmağı öyrənsin; özünü qardaşlarından üstün saymasın, qanunun xaricinə çıxmasın; özünün və soyunun padşahlığı İsraildə uzun illər sürsün. (Qanunun təkrarı, 17:19-20)
Çünki Allahdan gələcək bəladan qorxuram, Onun əzəmətindən (qüdrətindən) ötrü belə bir şey edə bilməm. (Əyyub, 31:23)
Sənin güvəndiyin Allahdan qorxun deyilmi, ümidin qüsursuz həyatında deyilmi? (Əyyub, 4:6)
Davamlı üzərimizə yaxşılığın gəlməsi... üçün Allahımız Rəbb bütün bu qaydalara tabe olmağımızı və Özündən qorxmağımızı buyurdu. (Qanunun təkrarı, 6:24)
Məndən əvvəl vəzifədə olan valilər xalqa yük oldular… Xidmətçiləri belə xalqı əzdi. Amma mən Allahdan qorxduğum üçün belə davranmadım. (Nehemya, 5:15)
Ona görə Rəbbdən qorxun, diqqətlə mühakimə edin. Çünki Allahımız Rəbb kimsənin haqsızlıq etməsinə, kimsəyə havadarlıq etməsinə, rüşvət almasına göz yummaz... Yehoşafat onlara bu buyruqları verdi: "Vəzifənizi Rəbb qorxusu ilə, bağlılıqla, bütün ürəyinizlə etməlisiniz." (2 Salnamələr, 9:7-9)
Günahkar yüz dəfə pislik edib uzun yaşasa belə, Allahdan qorxanların, Onun qarşısında hörmətlə duranların yaxşılıq görəcəyini bilirəm. Halbuki pis, Allahdan qorxmadığı üçün yaxşılıq görməyəcək... (Vaiz, 8:12-13)
Dinləyin!... Onun (Allahın) adından qorxmaq müdriklikdir. (Mikeya, 6:9)

… Rəbbdən qorxaraq Onun lütfünü dilədi… (Yeremya, 26:19)
… Sən böyüksən, Adın da böyükdür gücün sayəsində. Səndən kim qorxmaz… (Yeremya, 10:6-7)
… Yaşadıqları müddətdə Səndən qorxsunlar və Sənin yolunda getsinlər… Belə ki, dünyanın bütün xalqları… adını bilsin, Səndən qorxsun... (2 Salnamələr, 6:31-33)

## TÖVRATDA ALLAHA YAXINLIQ VƏ İMAN DƏRİNLİYİ

### Tövratda Allaha yaxınlıq

Rəbb Özünə yalvaran, səmimiyyətlə yalvaran hər kəsə yaxındır. (Zəbur, 145:18)
Ey qəlbim, tək Allahda hüzur tap, çünki ümidim Ondadır. (Zəbur, 62:5)
Ya Rəbb, bütün varlığımla Sənə yaxınlaşıram. (Zəbur, 25:1)
Bu günki kimi Onun qaydalarına görə yaşamaq və buyruqlarına tabe olmaq üçün, bütün ürəyinizi Allahımız Rəbbə bağlayın. (1 Padşahlar, 8:61)
Məni sevənləri Mən də sevərəm, səylə axtaran Məni tapar. (Süleymanın məsəlləri, 8:17)
Allahınız Rəbbi sevin, sözünə tabe olub Ona bağlanın. Rəbb həyatınızdır... (Qanunun təkrarı, 30:20)
Allahınız Rəbbi unutmamağa diqqət yetirin. Bu gün sizə bildirdiyim buyruqlarında, qanunlarında, qaydalarında zəiflik göstərməyin. (Qanunun təkrarı, 8:11)
Bu günə qədər etdiyiniz kimi, Allahınız Rəbbə möhkəm bağlı qalın. (Yeşua, 23:8)
Qəlblərinizi Rəbbə bağlayın, bundan belə dikbaş olmayın. (Qanunun təkrarı, 10:16)
Tapmaq fürsəti var ikən Rəbbi axtarın, yaxında ikən Ona yalvarın. (Yeşaya, 55:6)
Qəlbim təkcə Allahda hüzur tapar… (Zəbur, 62:1)
Rəbb Özünə yalvaran, səmimiyyətlə yalvaran hər kəsə yaxındır. Diləyini yerinə yetirər Özündən qorxanların, fəryadlarını eşidər, onları qurtarar. Rəbb qoruyar Özünü sevən hər kəsi... (Zəbur, 18:20)
Sən ey oğlum Süleyman, atanın Allahını tanı. Bütün qəlbinlə və istəklə Ona qulluq et. Çünki Rəbb hər qəlbi araşdırar, hər fikirdəki məqsədi bilər. Əgər Ona yönəlsən, Özünü sənə tapdırar. Amma Onu buraxsan, səni sonsuza qədər rədd edər. (1 Salnamələr, 28:9)
Yeşua "Buna görə Rəbbdən qorxun, səmimiyyətlə və bağlılıqla Ona qulluq edin" deyə davam etdi, "Atalarınızın... qulluq etdiyi ilahları atın, Rəbbə qulluq edin. (Yeşua, 24:14)
... Allahınız Rəbbi unutmamağa diqqət yetirin. (Qanunun təkrarı, 8:14)
... Allahınız Rəbb sizdən nə istəyir? Tək bunu istəyir: Allahınız Rəbbdən qorxun, Onun yollarında gedin, Onu sevin; bütün qəlbinizlə, bütün canınızla Ona qulluq edin. (Qanunun təkrarı, 10:12)
Allahınız Rəbbdən qorxun, Ona qulluq edin. Ona bağlı qalın və Onun adı ilə and için. (Qanunun təkrarı, 10:20)
Allahınız Rəbbi sevmək, bütün qəlbinizlə, bütün canınızla Ona qulluq etmək üçün, bu gün sizə bildirdiyim buyruqlara yaxşıca qulaq assanız. (Qanunun təkrarı, 11:13)
Allahınız Rəbbin ardınca gedin, Ondan qorxun. Buyruqlarına uyun, Onun sözünə qulaq asın. Ona qulluq edin, Ona bağlı qalın. (Qanunun təkrarı, 13:4)
Amma Sən ya Rəbb, ətrafımda qalxansan (məni qoruyansan), şərəfim və başımı yuxarı qaldıran Sənsən. (Zəbur, 3:3)
Allah qalxan kimi yanımdadır, təmiz qəlbliləri O qurtarar. (Zəbur 7:10)
Sağlamlıq içində yatıram, çünki tək Sən ya Rəbb, təhlükəsizlik içində tutursan məni. (Zəbur, 4:8)
Sənə sığınıram. Rizanı işləməyi mənə öyrət. Çünki Sən mənim Allahımsan... (Zəbur, 143:9-10)
Rəbbi tanıyaq, Rəbbi tanımağa cəhd göstərək. (Huşə, 6:3)
Rəbb deyir ki, "Bu xalq mənə yaxınlaşıb ağızları ilə, dodaqları ilə məni sayır, amma qəlbləri məndən uzaqdır…" (Yeşaya, 29:13)

Rəbb deyir ki, "İnsana güvənən, insanın gücünə söykənən, qəlbi Rəbbdən uzaqlaşan adam lənətlidir. Beləsi çöldəki kol kimidir, yaxşılıq gələndə görməyəcək... (Yeremya, 17:5-6)
… Rəbbin yolunda getdim, Allahımdan uzaqlaşaraq pislik etmədim. (Zəbur, 18:21)
Düzgünlük əkin özünüz üçün, sevgi meyvələri biçin... Çünki Rəbbə yönəlmə zamanıdır... (Huşə, 10:12)
Buna görə Allahına dön sən; sevgiyə, ədalətə sarıl; davamlı Allahını gözlə. (Huşə, 12:6)
Allahın Rəbbə dön... Dualarla gedin, Rəbbə dönün, Ona "Bağışla bütün günahlarımızı" deyin, "Lütf et, qəbul et bizi..." (Huşə, 14:1-2)
Pis adam yolunu, fəsadçı niyyətlərini buraxsın; Rəbbə dönsün, mərhəmət tapar; Allahımıza dönsün, bol-bol bağışlanar. (Yeşaya, 55:7)
Geyimlərinizi deyil, qəlblərinizi parçalayın və Allahınız Rəbbə dönün. Çünki Rəbb lütf edər, acıyar... Sevgisi hədsizdir... (Yoel, 2:13)

**Tövratda Allaha bağlılıq və sədaqət**

Allahınız Rəbbdən qorxun, Ona qulluq edin. Ona bağlı qalın və Onun adı ilə and için. (Qanunun təkrarı, 10:20)
Tabe olmağınız üçün sizə bildirdiyim bu buyruqları nöqsansız yerinə yetirib, Allahınız Rəbbi sevib, yollarında gedib Ona bağlı qalsanız... Heç kim sizə qarşı gələ bilməyəcək. (Qanunun təkrarı, 11:20-22)
Çünki Mən qurbandan deyil, bağlılıqdan xoşlanıram, yandırılası məxluqlardan çox Məni tanımağınızı istəyirəm. (Huşə, 6:6)
Allahınız Rəbbin ardınca gedin, Ondan qorxun. Buyruqlarına uyun, Onun sözünə qulaq asın. Ona qulluq edin, Ona bağlı qalın. (Qanunun təkrarı, 13:4)
Rəbbi sevin, ey Onun sadiq qulları! Rəbb Özünə bağlı olanları qoruyar... Ey Rəbbə ümid bağlayanlar, güclü və ürəkli olun! (Zəbur, 31:23-24)
Süleyman "Qulun atam Davuda böyük yaxşılıqlar etdin... O Sənə bağlı, doğru, bütün qəlbi ilə dürüst biri olaraq yolunda getdi..." (1 Padşahlar, 3:6)
... Allahınız Rəbbi sevin, tamamilə göstərdiyi yolda gedin, buyruqlarını yerinə yetirin, Ona bağlı qalın, Ona candan və ürəkdən xidmət edin. (Yeşua, 22:5)
Rəbbə çox bağlı idi, Onun yolundan ayrılmadı, Rəbbin Musaya verdiyi buyruqları yerinə yetirdi. (2 Padşahlar, 18:6)
Rəbbə bağlı qalan sizlər isə hələ yaşayırsınız. "Budur, Allahım Rəbbin buyruğu olaraq sizə qayda və qanunlar verdim. Belə ki, mülk əldə etmək üçün gedəcəyiniz ölkədə bunlara tabe olasınız. Onlara möhkəm bağlanın…" (Qanunun təkrarı, 4:4-6)
Bu günə qədər etdiyiniz kimi, Allahınız Rəbbə möhkəm bağlı qalın. (Yeşua, 23:8)
Davranışlarımızı sınayıb nəzərdən keçirək, yenə Rəbbə dönək. (Mərsiyələr, 3:40)
...Çünki İbrahim sözümü dinlədi. Xəbərdarlıqlarıma, buyruqlarıma, qayda və qanunlarıma bağlı qaldı. (Yaradılış, 26:4-5)
Rəbb sadiq qullarının addımlarını qoruyar, amma pislər qaranlıqda susdurular. Çünki güclə zəfərə çata bilməz insan. (1 Şamuel, 2:9)
Buna görə Rəbb... sadiq quluna sədaqət göstərər, qüsursuz olana qüsursuz davranarsan. (2 Şamuel, 22:25-26)
Ya Rəbb... Bütün qəlbləri ilə yolunu izləyən qullarınla etdiyin razılaşmaya (vədinə) bağlı qalarsan. (1 Padşahlar, 8:23)
Ya Rəbb Allah, dini vəzifəlilərin qurtuluşa çatsın, sadiq qulların yaxşılıqlarınla sevinsinlər. (2 Salnamələr, 6:41)
Ey sizlər, Rəbbi sevənlər, pislikdən iyrənin. O, sadiq qullarının canını qoruyar, onları pislərin əlindən qurtarar. (Zəbur, 97:10)
Yeşua "Buna görə Rəbbdən qorxun, səmimiyyətlə və bağlılıqla Ona qulluq edin" deyə davam etdi..." (Yeşua, 24:14)

**Tövratda Allaha hörmət göstərmək**

Hər şey eşidildi, nəticə budur: Allaha hörmət göstər, buyruqlarını yerinə yetir, çünki hər insanın vəzifəsi budur. (Vaiz, 12:13)
Bütün yer üzü Rəbbdən qorxsun, dünyada yaşayan hər kəs Ona hörmət etsin. Çünki O söyləyincə hər şey var oldu; O buyurunca hər şey meydana çıxdı. (Zəbur, 33:8-9)
... Allaha hörmət göstər... (Vaiz, 5:7)

Ey sizlər, Rəbbdən qorxanlar, Ona tərifləyin!... Onu ucaldın!... Ona hörmət göstərin! (Zəbur, 22:23)
Sənin buyruqlarından zövq alır, onları sevirəm. Hörmət və sevgi hiss edirəm buyruqlarına, dərindən düşünürəm qaydalarını. (Zəbur, 119:47)
Oğlum, Rəbbə… hörmət göstər, baş qaldıranlarla yoldaşlıq etmə. (Süleymanın məsəlləri, 24:21)
… Allahdan qorxanların, Onun qarşısında hörmətlə duranların yaxşılıq görəcəyini bilirəm. (Vaiz, 8:12)
Allahın etdiyi hər şeyin sonsuza qədər sürəcəyini bilirəm. Ona nə bir şey əlavə oluna bilər, nə də ondan bir şey çıxarıla bilər. Allah insanların Özünə hörmət etmələri üçün bunu edir. (Vaiz, 3:14)

**Tövratda iman coşğusu və sevinci**

… Allahınız Rəbbdə sevinc tapın, coşun… (Yoel, 2:23)
... Ey Allahım, Sənin istəyini etməkdən zövq alıram mən, Qanunun ürəyimin dərinliyindədir. (Zəbur, 40:8)
…. Sevinc duyuram öyüdlərini izləyərkən, sanki mənim olur bütün xəzinələr. Şərtlərini dərindən düşünürəm, yollarını izləyərkən. Zövq alıram qaydalarından, sözünü unutmayacağam. (Zəbur, 119:14-16)
… Allahınız Rəbb Özünü bütün qəlbinizlə, bütün canınızla sevib-sevmədiyinizi anlamaq üçün sizi sınayır. (Qanunun təkrarı, 13:3)
Pislərin acısı çoxdur, amma Rəbbə güvənənləri Onun sevgisi əhatə edər. Ey doğru insanlar, sevinc qaynağınız Rəbb olsun, coşun; ey ürəyi təmiz olanlar, hamınız sevinin! (Zəbur, 32:10-11)
… Mən bütün qəlbimlə Sənin şərtlərinə uyuram. Onların ürəyi yağ bağladı, mən isə zövq alıram Qanunundan… Qanunun mənim üçün minlərlə qızıl və gümüşdən daha qiymətlidir. (Zəbur, 119:69-72)
Allahınız Rəbbi bütün ürəyinizlə, bütün canınızla, bütün gücünüzlə sevəcəksiniz. (Qanunun təkrarı, 6:5)
Nə xoş o insana ki, pislərin öyüdü ilə getməz, günahkarların yolunda durmaz, istehza edənlərin arasında oturmaz. Ancaq zövqünü Rəbbin Qanunundan alar və gecə-gündüz onun üzərində dərindən düşünər. (Zəbur, 1:1-2)
Hanna belə dua etdi: "Ürəyim Rəbbdə tapdığım sevinclə coşur; gücümü artıran Rəbbdir. Düşmənlərimin önündə öyünür, xilasınla sevinirəm! Müqəddəslikdə Rəbbin bənzəri yoxdur; bəli, Sənin kimisi yoxdur ya Rəbb! Allahımız kimi dayaq yoxdur". (I. Şamuel, 2:1-2)
Sənin buyruqlarından zövq alır, onları sevirəm. Hörmət və sevgi bəsləyirəm buyruqlarına, dərindən düşünürəm qaydalarını. (Zəbur, 119:47-48)
Çətinliyə, darlığa düşdüm, amma buyruqların mənim zövqümdür. Nəsihətlərin sonsuza qədər doğrudur; mənə ağıl ver ki, yaşayım. (Zəbur, 119:143-144)
Qanunu sevənlər böyük xoşbəxtlik tapar, heç bir şey onları tərpədə bilməz. Ya Rəbb, xilasına ümid bağlayıb buyruqlarını yerinə yetirirəm. Öyüdlərinə candan uyub onları çox sevirəm. (Zəbur, 119:165-167)
Rəbbin Qanunu yetkindir, cana can qatar; Rəbbin buyruqları etibarlıdır, təmiz adama müdriklik verər; Rəbbin qaydaları doğrudur, qəlbi sevindirər; Rəbbin buyruqları safdır, gözləri işıqlandırar. Rəbb qorxusu pakdır, sonsuza qədər qalar, Rəbbin qanunları həqiqi və tamamilə ədalətlidir. Onlara qızıldan, bol miqdarda saf qızıldan çox istək duyular, onlar baldan, süzmə baldan şirindir. (Zəbur, 19:7-10)
Rəbbin işləri böyükdür, onlardan zövq alanlar həmişə onları düşünər. (Zəbur, 111:2)
Öndərlər toplanıb məni pisləsələr belə, mən-qulun Sənin qaydalarını dərindən düşünəcəyəm. Nəsihətlərin mənim zövqümdür, mənə ağıl verirlər. (Zəbur, 119:23-24)
Qaydalarını necə izləyəcəyimi öyrət mənə ya Rəbb, belə ki, onları sonuna qədər izləyim. Anlamağım üçün kömək et, Qanununa tabe olum, bütün ürəyimlə onu yerinə yetirim. Buyruqların yönündə mənə yol göstər, çünki yolundan zövq alıram. (Zəbur, 119:33-35)
Mən quluna verdiyin söz bildirəndə sevgin mənə təskinlik versin. Mehribanlıq göstər mənə yaşayım, çünki Qanunundan zövq alıram. (Zəbur, 119:76-77)
Amma Allahınız Rəbbi axtaracaqsınız. Bütün ürəyinizlə, bütün canınızla axtarsanız, Onu tapacaqsınız. (Qanunun təkrarı, 4:29)

… Onun yanındaydım. Günbəgün sevinclə dolub daşdım, hüzurunda həmişə coşdum. Onun dünyası xoşbəxtliyim, insanları sevincim idi. (Süleymanın məsəlləri, 8:30-31)

Əgər Qanunun zövq qaynağım olmasaydı, çəkdiyim acılardan yox olardım. Şərtlərini əsla unutmayacağam, çünki onlarla mənə həyat verdin. (Zəbur, 119:92-93)

Dodaqlarımdan təriflər axsın, çünki mənə qaydalarını öyrədirsən. Dilimdə sözün ahəngə çevrilsin, çünki bütün buyruqların doğrudur… Xilasından ötrü darıxıram ya Rəbb, Qanunun zövq qaynağımdır. Məni yaşat ki, Səni tərifləyim, hökmlərin mənə köməkçi olsun. (Zəbur, 119:171-175)

Nə xoş Onun öyüdlərinə uyanlara, bütün qəlbi ilə Ona yönələnlərə! (Zəbur, 119:2)

Allahınız Rəbbi sevmək, bütün qəlbinizlə, bütün canınızla Ona qulluq etmək üçün, bu gün sizə bildirdiyim buyruqlara yaxşıca qulaq assanız, Rəbb ölkənizə ilk və son yağışı vaxtında yağdıracaq… (Qanunun təkrarı, 11:13-14)

Ey bütün dünya, Rəbbə sevinc hissləri ucaldın! Ona sevinclə qulluq edin, sevinc səsləri ilə çıxın hüzuruna! Bilin ki, Rəbb Allahdır. Bizi yaradan Odur, biz də Onunuq… Qapılarına təşəkkürlə, həyətlərinə təriflə girin! Şükür edin Ona, adına təriflər söyləyin! (Zəbur, 100:1-4)

Rəbb gücüm və vasitəmdir, O qurtardı məni. Odur Allahım, təriflər deyəcəyəm Ona... ucaldacağam Onu. (Misirdən çıxış, 15:2)

Rəbbdən zövq al. O,  istəklərini yerinə yetirəcək. (Zəbur, 37:4)

Təriflər söyləyin Rəbbə! Nə xoş Rəbbdən qorxan insana, Onun buyruqlarından böyük zövq alana! (Zəbur, 112:1)

Ömrüm boyu Rəbbi tərənnüm edəcək, var olduqca Allahımı ilahilərlə tərifləyəcəyəm… Sevincim Rəbb olsun!... Rəbbə təriflər de ey könlüm! Rəbbə təriflər söyləyin! (Zəbur, 104:33-35)

Nə xoş sevinc səsləndirməyi bilən xalqa ya Rəbb! Üzünün işığında gedərlər. Gün boyunca Sənin adınla sevinər, doğruluğunla ucalarlar. Çünki Sən onların gücü və ucalığısan, lütfün sayəsində gücümüz artar. (Zəbur, 89:15-17)

Səndə nəşə və sevinc tapsın bütün Sənə yönələnlər! "Rəbb ucadır!" desin həmişə Sənin xilasından ötrü darıxana! (Zəbur, 40:16; Zəbur 70:4)

Onda Allahın dininə, nəşə və sevinc qaynağım olan Allaha gedəcəyəm və Sənə ey Allah, Allahım mənim, lira ilə şükür edəcəyəm. (Zəbur 43:4)

Sözlərini tapar-tapmaz uddum; mənə sevinc, qəlbimə sevinc verdi. Çünki Səninəm mən Ya Rəbb, hər şeyə hakim Allah! (Yeremya, 15:16)

Ancaq doğrular sevinsin, bayram etsinlər Allahının qarşısında, sevinclə coşsunlar. Allahı tərənnüm edin, adını ilahilərlə öyün… (Zəbur, 68:3-4)

Ağzımdan çıxan içdən gələn tərifləri qəbul et ya Rəb, mənə hökmlərini öyrət… Nəsihətlərin sonsuza qədər mirasımdır, ürəyimin sevincidir onlar. (Zəbur, 119:108, 111)

Qəlbi sınadığını, düzgünlükdən xoşlandığını bilirəm. Hər şeyi səmimiyyətlə, könüldən verdim. İndi burada olan xalqının Sənə necə istəklə bəxşişlər verdiyini sevinclə gördüm. Ya Rəbb… bu istəyi sonsuza qədər xalqının ürəyində və düşüncəsində tut, onların Sənə bağlı qalmalarını təmin et. Oğlum Süleymana bütün buyruqlarına, xəbərdarlıqlarına, qaydalarına tabe olmaq üçün, hazırlığını etdiyim məbədi qurmaqda istəkli bir ürək ver". (1 Salnamələr, 29:17-19)

Gücümüz olan Allaha sevincinizi dilə gətirin, sevinc səsləndirin Yaqubun Allahına! Çalğıya başlayın, dəf çalın, şirin səsli lira və çənk zingildədin. (Zəbur, 81:1-2)

Ey Allah, təmiz bir qəlb yarat, yenidən qərarlı ruh var et içimdə… Geri ver mənə yaratdığın qurtuluş sevincini; mənə dəstək ol, istəkli bir ruh ver… Dilim Sənin xilasını ilahilərlə tərifləsin. Ya Rəbb, aç dodaqlarımı, ağzım Sənin tariflərini söyləsin. (Zəbur, 51:10-15)

Yaradacaqlarımla sonsuza qədər sevinib coşun... (Yeşaya, 65:18)

Möcüzə nəsihətlərin var, buna görə onlara candan uyuram. Sözlərinin açıqlanması işıqlıq saçır, təmiz insanlara ağıl verir. Ağzım açıq və təngnəfəsəm, çünki buyruqlarından ötrü darıxıram. (Zəbur, 119: 129-131)

Mən də Səni, Sənin sədaqətini çənklə tərifləyəcəyəm ey Allahım, lira çalıb Səni ilahilərlə tərifləyəcəyəm… Səni ilahilərlə tərifləyərkən dodaqlarımla, varlığımla sevincimi dilə gətirəcəyəm, çünki Sən məni xilas etdin. Dilim bütün günü Sənin zəfərindən danışacaq… (Zəbur, 71:22-24)

... Onlar da sevinclə təriflər söylədilər, başlarını əyib tapındılar. (2 Salnamələr, 29:30)
Rəbbi tərifləyib tərənnüm etdilər... hər kəs yüksək səslə Rəbbi tərifləməyə başladı. (Əzra, 3:11)
Xizqiya onlara belə dua etdi: "Müqəddəs yerin qaydaları bildirdikdə təmizlənməmiş belə olsa, Rəbb Allaha, atalarının Allahına yönəlməyə ürəkdən qərarlı olan hər kəsi yaxşı olan Rəbb bağışlasın". (2 Salnamələr, 30:19)
Sözlərim təmiz bir qəlbdən çıxır, dodaqlarım bildiklərini səmimiyyətlə söyləyir. Məni Allahın ruhu yaratdı, Hər şeyə gücü çatanın nəfəsi həyat verir mənə. (Əyyub, 33:3-4)
Xalq verdiyi hədiyyələr üçün sevinirdi. Çünki hər kəs Rəbbə səmimiyyətlə və könüldən vermişdi. Padşah Davud da çox sevincli idi. (1 Salnamələr, 29:9)
Hər istəkli və həvəsli olanlar hüzur çadırının qurulması, xidməti və müqəddəs geyimlər üçün Rəbbə hədiyyə gətirdi. Qadın, kişi hamı istəklə gəldi… (Misirdən çıxış, 35:21-22)
... Rəbbin Musa vasitəsilə etmələrini buyurduğu işlər üçün Rəbbə könüldən gələni təqdim etdilər. (Misirdən Çıxış, 35:29)
Kaş ki, məndən qorxsaydılar və bütün buyruqlarıma tabe olmaq üçün həmişə ürəkdən istəkli olsaydılar! Onda özlərinə və uşaqlarına davamlı yaxşılıq gələrdi. (Qanunun təkrarı, 5:29)
Ya Rəbb, bu qulunun adını ucaltmaqdan sevinc duyan o biri qullarının dualarına qulaq as. Məni bu gün müvəffəqiyyətli et... (Nehemya, 1:11)
… Varlığınla onu sevincə qərq etdin. Çünki padşah Rəbbə güvənər, ucalar ucasının sevgisi sayəsində sarsılmaz. (Zəbur, 21:6-7)
Şeypur çalanlarla tərənnüm edənlər bir ağızdan Rəbbə şükür edib təriflər deməyə başladılar. Şeypur, zəng və çalğılarla birlikdə səsləri ucaldıb Rəbbi belə təriflədilər: "Rəbb yaxşıdır; sevgisi sonsuza qədər qalıcıdır"... (2 Salnamələr, 5:13)
Ömrüm boyu Sənə təriflər deyəcəyəm, Sənin adınla əllərimi qaldıracağam. Bol yeməklərdən doyan kimi doyacağam Səndən, oxuyan dodaqlarla ağzım Sənə təriflər söyləyəcək. (Zəbur, 63:4-5)
Adının ucalığına ilahilər söyləyin, Ona əzəmətli təriflər deyin! (Zəbur, 66:2)
Ucalığını göstər ya Rəbb gücünlə! Tərənnüm edib ilahilərlə tərifləyəcəyik qüdrətini. (Zəbur, 21:13)
... Əkin biçənlərin sevindiyi, qənimət paylaşanların coşduğu kimi, onlar da sevinəcək Sənin qarşında. (Yeşaya, 9:3)
... Levililərlə kahinlər Rəbbi ucaltmaq məqsədi ilə istifadə edilən yüksək səsli çalğılarla hər gün Onu tərifləyirdilər. (2 Salnamələr, 30:21)
Mənimlə birlikdə Rəbbin böyüklüyünü eşitdirin, adını birlikdə ucaldaq. (Zəbur, 34:3)
Bu şərəflə xoşbəxt olsun sadiq qulları, sevinc tərənnümləri oxusunlar yataqlarında! (Zəbur, 149:5)
Qullarım xoşbəxtlik içində tərənnüm edəcək, amma siz ürək ağrısından fəryad edəcək, əzgin bir ruhla səslənəcəksiniz. (Yeşaya, 65:14)
Madam ki, bolluq dövründə Allahınız Rəbbə sevinc və məmnuniyyətlə qulluq etmədiniz, Rəbbin üzərinizə göndərəcəyi düşmənlərə köləlik edəcəksiniz. Ac və susuz, çılpaq qalacaqsınız; hər şeyə ehtiyac hiss edəcəksiniz… (Qanunun təkrarı, 28:47-48)
... "Kədərlənməyin. Rəbbin verdiyi sevinc sizi gücləndirər". (Nehemya, 8:10)
… Allahınız Rəbbi sevin, tamamilə göstərdiyi yolda gedin, buyruqlarını yerinə yetirin, Ona bağlı qalın, Ona candan və ürəkdən xidmət edin. (Yeşua, 22:5)

**Tövratda dərindən düşünməyin əhəmiyyəti**

Yatağıma uzananda Səni xatırlayıram, gecə boyunca Səni dərindən düşünürəm. (Zəbur, 63:6)
Ancaq zövqünü Rəbbin Qanunundan alar və gecə-gündüz onun üzərində dərindən düşünər. (Zəbur, 1:2)
Rəbbin işlərini xatırlayacağam. Bəli, keçmişdəki möcüzələrini xatırlayacağam. Etdikləri üzərində dərindən düşünəcəyəm, bütün işlərinin üzərində diqqətlə duracağam. (Zəbur, 77:11-12)
Öndərlər toplanıb məni pisləsələr belə, mən qulun Sənin qaydalarını dərindən düşünəcəyəm. Nəsihətlərin mənim zövqümdür, mənə ağıl verirlər. (Zəbur, 119:23-24)

Nə qədər sevirəm Qanununu! Bütün gün düşünürəm onun üzərində. Buyruqların məni düşmənlərimdən müdrik edir, çünki həmişə ağlımdadır onlar. Bütün müəllimlərimdən daha ağıllıyam, çünki nəsihətlərin üzərində düşünürəm. (Zəbur, 119:97-99)
Gün doğulmadan qalxıb kömək diləyirəm, Sənin sözünə ümid bağladım. Verdiyin söz üzərində düşünüm deyə, gecə boyunca yuxu girmir gözümə. (Zəbur, 119:147-148)
Gördüklərimi dərindən düşündüm, seyr etdiklərimdən ibrət götürdüm. (Süleymanın məsəlləri, 24:32)
Allahın etdiyini düşün: Onun əyri yola çevirdiyini kim yönləndirə bilər? Yaxşı gündə xoşbəxt ol, amma pis gündə diqqətlə düşün… (Vaiz, 7:13-14)
Sevinc duyuram öyüdlərini izləyərkən, sanki mənim olur bütün xəzinələr. Şərtlərini dərindən düşünürəm, yollarını izləyərkən. Zövq alıram qaydalarından, sözünü unutmayacağam. (Zəbur, 119:13-16)
Dinlə Əyyub, dayan bir düşün Allahın təccüblü işlərini. (Əyyub, 37:14)
Qanun kitabında yazılanları dilindən salma. Hamısını diqqətlə yerinə yetirmək üçün gecə-gündüz onu düşün. Onda müvəffəqiyyətli olacaq və məqsədinə çatacaqsan. (Yeşua, 1:8)
Keçmiş günləri xatırlayıb, bütün etdiklərini dərindən düşünüb, Əllərinin işinə baxıb fikrə gedirəm. Əllərimi Sənə açıram, qəlbim quru torpaq kimi Sənə susamışdır. (Zəbur, 143:5-6)
Rəbbin işləri böyükdür, onlardan zövq alanlar həmişə onları düşünər. (Zəbur, 111:2)
Tək Rəbbdən qorxun, Ona bağlılıqla və bütün qəlbinizlə qulluq edin. Onun sizlər üçün necə əzəmətli işlər gördüyünü bir düşünün! (1 Şamuel, 12:24)
Sənin buyruqlarından zövq alıb onları sevirəm. Hörmət və sevgi bəsləyirəm buyruqlarına, dərindən düşünürəm qaydalarını. (Zəbur, 119:47-48)
Ürəyim alovlandı içimdə, alovlandı dərindən düşünərkən, bu sözlər çıxdı dilimdən: Bildir mənə ya Rəbb, sonumu, saylı günlərimi; bilim ömrümün nə qədər qısa olduğunu! (Zəbur, 39:3-4)
Etdiklərin nəsildən nəsilə razılıqla xatırlanacaq, güclü işlərin eşitdiriləcək. Düşünəcəyəm möcüzə işlərini. İnsanlar böyüklüyündən, uca əzəmətindən danışacaq. (Zəbur, 145:4-5)
Hər şeyə hakim Rəbb deyir ki, "İndi tutduğunuz yolları yaxşı düşünün!" (Haqqay, 1:5)
“Bu günə qədər olanları yaxşı düşünün… Əllərinizin bütün əməyini səmum yeli ilə, kiflə, dolu ilə cəzalandırdım. Yenə də mənə dönmədiniz”. Rəbb belə deyir. “… olacaqları yaxşı düşünün”. (Haqqay, 2:15-18)
Beləcə, bütün bunları düşünüb daşındım və bu nəticəyə gəldim: Doğrular, müdriklər və etdikləri hər şey Allahın əlindədir… (Vaiz, 9:1)
… hüzurunda düşündükcə qorxuram Ondan. (Əyyub, 23:15)

**Tövratda iman həqiqətlərini təşviq edən izahlar**

İç varlığımı Sən yaratdın, anamın rəhmində məni Sən hördün. Sənə tériflər deyirəm, çünki müdhiş və möcüzə yaradılmışam. Necə möcüzə işlərin var! Bunu çox yaxşı bilirəm. Gizli yerdə yaradıldığımda, yerin dərinliklərində hörüldüyümdə, bədənim Səndən gizli deyildi. Hələ bətndə ikən gözlərin gördü məni; mənə ayrılan günlərin heç biri gəlmədən hamısı Sənin kitabına yazılmışdı. (Zəbur, 139:13-16)
Başınızı qaldırıb göylərə baxın. Kim yaratdı bütün bunları? Ulduzları sıra ilə göstərib hər birini adı ilə çağırır. Böyük qüdrəti, üstün gücü sayəsində hamısı öz yerində durur… Əbədi Allah, Rəbb, bütün dünyanı yaradan nə yorular, nə də zəifləyər, Onun bilgisi qavrana bilməz. (Yeşaya, 40:26-28)
Gəmilərlə dənizə çıxanlar, okeanlarda iş görənlər Rəbbin işlərini, dərinliklərdəki möcüzələrini gördülər. (Zəbur, 107:23-24)
Sizi qurtaran, sizi rəhmdə formaya salan Rəbb deyir ki, "Hər şeyi yaradan, göyləri yalnız genişləndirən, yer üzünü yalnız sərən… Rəbb Mənəm". (Yeşaya, 44:24)
Rəbbin işlərini xatırlayacağam. Bəli, keçmişdəki möcüzələrini xatırlayacağam. Etdikləri üzərində dərindən düşünəcəyəm, bütün işlərinin üzərində diqqətlə duracağam. (Zəbur 77:11-12)
Ya Rəbb, Allahım, möcüzələrin, düşüncələrin necə də çoxdur bizim üçün; Sənə ortaq qoşulmaz! Eşitdirmək, izah etmək istəsəm etdiklərini, saymaqla bitməz. (Zəbur, 40:5)

Rəbbin işləri böyükdür, onlardan zövq alanlar həmişə onları düşünər. Onun yaratdıqları uca və əzəmətlidir… Rəbb unudulmaz möcüzələr yaratdı; O, mehriban və lütf edəndir. (Zəbur, 111:2-4)
Şükür etsinlər Rəbbə sevgisinə görə, insanların faydası üçün yaratdığı möcüzələrə görə. Çünki O, susamış canın susuzluğunu aparar, ac canı yaxşılıqlarla doyurar. (Zəbur, 107:8-9)
Bol-bol yeyib doyacaqsınız və sizin üçün möcüzələr yaradan Allahınız Rəbbin adını tərifləyəcəksiniz… (Yoel, 2:26)
Düşünəcəyəm möcüzə işlərini; insanlar böyüklüyündən, uca əzəmətindən danışacaq. Gördüyün müdhiş işlərin gücündən danışacaqlar, mən də Sənin böyüklüyünü eşitdirəcəyəm. (Zəbur, 145:5-6)
Çünki Sən ulusan, möcüzələr yaradarsan, tək Allah Sənsən. (Zəbur, 86:10)
… Qaydalarını öyrət mənə! Şərtlərini anlamağıma kömək et ki, möcüzələrinin üzərində düşünüm. (Zəbur, 119:26-27)
Rəbb Allaha… təriflər olsun, möcüzələr yaradan tək Odur. (Zəbur, 72:18)
Dünyanı yaradan, yerini alsın deyə ona quruluş verən, adı Rəbb olan… (Yeremya, 33:2)
Çünki dağlara quruluş verən, küləyi yaradan, niyyətini insana bildirən, şəfəqi qaranlığa çevirən, dünyanın yüksək yerlərinə ayaq basan bax, Odur; Onun adı Rəbb, hər şeyə hakim Allahdır. (Amos, 4:13)
Ülkər və Orion bürclərini yaradan, zülmət qaranlığı səhərə çevirən, gündüzü gecə ilə qaraldan, dəniz sularını çağırıb yer üzünə tökənin adı Rəbbdir. (Amos, 5:8)
Sizi yaradan, göyləri genişləndirən, dünyanın təməllərini qoyan Rəbbi necə olur ki, unudursınız?... (Yeşaya, 51:13)
Çünki göyləri yaradan Rəbb, dünyanı yaradıb formalaşdıran, gücləndirən, üzərində yaşayış olmasın deyə deyil, yaşayış olsun deyə formalaşdıran Rəbb (Allah Odur) belə deyir: "Rəbb Mənəm, başqası yoxdur. (Yeşaya, 45:18)
İşığı formalaşdıran, qaranlığı yaradan, xoşbəxtliyi və fəlakəti yaradan, bütün bunları edən Rəbb mənəm. (Yeşaya, 45:7)
Məni ana bətnində yaradan onu da yaratmadımı? Rəhmdə bizə quruluş verən O deyilmi? (Əyyub, 31:15)
Eşidən qulağı da, görən gözü də Rəbb yaratmışdır. (Süleymanın məsəlləri, 20:12)
Yeri, göyü, dənizi və içindəki hər şeyi yaradan… (Zəbur, 146:6)
Göyün və yerin yaradılış əhvalatı: Rəbb Allah göyü və yeri yaradanda yer üzündə yabanı bir cücərti, bir ot belə bitməmişdi. Çünki Rəbb Allah hələ yer üzünə yağış göndərməmişdi. Torpağı əkib-becərəcək insan da yox idi. Yerdən yüksələn buxar bütün torpaqları sulayırdı. Rəbb Allah Adəmi torpaqdan yaratdı və burnuna həyat nəfəsini üflədi. Beləcə, Adəm yaşayan varlıq oldu. (Yaradılış, 2:4-7)
Livan sidr ağacından tutmuş divarlarda bitən mərzə otuna qədər bütün ağaclardan danışdığı kimi, heyvanlar, quşlar, sürünənlər və balıqlardan da danışa bilirdi. Süleymanın müdrikliyini eşidən bütün dünya padşahları ona adamlarını göndərirdi. Bütün xalqlardan insanlar gəlib Süleymanın müdrik sözlərini dinləyirdi. (1 Padşahlar, 4:33-34)
Yığımdan əvvəl çiçəklər düşüb üzümlər yetişməyə başlayınca... (Yeşaya, 18:5)
Bağlara gedək səhər erkəndən baxaq, asma tumurcuq verdimi? Budaqları yaşıllaşdımı, narlar çiçək açdımı… Xoş ətirli qoxu saçır mandraqora, qapımızın yanında təzə, quru, hər növ seçmə meyvə var… (Nəğmələr nəğməsi, 7:12-13)
Qoz bağçasına endim, yaşıllaşmış vadini görüm deyə; baxım görüm ki, asma tumurcuq verdimi, narlar çiçək açdımı. (Nəğmələr nəğməsi, 6:11)
Allah "Yer üzü bitkilər, toxum verən otlar, növünə görə toxumu meyvəsində olan meyvə ağacları hasil etsin" deyə buyurdu və elə oldu. (Yaradılış, 1:11)

**Tövratda dünya həyatının keçiciliyi**
**haqqında izahlar**

Qəzəbindən qısalır günlərimiz, bir nəfəs kimi tükənir illərimiz. Ömrümüz yetmiş il çəkir, ən çox səksən il, o da sağlam olsaq; ən gözəl illərimiz də zəhmət və kədərlə keçir; tez bitir və uçub gedirik. (Zəbur, 90:9-10)
... Yer üzündəki günlərimiz bir kölgə kimidir, qalıcı deyil. (1 Salnamələr, 29:15)
… Qızılları da, gümüşləri də  qurtara bilməyəcək… (Sefanya, 1:18)
İnsan bir nəfəsi xatırladır, günləri keçici bir kölgə kimidir. (Zəbur, 144:4)
Sümüklərini dolduran gənclik atəşi özü ilə birlikdə torpaqda yatacaq. (Əyyub, 20:11)

… Hər insanın sonu ölümdür, yaşayan hər kəs bunu ağlında saxlamalıdır. (Vaiz, 7:2)
Torpağa dönənə qədər çörəyini alın təri töküb qazanacaqsan. Çünki torpaqsan və torpaqdan yaradıldın, yenə torpağa dönəcəksən. (Yaradılış, 3:19)
Dedi ki, "Bu dünyaya çılpaq gəldim, çılpaq gedəcəyəm. Rəbb verdi, Rəbb aldı, Rəbbin adına təriflər olsun!" (Əyyub, 1:21)
(İnsan) çiçək kimi açıb solar, kölgə kimi gəlib keçər. (Əyyub, 14:2)
Ürəyim alovlandı içimdə, alovlandı dərindən düşünərkən, bu sözlər çıxdı dilimdən: Bildir mənə ya Rəbb sonumu, saylı günlərimi; bilim ömrümün nə qədər qısa olduğunu! Tək bir qarış ömür verdin mənə, bir heçdir həyatım Sənin qarşında. Hər insan bir nəfəsdir yalnız, ən güclü çağında belə. Bir kölgə kimi gəzir insan, boş yerə çırpınır, mal yığır kimə qalacağını bilmədən. Nə gözləyə bilərəm indi ya Rəbb? Ümidim Sənədir. (Zəbur, 39:3-7)
Çünki mayamızı bilir, torpaq olduğumuzu xatırlayır. İnsana gəlincə ota bənzər ömrü tarla çiçəyi kimi sovrular; külək üzərinə əsincə yox olub gedər, olduğu yer onu tanımaz. Amma Rəbb Özündən qorxanları sonsuza qədər sevər... (Zəbur 103:14-18)
Ey bütün xalqlar, dinləyin! Qulaq asın hamınız, ey dünyada yaşayanlar, xalq uşaqları, bəy uşaqları, zənginlər, yoxsullar!... Onlar varlıqlarına güvənir, böyük sərvətləri ilə lovğalanırlar. Heç kim heç kimin həyatının əvəzini ödəyə bilməz, Allaha fidyə verə bilməz. Çünki həyatın fidyəsi böyükdür, heç kim ödəməyə cürət etməməlidir. Belə olmasa, sonsuza qədər yaşayar insan, məzar üzü görməz. Şübhəsiz ki, hamı bilir müdriklərin öldüyünü, axmaqlarla səfehlərin yox olduğunu. Mallarını başqalarına buraxırlar. Məzarları sonsuza qədər evləri, nəsillər boyu iqamətgahları olacaq, torpaqlarına öz adlarını versələr belə. Bütün göstərişinə baxmayaraq ölüb gedən heyvanlar kimi keçicidir insan, … Qorxma biri varlı olsa, evinin əzəməti artsa. Çünki ölüncə heç bir şey apara bilməz, əzəməti onunla məzara getməz. Yaşayarkən özünü xoşbəxt saysa belə, müvəffəqiyyətli olunca təriflər alsa belə... Bütün göstərişinə qarşı, ölüb gedən heyvanlar kimi anlayışsızdır insan. (Zəbur, 49:1-2, 6-20)
Onlar yox olacaq, amma Sən əbədisən. Hamısı bir geyim kimi köhnələcək. Onları bir cübbə kimi dəyişəcəksən, keçib gedəcəklər. Amma Sən həmişə eynisən, illərin tükənməyəcək. (Zəbur, 102:26-27)
Zənginlik və şərəf, əbədi dəyərlər və bolluq Məndədir. (Süleymanın məsəlləri, 8:18)
Çünki zənginlik əbədi deyil və tac nəsildən nəsilə keçməz. (Süleymanın məsəlləri, 27:24)
Cazibədarlıq hiyləgər, gözəllik faydasızdır; amma Rəbbə hörmətli qadın təriflənməyə layiqdir. (Süleymanın məsəlləri, 31:30)
Zənginliyinə güvənən baş-ayaq gedəcək, halbuki doğrular budağındakı yarpaq kimi inkişaf edəcək. (Süleymanın məsəlləri, 11:28)
Sərvət hiyləgərdir… (Habaqquq, 2:5)
… əldə etdikləri zənginlik uçub getdi. (Yeremya, 48:36)
O gün Rəbb gözəl qolbağları, ayparaları, sırğaları, bilərzikləri, örtükləri, başlıqları, ayaq zəncirlərini, kəmərləri, ətir şüşələrini, musqaları, üzükləri, burun halqalarını, bayram geyimlərini, pelerinləri, şalları, kisələri, əl aynalarını, kətan geyimləri, baş sarğılarını, batistləri ortadan qaldıracaq. Onda gözəl ətirin yerini murdar qoxu, kəmərin yerini ip, qıvrım saçın yerini keçəl baş, bəzəkli geyimin yerini çul, gözəlliyin yerini dağlama izi alacaq. (Yeşaya, 3:18-24)
Qiyamət günü uzaqlardan başınıza fəlakət gəlincə nə edəcəksiniz? Kömək üçün kimə tərəf qaçacaqsınız, sərvətinizi hara saxlayacaqsınız? (Yeşaya, 10:3)
Sərvət göz yumub açana qədər yox olar, qanadlanıb qartal kimi göylərə uçar. (Süleymanın məsəlləri, 23:5)
Qəzəb günü sərvət işə yaramaz, (Süleymanın məsəlləri, 11:4)
Adamın sərvəti gün gələr canına fidyə olar, (Süleymanın məsəlləri, 13:8)
Axar suların, bal və ayran axan dərələrin səfasını sürə bilməyəcək. Zəhmətlə qazandığını yemədən geri verəcək, əldə etdiyi qazancın dadını çıxara bilməyəcək… Sərvəti onu qurtara bilməyəcək. (Əyyub, 20:17-20)
Həyata gücüm tükəndi, günlərim qısaldı, məzar gözləyir məni. (Əyyub, 17:1)
Rəbb, "Ruhum insanda sonsuza qədər qalmayacaq, çünki o, ölümlüdür" dedi… (Yaradılış, 6:3)
Ah çəkib inləyərsən ömrünün son günlərində, ətinlə bədənin tükəndiyində. (Süleymanın məsəlləri, 5:11)
Ölümlü insana güvənməkdən imtina edin. Onun nə dəyəri var ki? (Yeşaya, 2:22)
Çünki kölgə kimi gəlib keçən qısa və faydasız ömründə insana… özündən sonra günün altında nələr olacağını kim söyləyə bilər? (Vaiz, 6:12)

Küləyi tutub ona hakim olmağa kimsənin gücü çatmadığı kimi, ölüm gününə hakim olmağa da heç kimin gücü çatmaz… (Vaiz, 8:8)
İnsanları bir xəyal kimi silib-süpürərsən, səhər bitən ot kimi. Səhər cücərər, böyüyər, axşam solub quruyar. (Zəbur, 90:5-6)
Böyük işlərə girdim. Özümə evlər tikdim, bağlar tikdim. Bağçalar, parklar qurdum, oralara müxtəlif meyvə ağacları əkdim. Qanad, budaq salan meşə ağaclarını sulamaq üçün hovuzlar düzəltdim… Hər kəsdən çox mala, davara sahib oldum. Qızıl-gümüş yığdım; padşahların, ellərin xəzinələrini yığdım… Böyük şöhrətə qovuşdum… Gözümün istədiyi heç bir şeyi özümdən əsirgəmədim. Könlümü heç bir zövqdən saxlamadım… Etdiyim bütün işlərə, çəkdiyim bütün əməklərə baxanda gördüm ki, hamısı faydasız və küləyi qovmağa cəhd etmək imiş. Günün altında heç bir qazanc yox imiş. (Vaiz, 2:4-11)
... Sahibinin zərərinə yığılan və yox olub gedən sərvət... Anasının rəhmindən çılpaq çıxır insan. Dünyaya necə gəldisə, elə gedər; əməyindən heç bir şey aparmaz əlində. Dünyaya necə gəldisə, elə gedər insan... (Vaiz, 5:13-16)
... Gənclik də, dinclik də faydasızdır. (Vaiz, 11:10)
Gümüş tel qopmadan, qızıl tas qırılmadan, səhəng bulaqda parçalanmadan, quyu çarxı qırılmadan, torpaq gəldiyi yerə dönmədən, ruh onu verən Allaha dönmədən səni Yaradanı xatırla. "Hər şey faydasızdır" deyir Vaiz, "Tam faydasızdır!" (Vaiz, 12:6-8)

## TÖVRATDA ALLAHIN SİFƏTLƏRİ

### Tövratda Allahın birliyi

Rəbb Mənəm, başqası yoxdur, Məndən başqa Allah yoxdur... şərqdən qərbə qədər Məndən başqası olmadığını hər kəs bilsin. Rəbb Mənəm, başqası yoxdur. (Yeşaya 45:5-6)
… Allah Mənəm, başqası yoxdur. Allah Mənəm, bənzərim yoxdur. (Yeşaya, 46:9)
Sonda dünyanın bütün xalqları bilsinlər ki, tək Allah Rəbbdir və Ondan başqa Allah yoxdur. (1 Padşahlar, 8:60)
Ey dünyanın dörd bucağındakılar, Mənə dönün, xilas olarsınız. Çünki Allah Mənəm, başqası yoxdur. (Yeşaya, 45:22)
Rəbb deyir ki, "... Allah tək sizinlədir, başqası, başqa Allah yoxdur". (Yeşaya, 45:14)
… Allahımız Rəbb tək Rəbbdir. (Qanunun təkrarı, 6:4)
… ya Rəbb, bənzərsizdir işlərin. Yaratdığın bütün xalqlar gəlib Sənə tapınacaqlar, ya Rəbb, adını ucaldacaqlar. Çünki Sən ulusan, möcüzələr yaradarsan, tək Allah Sənsən. (Zəbur, 86:8-10)
… Hər şeyə hakim Rəbb, bütün dünya padşahlıqlarının tək Allahı Sənsən. Yeri-göyü Sən yaratdın. (Yeşaya, 37:16)
… bütün dünya padşahlıqları Sənin tək Rəbb olduğunu anlasın. (Yeşaya, 37:20)
Sizi qurtaran, sizə rəhmdə quruluş verən Rəbb deyir ki, "Hər şeyi yaradan, göyləri tək olaraq genişləndirən, yer üzünü tək olaraq sərən…" (Yeşaya, 44:24)
Çünki Özünə ümid bağlayanlar üçün təsirli olan tək Allah Sənsən; Səndən başqasını heç vaxt heç kim eşitmədi, heç bir qulaq eşitmədi, heç bir göz görmədi. (Yeşaya, 64:4)
Çünki göyləri yaradan Rəbb, dünyanı yaradıb formalaşdıran, gücləndirən, üzərində yaşayış olmasın deyə deyil, yaşayış olsun deyə formalaşdıran Rəbb (Allah Odur) belə deyir: "Rəbb Mənəm, başqası yoxdur" (Yeşaya, 45:18)
... Mən Rəbb bildirmədimmi? Məndən başqa Allah yoxdur, ədalətli  Allah və xilaskar Mənəm. Yoxdur Məndən başqası. (Yeşaya, 45:21)
Artıq anlayın ki, Mən, bəli Mən Oyam, Məndən başqa Allah yoxdur! Öldürən də, yaşadan da, yaralayan da, yaxşılaşdıran da Mənəm... (Qanunun təkrarı, 32:39)
… Beləcə, biləcəksən ki, Allahımız Rəbb kimisi yoxdur. (Misirdən çıxış, 8:10)
Ya Rəbb… yerdə və göydə Sənə bənzər başqa Allah yoxdur… (1 Padşahlar, 8:23; 2 Salnamələr, 6:14)
Asa Allahı Rəbbə "Ya Rəbb, güclünün önündə gücsüzə kömək edə biləcək Səndən başqa kimsə yoxdur" deyə yalvardı… (2 Salnamələr, 14:11)
Mən, təkcə Mən Rəbbəm, Məndən başqa xilaskar yoxdur. (Yeşaya, 43:11)
Ya Rəbb, bir bənzərin yoxdur, Səndən başqa Allah da yoxdur! Bunu öz qulaqlarımızla eşitdik. (1 Salnamələr, 17:20; 2 Şamuel, 7:22)

Müqəddəslikdə Rəbbin bənzəri yoxdur; bəli, Sənin kimisi yoxdur ya Rəb! Allahımız kimi dayaq yoxdur. (1 Şamuel, 2:2) ç
Onun bilgisi dərin, gücü bənzərsizdir, kim Ona müqavimət göstərdi ki, ayaq üstə qaldı? (Əyyub, 9:4)
… Sən ulusan, möcüzələr yaradarsan, tək Allah Sənsən. (Zəbur, 86:10)
Təriflər söyləyin Ona güclü işləri üçün! Təriflər söyləyin Ona, bənzərsiz böyüklüyünə yaraşan şəkildə! (Zəbur, 150:2)
Xalq belə dua etdi: "Tək Rəbb Sənsən. Göyləri, göylərin göylərini, bütün göy cisimlərini, yer üzünü və içindəki hər şeyi, dənizləri və içlərindəki hər şeyi Sən yaratdın. Hamısına Sən can verdin. Bütün göy cisimləri Sənə tapınar". (Nehemya, 9:6)
Mənim üçün belə deyəcəklər: "Doğruluq və güc tək Rəbbdədir…" (Yeşaya, 45:24)
Bu hadisələr Rəbbin Allah olduğunu və Ondan başqası olmadığını biləsiniz deyə sizə göstərildi. (Qanunun təkrarı, 4:35)
... Məndən başqa Allah varmı? Xeyr, başqa güc yoxdur; Mən başqasını bilmirəm. (Yeşaya, 44:8)

**Tövratda Allahın əzəli
və əbədi olması**

… Hər şeyə hakim Rəbb deyir ki, "İlk və son Mənəm, Məndən başqa Allah yoxdur". (Yeşaya, 44:6)
Bunları edib reallaşdıran, nəsilləri başlanğıcdan bəri çağıran kimdir? Mən Rəbb ilkəm; sonuncularla da yenə Mən olacağam". (Yeşaya, 41:4)
Ya Rəbb, müqəddəs Allahım, əzəldən bəri var olan Sən deyilsənmi?... (Habaqquq, 1:12)
Allahın etdiyi hər şeyin sonsuza qədər sürəcəyini bilirəm. Ona nə bir şey əlavə oluna bilər, nə də ondan bir şey çıxarıla bilər. Allah insanların Özünə hörmət etmələri üçün bunu edir. (Vaiz, 3:14)
Dağlar var olmadan, hələ kainatı və dünyanı yaratmadan əzəldən sonsuza qədər Allah Sənsən. (Zəbur, 90:2)
Ey Allah, taxtın sonsuzluqlar boyunca əbədidir… (Zəbur, 45:6)
Uca və əzəmətli olan, sonsuzluqda yaşayan, adı Müqəddəs olan deyir ki… (Yeşaya, 57:15)
Belə dedi: "Allahın adına əzəldən sonsuza qədər təriflər olsun! Müdriklik və güc Ona məxsusdur". (Daniel, 2:20)
O, hər şeyi vaxtında gözəl etdi. İnsanların qəlbinə sonsuzluq anlayışını qoydu. Yenə də insan Allahın etdiyi işi əvvəldən sona qədər anlaya bilməz. (Vaiz, 3:11)
… O yaşayan Allahdır, sonsuza qədər var olacaq… Hakimliyi sona çatmayacaq. (Daniel, 6:26)
"… Rəbbə əzəldən sonsuza qədər təriflər olsun!" (1 Salnamələr, 16:6)
… Sən sonsuza qədər ucasan ya Rəbb. (Zəbur, 92:8)
Ot quruyar, çiçək solar, amma Allahımızın sözü sonsuzadək qalar. (Yeşaya, 40:8)

**Tövratda Allahın hər şeyin
yaradıcısı olması**

Başlanğıcda Allah göyü və yeri yaratdı. Yer boş idi, yer üzünün şəkli yox idi; hüdudsuz qaranlıqlarla örtülmüşdü. Allahın ruhu suların üzərində dalğalanırdı. Allah, "İşıq olsun" deyə buyurdu və işıq oldu. (Yaradılış, 1:1-3)
Allah "Suların ortasında bir qübbə olsun, suları bir-birindən ayırsın" deyə buyurdu. Və elə oldu. Allah göy qübbəsini yaratdı. Qübbənin altındakı suları üstündəki sulardan ayırdı. (Yaradılış, 1:6-7)
Allah "Göyün altındakı sular bir yerə toplansın, quru torpaq görünsün" deyə buyurdu və elə oldu. (Yaradılış, 1:9)
Allah "Yer üzü bitkilər, toxum verən otlar, növünə görə toxumu meyvəsində olan meyvə ağacları çıxarsın" deyə buyurdu və elə oldu. Yer üzü bitkilər, növünə görə toxum verən otlar, toxumu meyvəsində olan meyvə ağacları yetişdirdi… (Yaradılış, 1:11-12)
Allah belə buyurdu: "Göy qübbəsində gündüzü gecədən ayıran, yer üzünü işıqlandıran işıqlar olsun. Əlamətləri, mövsümləri, günləri, illəri göstərsin". Və elə oldu. Allah böyüyü gündüzə, kiçiyi gecəyə hakim olan iki böyük işığı və ulduzları yaratdı. (Yaradılış, 1:14-16)
…"Yeri, göyü yaradan uca Allah Rəbbin qarşısında… and içirəm"… (Yaradılış, 14:22)

Allah "Sular canlı varlıqlarla dolub daşsın, yerin üzərində, göydə quşlar uçuşsun" deyə buyurdu. Allah böyük dəniz canavarlarını, sularda qaynaşan canlıları və uçan müxtəlif varlıqları yaratdı… (Yaradılış, 1:20-21)

Allah "Yer üzü növbənöv canlı varlıq, ev heyvanı, vəhşi heyvan və sürünən törətsin" deyə buyurdu. Və elə oldu. Allah növbənöv vəhşi heyvan, ev heyvanı və sürünən yaratdı… (Yaradılış, 1:24-25)

Allah "İnsanı… yaradaq" dedi, "Dənizdəki balıqlara, göydəki quşlara, ev heyvanlarına, sürünənlərə, bütün yer üzünə hakim olsun". Allah insanı… yaratdı. Beləcə, insan… yaradılmış oldu. İnsanları kişi və qadın olaraq yaratdı. (Yaradılış, 1:26-27)

"Varmı Sənin kimisi ilahlar arasında ya Rəbb? Sənin kimi müqəddəslikdə əzəmətli, heybəti ilə tərifəlayiq möcüzələr yaradan varmı? (Misirdən çıxış, 15:11)

… Sizi yaradan, sizə quruluş verən… Yaradıcınız O deyilmi? (Qanunun təkrarı, 32:6)

Eşidən qulağı da, görən gözü də Rəbb yaratmışdır. (Süleymanın məsəlləri, 20:12)

… Özünü yaradan Allaha arxa çevirdi... (Qanunun təkrarı, 32:15)

… Səni yaradan Allahı unutdun. (Qanunun təkrarı, 32:18)

… Yeri, göyü yaradan uca Allah… (Yaradılış, 14:19)

Xalqların bütün ilahları bir heçdir, halbuki göyləri yaradan Rəbbdir. (1 Salnamələr, 16:26)

Böyük Ayını, Orionu, Ülkəri, Cənub bürcünü yaradan Odur. (Əyyub, 9:9)

Məni ana qarnında yaradan onu da yaratmadımı? Rəhmdə bizə quruluş verən O deyilmi? (Əyyub, 31:15)

Hər kəsin ürəyini yaradan, etdikləri hər şeyi çəkən Odur. (Zəbur, 33:15)

… Möcüzələr yaradan tək Odur. (Zəbur, 72:18)

Yer üzünün bütün sərhədlərini Sən təyin etdin; yazı da, qışı da yaradan Sənsən. (Zəbur, 74:17)

Möcüzələr yaradan Allah Sənsən… gücünü göstərdin. (Zəbur, 77:14)

… Bizi yaradan Rəbbin qarşısında diz çökək. (Zəbur, 95:6)

Xalqların bütün ilahları bir heçdir, halbuki göyləri yaradan Rəbdir. (Zəbur, 96:5)

Bilin ki, Rəbb Allahdır. Bizi yaradan Odur, biz də Onunuq, Onun xalqı, otlağının qoyunlarıyıq. (Zəbur, 100:3)

Yeri, göyü yaradan Rəbb sizləri müqəddəs hesab etsin. (Zəbur, 115:15)

Yeri, göyü yaradan Rəbbdən gələcək kömək. (Zəbur, 121:2)

Yeri, göyü yaradan Rəbbin adı Köməkçimizdir. (Zəbur, 124:8)

Yeri, göyü, dənizi və içindəki hər şeyi yaradan… (Zəbur, 146:6)

Ana rəhmindəki uşağın necə ruh və bədən aldığını bilmədiyin kimi, hər şeyi yaradan Allahın etdiklərini də bilə bilməzsən. (Vaiz, 11:5)

Bilmirsənmi, eşitmədinmi? Əbədi Allah, Rəbb, bütün dünyanı yaradan nə yorular, nə də zəifləyər, Onun bilgisi qavrana bilməz. (Yeşaya, 40:28)

… Səni yaradan… sənə quruluş verən Rəbb indi belə deyir… (Yeşaya, 43:1)

Səni yaradan, rəhmdə sənə quruluş verən, sənə kömək edəcək olan Rəbb belə deyir… (Yeşaya, 44:2)

Sizi qurtaran, sizə rəhmdə quruluş verən Rəbb deyir ki, "Hər şeyi yaradan, göyləri yalnız olaraq genişləndirən, yer üzünü yalnız olaraq sərən…" (Yeşaya, 44:24)

İşığı formalaşdıran, qaranlığı yaradan, xoşbəxtlik və fəlakəti yaradan, bütün bunları edən Rəbb Mənəm. (Yeşaya, 45:7)

Sizi yaradan, göyləri genişləndirən, dünyanın təməllərini qoyan Rəbbi necə olur ki, unudursunuz?... (Yeşaya, 51:13)

Gücü ilə yer üzünü yaradan, müdrikliyi ilə dünyanı quran, ağlı ilə göyləri yayan Rəbbdir. (Yeremya, 10:12)

Dünyanı yaradan, yerini alsın deyə ona quruluş verən, adı Rəbb olan belə deyir… (Yeremya 33:2)

Çünki dağlara quruluş verən, küləyi yaradan, niyyətini insana bildirən, şəfəqi qaranlığa çevirən, dünyanın yüksək yerlərinə ayaq basan bax, Odur; Onun adı Rəbb, Hər şeyə hakim Allahdır. (Amos, 4:13)

Ülkər və Orion bürclərini yaradan, zülmət qaranlığı səhərə çevirən, gündüzü gecə ilə qaraldan, dəniz sularını gətirib yer üzünə tökənin adı Rəbbdir. (Amos, 5:8)

… "Dənizi və qurunu yaradan göylərin Allahı Rəbbə tapınıram." (Yunus, 1:9)

Xalq belə dua etdi: "Tək Rəbb Sənsən. Göyləri, göylərin göylərini, bütün göy cisimlərini, yer üzünü və içindəki hər şeyi, dənizləri və içlərindəki hər şeyi Sən yaratdın. Hamısına Sən can verdin. Bütün göy cisimləri Sənə tapınar". (Nehemya, 9:6)

**Tövratda Allahın hər şeyi görən, eşidən və bilən olması**

Oturub-durmağımı bilərsən, niyyətimi uzaqdan anlayarsan. Getdiyim yolu, yatdığım yeri incəliklə ələyərsən, bütün etdiklərimdən xəbərin var. Hələ sözü ağzıma almadan söyləyəcəyim hər şeyi bilərsən ya Rəbb. (Zəbur, 139:2-4)
Qulağı yaradan eşitməzmi? Gözə quruluş verən görməzmi? (Zəbur, 94:9)
Artıq böyük danışmayın, ağzınızdan həyasızca sözlər çıxmasın. Çünki Rəbb hər şeyi bilən Allahdır… (1 Şamuel, 2:3)
Halbuki Sən çətinlik və acı çəkənləri görərsən, kömək etmək üçün onları izləyərsən; çarəsizlər Sənə arxalanar, yetimin köməkçisi Sənsən. (Zəbur, 10:14)
Öyüdlərini, şərtlərini tətbiq edirəm, çünki bütün davranışlarımı görürsən Sən. (Zəbur, 119:168)
Səhər səsimi eşidirsən ya Rəbb, hər səhər Sənə dua edir, ümidlə gözləyirəm. (Zəbur, 5:3)
Məzlumların diləyini eşidərsən ya Rəb, ürəkləndirərsən onları, qulağın həmişə üzərlərindədir... (Zəbur, 10:17)
... İnsanların ürəklərini yalnız Sən bilirsən… (1 Padşahlar, 8:39)
Ya Rəbb, bütün həsrətlərimi bilirsən, iniltilərim Səndən gizli deyil. (Zəbur, 38:9)
… gedəcəyim yolu Sən bilirsən… (Zəbur, 142:3)
Məni tanıyırsan ya Rəbb, məni görür, ürəyimin Səninlə olduğunu bilirsən… (Yeremya, 12:3)
…Dodaqlarımdan çıxan hər sözü bilirsən ya Rəbb. O söz onsuz da Sənin ağzında idi. (Yeremya, 17:16)
... "Etdiyin hər şeydə Allah səninlədir" dedilər. (Yaradılış; 21:22)
"Sən ey oğlum Süleyman, atanın Allahını tanı. Bütün ürəyinlə və istəklə Ona qulluq et. Çünki Rəbb hər ürəyi araşdırar, hər fikirin ardındakı məqsədi təyin edər. Əgər Ona yönəlsən, Özünü sənə tapdırar. Amma Onu buraxsan, səni sonsuza qədər rədd edər". (1 Salnamələr, 28:9)
"… Yanımızda heç kim olmasa belə, Allah şahid olacaq". (Yaradılış, 31:50)
Allahdır zaman və mövsümləri dəyişdirən. Padşahları taxtdan endirər, taxta çıxarar. Müdriklərə müdriklik, anlayışlı olanlara bilgi verər. Dərin və gizli şeyləri ortaya çıxarar, qaranlıqda nələr olduğunu bilər… (Daniel, 2:21-22)
"Ağılsızlığımı bilirsən ey Allah, günahlarım Səndən gizli deyil". (Zəbur, 69:5)
Gizli yerdə yaradılanda, yerin dərinliklərində hörüləndə bədənim Səndən gizli deyildi. (Zəbur, 139:15)
Oturub-durmağımı bilirsən, niyyətimi uzaqdan anlayarsan… Bütün etdiklərimdən xəbərin var. Hələ sözü ağzıma almadan söyləyəcəyim hər şeyi bilirsən ya Rəbb. Məni hər tərəfdən əhatə etdin… (Zəbur, 139:2-5)
Allah hər işi, hər gizli şeyi mühakimə edəcək... (Vaiz, 12:14)

**Tövratda Allahın tək qüdrət və iradə sahibi olması**

Hər şeyə qüdrəti çatana biz çata bilmərik. Qüdrəti ucadır… (Əyyub, 37:23)
O, kimisini yoxsul, kimisini zəngin edər. Kimisini alçaldar, kimisini yüksəldər. (1 Şamuel, 2:7)
Belə dedi: "Allahın adına əzəldən sonsuzadək təriflər olsun! Müdriklik və qüdrət Ona məxsusdur. Odur zamanları və mövsümləri dəyişdirən. Padşahları taxtdan endirər, taxta çıxarar. Müdriklərə müdriklik, anlayışlı olanlara bilgi verər. Dərin və gizli şeyləri ortaya çıxarar, qaranlıqda nələr olduğunu bilər…" (Daniel, 2:20-22)
… Rəbb ona görünüb "Mən hər şeyə gücü çatan Allaham" dedi, "Mənim yolumda get, qüsursuz ol". (Yaradılış, 17:1)
Hər şeyə gücü çatan Allah səni müqəddəs hesab etsin, xeyirli etsin, soyunu çoxaltsın; soyundan xalqlar törəsin. (Yaradılış, 28:3)
"Mən hər şeyə gücü çatan Allaham" dedi… (Yaradılış, 35:11)
Hər şeyə gücü çatan Allah, adamın qəlbinə sizə qarşı mərhəmət qoysun ki… (Yaradılış, 43:14)
Amma sən səylə Allahı axtarıb hər şeyə gücü çatana yalvarsan... (Əyyub, 8:5)
Hər varlığın canı, bütün insanlığın nəfəsi Onun əlindədir. (Əyyub, 12:10)

Müdriklik və qüdrət Allaha məxsusdur, Ondadır öyüd və ağıl. (Əyyub, 12:13)
Ancaq bu sərvəti toplamaq qabiliyyətini sizə verənin Allahınız Rəbb olduğunu xatırlayın... (Qanunun təkrarı, 8:18)
Onun dağıtdığı düzəldilə bilməz, Onun həbs etdiyi adam azad ola bilməz. Suları kəssə, quraqlıq olar; göndərsə, dünyanı sel basar. Güc və zəfər Ona aiddir… Qaranlıqların dərin sirlərini açar, ölüm kölgəsini işıqlığa çıxarar. Xalqları böyüdər, xalqları yox edər, xalqları çoxaldar, xalqları sürgün edər. (Əyyub, 12:14-16; 22-23)
Ey hakim Rəbb… Göydə və yerdə Sənin etdiyin uca işləri edə biləcək başqa bir Allah yoxdur! (Qanunun təkrarı, 3:24)
O zaman Əyyub…: "Sənin hər şeyi edə biləcəyini bilirəm, heç bir məqsədinə maneə ola bilməz". (Əyyub, 42:1-2)
Sənin kimisi yoxdur… Sən böyüksən, adın da böyükdür gücün sayəsində. (Yeremya, 10:6)
… Dağlara quruluş verən, küləyi yaradan, niyyətini insana bildirən, şəfəqi qaranlığa çevirən… bax, Odur; Onun Adı Rəbb, hər şeyə hakim Allahdır. (Amos, 4:13)
Ülkər və Orion bürclərini yaradan, zülmət qaranlığı səhərə çevirən, gündüzü gecə ilə qaraldan, dəniz sularını gətirib yer üzünə tökənin Adı Rəbbdir. (Amos, 5:8)

**Tövratda Allahın insana ruh verməsi**

Halbuki insana ruh, hər şeyə gücü çatanın nəfəsi ağıl verər. (Əyyub, 32:8)
... Hər şeyə gücü çatanın nəfəsi (ruhu) həyat verir mənə. (Əyyub, 33:4)
Torpaq gəldiyi yerə dönmədən, ruh onu verən Allaha dönmədən, səni yaradanı xatırla. (Vaiz, 12:7)
Göyləri yaradıb genişləndirən, yer üzünü və məhsulunu sərən, dünyadakı insanlara nəfəs, orada yaşayanlara ruh verən Rəbb Allah deyir ki. (Yeşaya, 42:5)
Hakim Rəbb bu sümüklərə belə deyir: "İçinə ruh qoyacağam, canlanacaqsınız". (Yezekel, 37:5)
Sizə əzələlər verəcək, üzərinizdə ət yaradacağam, sizi dəri ilə örtəcəyəm. İçinə ruh qoyacağam, canlanacaqsınız. O zaman Mənim Rəbb olduğumu anlayacaqsınız. (Yezekel, 37:6)
… Mən Rəbbin ruhu ilə və güc, ədalət və cəsarətlə zinətləndim. (Mikeya, 3:8)
Sizə yeni bir ürək verəcək, ona yeni bir ruh qoyacağam. İçinizdəki daşdan ürəyi çıxaracaq, sizə ətdən bir ürək verəcəyəm. Ruhumu ona qoyacağam; qaydalarımı izləməyinizi, buyruqlarıma uyub onları tətbiqinizi təmin edəcəyəm. (Yezekel, 36:26-27)

**Tövratda Allahın sonsuz ədalət sahibi olması**

"Buna görə ey ağıllı insanlar, məni dinləyin! Allah pislik edərmi, hər şeyə gücü çatan haqsızlıq edərmi? Əsla!" (Əyyub, 34:10)
Allah qətiyyən pislik etməz, hər şeyə gücü çatan ədaləti sapdırmaz. (Əyyub, 34:12)
Hər şeyə gücü çatana biz çata bilmərik. Gücü ucadır, ədaləti və bənzərsiz doğruluğu ilə kimsəni əzməz. (Əyyub, 37:23)
Rəbb bütün düşkünləri haqq və ədalətə qovuşdurar. (Zəbur, 103:6)
… Rəb ucadır… ədalət və düzgünlüklə doldurar. (Yeşaya, 33:5)
Hökmdarın gözünə girmək istəyən çoxdur, amma Rəbbdir insanı ədalətə qovuşduran. (Süleymanın məsəlləri, 29:26)
… İşləri qüsursuzdur, bütün yolları doğrudur. O, haqsızlıq etməyən, etibarlı Allahdır. Doğru və ədalətlidir. (Qanunun təkrarı, 32:4)
"Rəb doğrudur!... Onda haqsızlıq olmaz!" deyə eşitdirəcəklər. (Zəbur, 92:15)
"Çünki Mən Rəbb ədaləti sevirəm, nifrət edirəm soyğun və haqsızlıqdan…" (Yeşaya, 61:8)
Amma Rəbb Özündən qorxanları sonsuza qədər sevər, razılaşmasına uyan və buyruqlarına tabe olmağı xatırlayan soylarına (Allahın əmrlərinə uyan, sadiq olanlara) ədalətli davranar. (Zəbur, 103:17-18)
Yenə də Rəbb sizə lütf etməyi həsrətlə gözləyir, sizə mərhəmət göstərmək üçün çalışır. Çünki Rəbb ədalətli Allahdır. Nə xoş Onu həsrətlə gözləyənlərə! (Yeşaya, 30:18)

… İşləri qüsursuzdur, bütün yolları doğrudur. O, haqsızlıq etməyən etibarlı Allahdır. Doğru və ədalətlidir. (Qanunun təkrarı, 32:4)
Başımıza gələn bütün hadisələrdə Sən həmişə ədalətli davrandın, doğru olanı etdin, biz isə pislik etdik. (Nehemya, 9:33)
... Sevinciniz sonsuz olacaq. Çünki Mən Rəbb ədaləti sevirəm... (Yeşaya, 61:7-8)
Rəbb belə deyir: "Müdrik adam müdrikliyi ilə, güclü adam gücü ilə, zəngin adam zənginliyi ilə öyünməsin. Dünyada yaxşılıq edənin, ədaləti, doğruluğu təmin edənin Mən Rəbb olduğumu anlamaqla və Məni tanımaqla öyünsün öyünən. Çünki Mən bunlardan xoşlanıram" deyir Rəbb. (Yeremya, 9:23-24)
Ədalətlə mühakimə edən, qəlbi və fikiri sınayan, Hər şeyə hakim Rəbb, iddiamı Sənin əlinə (təqdirinə, qüdrətinə) buraxıram... (Yeremya, 11:20)
Amma hər şeyə hakim Rəbb ədalətindən ötrü ucaldılacaq... (Yeşaya, 5:16)
Ədalətin sonsuza qədər doğrudur, Qanunun həqiqidir. (Zəbur, 119:142)
Sevgi və ədalətini tərənnümlə xatırlayacağam, Səni ilahilərlə tərifləyəcəyəm ya Rəbb. (Zəbur, 101:1)
Xalqlara "Rəbb hökmranlıq edir" deyin. Dünya möhkəm qurulmuşdur, sarsılmaz. O, xalqları ədalətlə mühakimə edir... Dünyanı ədalətlə, xalqları Öz həqiqəti ilə idarə edəcək. (Zəbur, 96:10-13)
Ya Rəbb, Sənə sığınıram. Utandırma məni heç vaxt! Ədalətinlə qurtar məni! (Zəbur, 31:1)
Doğruluğu, ədaləti sevər; Rəbbin sevgisi yer üzünü doldurar. (Zəbur, 33:5)
Ey ədalətli Allahım! Pislərin pisliyi sona çatsın, doğrular güvənliyə qovuşsun… Allah ədalətli bir hakimdir (ədalətlə hökm verəndir)… (Nehemya, 7:9-11)
… Məndən başqa Allah yoxdur, ədalətli Allah və xilaskar Mənəm. Yoxdur Məndən başqası. (Yeşaya 45:21)
… Allahımız Rəbb etdiyi hər şeydə ədalətlidir. Biz isə Onun sözünə qulaq asmadıq. (Daniel, 9:14)
Müdrik adam qavrasın bunları, anlayan anlasın. Çünki Rəbbin yolları ədalətlidir; bu yollarda getsə, düzələr; amma baş qaldıranlar bu yollarda səndələyər. (Huşə, 14:9)
Rəbb bütün davranışlarında ədalətli, gördüyü bütün işlərdə mehribandır. (Zəbur, 145:17)
Şükür edəcəyəm Sənə təmiz qəlblə, ədalətli hökmlərini öyrəndikcə. Qaydalarını yerinə yetirəcəyəm… (Zəbur, 119:7)
Bilirəm ya Rəbb, hökmlərin ədalətlidir… Ədalətli hökmlərini izləyəcəyəmə and içdim, andımı tutacağam. (Zəbur, 119:75, 106)
Sən ədalətlisən ya Rəbb, hökmlərin doğrudur. Buyurduğun nəsihətlər doğru və tam etibarlıdır… Ədalətin sonsuza qədər doğrudur, Qanunun gerçəkdir. (Zəbur, 119:137-142)
Doğruluğun ulu dağlara bənzəyir, ədalətin ucsuz-bucaqsız dənizlərə. İnsanı da, heyvanı da qoruyan Sənsən ya Rəbb. (Zəbur, 36:6)
Etdiyi hər işdə sadiq və ədalətlidir, bütün şərtləri etibarlıdır; sonsuzadək sürər, sədaqət və düzgünlüklə edilər. (Zəbur, 111:7-8)
Rəbb lütfkar və ədalətlidir, mehribandır Allahımız. (Zəbur, 116:5)

**Tövratda Allahın sevən, mərhəmət sahibi və bağışlayan olması**

Amma Sən bağışlayansan… (Zəbur, 130:4)
Bəlkə… pis yolundan dönər; Mən də günahlarını bağışlayaram. (Yeremya, 36:3)
Sənə qarşı gəldiyimiz halda, Sən acıyan, bağışlayan Allahımız Rəbbsən. (Daniel, 9:9)
Sən yaxşı və bağışlayansan ya Rəbb, Sənə yalvaran hər kəsə bol sevgi göstərərsən. (Zəbur, 86:5)
Yenə də Allah mehriban idi, günahlarını bağışlayır, onları yox etmirdi… (Zəbur, 78:38)
Söz dinləmək istəmədilər, aralarında yaratdığın möcüzələri unutdular. Dikbaşlıq etdilər, köhnə köləlik həyatlarına dönmək üçün özlərinə bir öndər taparaq baş qaldırdılar. Amma Sən bağışlayan, yaxşılıq edən, acıyan… sevgisi hədsiz Allahsan. Onları tərk etmədin. (Nehemya, 9:17)
Rəbb… sevgisi hədsizdir, günahı və üsyanı bağışlayar. Ancaq günahkarı cəzasız buraxmaz… (Səhrada saylar, 14:18)

Minlərlə insana sevgi göstərər, üsyanlarını, günahlarını bağışlayaram. Heç bir günahı cəzasız buraxmaram… (Misirdən çıxış, 34:7)
Bütün günahlarını bağışlayan, bütün xəstəliklərini sağaldan... (Zəbur, 103:3)
… Rəbb də Özündən qorxanlara elə mehriban davranar. (Zəbur, 103:13)
Rəbb mehriban və lütf edəndir… sevgisi hədsizdir… göylər yer üzündən nə qədər yüksək isə, Özündən qorxanlara qarşı sevgisi də o qədər böyükdür. (Zəbur, 103:8-11)
Rəbb lütfkar və mehribandır… Sevgisi hədsizdir. Rəbb hamıya yaxşı davranır, mehribanlığı bütün əsərlərini əhatə edir. (Zəbur, 145:8-9)
Ya Rəbb, xalqları həqiqətən sevirsən… (Qanunun təkrarı, 33:3)
Rəbbi sevin, ey Onun sadiq qulları! Rəbb Özünə bağlı olanları qoruyar, böyüklük edənlərin isə cəzasını verər. (Zəbur, 31:23)
Sığınacağım Sənsən, məni çətinlikdən qoruyub ətrafımı qurtuluş ilahiləri ilə əhatə edərsən. (Zəbur, 32:7)
Qoruyar Rəbb, yaşadar onu, ölkədə xoşbəxt edər, buraxmaz düşmənlərinin əlinə. (Zəbur, 41:2)
Ey sizlər, Rəbbi sevənlər, pislikdən çəkinin. O, sadiq qullarının canını qoruyar, onları pislərin əlindən qurtarar. (Zəbur, 97:10)
Rəbb lütfkar və ədalətlidir, mehribandır Allahımız. Rəbb təmiz insanları qoruyar, tükəndiyim zaman məni qurtardı. (Zəbur, 116:5-6)
Rəbb hər pislikdən səni qoruyar, əsirgəyər canını. (Zəbur, 121:7)
Çətinliyə düşsəm, məni qoruyar… məni qurtarar. (Zəbur, 138:7)
Rəbb qoruyur Özünü sevən hər kəsi, yox edər pislərin hamısını. (Zəbur, 145:20)
Rəbb qəribləri qoruyar; yetimə, dul qadına kömək edər, pislərin yolunu isə sapdırar. (Zəbur, 146:9)
Ədalətli olanların addımlarını qoruyar, sadiq qullarının yolunu güdər. (Süleymanın məsəlləri, 2:8)
Rəbb yaxşıdır, sığınacaqdır çətinlik anında. Qoruyar Özünə sığınanları. (Nahum, 1:7)
Günahlarını gizləyən müvəffəqiyyətli olmaz, etiraf edib tərk edən isə mərhəmət tapar. (Süleymanın məsəlləri, 28:13)
Çünki onlara mərhəmət edən özlərinə yol göstərəcək və onları bulaqlara aparacaq. (Yeşaya, 49:10)
Ey göylər, sevinclə səslənin, nəşə ilə coş ey yer üzü! Ey dağlar, sevinc səslərinə qatılın, çünki Rəbb xalqına təskinlik verəcək, əzilənə mərhəmət göstərəcək. (Yeşaya, 49:13)
Pis adam yolunu, fəsadçı niyyətini buraxsın; Rəbbə dönsün, mərhəmət tapar, Allahımıza dönsün, bol-bol bağışlanar. (Yeşaya, 55:7)
Çünki Rəbb kimsəni sonsuza qədər geri çevirməz. Dərd versə də, böyük sevgisindən ötrü yenə mərhəmət edər. (Mərsiyələr, 3:31-32)
Rəbbin sevgisi heç tükənməz, mərhəməti əsla sona çatmaz; (Mərsiyələr, 3:22)
Doğruluğu, ədaləti sevər, Rəbbin sevgisi yer üzünü doldurar. (Zəbur, 33:5)
Rəbbə şükür edin, çünki O, yaxşıdır, sevgisi sonsuzdur. (1 Salnamələr, 16:34)
Halbuki Sən ya Rəbb, mehriban, lütf edən... sevgisi və sədaqəti bol, bir (olan) Allahsan. (Zəbur, 86:15)
... “Mən mehribanam” deyir Rəbb... (Yeremya, 3:12)
Rəbb bütün davranışlarında ədalətli, etdiyi bütün işlərdə mehribandır. Rəbb Özünə yalvaran, səmimiyyətlə yalvaran hər kəsə yaxındır. (Zəbur, 145:17-18)
Mənə lütflə bax, Adını sevənlərə həmişə etdiyin kimi... Çox mehribansan ya Rəbb, hökmlərinə görə qoru məni. (Zəbur, 119:132, 156)
Rəbb unudulmaz möcüzələr yaratdı; O, mehriban və lütf edəndir. (Zəbur, 111:4)
Çünki Sən doğru adamı müqəddəs hesab edirsən ya Rəbb, ətrafını qalxan kimi lütfünlə sararsan. (Zəbur, 5:12)
… Allahınız Rəbb sizi sevir. (Qanunun təkrarı, 23:5)
Çünki bizə bəslədiyi sevgi böyükdür, Rəbbin sədaqəti sonsuzadək sürər. Rəbbə təriflər deyin! (Zəbur, 117:2)
… Rəbb lütf edər, acıyar... Sevgisi hədsizdir... (Yoel, 2:13)

**Tövratda Allahın hər an**
**hər yerdə olması**

Sənə güclü və ürəkli ol demədimmi? Qorxma, çəkinmə. Çünki Allahın Rəbb gedəcəyin hər yerdə səninlə birlikdə olacaq. (Yeşua, 1:9)
... Getdiyim hər yerdə mənimlə birlikdə olan Allaha... (Yaradılış, 35:3)
... "İşi davam etdirin. Çünki Mən sizinlə birlikdəyəm". Belə deyir hər şeyə hakim Rəbb. (Haqqay, 2:4)
Yusifi tutub zindana, padşahın məhbuslarının bağlı olduğu yerə atdı. Amma Yusif zindanda ikən Rəbb onunla birlikdə idi... (Yaradılış 39, 20-21)
Çünki Rəbb Yusiflə birlikdə idi və etdiyi hər işdə onu müvəffəqiyyətli edirdi. (Yaradılış, 39:23)
… Ya Rəbb, məni hər tərəfdən əhatə etdin… (Zəbur, 139:4-5)
… İbrahimə "Etdiyin hər şeydə Allah səninlədir" dedilər. (Yaradılış, 21:22)
Rəbb onunla birlikdə idi. Etdiyi hər işdə müvəffəqiyyətli oldu… (2 Padşahlar, 18:7)
Davud getdikcə güclənirdi. Çünki hər şeyə hakim Rəbb onunla idi. (1 Salnamələr, 11:9)
Şamuel böyüyərkən Rəbb onunla birlikdə idi... (1 Şamuel, 3:19)
Haqqımdakı düşüncələrin necə dəyərlidir ey Allah, sayları nə çoxdur! Qum dənələrindən çoxdur, saymağa çalışsam. Oyanıram, yenə Səninləyəm. (Zəbur, 139:17-18)
… Çünki Allahı, hər yandan onu xoşbəxtliklə əhatə etmişdi. (2 Salnamələr, 20:30)
… Rəbbi istəklə axtarıb tapdılar. O da onları hər yandan xoşbəxtliklə əhatə etdi. (2 Salnamələr, 15:15)
Rəbb onunla birlikdə olduğundan etdiyi hər işdə müvəffəqiyyətli idi. (1 Şamuel, 18:14)

**Tövratda Allahın ruzi verən olması**

Budur, yer üzündə toxum verən hər otu, toxumu meyvəsində olan hər meyvə ağacını sizə verirəm. Bunlar sizə yemək olacaq. (Yaradılış, 1:29)
"Vəhşi heyvanlara, göydəki quşlara, sürünənlərə (nəfəs alıb-verən bütün heyvanlara) yemək olaraq yaşıl otları verirəm"... (Yaradılış, 1:30)
Bütün canlılar sizə yemək olacaq. Yaşıl bitkilər kimi, hamısını sizə verirəm. (Yaradılış, 9:3)
Yetimlərin, dul qadınların haqqını güdər. Qəribləri sevər, onları yeməklə, geyimlə təmin edər. (Qanunun təkrarı, 10:18)
Bütün canlılara yemək verənə sevgisi sonsuzdur; şükür edin göylərin Allahına, sevgisi sonsuzdur. (Zəbur, 136:25-26)
Odur göyləri buludlarla örtən, yer üzünə yağış yağdıran, dağlarda ot bitirən. O, yemək verər heyvanlara, qarıldaşan quzğun balalarına. (Zəbur, 147:8-9)
… Susadıqlarında onlara su verdin. Qırx il onları səhrada bəslədin. Heç korluq çəkmədilər… Gözəl əşyalarla dolu evlərə, qazılmış su anbarlarına, bağlara, zeytunluqlara, çoxlu meyvə ağacına sahib oldular. Yedilər, doydular, bəsləndilər və onlara etdiyin böyük yaxşılıqlara sevindilər. (Nehemya, 9:20-21, 25)
Rəbb unudulmaz möcüzələr yaratdı; O, mehriban və lütf edəndir. Özündən qorxanları bəsləyər (ruzi verər)... (Zəbur, 111:4-5)

**Tövratda Allahın hakimliyinin**
**hər şeyi əhatə etməsi**

Göylər də, göylərin göyləri də, yer üzü və içindəki hər şey  Allahınız Rəbbindir. (Qanunun təkrarı, 10:14)
Allahımız Rəbb Odur, mühakimələri bütün yer üzünü əhatə edər. (1 Salnamələr, 16:14; Zəbur, 105:7)
Göylərə çıxsam, oradasan; ölülər diyarına (cəhənnəmə) yataq sərsəm, yenə oradasan. Səhərin qanadlarını alıb uçsam, dənizin kənarına qonsam, orada belə əlin yol göstərər mənə… (Zəbur, 139:8-10)
Məni hər tərəfdən əhatə etdin, əlini üzərimə qoydun. (Zəbur, 139:5)
Ya Rəbb, böyüklük, güc, ucalıq, zəfər və əzəmət Sənindir. Göydə və yerdə olan hər şey Sənindir. Hökmranlıq Sənindir ya Rəbb! Sən hər şeydən ucasan. Zənginlik və şəraf Səndən gələr. Hər şeyə hakimsən. Güc və səlahiyyət Sənin əlindədir. Birini yüksəltmək və gücləndirmək Sənin əlindədir. (1 Salnamələr, 29:11-12)

O qurtarar, O yaşadar; göydə də yerdə də əlamətlər yaradar, heyran edici işlər görər. (Daniel, 6:27)
Gücü ilə yer üzünü yaradan, müdrikliyi ilə dünyanı quran, ağlı ilə göyləri yayan Rəbbdir. (Yeremya, 10:12)
Ey hakimimiz Rəbb, nə uca Adın var bütün yer üzündə! Səmanı əzəmətinlə örtdün. (Zəbur, 8:1)
İşığı formalaşdıran, qaranlığı yaradan, xoşbəxtlik və fəlakəti yaradan, bütün bunları edən Rəbb Mənəm. (Yeşaya, 45:7)
… Allahınız Rəbb həm yuxarıda göylərdə, həm də aşağıda yer üzündə Allahdır. (Yeşua, 2:11)

**Tövratda Allahın hər cür nöqsandan münəzzəh olması**

Sığınacağın dövrlər boyu var olan Allahdır, səni daşıyan Onun yorulmaz qollarıdır… (Qanunun təkrarı, 33:27)
Bilmirsənmi? Eşitmədinmi? Əbədi Allah, Rəbb, bütün dünyanı yaradan nə yorular, nə də zəifləyər; Onun bilgisi qavranmaz. (Yeşaya, 40:28)

## TÖVRATDA AXİRƏTƏ İMAN

### Tövratda yenidən diriliş

Yer üzünün torpağında yatanların bir çoxu oyanacaq: Kimisi sonsuz həyata, kimisi rüsvayçılığa və sonsuz pisliyə göndəriləcək. (Daniel, 12:2)
"Məzarlarınızı açıb sizi çıxardığım zaman Mənim Rəbb olduğumu anlayacaqsan... Ruhumu içinə qoyacağam, canlanacaqsınız..." belə deyir Rəbb. (Yezekel, 37:13-14)
... Sənin ölülərin yaşayacaq, bədənləri diriləcək. Ey sizlər, torpaq altında yatanlar, oyanın, tərənnümlər söyləyin... torpaq ölülərini həyata qovuşduracaq. (Yeşaya, 26:19)
Ya Rəbb, məni ölülər diyarından çıxardın, həyat verdin mənə, ölüm quyusuna salmadın. (Zəbur, 30:3)
"Sənə gəlincə ey Daniel, son gələnə qədər yoluna davam et. Rahata qovuşacaqsan və günlərin sonunda payına düşən mirası almaq üçün oyanacaqsan". (Daniel, 12:13)

### Tövratda qiyamət günü

İzdihamlar, mühakimə vadisini dolduran nə qədər izdihamlar... Mühakimə vadisində Rəbbin günü yaxınlaşdı. Günəş və Ay qaralır, ulduzların parıltısı görünməz olur… Göy və yer sarsılacaq… (Yoel, 3:14-16)
Göylərdə və yer üzündə qan, atəş və duman sütunlarından əlamətlər göstərəcəyəm. Rəbbin böyük və qorxunc günü gəlmədən əvvəl Günəş qaralacaq, Ay qan rənginə dönəcək... (Yoel, 2:30-31)
Yer üzü önlərində sarsılır, səma titrəyir; Günəş və Ay qaralır, ulduzların parıltısı görünməz olur… Rəbbin o böyük günü nə qorxuncdur! O günə kim dözə bilər? (Yoel, 2:10-11)
Ölüləri çölə atılacaq... Bütün göy cisimləri kiçiləcək, göylər bir rulon kimi büküləcək; göy cisimləri asma və əncir yarpağı kimi töküləcək. (Yeşaya, 34:3-4)
Rəbbin böyük günü yaxındır, yaxındır və çox tez gələr Rəbb gününün səsi! İgid orada acı ilə qışqırar. O gün qəzəb günüdür, çətinlik və darlıq günü, xarabedici və viranlıq günü, qaranlıq və qaraltı günü, buludlar və tünd qaranlıq günüdür; Rəbb deyir ki, "İnsanları elə bir fəlakətə uğradacağam ki, korlar kimi, hara getdiklərini görə bilməyəcəklər. Çünki Mənə qarşı günah işlədilər. Rəbbin qəzəb günündə qızılları da, gümüşləri də onları qurtara bilməyəcək". (Sefanya, 1:14-18)
Ah o gün! Çünki Rəbbin günü yaxın və hər şeyə qadir olan tərəfindən bir dağıdıcı kimi gəlir. (Yoel, 1:15)
… Ölkədə yaşayan hər kəs qorxudan titrəsin. Çünki Rəbbin günü çox yaxınlaşdı, gəlir. (Yoel, 2:1)
… Rəbbin günü yaxındır. Hər şeyə gücü çatanın göndərəcəyi dağıdıcı kimi gəlir o gün. Buna görə, əllərdə dərman qalmayacaq, hər ürək əriyəcək. Hər kəsi dəhşət bürüyəcək, hamısı acı və iztirab içində boğulacaq, doğan qadın kimi qıvrılacaq, çaşqın halda bir-birlərinə baxacaqlar; üzləri qızaracaq. Budur, Rəbbin mərhəmətsiz günü gəlir. Ölkəni viranəyə

çevirib içindəki günahkarları ortadan qaldıracağı qəzəb və qızğın hirs dolu gün gəlir. Göydəki ulduzlarla bürclər işıldamayacaq, doğan Günəş qaralacaq, Ay işıq saçmayacaq. Rəbb deyir ki, "Pisliyindən ötrü dünyanı, günahlarından ötrü pisləri cəzalandıracağam. Kibirlilərin həyasızlığını sona çatdıracaq, zalımların qürurunu qıracağam". (Yeşaya, 13:6-11)
Hər şeyə hakim Rəbb deyir ki, "Budur, o gün gəlir, soba kimi yanır. Özünü bəyənmişlərlə pislik edənlər samandan fərqsiz olacaq; o gün hamısı yanacaq. Onlarda nə kök, nə budaq buraxılacaq". (Malaki, 4:1)
Rəbb qalxıb yer üzünü sarsıtmağa başlayınca insanlar Onun dəhşətindən və uca əzəmətindən qaçmaq üçün qayalıq mağaralarda, yeraltı oyuqlarda gizlənəcəklər. (Yeşaya, 2:19)
… O gün işıqlıq deyil, qaranlıq olacaq. Necə ki, biri aslanın önündən qaçarkən qarşısına ayı çıxar, evinə dönər. Əlini divara söykəyər və əlini ilan sancar. Rəbbin günü işıqlıq deyil, qaranlıq olmayacaqmı? Həm də zülmət qaranlıq, bir parıltı belə yoxdur. (Amos, 5:18-20)
Hər vadi yüksəldiləcək; hər dağ, hər təpə alçaldılacaq. Beləliklə, kələ-kötür yerlər düzləşdiriləcək, sıldırım yerlər düzənliyə çevriləcək. O vaxt Rəbbin ucalığı görünəcək, bütün insanlar birlikdə onu görəcək. Bunu söyləyən Rəbbdir". (Yeşaya, 40:4-5)
Rəbb uzaqdakı xalqları bir bayraq işarəsi ilə, dünyanın ən uzaq yerindəkiləri fit səsi ilə çağıracaq; sürətlə, dərhal gələcəklər... Torpağa baxan biri qaranlıq və sıxıntı görəcək. İşıq qaranlıq buludlarla örtüləcək. (Yeşaya, 5:26, 30)

**Tövratda hesab günü**

İzdihamlar, mühakimə vadisini dolduran nə qədər izdihamlar... Mühakimə vadisində Rəbbin günü yaxınlaşdı. (Yoel, 3:14)
Sən ey hörmətsiz (Allahın hökmlərinə uymayan)... günün yaxınlaşdı, sonda mühakimə günün gəldi. Hakim Rəbb belə deyir: … Artıq əvvəlki kimi olmayacaq. Təvazökar yüksəldiləcək, qürurlu alçaldılacaq. (Yezekel, 21:25-26)
Çünki bütün millətlər üçün Rəbbin günü yaxındır; sən necə etdinsə, sənə elə ediləcək; işlədiyinin qarşılığı özünə dönəcək. (Avdiya, 1:15)
Pislər belə deyil, küləyin sovurduğu saman zibilinə bənzərlər. Buna görə, mühakimə olununca bəraət ala bilməzlər; günahkarlar doğrular birliyində yer tapa bilməzlər. Çünki Rəbb doğruların yoluna diqqət edər, pislərin yolu isə ölümə aparar. (Zəbur, 1:4-6)
Ədalətli mühakimələri ilə Rəbb Özünü göstərdi, pislər öz qurduqları tələyə düşdü. Pislər ölülər diyarına (Cəhənnəmə) gedəcək, Allahı unudan bütün xalqlar... (Zəbur, 9:16-17)
Doğru adama yaxşılıq görəcəyini söyləyin. Çünki yaxşılıqlarının meyvəsini yeyəcək. Vay pislərin halına! Pislik görəcəklər, etdiklərinin qarşılığını alacaqlar. (Yeşaya, 3:10-11)
… Onların günü yaxınlaşdı, sonunda mühakimə günləri gəldi. (Yezekel, 21:29)
… Peyğəmbərlərinin xəbərdar etdiyi kimi, cəzalandırılacaqları gün gəlib çatdı. Qarışıqlıq içindədirlər indi. (Əyyub, 7:4)
Rəbbin böyük günü yaxınlaşdı, yaxınlaşdı və tez gəlir. Dinləyin, Rəbbin günündə ən igid əsgər belə acı ilə fəryad edəcək. Əzab günüdür o gün! Acı və sıxıntı, bəla və fəlakət, zülmət qaranlıq bir gün olacaq; buludlu, tünd qaranlıq bir gün... Korlar kimi hara getdiklərini görə bilməyəcəklər... Rəbbin əzab günündə qızılları da, gümüşləri də onları qurtara bilməyəcək. (Sefanya, 1:14-18)

**Tövratda Cəhənnəm**

**(Tövratda keçən "ölülər diyarı" ifadələri "Cəhənnəm" mənasında istifadə edilmişdir)**

... Dinsizləri titrəməyə başladı: "Hər şeyi yeyən atəşin yanında hansımız otura bilərik? Sonsuza qədər sönməyəcək alovun yanında hansımız yaşaya bilərik?" deyə soruşurlar. (Yeşaya, 33:14)
Dönüşü olmayan yerə getmədən əvvəl, qaranlıq və ölüm kölgəsi diyarına, zülmət qaranlıq diyarına, ölüm kölgəsi və qarışıqlıq diyarına, işıqlığın qaranlığı xatırlatdığı yerə (Cəhənnəmə). (Əyyub 10:21-22)
... Kimisi sonsuz həyata (Cənnətə), kimisi rüsvayçılığa və sonsuz pisliyə göndəriləcək. (Daniel, 12:3)

Quraqlıq və istinin əriyən qarı götürüb apardığı kimi, ölülər diyarı (Cəhənnəm) da günahkarları götürüb aparar. (Əyyub, 24:19)
Bir buludun dağılıb getməsi kimi, ölülər diyarına (Cəhənnəmə) enən bir daha çıxmaz. (Əyyub, 7:9)
Ölüm və bəla diyarı (Cəhənnəm) insana doymaz... (Süleymanın məsəlləri, 27:20)
Çünki mənə sevgin böyükdür, məni ölülər diyarının (Cəhənnəmin) dərinliklərindən Sən qurtardın. (Zəbur, 86:13)
Onlara üz çevirəcəyəm... atəş onları yenə də yandırıb yox edəcək... (Yezekel, 15:6)
... Sizə qarşı əzabım atəş kimi alovlanıb ölülər diyarının (Cəhənnəmin) dərinliklərinə qədər yanacaq... (Qanunun təkrarı, 32:22)
Buna görə doymaq bilməyən ölülər diyarı ağzını arxasına qədər açdı... Hamısı alçaldılacaq; boyun əydiriləcəklər, lovğa baxışları alçaldılacaq. (Yeşaya, 5:14-15)
... Diri-diri ölülər diyarına (Cəhənnəmə) ensinlər; çünki içləri və evləri pisliklə doludur. (Zəbur, 55:15)
Rəbb öldürər də, dirildər də; ölülər diyarına (Cəhənnəm) endirər və çıxarar. (1 Şamuel, 2:6)
Sahib olduqları hər şeylə birlikdə diri-diri ölülər diyarına (Cəhənnəmə) endilər... (Səhrada saylar, 16:33)
“Bəsdir” deməyən dörd şey vardır: Ölülər diyarı (Cəhənnəm)... (Süleymanın məsəlləri, 30:15-16)
Axmaqların yolu, onların sözünü təsdiqləyənlərin sonu budur. Sürü kimi ölülər diyarına (Cəhənnəmə) süründürüləcəklər… Ölülər diyarı onlara iqamətgah olacaq. Amma Allah məni ölülər diyarının pəncəsindən qurtaracaq və yanına (Cənnətinə) aparacaq. (Zəbur, 49:13-15)
Ancaq ölülər diyarına, ölüm quyusunun (Cəhənnəmin) dibinə endirilmiş olarsan. Səni görənlər baxıb belə düşünəcəklər: "Dünyanı sarsıdan, ölkələri titrədən, yer üzünü səhraya çevirən, şəhərləri yerlə bir edən, məhbusları evlərinə buraxmayan adam bumu?" (Yeşaya 14:15-17)
Günahı yalanla hörülmüş iplərlə, günahı araba kəndiri ilə çəkənlərin vay halına!... Pisə yaxşı, yaxşıya pis deyənlərin, qaranlığı işıq, işığı qaranlıq yerinə qoyanların, acıya şirin, şirinə acı deyənlərin vay halına! Özlərini müdrik görənlərin, ağıllı sananların vay halına! Şərab içməkdən qorxmayanların, içkiləri qarışdırıb içməkdən çəkinməyənlərin, rüşvət uğruna pisi haqlı çıxaranların, haqlıların haqqını əlindən alanların vay halına! Alov-alov yanan atəş samanı necə yeyirsə, quru ot alovun içində necə birdən alovlanıb yox olursa, onlar da kökdən çürüyüb gedəcək, çiçəkləri toz kimi havaya sovrulacaq. Çünki hər şeyə hakim Rəbbin Qanununu rədd etdilər... (Yeşaya, 5:18-24)
… Ya Rəbb, Sənə səslənirəm; pislər utansın, ölülər diyarında (Cəhənnəmdə) səsləri kəsilsin. (Zəbur, 31:17)
Rəbb ölüm və bəla diyarında (Cəhənnəmdə) olanları bilər... (Süleymanın məsəlləri, 15:11)
Rəbb deyir ki, "... Nəfəsiniz sizi yeyən bir atəş olacaq. Xalqlar yanıb kül olacaq, kəsilib yandırılan tikanlı kol kimi olacaq". (Yeşaya, 33:10-12)
... Elçilərinizi də uzaqlara göndərdiniz, ölülər diyarına (Cəhənnəmə) qədər alçaltdınız özünüzü. (Yeşaya, 57:9)
... Sən məni ölülər diyarına (Cəhənnəmə) tərk etməzsən, sadiq qulunun çürüməsinə icazə verməzsən. (Zəbur, 16:10)
Amma pislər bəlaya uğrayacaq; Rəbbin düşmənləri tarla çiçəkləri kimi quruyub gedəcək, tüstü kimi dağılıb yox olacaq. (Zəbur, 37:20)
Amma baş qaldıranlarla günahkarlar birlikdə bəlaya uğrayacaqlar... (Yeşaya, 1:28)
Pislik edənlərə hirslənib kədərlənmə, onlara can yandırma. Çünki pislərin gələcəyi yoxdur, onların çırası sönəcək. (Süleymanın məsəlləri, 24:19-20)
Rəbb sadiq qullarının addımlarını qoruyar, amma pislər qaranlıqda susdurular. Çünki güclə zəfərə çata bilməz insan. (1 Şamuel, 2:9)
Amma pislər çalxalanan dəniz kimidir, o dəniz ki, rahat dayana bilməz, suları palçıq və pislik sovurar. "Pislərə xoşbəxtlik yoxdur" deyir Allahım. (Yeşaya, 57:20-21)
Allahımız Rəbb etdikləri pisliyi öz başlarına gətirəcək, pislikləri üzündən köklərini qurudacaq, bəli, köklərini qurudacaq. (Zəbur, 94: 23)

**Tövratda Cənnət**

**(Tövratda keçən sonsuz "həyat" və "həyat diyarı" ifadələri Cənnət mənasında istifadə edilmişdir)**

... Kimisi sonsuz həyata, kimisi rüsvayçılığa və sonsuz pisliyə göndəriləcək. Müdriklər göy qübbəsi kimi, bir çoxlarını doğru yola çevirənlər ulduzlar kimi sonsuza qədər parlayacaqlar. (Daniel, 12:2-3)
Ağıllı adam yuxarıya, həyata gedən yoldadır; bu da ölülər diyarına enməsini önləyər. (Süleymanın məsəlləri, 15:24)
Həyat diyarında Rəbbin yaxşılığını görəcəyimə şübhə etmirəm. (Zəbur, 27:13)
Yaşayanların diyarında, Rəbbin hüzurunda gedəcəyəm. (Zəbur, 116:9)
… Çünki insan sonsuzluq evinə gedəcək... Torpaq gəldiyi yerə dönmədən, ruh onu verən Allaha dönmədən səni yaradanı xatırla. (Vaiz, 12:5-7)
Amma doğru yolda gedib doğru-dürüst danışan, qaniçənliklə əldə edilən qazancı rədd edən, əlini rüşvətdən uzaq tutan, qan tökənlərin təlqinlərinə qulaq asmayan, pislik görməyə dözə bilməyən, yüksəklərdə oturacaq; uçurumun başındakı qalalar onun qoruyucusu olacaq, çörəyi təmin ediləcək, heç susuz qalmayacaq. (Yeşaya, 33:15-16)
O gün... özləri üçün seçdiyim ən gözəl ölkəyə, süd və bal axan ölkəyə aparacağıma söz verdim. (Yezekel, 20:6)
"Pislər yıxılıb yox olarlar, lakin salehlərin evi qalar..." (Süleymanın məsəlləri, 12:7)
Ey Allah... öndərlik et mənə sonsuz həyat yolunda! (Zəbur, 139:23-24)
O gün deyəcəklər ki, "Bax, Allahımız budur; Ona ümid bağlamışdıq, bizi qurtardı, Rəbb Odur, Ona ümid bağlamışdıq, Onun xilası ilə sevinib coşaq". (Yeşaya, Bap 25:9)
"Salehin səmərəsi həyat ağacıdır". (Süleymanın məsəlləri, 11:30)

**Hz Adəm və Cənnət bağçası**

Rəbb Allah şərqdə, Adendə bir bağça tikdi. Yaratdığı Adəmi oraya qoydu. (Yaradılış, 2:8)
... Rəbb Yahva belə deyir: "Qüsursuzluqda nümunə idin, müdrikliyin və gözəlliyin nöqsansız idi. Sən Allahın bağçası Adendə idin. Yaqut, topaz, ay daşı, sarı yaqut, oniks, yaşma, lacivərd daşı, firuzə, zümrüd və müxtəlif qiymətli daşla bəzənmişdin. Naxış və oyma işlərinin hamısı qızıldan idi. Bunlar yaradıldığın gün hazırlanmışdılar". (Yezekel, 28:12)
Beləcə, Rəbb Allah yaradıldığı torpağı hazırlamaq üçün Adəmi Aden bağçasından çıxardı... (Yaradılış, 3:23)

## TÖVRATDA İMANIN GƏRƏKLƏRİ

**Tövratda Allaha şirk qoşmadan iman etmək**

… Allahın Rəbb Mənəm, Məndən başqa Allah tanımayacaqsan, çünki başqa xilaskar yoxdur. (Huşə, 13:4)
"Ya Rəbb… yerdə və göydə Sənə bənzər başqa Allah yoxdur" dedi… (1 Padşahlar, 8:23)
Rəbb Mənəm, başqası yoxdur, Məndən başqa Allah yoxdur… Belə ki, şərqdən qərbə qədər Məndən başqası olmadığını hər kəs bilsin. Rəbb Mənəm, başqası yoxdur. (Yeşaya, 45:5-6)
"… Allahın Rəbb Mənəm. Məndən başqa Allahın olmayacaq. Özünə yuxarıda-səmada, aşağıda-yer üzündə, yaxud da yeraltı sularda yaşayan hər hansı bir canlıya bənzər büt qəbul etməyəcəksən. Bütlərin önündə əyilməyəcək, onlara tapınmayacaqsan..." (Misirdən çıxış, 20:2-5)
Hər şeyə hakim Rəbb deyir ki, "İlk və son Mənəm, Məndən başqa Allah yoxdur". (Yeşaya, 44:6)
Bütlərə şəkil verənlərin hamısı faydasız insanlardır. Dəyər verdikləri şeylər heç bir işə yaramaz. Bütlərin şahidləri onlardır; nə bir şey görər, nə də bir şey bilərlər. Bunun nəticəsində utanacaqlar. Kim faydasız ilaha şəkil verib tökmə büt düzəltmək istəyər? Baxın, bu bütlərlə məşğul olanların hamısı utanacaq. Onları edənlər insandır. Hamısı toplanıb mühakimə olunmağa gəlsinlər. Dəhşətə bürünəcək və utanacaqlar birlikdə. (Yeşaya, 49:9-11)

… Taxtadan oyma bütlər daşıyan, xilas edə bilməyən ilahlara yalvaranlar bilgisizdir… Məndən başqa Allah yoxdur, ədalətli Allah və xilaskar Mənəm. Yoxdur Məndən başqası. "Ey dünyanın dörd bucağındakılar, Mənə dönün, xilas olarsınız. Çünki Allah Mənəm, başqası yoxdur". (Yeşaya, 45:20-22)
... Allahınız Rəbb Mənəm, başqa biri yoxdur... (Yoel, 2:27)
Allahınız Rəbbdən qorxacaqsınız; Ona qulluq edəcək və Onun adı ilə and içəcəksiniz. Başqa ilahların, ətrafınızdakı xalqların tapındığı heç bir ilahın ardınca getməyəcəksiniz. (Qanunun təkrarı, 6:13-14)
... Məndən əvvəl bir Allah olmadı, Məndən sonra da olmayacaq. "Mən, tək mən Rəbbəm, Məndən başqa xilaskar yoxdur. Mən bildirdim, Mən qurtardım, Mən eşitdirdim, aranızdakı özgə ilahlar deyil… Allah Mənəm, əzəldən mən Oyam… Mən edərəm, kim mane ola bilər?" (Yeşaya, 43:10-13)
İnsanın şəkil verdiyi oyma, yaxud tökmə bütün nə faydası var ki, aldatmaqdan başqa? Bütü düzəldən işinə güvənər, lakin düzəltdiyi nədir ki, dilsiz bütdən başqa. Taxta bütə “Canlan!” deyənin, dilsiz daşa “Oyan” deyənin vay halına! Büt yol göstərə bilərmi? Qızıl və gümüşlə örtülmüş, lakin içində həyat nəfəsi yoxdur. (Habaqquq, 2:18-19)
Hamısı tam mənasızdır, etdikləri də bir heçdir. Xalqın bütləri yalnız yeldir, sıfırdır. (Yeşaya, 41:29)
Ya Rəbb, Allahım, möcüzələrin, düşüncələrin necə də çoxdur bizim üçün; Sənə ortaq qoşulmaz! Eşitdirmək, bildirmək istəsəm etdiklərini, saymaqla bitməz. (Zəbur, 40:5)
... Rəbbə kim ortaq qoşular?... Ya Rəbb, hər şeyə hakim Allah, Sənin kimi güclü Rəbb varmı?... Göylər Sənindir, yer üzü də Sənindir; dünyanın və içindəki hər şeyin təməlini Sən atdın. (Zəbur, 89:6, 8, 11)
Oyma bütlərə güvənənlər və tökmə bütlərə “İlahlarımız sizsiniz” deyənlər isə geri çevrilib tamamilə utandırılacaqlar. (Yeşaya, 42:17)
Amma siz yollarımdan sapıb, qaydalarımı və buyruqlarımı buraxıb və gedib başqa ilahlara qulluq edib tapınsanız, sizə verdiyim ölkədən sizi götürüb atacağam… (2 Salnamələr, 7:19-20)
Onların ilahları önündə əyilməyəcək, tapınmayacaqsınız; adətlərini izləməyəcəksiniz. Əksinə, ilahlarını yox edəcək, ucaldılmış daşlarını tamamilə parçalayacaqsınız. Allahınız Rəbbə tapınacaqsınız... (Misirdən çıxış, 23:24-25)
Allahınız Rəbbin sizə buyurduğu razılaşmanı pozsanız və gedib başqa ilahlara qulluq edib tapınsanız, Rəbbin qəzəbi sizə qarşı alovlanacaq; Rəbbin sizə verdiyi bu gözəl ölkədən tez yox olub gedəcəksiniz. (Yeşua, 23:16)
Rəbbdən başqa bir ilaha qurban kəsən həlak ediləcək. (Misirdən çıxış, 22:20)
Siz isə Məni buraxdınız və başqa ilahlara qulluq etdiniz... (Hakimlər, 10:13)

**Tövratda Allaha şükür etmək**

Üstəlik Allah insana mal-mülk verirsə və onu yeməsi, mükafatını alması, etdiyi işdən xoşbəxtlik hissi keçirməsi üçün ona güc verirsə, bu bir Allah hədiyyəsidir. (Vaiz, 5:19)
Ey Rəbbin sadiq qulları, Onu ilahilərlə öyün, müqəddəsliyini xatırlayaraq Ona şükür edin. Belə ki, könlüm Səni ilahilərlə tərifləsin, susmasın! Ya Rəbb Allahım, Sənə davamlı şükür edəcəyəm. (Zəbur, 30:4, 12)
Davamlı Sənə şükür edərəm etdiklərin üçün… (Zəbur, 52:9)
Sənə şükür edirik ey Allah, şükür edirik, çünki Sən yaxınsan, möcüzələrin bunu göstərir. (Zəbur, 75:1)
Bizlər… sonsuza qədər şükür edəcəyik. Sənə nəsillər boyu tariflərini dilimizdən salmayacağıq. (Zəbur, 79:13)
Dedi ki, "Bu dünyaya çılpaq gəldim, çılpaq gedəcəyəm. Rəbb verdi, Rəbb aldı, Rəbbin adına təriflər olsun!" (Əyyub 1:21)
… Allah tərif və şükürlə tərənnüm edilərdi. (Nehemya, 12:46)
Evlərinə şükürlə, həyətlərinə həmd ilə girin; Ona şükür edin, adını təqdis edin. (Zəbur, 100:4)
Ya Rəbb, bütün qəlbimlə Sənə şükür edəcəyəm, yaratdığın möcüzələrin hamısını bildirəcəyəm. Səndə sevinc tapıb coşacağam, adını ilahilərlə tərifləyəcəyəm, ey ucalar ucası! (Zəbur, 9:1-2)
Zənginlik və şərəf Səndən gələr. Hər şeyə hakimsən. Güc və ixtiyar Sənin əlindədir. Birisini yüksəltmək və gücləndirmək Sənin əlindədir. İndi ey Allahımız, Sənə şükür edirik, böyük adını tərifləyirik. (1 Salnamələr, 12-13)
Təriflər deyin Rəbbə! Rəbbə şükür edin. Çünki O, yaxşıdır, sevgisi sonsuzdur. (Zəbur, 106:1)
Təriflər deyin Rəbbə! Doğru insanların yığıncağında, birlik içində, bütün qəlbimlə Rəbbə şükür edəcəyəm. (Zəbur, 111:1)

Rəbbə şükür edin. Çünki O, yaxşıdır, sevgisi sonsuzdur. Şükür etsinlər Rəbbə sevgisi üçün, insanların faydasına yaratdığı möcüzələr üçün. Çünki O, susamış canın susuzluğunu aradan qaldırar, ac canı yaxşı şeylərlə doyurar. (Zəbur, 107:1, 7-9)
Bütün qəlbimlə Sənə şükür edirəm ya Rəbb… Səni ilahilərlə tərifləyirəm… Adına şükür edirəm sevgin, sədaqətin üçün… Səsləndiyim gün mənə cavab verdin, mənə güc verdin, məni ürəkləndirdin. Şükür etsin Sənə ya Rəbb, yer üzü padşahlarının hamısı… (Zəbur, 138:1-4)
Bütün yaratdqıların Sənə şükür edər ya Rəbb, sadiq qulların Sənə təriflər deyər. (Zəbur, 145:10)
Ey atalarımın Allahı, Sənə şükür edər, Səni tərifləyərəm. Sən ki, mənə müdriklik və güc verdin; Səndən istədiklərimizi mənə bildirdin… (Daniel, 2:23)
Şükür edəcəyəm Sənə təmiz qəlblə, ədalətli hökmlərini öyrəndikcə. Qaydalarını yerinə yetirəcəyəm, buraxma məni heç bir zaman! (Zəbur, 119:7-8)
Rəbbə şükür edin. Çünki O, yaxşıdır, sevgisi sonsuzdur… Açın mənə ədalət qapılarını, girib Rəbbə şükür edim. Bax, budur Rəbbin qapısı! Doğrular girə bilər oradan. Sənə şükür edirəm, çünki mənə cavab verdin, xilaskarım oldun… Allahım Sənsən, şükür edirəm Sənə, Allahım Sənsən, ucaldaram Səni. Rəbbə şükür edin. Çünki O, yaxşıdır, sevgisi sonsuzdur. (Zəbur, 118:1, 19-21, 28-29)
Ya Rəbb Allahım, bütün qəlbimlə Sənə şükür edəcəyəm, adını sonsuza qədər ucaldacağam. Çünki mənə sevgin böyükdür, məni ölülər diyarının dərinliklərindən Sən qurtardın. (Zəbur, 86:12-13)
… Rəbbə şükür edin, çünki sevgisi sonsuza qədər qalıcıdır! (2 Salnamələr, 20:21)
Rəbbə şükür edin, Ona yalvarın, xalqlara bildirin etdiklərini! Onu tərənnümlə, ilahilərlə öyün, bütün möcüzələrini bildirin! Müqəddəs adı ilə öyünün, sevinsin Rəbbə yönələnlər! (1 Salnamələr, 16:8-10)
Rəbbə şükür etmək, təriflər demək üçün hər səhər və axşam məbəddə hazır olacaydılar. (1 Salnamələr, 23:30)
Ya Rəbb, Sənə şükür etmək, ey ucalar ucası, adını ilahilərlə tərifləmək, səhər sevgini, gecə sədaqətini… eşitdirmək nə gözəldir! (Zəbur, 92:1-3)
Ey doğrular, Rəbbdə sevinc tapın, müqəddəsliyini xatırlayaraq Ona şükür edin! (Zəbur, 97:12)
Evlərinə şükürlə, həyətlərinə təriflə girin! Şükür edin Ona, adına təriflər deyin! Çünki Rəbb yaxşıdır, sevgisi sonsuzdur. Sədaqəti nəsillər boyu sürər. (Zəbur, 100:4-5)
Rəbbə şükür edin, Ona yalvarın, xalqlara bildirin etdiklərini! Onu tərənnümlə, ilahilərlə öyün, bütün möcüzələrini bildirin! (Zəbur, 105:1-2)
Şükür edin Rəbbə. Çünki O, yaxşıdır, sevgisi sonsuzdur; (Zəbur, 136:1)
… "Ya Rəbb, Sənə şükür edirik… Allah xilasımızdır. Ona güvənəcəyik və qorxmayacağıq. Çünki Rəbb gücümüz və tərənnümümüzdür. O qurtardı bizi"… O gün deyəcəksiniz ki, "Rəbbə şükür edin, Ona yalvarın, xalqlara bildirin etdiklərini, adının uca olduğunu bildirin! (Yeşaya, 12:1-4)
Xalqlar Sənə şükür etsin ey Allah, bütün xalqlar Sənə şükür etsin! Xalqlar sevinsin, sevincdən səslənsin, çünki Sən xalqları ədalətlə mühakimə edərsən, yer üzündəki xalqlara yol göstərərsən. (Zəbur, 67:3-4)
Təriflər deyin Rəbbə! Təriflər deyin ey Rəbbin qulları, Rəbbin adına təriflər deyin! (Zəbur, 113:1)

**Tövratda Allaha təvəkkül etmək**

Rəbb mənim gücüm, qalxanımdır, Ona ürəkdən güvənir və kömək görürəm… (Zəbur, 28:7)
Rəbbə güvənənlər… sarsılmaz, sonsuza qədər qalar. (Zəbur, 125:1)
Belə dedi: "Rəbb mənim gücüm, sığınacağım, xilaskarımdır. Allahım… Ona sığınıram; qalxanım, güclü xilaskarım, sığınacaq yerimdir. Xilaskarım, çətinlikdən məni Sən qurtararsan! (2 Şamuel, 22:2-3)
İnsandan qorxmaq tələdir, amma Rəbbə güvənən amanda olar. (Süleymanın məsəlləri, 29:25)
Budur, Allah mənim köməkçimdir, tək dəstəyim Rəbbdir. (Zəbur, 54:4)
Rəbb mənim işığım, xilasımdır, heç kimdən qorxmaram. Rəbb həyatımın qalasıdır, kimsədən qorxmam. Rəqiblərim, düşmənlərim olan pislər məni udmaq üçün üzərimə gələrkən büdrəyib yıxılarlar. Qarşımda bir ordu yerləşsə, tüküm tərpənməz, mənə qarşı döyüş olsa, yenə güvənimi itirməm. (Zəbur, 27:1-3)

Sən Rəbbə güvən… O sənin istəklərini yerinə yetirəcək. Hər şeyi Rəbbə burax, Ona güvən. O, lazım olanı edər. (Zəbur, 37:3-5)
Rəbbə ümid bağla, Onun yolunu tut… pislərin kökünün kəsildiyini görəcəksən. Doğruların qurtuluşu Rəbbdən gələr, çətin gündə onlara qala olar. Rəbb onlara kömək edər, qurtarar onları, pislərin əlindən alıb azad edər, çünki Özünə sığınarlar. (Zəbur, 37:34, 39-40)
Öyüdə qulaq asan uğura yetişər, Rəbbə güvənən xoşbəxt olar. (Süleymanın məsəlləri, 16:20)
Acgöz qovğa çıxarar, Rəbbə güvənən isə bolluq içində yaşayar. (Süleymanın məsəlləri, 28:25)
Allah xilasımızdır. Ona güvənib qorxmayacağıq. Çünki Rəbb gücümüz və tərənnümümüzdür. O qurtardı bizi. (Yeşaya, 12:2)
Sənə güvəndiyi üçün fikirlərində sarsılmaz olanı tam bir xoşbəxtlik içində qoruyarsan. Rəbbə sonsuza qədər güvənin, çünki Rəbb, bəli Rəbb sonsuza qədər qalıcı gücdür. (Yeşaya, 26:3-4)
Hakim Rəbb… belə deyir: "Mənə dönün, hüzur tapın, xilas olarsınız. Narahat olmayın, Mənə güvənin, güclü olarsınız. Amma bunu etmək istəmirsiniz". (Yeşaya, 30:15)
… Qaranlıqda gedən, işığı olmayan Rəbbin adına güvənsin, Allahına arxalansın. (Yeşaya, 50:10)
Nə xoş Rəbbə güvənən insana, güvəni tək Rəbb olana! Beləsi su sahillərinə əkilmiş ağaca bənzəyir, köklərini axar sulara salar. İsti düşəndə qorxmaz, yarpaqları həmişə yaşıldır. Quraqlıq illərində narahat olmaz, meyvə verməkdə geri qalmaz. (Yeremya, 17:7-8)
Sənə güclü və ürəkli ol demədimmi? Qorxma, Çəkinmə. Çünki Allahın Rəbb gedəcəyin hər yerdə səninlə birlikdə olacaq. (Yeşua, 1:9)
… Allah tək sizinlədir. Başqası, başqa Allah yoxdur. (Yeşaya, 45:14)
Həyat diyarında Rəbbin yaxşılığını görəcəyimə şübhə etmirəm. Ümidini Rəbbə bağla, güclü və ürəkli ol; ümidini Rəbbə bağla! (Zəbur, 27:13-14)
Səni sevirəm, gücüm Sənsən ya Rəbb! Rəbb mənim gücüm, sığınacağım, xilskarımdır. Allahım gücüm, sığınacaq yerim, qalxanım, güclü xilaskarım, qorunduğum yerdir! Tərifə layiq Rəbbə səslənib xilas olaram düşmənlərimdən. (Zəbur, 18:1-3)
Çətinlikdə Rəbbə yalvardım, köməyə çağırdım Allahımı. Rəbb… çıxardı məni dərin sulardan. Məni çətin düşmənimdən, məndən nifrət edənlərdən qurtardı. Çünki onlar məndən güclü idi. Fəlakət günümdə qarşıma çıxdılar, amma Rəbb mənə dəstək oldu. Məni hüzura qovuşdurdu, qurtardı; çünki məndən razı qaldı. (Zəbur, 18:6, 16-19)
İşığımın qaynağı Sənsən ya Rəbb, Allahım! Qaranlığımı işıqlandırarsan. (Zəbur, 18:28)
… O, Özünə sığınan hər kəsin qalxanıdır. Varmı Rəbbdən başqa Allah? Allahımızdan başqa güc varmı? Allah mənə güc verir, yolumu qüsursuz edir. Mənə zəfər qalxanını bağışlayarsan. Ayaq basdığım yerləri genişlədərsən, burxulmaz biləklərim. (Zəbur, 18:30-32, 35-36)
Ucalsın xilaskarım Allah! Düşmənlərimdən qurtarar… Zalımların əlindən alar. (Zəbur, 18:46, 48)
Ya Rəbb, Sənə sığınıram. Utandırma məni heç bir zaman! Ədalətinlə qurtar məni!... Güclü bir qala ol, xilas olmağım üçün!... Gücüm və qalam Sənsən, öndərlik et, yol göstər mənə Öz adın uğruna. Mənə qurduqları tələdən uzaq tut məni, çünki sığınacağım Sənsən. Ruhumu əllərinə buraxıram ya Rəbb, sadiq Allah qurtar məni. Dəyərsiz bütlərə bel bağlayanlardan iyrənirəm, Rəbbə güvənirəm mən. (Zəbur, 31:1-6)
Qəlbim təkcə Allahda hüzur tapar, qurtuluşum Ondandır. Tək dayağım, xılasım, qalam Odur, əsla sarsılmam… Ey qəlbim, tək Allahda hüzur tap, çünki ümidim Onadır. Tək dayağım, nicatım, qalam Odur, sarsılmam. Xilasım və şərəfim Allaha bağlıdır… Sığınacağım Odur. Ey xalqım, həmişə Ona güvənin, dərdinizi Ona deyin, çünki Allah sığınacağımızdır. (Zəbur, 62:1-2, 5-8)
Mən isə Allaha səslənərəm, Rəbb qurtarar məni… Yükünü Rəbbə burax, O, Sənə dəstək olar. Əsla icazə verməz doğru insanın sarsılmasına. Amma Sən ey Allah, ölüm quyusuna atacaqsan pisləri… Mən isə Sənə güvənirəm. (Zəbur, 55:16, 22-23)
… Allahı Rəbbə güvəndi… Rəbbə çox bağlı idi, Onun yolundan ayrılmadı, Rəbbin Musaya vermiş olduğu buyruqları yerinə yetirdi. Rəbb onunla birlikdə idi. Gördüyü hər işdə müvəffəqiyyətli oldu... (2 Padşahlar, 18:5-7)
… Mən Sənə güvənirəm ya Rəbb, "Allahım Sənsən!" deyirəm. Həyatım Sənin əlindədir, qurtar məni düşmənlərimin pəncəsindən, dalıma düşənlərdən. Üzün qulunu işıqlandırsın, sevgi göstər, qurtar məni! İnsanların düzənlərinə qarşı, qoruyucu

hüzurunla üzərlərinə qanad sərərsən… Rəbbi sevin, ey Onun sadiq qulları! Rəbb Özünə bağlı olanları qoruyar… Ey Rəbbə ümid bağlayanlar, güclü və ürəkli olun! (Zəbur, 31:14-16, 20-24)
Sığınacağım Sənsən, məni çətinlikdən qoruyar, ətrafımı qurtuluş ilahiləri ilə əhatə edərsən. (Zəbur, 32:7)
Pislərin acısı çoxdur, amma Rəbbə güvənənləri Onun sevgisi əhatə edər. Ey doğru insanlar, sevinc qaynağınız Rəbb olsun, coşun; ey qəlbi təmiz olanlar, hamınız sevinc səsləri yayın! (Zəbur, 32:10-11)
… Və Rəbbə güvənəcəklər. Nə xoş Rəbbə güvənən insana; qürurluya və yalana yönələnə meyl etməyənə. (Zəbur, 40:3-4)
Nə olar ya Rəbb, qurtar məni! Köməyimə gəl ya Rəbb!... Köməkçim və xilaskarım Sənsən… Ey Allahım! (Zəbur, 40:13, 17)
… Rəbb qurtarar onu pis gündə. Qoruyar Rəbb, yaşadar onu, ölkədə xoşbəxt edər… Dəstək olar Rəbb ona yatağa düşüncə; xəstələndiyində sağlamlığa qovuşdurar onu (Zəbur, 41:1-3)
… Mən yayıma güvənmərəm, qılıncım da məni qurtarmaz; ancaq Sənsən bizi düşmənlərimizdən qurtaran... (Zəbur, 44:6-7)
Allahı unudan hər kəsin sonu belədir, Allahsız insanın ümidi belə yox olar. Onun güvəndiyi şey məhv olar, dayağı isə bir hörümçək torudur. Hörümçək toruna söykənər, amma tor çökər, ona yapışar, amma tor saxlaya bilməz. (Əyyub, 8:13-15)
Rəbb əzilənlər üçün bir sığınacaq, çətin günlərdə bir qaladır. Səni tanıyanlar Sənə güvənər, çünki Sənə yönələnləri heç tərk etmədin ya Rəbb. (Zəbur, 9:9-10)
Gözümü Rəbbdən ayırmaram, sağımda dayandığı üçün sarsılmaram. Bu səbəblə qəlbim sevinc doludur, ürəyim coşur, bədənim güvən içindədir… Həyat yolunu mənə bildirərsən. Bol sevinc vardır Sənin hüzurunda, sağ əlindən xoşbəxtlik azalmaz. (Zəbur, 16:8-11)
Bəziləri döyüş arabalarına, bəziləri atlarına güvənir. Biz isə Allahımız Rəbbə güvənirik. Onlar çöküb yıxılırlar; biz isə qalxıb dimdik dayanırıq. (Zəbur, 20:7-8)
… Rəbbə güvənər, ucalar ucasının sevgisi sayəsində sarsılmaz. (Zəbur, 21:7)
Qaranlıq ölüm vadisindən keçsəm belə, pislikdən qorxmaram. Çünki Sən mənimləsən. Çomağın, dəyənəyin güvən verər mənə… Ömrüm boyu təkcə yaxşılıq və sevgi izləyəcək məni, həmişə Rəbbin evində oturacağam. (Zəbur, 23:4-6)
Ya Rəbb, bütün varlığımla Sənə yaxınlaşıram, ey Allahım, Sənə güvənirəm… Sənə ümid bağlayan heç kim utanmaz; səbəbsiz xainlik edənlər utanar… Çünki məni qurtaran Allah Sənsən. Bütün gün ümidim Sənədir. (Zəbur, 25:1-5)
… Sarsılmadan Rəbbə güvəndim. (Zəbur, 26:1)
Xoşbəxtlik içində yatıram, çünki tək Sən ya Rəbb, güvənlikdə tutursan məni. (Zəbur, 4:8)
… Allahınız Rəbbə güvənin, güvənlikdə olarsınız. Onun peyğəmbərlərinə güvənin, müvəffəqiyyətli olarsınız". (2 Salnamələr, 20:20)
Budur, bu adam Allaha sığınmaq istəmədi… Amma mən Allahın evində yaşıllaşan zeytun ağacı kimiyəm, sonsuza qədər Allahın sevgisinə güvənərəm. (Zəbur, 52:7-8)
Sənə güvənərəm qorxduğum zaman. Allaha, sözünü təriflədiyim Allaha güvənərəm mən, qorxmaram. İnsan mənə nə edə bilər?… Bilirəm, Allah məndən yanadır. (Zəbur, 56: 3-4, 9)
Sözünü təriflədiyim Allaha, sözünü təriflədiyim Rəbbə, Allaha güvənirəm mən, qorxmaram; insan mənə nə edə bilər?... Çünki məni ölümdən qurtardın, ayaqlarımı büdrəməkdən qorudun; budur, həyat işığında, Allah hüzurunda gedirəm. (Zəbur, 56: 10-13)
… Allahı Rəbbə "Ya Rəbb, güclünün önündə gücsüzə kömək edə biləcək Səndən başqa kimsə yoxdur" deyə yalvardı, "Ey Allahımız Rəbb, bizə kömək et, çünki Sənə güvənirik. Sənin adınla bu kütləyə qarşı çıxdıq. Ya Rəbb, Sən bizim Allahımızsan…" (2 Salnamələr, 14:11)
Biri qalxıb səni öldürmək məqsədi ilə ardına düşsə, həyatını Allahın Rəbb güvən altında tutacaq; düşmənlərini sapanla daş kimi atacaq. (1 Şamuel, 25:29)
Gözlənilməz fəlakətdən, yaxud pislərin uğradığı müsibətdən qorxma. Çünki səni qoruyan Rəbbdir, tələyə düşməkdən səni O qoruyacaq. (Süleymanın məsəlləri, 3:25-26)
Rəbb məndən yanadır, qorxmaram; insan mənə nə edə bilər? Rəbb məndən yanadır, mənim köməkçimdir… Rəbbə sığınmaq insana güvənməkdən yaxşıdır. Rəbbə sığınmaq əsilzadələrə güvənməkdən yaxşıdır… Vurub itələdilər məni, yıxılacaqdım, amma Rəbb kömək etdi mənə. Rəbb gücüm və tərənnümümdür, O qurtardı məni. (Zəbur, 118:6-9, 13-14)

… Rəbbə güvən, Odur köməkçiniz və qalxanınız! Ey Rəbbdən qorxanlar, Rəbbə güvənin, Odur köməkçiniz və qalxanınız! (Zəbur, 115:9, 11)
Pis xəbərdən qorxmaz, ürəyi sarsılmaz, Rəbbə güvənər. Gözü itidir, qorxu nədir bilməz… (Zəbur, 112:7-8)
Çünki Rəbb Allah bir günəş, bir qalxandır. Lütf və ucalıq verər; dürüst yaşayanlardan heç bir yaxşılığı əsirgəməz. Ey hər şeyə hakim Rəbb, nə xoş Sənə güvənən insana! (Zəbur, 84:11-12)
Allaha güvənənlər Allahın etdiklərini unutmasınlar, Onun buyruqlarını yerinə yetirsinlər; ataları kimi inadcıl, baş qaldıran, qəlbi qərarsız, Allaha sədaqətsiz bir nəsil olmasınlar. (Zəbur, 78:7-8)
Ya Rəbb, Sənə sığınıram… Sığınacaq gücüm ol, həmişə üz tuta biləcəyim… Çünki gücüm və qalam Sənsən. Ey Allahım, qurtar məni pisin əlindən, haqsızın, qəddarın pəncəsindən! Çünki ümidim Sənsən, ey hakim Rəbb, gəncliyimdən bəri dayağım Sənsən. Doğulduğum gündən bəri Sənə güvənirəm, məni ana rəhmindən çıxaran Sənsən. Təriflərim həmişə Sənədir. Bir çoxları üçün yaxşı bir nümunə oldum, çünki Sən güclü sığınacağımsan. (Zəbur, 91:1-7, 9-16)
Gözlənilməz fəlakətdən, yaxud pislərin uğradığı müsibətdən qorxma. Çünki Səni qoruyan Rəbbdir... (Süleymanın məsəlləri, 3:25-26)
Sənə güclü və ürəkli ol demədimmi? Qorxma, çəkinmə. Çünki Allahın Rəbb gedəcəyin hər yerdə səninlə birlikdə olacaq. (Yeşua, 1:9)
Qüvvətli olun və ürəkli olun, qorxmayın və onlardan çəkinməyin, çünki səninlə birlikdə gedən Allahın Rəbbdir, səni aldatmaz və səni tərk etməz. (Qanunun təkrarı, 31:6)
Və sənin qarşında gedən Rəbbdir. O, səninlə olacaq, səni aldatmaz və səni tərk etməz, qorxma və çəkinmə. (Qanunun təkrarı, 31:8)
Güclü və ürəkli olun!... Qorxmayın, çəkinməyin. Çünki bizimlə olan (Allah) onunla olandan daha üstündür. (2 Salnamələr, 32:7)
Ucalar ucasının sığınağında oturan, hər şeyə gücü çatanın kölgəsində olar. "O, mənim sığınağımdır, qalamdır" deyirəm Rəbb üçün, "Allahımdır, Ona güvənirəm." Çünki O, səni ovçu tələsindən, ölümcül xəstəlikdən qurtarar. Səni qanadlarının altına alar, onların altına sığınarsan. Onun sədaqəti sənin qalxanın, sipərin olar. Nə gecənin dəhşətindən qorxarsan, nə gündüz uçan oxdan, nə qaranlıqda gəzən xəstəlikdən, nə də günortanın yox edici qırğınından… Sən Rəbbi özünə sığınacaq, ucalar ucasını iqamət seçdiyin üçün başına bəla gəlməyəcək, çadırına fəlakət yaxınlaşmayacaq. Çünki Allah mələklərinə buyuruq verəcək ki, gedəcəyin hər yerdə səni qorusunlar. Əllərinin üstündə daşıyacaqlar səni, ayağın bir daşa dəyməsin deyə. Aslanın, kobranın üzərindən keçib kedəcəksən; gənc aslanı, ilanı tapdalayacaqsan. "Məni sevdiyi üçün onu qurtaracağam" deyir Rəbb, "Məni yaxşı tanıdığı üçün ona qala olacağam. Mənə səslənincə ona cavab verəcəyəm, çətinlikdə onun yanında olacağam, xilas edib ucaldacağam onu. Onu uzun ömürlə doyuracaq, ona xilasımı göstərəcəyəm".
O zaman çətinlik içində Rəbbə yalvardılar, Rəbb qurtardı onları dərdlərindən. (Zəbur, 107:6)
Çətinlik içində Rəbbə səsləndim; cavabladı, rahatlığa qovuşdurdu məni. (Zəbur 118:5)
Doğrular yalvarar; Rəbb... bütün çətinliklərdən qurtarar onları. (Zəbur, 34:17)
Allah sığınacağımız və gücümüzdür... (Zəbur, 46:1)
Edəcəyin işləri Rəbbə əmanət et, o zaman planların reallaşar. Rəbb hər şeyi məqsədinə uyğun edər.. (Süleymanın məsəlləri, 16:3-4)
Allahı unudan hər kəsin sonu belədir, Allahsız insanın ümidi belə yox olar. Onun güvəndiyi şey məhv olar, dayağı isə bir hörümçək torudur. Hörümçək toruna söykənər, amma tor çökər, ona yapışar, amma tor saxlamaz. (Əyyub, 8:13-15)

**Tövratda Allahın əmrlərinə tabe olmaq**

Allahınız Rəbbin sizə buyurduqlarını əməl etməyə diqqət yetirin. Onlardan sağa-sola sapmayın. Allahınız Rəbbin sizə buyurduğu yollarda gedin. Belə ki, mülk əldə edəcəyiniz ölkədə sağ qalasınız, müvəffəqiyyətli və uzun ömürlü olasınız. (Qanunun təkrarı, 5:32-33)
Kaş ki, Məndən qorxaydılar və bütün buyruqlarıma uymaq üçün həmişə ürəkdən istəkli olaydılar! O zaman özlərinə və uşaqlarına davamlı yaxşılıq gələrdi. (Qanunun təkrarı, 5:29)

Allahınız Rəbbin buyruqlarına, sizə verdiyi qanun və qaydalara tabe olmağa diqqət yetirəcəksiniz. Rəbbin gözündə yaxşı və doğru olanı edəcəksiniz. Belə ki, üzərinizə yaxşılıq gəlsin, Rəbbin atalarınıza and içərək söz verdiyi bərəkətli ölkəni mülk əldə edəsiniz. (Qanunun təkrarı, 6:17-18)
Davamlı üzərimizə yaxşılıq gəlməsi və bu gün olduğu kimi sağ qalmağımız üçün Allahımız Rəbb bütün bu qaydalara əməl etməyimizi və Özündən qorxmağımızı buyurdu. Allahımız Rəbbin qarşısında, verdiyi bu buyruqlara uymağa diqqət yetirsək, bunu bizə doğruluq sayacaq. (Qanunun təkrarı, 6:24-25)
… Buyruqlarına tabe olub-olmayacağınızı, məqsədinizin nə olduğunu öyrənmək üçün sizi çətinliklərə salıb sınadı. (Qanunun təkrarı, 8:2)
Mənim qaydalarımı yerinə yetirib qanunlarıma görə yaşayacaqsınız. Allahınız Rəbb Mənəm. Qaydalarıma, qanunlarıma sarılın. Çünki onları yerinə yetirən onlar sayəsində yaşayacaq. Rəbb Mənəm. (Levililər, 18:4-5)
… Dönün! Üsyanlarınızdan dönün! Günahın sizi fəlakətə sürüməsinə icazə verməyin. Üsyanlarınızı özünüzdən uzaqlaşdırın. Yeni bir qəlb, yeni bir ruh əldə edin… (Yezekel, 18:30-31)
… Misirdən çıxardığın xalqın yoldan çıxdı. Onlara buyurduğum yoldan dərhal sapdılar. Özlərinə tökmə bir büt düzəltdilər. Sonra Rəbb mənə… "Budur dikbaş bir xalq!... Onları yox edim; adlarını da göyün altından silim…" (Qanunun təkrarı, 9:12-14)
… Siz isə Allahınız Rəbbin buyruğuna qarşı gəldiniz. Ona güvənmədiniz, sözünə qulaq asmadınız. Sizi tanıdığım gündən bu yana Rəbbə davamlı qarşı çıxdınız. (Qanunun təkrarı, 9:23-24)
Ürəklərinizi Rəbbə verin, bundan belə dikbaş olmayın. Çünki Allahınız Rəbb… Ulu, güclü, heybətli Allahdır. (Qanunun təkrarı, 10:16-17)
… O, sizi Misirdən çıxaran, kölə olduğunuz ölkədən qurtaran Allahınız Rəbbə qarşı gəlməyə səslədi. Allahınız Rəbbin getməyinizi buyurduğu yoldan sizi sapdırmağa çalışdı. Aranızdakı pisliyi ortadan qaldırmalısınız. (Qanunun təkrarı, 13:5)
… Allahı Rəbbdən qorxmağı, bu qanunun bütün sözlərinə və qaydalarına uymağı öyrənsin; özünü qardaşlarından üstün saymasın, qanunun xaricinə çıxmasın… (Qanunun təkrarı, 17:19-20)
Bu gün Allahınız Rəbb bu qayda və qanunlara əməl etməyinizi buyurur. Onlara bütün ürəyinizlə, canınızla uymağa diqqət yetirin. Bu gün Rəbbin Allahınız olduğunu, Onun yollarında gedəcəyinizi, qaydalarına, buyruqlarına, qanunlarına tabe olacağınızı, Onun sözünü dinləyəcəyinizi açıqladınız... Bütün buyruqlarına tabe olacaqsınız. (Qanunun təkrarı, 26:16-18)
Bu qanunun sözlərinə uymayana və onları təsdiqləməyənə lənət olsun! Bütün xalq "Amin!" deyəcək. (Qanunun təkrarı, 27:26)
"Ağılsız davrandın" dedi, "Allahın Rəbbin sənə verdiyi buyruğa uymadın…" (1 Şamuel, 13:13)
"… Baş qaldırmaq falçılıq qədər günahdır və dikbaşlıq bütpərəstlik qədər pisdir. Sən Rəbbin buyruğunu rədd etdiyin üçün, Rəbb də sənin padşah olmağını rədd etdi". (1 Şamuel, 15:22-23)
Dəfələrlə danlandığı halda dikbaşlıq edən qəflətən müsibətə uğrayacaq, çarə yoxdur. (Süleymanın məsəlləri, 29:1)
… Siz dikbaş bir xalqsınız… Rəbbə davamlı qarşı çıxdınız. (Qanunun təkrarı, 9:6-7)
Söz dinləmək istəmədilər, aralarında göstərdiyin möcüzələri unutdular. Dikbaşlıq etdilər, köhnə köləlik həyatlarına dönmək üçün özlərinə bir öndər taparaq baş qaldırdılar. Amma Sən bağışlayan, yaxşılıq edən, acıyan… Sevgisi hədsiz Allahsan. Onları tərk etmədin. (Nehemya, 9:17)
Amma Allahınız Rəbbin sözünü dinləməyib bu gün sizə çatdırdığım buyruqların, qaydaların hamısına əməl etməsəniz, bu lənətlər üzərinizə gələcək və sizə çatacaq: "Şəhərdə də, tarlada da lənətli olacaqsınız. Səbətiniz və xəmir tabağınız lənətli olacaq. Rəhminizin meyvəsi, torpağınızın məhsulu, mallarınızın buzovları, sürülərinizin quzuları lənətli olacaq. İçəri girdiyinizdə lənətli olacaqsınız; çölə çıxdığınızda da lənətli olacaqsınız. Rəbbə arxa çevirməklə etdiyiniz pisliklər üzündən əl atdığınız hər işdə O, sizi lənətə uğradacaq, çaşqınlığa düçar edəcək... Sonda üzərinizə fəlakət gələcək və tez yox olacaqsınız. Rəbb mülk əldə etmək üçün gedəcəyiniz ölkədə sizi yox edənə qədər yoluxucu xəstəliklə cəzalandıracaq. (Qanunun təkrarı, 28:15-21)
Bu kitabda yazılan qanunun bütün sözlərinə əməl etməyib Allahınız Rəbbin uca və heybətli adından qorxmasanız, Rəbb sizi və soyunuzu qorxunc bəlalarla, böyük və davamlı bəlalarla, ağır və yaxşılaşmayan xəstəliklərlə vuracaq. Sizi qorxuya salan Misirin bütün xəstəliklərini yenidən başınıza gətirəcək; sizə yapışacaqlar. Siz yox olana qədər Rəbb bu Qanun kitabında yazılmamış hər cür xəstəliyi və bəlanı da başınıza gətirəcək. (Qanunun təkrarı, 28:58-61)

Çünki sizin baş qaldıran, dikbaş insanlar olduğunuzu bilirəm. Bu gün mən sağ ikən, aranızda ikən belə Rəbbə qarşı gəlirsiniz; ölümümdən sonra daha nə qədər çox baş qaldıracaqsınız. (Qanunun təkrarı, 31:27)
Rəbb "Vay halına bu dikbaş soyun!" deyir… "Günah üstünə günah işləyirlər". (Yeşaya, 30:1)
… Sənə qarşı çıxanlar heç sayılıb yox olacaq. (Yeşaya, 41:11)
Hamısı çox dikbaşdır… Tunc qədər, dəmir qədər qatıdırlar. Hamısı ağlını itirmişdir. (Yeremya, 6:28)
Lakin onlar sözümü dinləmədilər, qulaq asmadılar. Dikbaşlıq edib Məni dinləmədilər, yola gəlmək istəmədilər. (Yeremya, 17:23)
… Hər şeyə hakim Rəbb deyir ki, "Bax, bu şəhərə və ətrafındakı kəndlərə bildirdiyim bütün fəlakətləri gətirəcəyəm. Çünki dikbaşlıq edib sözümü dinləmədilər". (Yeremya, 19:15)
… Onlar və ataları bu günə qədər Mənə qarşı gəldilər. Bu xalq dikbaş və inadcıldır. Səni onlara göndərirəm. Onlara "hakim Rəbb belə deyir" deyəcəksən. Bu üsyankar xalq səni istər dinləsin, istərsə də dinləməsin, yenə də aralarında bir peyğəmbər olduğunu biləcək. Sən ey Adəm oğlu, onlardan və sözlərindən qorxma! Ətrafında kollar, tikanlar olsa və əqrəblər arasında yaşasan belə, qorxma. Üsyankar bir xalq olsalar belə, onların söyləyəcəklərindən qorxma, onlara görə çəkinmə. Səni istər dinləsinlər, istərsə də dinləməsinlər, onlara sözlərimi söyləyəcəksən. Çünki onlar üsyankar bir xalqdır. (Yezekel, 2:3-7)
"… Hər nə qədər üsyankar bir xalq olsalar da, onlardan qorxma, çəkinmə". Mənə "Ey Adəm oğlu, yaxşı dinlə və sənə söyləyəcəklərimi qəlbinə yerləşdir" dedi. İndi sürgündə yaşayan xalqına get və səni istər dinləsinlər, istər dinləməsinlər, onlara "hakim Rəbb belə deyir" de. (Yezekel, 3:9-11)
Rəbbə qarşı gələnlər darmadağın olacaq, Rəbb onlara qarşı göyləri guruldadacaq, bütün dünyanı mühakimə edəcək… (1 Şamuel, 2:10)
Əgər Rəbbdən qorxub Ona qulluq etsəniz, Onun sözünü dinləyib buyruqlarına qarşı gəlməsəniz, həm siz və həm də öndəriniz olacaq padşah Allahınız Rəbbin ardınca getsəniz, nə yaxşı! Amma Rəbbin sözünü dinləməyib buyruqlarına qarşı gəlirsinizsə, Rəbb padşahınızı cəzalandırdığı kimi sizi də cəzalandıracaq. (1 Şamuel, 12:14-15)
… Onun Qanununa yaşamağı rədd etdilər. Unutdular Onun işlərini, özlərinə göstərdiyi möcüzələri… Ona baş qaldırdılar, şərtlərinə uymadılar. Dönüklük edib ataları kimi xəyanət etdilər, etibarsız bir yay kimi zay çıxdılar. (Zəbur, 78:10-11, 56-57)
… Allahın buyruqlarına qarşı çıxmışdılar, küçümsəmişdilər ucalar ucasının öyüdünü… Cəzalarını gördü axmaqlar, günah və üsyanları üzündən. (Zəbur, 107:11, 17)
Qoyduğun şərtlərə diqqətlə əməl olunmasını buyurdun. Kaş ki, qərarlı olam Sənin qaydalarına uymaqda! Heç utanmayacağam bütün buyruqlarını izlədikcə. Şükür edəcəyəm Sənə təmiz qəlblə ədalətli hökmlərini öyrəndikcə. Qaydalarını yerinə yetirəcəyəm, buraxma məni heç bir zaman! (Zəbur, 119:4-8)
… Mən Sənin şərtlərindən ayrılmadım. Çəkinirəm hər pis yoldan, Sənin sözünü tutmaq üçün. Ayrılmaram hökmlərindən, çünki mənə Sən öyrətdin. Necə şirin gəlir verdiyin sözlər damağıma, baldan şirin gəlir ağzıma! Sənin şərtlərinə uymaqla müdriklik qazanıram, buna görə nifrət edirəm hər səhv yoldan. Sözün addımlarım üçün çıraq, yolum üçün işıqdır. Ədalətli hökmlərini izləyəcəyimə and içdim, andımı tutacağam. (Zəbur, 119:100-106)
Rəbb qəlbi pis olandan iyrənər, bilin ki, elələri cəzasız qalmaz. (Süleymanın məsəlləri, 16:5)
… Onlara dedim ki, "Sözümü dinləyin, buyurduğum hər şeyi yerinə yetirin… Amma dinləmədilər, qulaq asmadılar. Bunun yerinə pis qəlblərinin inadına uyğun davrandılar. Mən də əməl etmələrini buyurduğum, amma yerinə yetirmədikləri bu razılaşmada açıqlanan bütün lənətləri başlarına gətirdim". (Yeremya, 11:4, 8)
Siz başqa ilahlara büxur yandırdınız, Rəbbə qarşı günah işlədiniz; Onun sözünü dinləmədiniz, Qanununa, qaydalarına, razılaşma şərtlərinə uymadınız. Buna görə bu gün olduğu kimi başınıza fəlakət gəldi. (Yeremya, 44:23)
Qaydalarımı tapdalayıb qanunlarımdan nifrət edib, buyruqlarıma qarşı çıxıb razılaşmamı pozsanız, sizi belə cəzalandıracağam: Üzərinizə dəhşət salacağam. Vərəm və qızdırma gözünüzün işığını söndürüb canınızı alacaq. Boş yerə toxum əkəcəksiniz, çünki məhsullarınızı düşmənləriniz yeyəcək. (Levililər, 26:15-16)
Əgər qarşı çıxmağa davam edib Məni dinləmək istəməsəniz, günahlarınıza qarşılıq cəzanızı yeddi qat artıracağam. Bununla da yola gəlməyib Mənə qarşı çıxmağa davam etsəniz, Mən də sizə qarşı çıxacağam, günahlarınıza qarşılıq sizi yeddi dəfə cəzalandıracağam. Bütün bunlardan sonra yenə Məni dinləməyib Mənə qarşı çıxarsanız… günahlarınıza qarşılıq sizi yeddi qat cəzalandıracağam. (Levililər, 26:21-28)

Rəbbin sözünü küçümsəmiş, buyruqlarına qarşı gəlmişdir. Bu səbəblə, o adam xalqının arasından qəti atılacaq, günahının cəzasını çəkəcək. (Səhrada saylar, 15:31)
Sizi xəbərdar etdim, amma dinləmədiniz. Rəbbin buyruğuna qarşı gəldiniz. Özünüzə güvənib dağlıq bölgəyə çıxdınız. (Qanunun təkrarı, 1:43)
… Pislik edib qanunlarımı, qaydalarımı tapdaladı. Qanunlarıma qarşı gəldi, qaydalarıma uyğun davranmadı. Buna görə hakim Rəbb deyir ki: "Ətrafınızda yaşayan xalqlardan daha azğın idiniz, qaydalarımı izləmədiniz, qanunlarıma uymadınız. Ətrafınızda yaşayan xalqların qanunlarına da uymadınız". Buna görə hakim Rəbb deyir ki: "Budur, Mən sizə qarşıyam, xalqların gözü önündə sizi cəzalandıracağam". (Yezekel, 5:6-8)
lakin Mənə qarşı gəldilər, Məni dinləmək istəmədilər. Bel bağladıqları iyrənc bütləri heç biri atmadı, Misir bütlərini də buraxmadılar. (Yezekel, 20:8)
Lakin uşaqlar Mənə qarşı gəldilər. Qaydalarımı izləmədilər. Tətbiq edən adama həyat verən qanunlarıma uyğun diqqətlə yaşamadılar… Aranızda Mənə qarşı gələnlərlə baş qaldıranları ayıracağam. Onları yaşadıqları ölkələrdən çıxaracağam… (Yezekel, 20:21, 38)
Onları natəmizliyinə, üsyanlarına görə cəzalandırdım… (Yezekel, 39:24)
Çünki sən Rəbbin buyruğuna uymadın… Rəbb bu gün bunları buna görə başına gətirdi. (1 Şamuel, 28:18)
Amma siz, yaxud uşaqlarınız yollarımdan sapıb buyruqlarıma və qaydalarıma uymayıb, gedib başqa ilahlara qulluq edib tapınsanız, sizə verdiyim bu ölkədən sizi götürüb atacağam... (1 Padşahlar, 9:6-7)
… Allahınız Rəbbin bütün buyruqlarına tabe olmağa diqqət yetirin ki, bu bərəkətli ölkəni mülk qazanıb sonsuza qədər uşaqlarınıza miras olaraq verəsiniz. (1 Salnamələr, 28:8)
… Zəkəriyyə xalqın önündə dayanıb səsləndi: "Allah belə deyir: Nə üçün buyruqlarıma qarşı gəlirsiniz? İşləriniz yaxşı getməyəcək. Çünki siz Məni buraxdınız, Mən də sizi buraxdım"... (2 Salnamələr, 24:20)
Allahın Qanununa… uymayanlar ya ölümlə, ya sürgünlə, ya mallarına əl qoyulmaqla, ya da həbs edilməklə cəzalandırılsın. (Əzra, 7:26)
Ey Allahımız, bundan başqa nə deyə bilərik? Qulların peyğəmbərlər vasitəsilə verdiyin buyruqlara uymadıq… (Əzra, 9:10-11)
Sənə çox pislik etdik. Qulun Musaya verdiyin buyruqlara, qayda və qanunlara əməl etmədik. Qulun Musaya söylədiklərini xatırla. Dedin ki, "Əgər Mənə xəyanət etsəniz, sizi xalqların arasına səpələyəcəm. Amma Mənə dönüb buyruqlarımı diqqətlə yerinə yetirsəniz, dünyanın o biri ucuna aparılmış olsanız belə, sizləri yığıb seçdiyim yerə, olacağım yerə gətirəcəyəm". (Nehemya 1:7-9)
Onları müqəddəs Qanununa dönmələri üçün xəbərdar etdinsə də, qürura qapılaraq buyruqlarına qarşı gəldilər. Qaydalarını tapdalayıb günah işlədilər. Halbuki kim qaydalarına bağlı qalsa, həyat tapar. İnadla Sənə arxa çevirdilər, dinləmək istəmədilər. (Nehemya, 9:29)
… Allahın qulu Musa vasitəsilə verdiyi qanuna görə yaşamaq, hakimimiz Rəbbin bütün buyruqlarına, qanunlarına, qaydalarına tabe olmaq üçün and içdilər, uymayanları lənətlədilər. (Nehemya, 10:29)
Allahımız Rəbbin sözünə qulaq asmadıq, qulları peyğəmbərlər vasitəsilə bizə verdiyi qanunlara uymadıq… Qanunu tapdaladı, arxasını Sənə dönüb Səni dinləmək istəmədi. Buna görə Allah qulu Musanın Qanununda yazılan lənət başımıza yağdı, içilən and yerinə gəldi. Çünki Sənə qarşı günah işlədik. Üzərimizə böyük fəlakət gətirib bizim və bizi idarə edən öndərlərimiz üçün söylədiyin sözləri yerinə yetirdin... Musanın Qanununda yazıldığı kimi, bütün bu fəlakətlər başımıza gəldi. Buna baxmayaraq, ey Allahımız Rəbb, günahımızdan dönüb Sənin həqiqətlərinə yönələrək lütfünü diləmədik. (Daniel, 9:10-13)
Rəbb belə deyir: "… Cəzasını qaldırmayacağam. Çünki günah üstünə günah işlədilər, rədd etdilər Qanunumu, qaydalarıma uymadılar; yalançı bütlər sapdırdı onları, atalarının da izlədiyi bütlər". (Amos, 2:4)

**Tövratda vicdana uymaq**

Doğruluğuma sarılıb onu buraxmayacağam, yaşadığım müddətdə vicdanım məni günahlandırmayacaq. (Əyyub, 27:6)
Təriflər deyirəm mənə öyüd verən Rəbbə, gecələr belə vicdanım oyadır məni. (Zəbur, 16:7)
Adam öldürməkdən vicdan əzabı çəkən məzara qədər qaçacaq… (Süleymanın məsəlləri, 28:17)

… Mən təmiz vicdanla, günahsız əllərimlə etdim bunu. (Yaradılış, 20:5)
... Günahım üzündən rahatlığım getdi. Çünki günahlarım başımdan aşdı, daşınmaz bir yük kimi kürəyimdə ağırlaşdı. (Zəbur, 38:3-4)

**Tövratda zamansızlıq və qədərə iman**

Çünki Sənin gözündə min il əslində keçmiş bir gün, dünən kimi, bir gecə növbəsi kimidir. (Zəbur, 90:4)
İçimdən "Allah doğrunu da, pisi də mühakimə edəcək" dedim, "Çünki hər hadisənin, hər hərəkətin vaxtını təyin etdi". (Vaiz, 3:17)
İnsan püşk atar, amma hər qərarı Rəbb verər. ((Süleymanın məsəlləri, 16:33)
Ana rəhmində Sənə forma vermədən əvvəl tanıdım Səni. Doğulmadan əvvəl Səni ayırdım, xalqlara peyğəmbər etdim. (Yeremya, 1:5)
Bilirəm ki, Allahın etdiyi hər şey əbədi olaraq olacaq; ona bir şey qatıla bilməz və ondan bir şey azaldıla bilməz və Öz qarşısında qorxsunlar deyə, Allah onu etdi. İndi nə olursa, keçmişdə də oldu; nə olacaqsa, daha əvvəl də olmuşdur... (Vaiz, 3:14-15)
Lap əvvəldən bəri olub-keçənləri xatırlayın. Çünki Allah Mənəm, başqası yoxdur. Allah Mənəm, bənzərim yoxdur. Sonu başlanğıcdan, hələ olmamış hadisələri lap əvvəldən bildirən… Mənəm. (Yeşaya, 46: 9-10)
Gözlərin məni döl ikən gördü; və hələ onlardan heç biri yox ikən, mənim üçün təyin olunan günlərin hamısı Sənin kitabında yazılmışdı. (Zəbur, 139:16)
Hər şeyin mövsümü, göylərin altındakı hər hadisənin zamanı vardır. (Vaiz, 3:1)
Doğumun zamanı var, ölümün zamanı var. Tikməyin zamanı var, sökməyin zamanı var. (Vaiz, 3:2)
… Şəfa verməyin zamanı var. Yıxmağın zamanı var, etməyin zamanı var… O, hər şeyi vaxtında gözəl etdi… (Vaiz, 3:3, 11)
... İnsanın günləri təyin olunmuş, aylarının sayı müəyyən olunmuşdur; sərhəd qoymusan, kənara keçə bilməz. (Əyyub, 14:5)
İnsan qəlbində çox şey hazırlayar, amma reallaşan Rəbbin məqsədidir. (Süleymanın məsəlləri, 19:21)
Daha sözü ağzıma almadan, söyləyəcəyim hər şeyi bilirsən, ya Rəbb. (Zəbur, 139:4)
... Mənə ayrılan günlərin heç biri gəlmədən hamısı Sənin kitabına yazılmışdı. (Zəbur, 139:16)
... Son yenə də təyin olunan zamanda gələcək. (Daniel, 11:35)
Bundan başqa insan öz vaxtını bilməz: Balığın mərhəmətsiz tora, quşun tələyə düşdüyü kimi, insanlar da üzərlərinə qəflətən çökən pis zamana yaxalanarlar. (Vaiz, 9:12)
Pislər hələ ana rəhmində ikən yoldan çıxar, doğulduğu andan yalan danışaraq sapar. (Zəbur, 58:3)
Ey kənar xalqlar, eşidin məni; uzaqdakı xalqlar, yaxşı dinləyin. Rəbb məni ana rəhmində ikən çağırdı, anamın qarnında ikən adımı qoydu. (Yeşaya, 49:1)
İnsan püşk atar, amma hər qərarı Rəbb verər. (Süleymanın məsəlləri, 16:33)
Bütün bunları çoxdan etdiyimi, lap əvvəldən hazırladığımı eşitmədinmi? Hasarlı şəhərləri bərbad hala salmağı indi Mən reallaşdırdım… Sənin oturub-durmağını, nə vaxt gedib-gəldiyini… bilirəm. (Yeşaya, 37:26, 28)
Amma bunu lap əvvəldən hazırlayıb reallaşdırmış olan Allaha güvənmədiniz… Siz ölənə qədər bu günahınız bağışlanmayacaq... (Yeşaya, 22:11, 14)
Bunlar gələcək nəsil üçün yazılsın, belə ki, hələ doğulmamış insanlar Rəbbə təriflər desin. (Zəbur, 102:18)
… Bu kitabda yazılan bütün lənətlər başına yağacaq və Rəbb onun adını göyün altından siləcək. (Qanunun təkrarı, 29:20)
… Kitabda yazılan bütün lənətləri, fəlakəti buraya da, burada yaşayan xalqın başına da gətirəcəyəm. (2 Salnamələr, 34:24)
"Bütün bunları çoxdan etdiyimi, lap əvvəldən hazırladığımı eşitmədinmi? Hasarlı şəhərləri bərbad hala salmağı indi Mən reallaşdırdım." (2 Padşahlar, 19:25)

**Tövratda duanın əhəmiyyəti**

Rəbb Özünə yalvaran, səmimi yalvaran hər kəsə yaxındır. Diləyini yerinə yetirər Özündən qorxanların, fəryadlarını eşidər, onları qurtarar. Rəbb qoruyar Özünü sevən hər kəsi... (Zəbur, 145:18-20)
... Rəbbə yalvarmaq, hər şeyə hakim Rəbbə yönəlmək üçün dərhal yola çıxaq... (Zəkəriyyə, 8:21)
Yazda Rəbbdən yağış istəyin. Odur yağış buludlarını meydana gətirən... (Zəkəriyyə, 10:1)
Nəfəsim tükənincə Səni andım ya Rəbb, duam Sənədir... (Yunis, 2:7)
Bunun üzərinə üzümü Rəbb Allaha çevirdim. Dua ilə, iltimasla, orucla Ona yalvardım; çul geyinib küldə oturdum. Rəbb Allahıma dua edib günahlarımızı açıq şəkildə qəbul etdim. Belə dedim: "Ya Rəbb, Özünü sevənlərlə, buyruqlarına uyanlarla etdiyi razılaşmaya bağlı qalan, davamlı sevgi göstərən uca və əzəmətli Allah! (Daniel, 9:3-4)
… Gecə ilahi söyləyər, dua edərəm həyatımın Allahına. (Zəbur, 42:8)
Dua etdiyində Allah ondan razı qalar, o da Allahın üzünü görüb sevinər. Allah onun durumunu düzəldər. (Əyyub, 33:26)
... "Allahım, əllərimə güc ver" deyə dua etdim. (Nehemya, 6:9)
... Dayanmadan dua etsinlər... (Zəbur, 72:15)
Yüksək səslə yalvarıram Rəbbə, yüksək səslə Rəbbə yalvarıram... Sənə səslənirəm ya Rəbb: "Sığınacağım, yaşadığımız bu dünyada nəsibim Sənsən" deyirəm. (Zəbur, 142:1, 5)
... Təvazökar olub, Mənə yönəlib dua etsə və pis yollarından dönsə... günahlarını bağışlayıb ölkələrini xoşbəxtliyə qovuşduracağam. (2 Salnamələr, 7:14)
... Biz Allahımıza dua etdik... (Nehemya, 4:9)
Xalq belə dua etdi: "Tək Rəbb Sənsən. Göyləri, göylərin göylərini, bütün göy cisimlərini, yer üzünü və içindəki hər şeyi, dənizləri və içlərindəki hər şeyi Sən yaratdın. Hamısına Sən can verdin. Bütün göy cisimləri Sənə tapınır". (Nehemya 9:6)
Dünyanı yaradan, yerini alsın deyə ona quruluş verən, adı Rəbb olan belə deyir: "Mənə yalvar ki, səni cavablayım; bilmədiyin böyük, ağla sığmaz şeyləri Sənə bildirim". (Yeremya, 33:2-3)
Yüksək səslə yalvarıram Rəbbə, yüksək səslə Rəbbə yalvarıram… təhlükəyə düşəndə gedəcəyim yolu Sən bilirsən. Tələ qurdular getdiyim yola… Sənə səslənirəm ya Rəbb: "Sığınacağım, yaşadığımız bu dünyada nəsibim Sənsən" deyirəm. "Səsimə qulaq as, çünki çox çarəsizəm; qurtar məni ardıma düşənlərdən, çünki məndən güclüdürlər". (Zəbur, 142:1-6)
Yunis balığın qarnından Allahı Rəbbə belə dua etdi: "Ya Rəbb, çətinlikdə Sənə yalvardım, cavabladın məni. Kömək istədim… qulaq asdın səsimə… Sular boğana qədər əhatə etdi məni, ətrafımı dənizlər bürüdü… Amma ya Rəbb, Allahım, məni sən qurtardın quyudan. Nəfəsim tükənincə Səni andım ya Rəbb, duam Sənədir… Qurtuluş Səndən gələr ya Rəbb!" (Yunis, 2:1-9)
Duamı eşit ya Rəbb, iltimasımı dinlə! Sədaqətinlə, doğruluğunla cavabla məni!... Əllərimi Sənə açıram, qəlbim quru torpaq kimi Sənə susayıb. Tez cavabla məni ya Rəbb, tükənirəm. Çevirmə məndən üzünü, yoxsa ölüm quyusuna enən ölülərə dönərəm. Səhərlər eşitdir mənə sevgini, çünki Sənə güvənirəm; mənə gedəcəyim yolu bildir, çünki duam Sənədir. Düşmənlərimdən qurtar məni ya Rəbb; Sənə sığınıram. Rizanı işləməyi mənə öyrət, çünki Sən mənim Allahımsan. Sənin yaxşı ruhun düz yolda mənə öndərlik etsin! Ya Rəbb, adın uğruna həyat ver mənə, doğruluğunla qurtar məni çətinlikdən. (Zəbur, 143:1, 6-12)
Hanna belə dua etdi: "Ürəyim Rəbbdə tapdığım sevinclə coşur; gücümü yüksəldən Rəbbdir… Müqəddəslikdə Rəbbin bənzəri yoxdur, bəli, Sənin kimisi yoxdur ya Rəbb! Allahımız kimi dayaq yoxdur... Çünki Rəbb hər şeyi bilən Allahdır; Odur davranışları ölçən… Rəbb öldürür də, dirildir də, ölülər diyarına endirir və çıxarır. O, kimisini yoxsul, kimisini varlı edər; kimisini alçaldar, kimisini yüksəldər. Düşkünü yerdən qaldırar, yoxsulu zibillikdən çıxarar… Yer üzünün təməlləri Rəbbindir… Rəbb sadiq qullarının addımlarını qoruyar, amma pislər qaranlıqda susdurular. Çünki güclə zəfərə çata bilməz insan". (1 Şamuel, 2:1-9)
İbrahim Allaha dua etdi və Allah... şəfa verdi. Uşaq sahibi oldular. (Yaradılış, 20:17)
... "Ya Rəbb, böyüyüm İbrahimin Allahı, yalvarıram, bu gün məni müvəffəqiyyətli et" deyə dua etdi... (Yaradılış, 24:12)
Bu gün bulağın başına gələndə belə dua etdim: "Ya Rəbb, böyüyüm İbrahimin Allahı, yalvarıram yolumu aç". (Yaradılış, 24:42)
Musa Fironun yanından çıxıb Rəbbə dua etdi. (Misirdən çıxış, 10:18; 8:30)
... Xizqiya onlar üçün belə dua etdi: "... Təmizlənməmiş belə olsa, Rəbb Allaha, atalarının Allahına yönəlməyə ürəkdən qərarlı olan hər kəsi yaxşı olan Rəbb bağışlasın". (2 Salnamələr, 30:18-19)

Daniel… daha əvvəl etdiyi kimi hər gün üç dəfə diz çöküb dua etdi, Allahına təriflər dedi… Onu Allahına dua edib yalvararkən gördülər. (Daniel, 6:10-11)
Süleyman… dayanıb əllərini göylərə açdı. "Ya Rəbb… Yerdə və göydə Sənə bənzər başqa Allah yoxdur" dedi, "Bütün ürəkləri ilə yolunu izləyən qullarınla etdiyin razılaşmaya bağlı qalarsan… Ya Rəbb Allahım, qulunun bu gün etdiyi duanı, iltiması eşit; duasına və yalvarışına qulaq as… Qulunun buraya yönəlib etdiyi duanı eşit. Buraya yönəlib dua edən qulunun… iltimasını eşit… eşidincə bağışla… Biri qonşusuna qarşı günah işləyib and içmək məcburiyyətində qaldığında gəlib bu məbəddə, Sənin qurbangahının önündə and içsə… günahkarın cəzasını verərək, günahsızı haqlı çıxararaq qullarını mühakimə et… Yenə Sənə dönüb, adını xatırlayıb, bu məbəddə dua edib, yalvararaq önünə çıxsa… günahını bağışla. Onları atalarına verdiyin ölkəyə yenə qovuşdur… Sənə qarşı günah işlədiyi üçün göylər bağlanıb yağış yağmazsa, çətinliyə düşən xalqın bura yönəlib, dua edib, adını xatırlayıb və günahlarından dönsə… qullarının… günahlarını bağışla. Onlara doğru yolda getməyi öyrət… Mülk olaraq verdiyin ölkənə yağışlarını göndər. Ölkəni qıtlıq, yoluxucu xəstəlik, sam yeli, kif, tırtıl və ya çəyirtkələr bürüdüyündə, düşmənlər şəhərlərin birində xalqını dövrəyə aldığında, hər hansı bir fəlakət, yaxud xəstəlik olanda… dua edib, yalvararaq əllərini bu məbədə doğru açsa… bağışla. İnsanların qəlblərini yalnız Sən bilirsən… atalarımıza verdiyin bu ölkədə yaşadıqları müddətdə Səndən qorxsunlar… Sənin uca adını, gücünü, qüdrətini eşidib uzaq ölkələrdən gələn qəriblər bu məbədə gəlib dua etsələr… yalvarışlarını cavabla. Belə ki, dünyanın bütün xalqları… Sənin adını bilsin, Səndən qorxsun… adına inşa etdirdiyim bu məbədə yönəlib dua etsə… onları qurtar… Peşmanlıq duyub, günahlarından dönüb, "Günah işlədik, yoldan sapıb pislik etdik" deyərək Sənə yalvarsalar, məhbus olduqları ölkədə candan və ürəkdən Sənə dönsələr, atalarına verdiyin ölkələrinə, seçdiyin şəhərə və adına inşa etdirdiyim məbədinə yönəlib dua etsələr… dualarına, yalvarışlarına qulaq as, onları qurtar… bütün günahları bağışla. Düşmənlərinin onlara acımasını təmin et…" Süleyman Rəbbə duasını və iltimasını bitirincə əlləri göylərə açıq, dizləri üzərinə çökdüyü Rəbbin qurbangahının önündən qalxdı. (1 Padşahlar, 8:22-54)
… Üzümü Rəbb Allaha çevirdim. Dua ilə, iltimasla, orucla Ona yalvardım… Rəbb Allahıma dua edib günahlarımızı etiraf etdim…: "Ya Rəbb… Buyruqlarından, qanunlarından ayrılıb günah və cinayət törətdik, pislik etdik, baş qaldırdıq. Sənin adına padşahlarımıza, öndərlərimizə, atalarımıza, ölkədəki bütün xalqa səslənən qulların olan peyğəmbərləri dinləmədik. Sən ədalətlisən ya Rəbb! Sədaqətsizliyimiz üzündən bizi yaxın, uzaq ölkələrə apardın… bu gün utanırıq. Bəli ya Rəbb, bizlər, padşahlarımız, öndərlərimiz, atalarımız Sənə qarşı işlədiyimiz günah üzündən utanırıq. Sənə qarşı gəldiyimiz halda sən acıyan, bağışlayan Allahımız Rəbbsən. Allahımız Rəbbin sözünə qulaq asmadıq, qulları peyğəmbərlər vasitəsilə bizə verdiyi qanunlara uymadıq… Buna görə Allah qulu Musanın qanununda yazılan lənət başımıza yağdı, içilən and yerinə gəldi. Çünki Sənə qarşı günah işlədik. Üzərimizə böyük fəlakət gətirib bizim və bizi idarə edən öndərlərimiz üçün söylədiyin sözləri yerinə yetirdin… Musanın qanununda yazıldığı kimi, bütün bu müsibətlər başımıza gəldi. Buna qarşı ey Allahımız Rəbb, günahımızdan dönüb, Sənin həqiqətlərinə yönələrək lütfünü diləmədik… İndi ey Allahımız, qulunun duasını, yalvarışını eşit… Doğruluğumuzdan deyil, Sənin böyük mərhəmətindən ötrü istəyirik. Ya Rəbb, bağışla!... Ey Allahım, adının xatiri üçün gecikmə!..." (Daniel, 9:3-19)
… Peyğəmbər İlyas qurbangaha yaxınlaşıb belə dua etdi: "… Mən də Sənin qulunam və bütün bunları Sənin buyruqlarınla etdim. Ya Rəbb, mənə cavab ver!... Onların yenə Sənə dönmələrini təmin et". (1 Padşahlar, 18:36-37)
… Oruc tutub göylərin Allahına dua etdim: "… Uca və əzəmətli Allah! Ya Rəbb, halımı gör, gecə-gündüz… etdiyim duaya qulaq as… Məni bu gün müvəffəqiyyətli et…" (Nehemya, 1:4-7, 11)
… Rəbbin hüzurunda məktubu yerə sərib belə dua etdi: "… Hər şeyə hakim Rəbb, bütün dünya padşahlıqlarının tək Allahı Sənsən. Yeri, göyü Sən yaratdın…" (Yeşaya, 37:14-16)
... O şəhər üçün Rəbbə dua edin... (Yeremya, 29:7)
... sağ qalanlarımız üçün dua et. (2 Padşahlar, 19:4)
... sağ qalmağımız üçün dua etsinlər. (Ezra, 6:10)
... Belə dua etdi: "... Rəbb, bütün dünya padşahlıqlarının tək Allahı Sənsən. Yeri, göyü Sən yaratdın". (2 Padşahlar, 19:15)
Sonra belə dua etdi: "Ya Rəbb, onun gözlərini aç, görsün!"... (2 Padşahlar, 6:17)
İlyas üç dəfə uşağın üzərinə əyilib Rəbbə belə dua etdi: "Ya Rəbb Allahım, bu uşağa yenidən can ver". (1 Padşahlar, 17:21)
"Sənə yalvarıram ya Rəbb… buraxma, tərk etmə məni ey məni qurtaran Allah!... Ya Rəbb, yolunu öyrət mənə… düz yolda mənə öndər ol". (Zəbur, 27:7-11)

**Tövratda mələklərə iman**

Çünki Allah mələklərinə əmr edəcək ki, gedəcəyin hər yerdə səni qorusunlar. Əllərində daşıyacaqlar səni ki, ayağın daşa dəyməsin. Aslanı, kobranı tapdalayıb keçəcəksən, gənc aslanı, ilanı tapdalayacaqsan. "Məni sevdiyi üçün onu qurtaracağam" deyir Rəbb, "Məni yaxşı tanıdığı üçün ona qala olacağam. Mənə səsləndə onu cavablayacağam, çətinlikdə onun yanında olacağam, qurtarıb ucaldacağam onu. Onu uzun ömürlə doyuracaq, ona xilasımı göstərəcəyəm". (Zəbur, 91: 11-16)
... Qəflətən bir mələk ona toxunub "Qalx yemək ye" dedi. İlyas ətrafına baxanda yanında, isti daşların üstündə yemək və bir qab su gördü. Yeyib içdikdən sonra yenə uzandı. Rəbbin mələyi ikinci dəfə gəldi, ona toxunub "Qalx yeməyini ye. Gedəcəyin yol çox uzundur" dedi. İlyas qalxdı, yeyib içdi. Yediklərindən aldığı güclə qırx gün, qırx gecə... getdi. (1 Padşahlar, 19:5-8)
"Yolunda getdiyim Rəbb mələyini səninlə göndərəcək, yolunu açacaq" dedi..". (Yaradılış, 24:40)
Rəbb... "İndi get, xalqı sənə söylədiyim yerə apar. Mələyim sənə öndərlik edəcək. Amma zamanı gəlincə günahlarından ötrü onları cəzalandıracağam". (Misirdən çıxış, 32:33-34)
Yaqub yoluna davam edərkən, Allahının mələkləri ilə qarşılaşdı. (Yaradılış, 32:1)
Amma biz Rəbbə yalvarınca iltimasımızı eşitdi. Bir mələk göndərib bizi Misirdən çıxardı... (Səhra saylar, 20:16)
Bundan sonra Rəbb mələyə qılıncını qınına qoymasını buyurdu. Mələk buyruğa tabe oldu. (1 Salnamələr, 21:27)
Dan yeri ağararkən mələklər Luta "... iki qızını götür, dərhal buradan uzaqlaş" deyə təkid etdilər... (Yaradılış, 19:15)
İki mələk axşamüstü Sodoma çatdılar. Lut şəhərin qapısında oturmuşdu. Onları görən kimi qarşılamaq üçün ayağa qalxdı... (Yaradılış, 19: 1)
"Yolda sizi qoruması, hazırladığım yerə aparması üçün önünüzdən bir mələk göndərirəm. Ona diqqət yetirin, sözünü dinləyin, baş qaldırmayın. Çünki Məni təmsil etdiyi üçün qiyamınızı bağışlamaz. Amma onun sözünü diqqətlə dinləyib bütün söylədiklərimi yerinə yetirsəniz, düşmənlərinizə düşmən, rəqiblərinizə rəqib olacağam. Mələyim önünüzdən gedəcək... (Misirdən çıxış, 23:20-23)
Süd və bal axan ölkəyə səndən əvvəl bir mələk göndərəcək... (Misirdən çıxış, 33:2-3)
Rəbb bir mələk göndərib Asuri şahının ordusundakı bütün igid döyüşçüləri, öndərləri, komandirləri yox etdi. Asur şahı rüsvay olmuş halda ölkəsinə döndü... (2 Salnamələr, 32:21)
Rəbbə təriflər deyin ey sizlər, Onun mələkləri, Onun sözünü dinləyən, söylədiklərini yerinə yetirən güc sahibləri! Rəbbə təriflər deyin ey sizlər, Onun bütün göy orduları, istəyini yerinə yetirən qulları! Rəbbə təriflər deyin ey Onun hakim olduğu yerlərdəki bütün varlıqlar! Rəbbə təriflər de ey könlüm! (Zəbur, 103:20-22)
Ey bütün mələkləri, Ona təriflər deyin, təriflər deyin ona ey bütün göy orduları! (Zəbur, 148:2)
"Bunlar nədir?" deyə soruşdum. Mənimlə danışan mələk "Bunların nə olduğunu sənə göstərəcəyəm" deyə cavab verdi. Mərsin ağaclarının arasında dayanan adam "Bunlar dünyanı gəzmək üçün Rəbbin göndərdikləridir" deyə açıqladı. Mərsin ağaclarının arasında dayanmış Rəbbin mələyinə "Dünyanı gəzdik" dedilər, "Budur, bütün dünya xoşbəxtlik və təhlükəsizlik içindədir!" (Zəkəriyyə, 1:9-11)
Mələk... bundan sonra belə dedi: "Rəbb... "Güc və qüvvətlə deyil, ancaq Mənim ruhumla bacaracaqsan" deyir. Belə deyir hər şeyə hakim Rəbb". (Zəkəriyyə, 4:5-6)
Rəbbin mələyi ona görünüb "Ey igid döyüşçü, Rəbb səninlədir" dedi. (Hakimlər, 6:12)
Rəbbin mələyi qadına görünüb "Sonsuz olduğun, uşaq doğmadığın halda hamilə qalıb bir oğlan doğuracaqsan" dedi... Qadın tarlada ikən Allahının mələyi yenə ona göründü... (Hakimlər, 13:3-9)

## TÖVRATDA TÖVSİYƏ EDİLƏN GÖZƏL ƏXLAQ XÜSUSİYYƏTLƏRİ

**Tövratda təvazökar olmaq,
qürur və qürurdan çəkinmək**

Allahı Rəbbin gözündə pis olanı etdi. Rəbbin sözünü bildirən Peyğəmbər Yeremyanın qarşısında təvazökar davranmadı. (2 Salnamələr, 36:12)
Yaxında pisin sonu gələcək, yerini axtarsan da, tapılmayacaq. Amma təvazökarlar ölkəni miras alacaq, dərin bir hüzurun zövqünü dadacaq. (Zəbur, 37:10-11)
Təkəbbürlülüyün ardından rüsvayçılıq gəlir, amma müdriklik təvazökarlardadır. (Süleymanın məsəlləri, 11:2)
Qürurun ardından müsibət, kibirli ruhun ardından da məğlubiyyət gəlir. (Süleymanın məsəlləri, 16:18)
Təvazökarlığın və Rəbb qorxusunun mükafatı zənginlik, şərəf və həyatdır. (Süleymanın məsəlləri, 22:4)
Rəbb yüksək olsa da, təvazökarları görər, təkəbbürlü olanları uzaqdan tanıyar. (Zəbur, 138:6)
Rəbb qorxusu müdriklik öyrədər, təvazökarlıq da ləyaqətin şərtidir. (Süleymanın məsəlləri, 15:33)
... Ancaq Mən təvazökara, ruhu əzik olana, sözümdən titrəyən adama dəyər verərəm. (Yeşaya, 66:2)
Ey insanlar, Rəbb yaxşı olanı sizə bildirdi; ədalətli davranmağınızdan, sədaqəti sevməyinizdən və təvazökarlıqla yolunda getməyinizdən başqa Allahınız Rəbb sizdən nə istədi? (Mikeya, 6:8)
Ticarətdəki üstün bacarıqların sayəsində sərvətini çoxaltdın, zənginliyin səni qürura sürüklədi. (Yezekel, 28:25)
Gözəlliyindən ötrü qürura qapıldın, əzəmətindən ötrü müdrikliyini pozdun. Beləcə, səni yıxdım, Padşahların qarşısında səni biabır etdim. (Yezekel, 28:17)
Lakin qürurlanıb hörmətsizlikdə inad edincə şahlıq taxtından endirildi, ucalığı əlindən alındı. (Daniel, 5:20)
Otlaqlara sahib olunca doydular, doyunca qürura qapıldılar; buna görə unutdular Məni. (Huşə, 13:6)
Qaya qovuqlarında yaşayan, evini yüksəklərdə quran sənsən! Qəlbindəki qürur səni aldatdı. İçindən "Məni kim yerə endirə bilər?" deyirsən. "Qartal kimi yüksəlsən də, yuvanı ulduzlar arasında qursan da, oradan endirəcəyəm səni" deyir Rəbb. (Avdiya, 1:3-4)
Hakim Rəbb belə deyir: "... Artıq əvvəlki kimi olmayacaq. Təvazökar yüksəldiləcək, qürurlu alçaldılacaq”. (Yezekel, 21:26)
Ey Rəbbin qanunlarını yerinə yetirənlər, ölkədəki bütün təvazökarlar, Rəbbə yönəlin. Doğruluğu və təvazökarlığı məqsəd bilin. Bəlkə Rəbbin qəzəb günündə xilas ola biləsiniz. (Sefanya, 2:3)
... Təvazökarları zəfər tacı ilə bəzəyər. (Zəbur, 149:4)
Təvazökarları xilas edib qürurluların başını əyərsən. (Zəbur, 18:27)
Dinləyin, qulaq asın, qürurlanmayın, çünki Rəbb danışdı... (Yeremya, 13:15)
Təvazökarlara ədalət yolunda öndərlik edər, Öz yolunu öyrədər onlara. (Zəbur, 25:9)
Rəbb istehza edənlərə istehza edər, amma təvazökarlara lütf edər. (Süleymanın məsəlləri, 3:34)
... Rəbb deyir ki, "Nə vaxtadək təvazökar olmağı rədd edəcəksən?..”. (Misirdən çıxış, 10:3)
Musa yer üzündə yaşayan hər kəsdən daha təvazökar idi. (Səhrada saylar, 12:3)
Təvazökarları xilas edər, qürurluları gözləyər, qürurunu qırarsan. (2 Şamuel, 22:28)
... Təvazökar bir yol tutdu... Önümdə necə təvazökar davrandığını gördünmü? Bu təvazökarlığından ötrü həyatı boyunca Mən də onu çətinliyə salmayacağam...”. (1 Padşahlar, 21:27, 29)
... Təvazökar olub, Mənə yönəlib dua etsə və pis yollarından dönsə... günahlarını bağışlayıb ölkələrini xoşbəxtliyə qovuşduracağam. (2 Salnamələr, 7:14)
... Rəbb onların təvazökarlıq etdiyini görüncə... belə dedi: "Madam təvazökarlıq etdilər, onları yox etməyəcəyəm...”. (2 Salnamələr, 12:7)
Lakin... özünə edilən bu yaxşılığa yaraşan şəkildə davranmayıb böyükləndi... Qüruru buraxıb təvazökar davranmağa başladılar. Buna görə... Rəbbin qəzəbinə uğramadılar. (2 Salnamələr, 32:25-26)
... Allahı qarşısında son dərəcə təvazökar davrandı. (2 Salnamələr, 33:12)
... Rəbbin qarşısında təvazökarlıq edən atası... (2 Salnamələr, 33:23)
Allahımızın qarşısında təvazökar davranmaq üçün və Ondan özümüzə, uşaqlarımıza, mallarımıza etibarlı bir səfər diləmək üçün orada... oruc elan etdim. (Ezra 8:21)
İnsanlar səni alçaldınca etibarını itirmə, çünki Allah təvazökarları qurtarar. (Əyyub, 22:29)
Halbuki onlar xəstələndikdə mən çula bürünüb, oruc tutub, təvazökar olardım... (Zəbur, 35:13-14)
Sənin qəbul etdiyin qurban təvazökar bir ruhdur, təvazökar və peşman bir qəlbi xor görməzsən ey Allah. (Zəbur, 51:17)

Məzlumlar arasında təvazökar biri olmaq, qürurlularla soyğun malı paylaşmaqdan yaxşıdır. Öyüdə qulaq asan müvəffəqiyyətə çatar, Rəbbə güvənən xoşbəxt olar. (Süleymanın məsəlləri, 16:19-20)

Qəlbdəki qüruru məğlubiyyət, təvazökarlığı isə şərəf izləyər. (Süleymanın məsəlləri, 18:12)

Qəzəbli adam ədavət yaradar, kəmhövsələ adamın üsyanı az olmaz. Qürur insanı hörmətdən salar, təvazökarlıq isə şərəf qazandırar. (Süleymanın məsəlləri, 29:22-23)

Uca və əzəmətli olan, sonsuzluqda yaşayan, adı müqəddəs olan deyir ki, "... Təvazökarlarla, əzilənlərlə birlikdəyəm. Ürəklərini sevindirmək üçün əzilənlərin yanındayam”. (Yeşaya, 57:15)

... "Paltarının üstündən bir də zülmkarlığı geyinən adamdan da nifrət edirəm” belə deyir hər şeyə hakim Rəbb. Buna görə özünüzə diqqət yetirin və xəyanət etməyin. (Malaki, 2:16)

Rəbbin nifrət etdiyi altı şey, iyrəndiyi yeddi şey vardır: Qürurlu gözlər, yalançı dil, günahsız qanı tökən əllər, kələkbaz qəlb, pisliyə aparan ayaqlar, yalan nəfəs alan yalançı şahid və qardaşlar arasında ixtilaf yaradan adam. Qürurun ardından müsibət, qürurlu ruhun ardından da məğlubiyyət gələr. Məzlumlar arasında təvazökar biri olmaq qürurlularla soyğun malı paylaşmaqdan yaxşıdır. (Süleymanın məsəlləri, 6:16-19)

... Qürurlu, təkəbbürlü olanları uzaqlaşdıracağam aralarından... Bir daha lovğalanmayacaqlar. Orada yalnız Mənim adıma sığınan itaətli və təvazökarları buraxacağam. (Sefenya, 3:11-12)

Rəbbdən qorxmaq pislikdən nifrət etmək deməkdir. Qürurdan, təkəbbürdən, pis yoldan, sapqın ağızdan nifrət edirəm. (Süleymanın məsəlləri, 8:13)

Kibirdən ancaq qovğa çıxar, öyüd dinləyən isə müdrikdir. (Süleymanın məsəlləri, 13:10)

Onlar acı nədir bilməzlər, bədənləri sağlam və kökdür. Başqalarının dərdini bilməz, onlar kimi əziyyət çəkməzlər. Buna görə qürur onların boyunbağısı, azğınlıq onları bürüyən bir geyim kimidir. Köklükdən gözləri çölə çıxar, içləri pislik qazanı kimi qaynayar. İnsanlarla əylənər, pis niyyətlə danışar, təpədən baxar, təzyiqlə təhdid edərlər. Göylərə qarşı ağızlarını açarlar, boş sözləri yer üzünü gəzər. (Zəbur, 73:4-9)

Rəbb qürurlunun evini yıxar... Həyat verən nəsihətləri dinləyən müdriklərin arasında yerləşər. (Süleymanın məsəlləri, 15:25, 31)

Təkəbbürlü baxışlar və qürurlu qəlb pislərin çırası və günahıdır. (Süleymanın məsəlləri, 21:4)

Bir hadisənin sonu başlanğıcından yaxşıdır. Səbirli qürurludan yaxşıdır. (Vaiz, 7:8)

Çünki hər şeyə hakim Rəbb o gün qürurluları, kibirliləri, özünü bəyənmişləri alçaldacaq; insanların qüruru, kibiri yox olacaq, o gün tək Rəbb ucaldılacaq. (Yeşaya, 2:12-13)

... Qürurlu qəlbi, lovğa baxışları üzündən cəzalandıracağam. (Yeşaya, 10:12)

Rəbb deyir ki, "Pisliyinə görə dünyanı, günahlarına görə pisləri cəzalandıracağam. Kibirlilərin təkəbbürünü sona çatdırıb zalımların qürurunu qıracağam”. (Yeşaya, 13:11)

Lakin güclənəndə özünü fəlakətə sürüyən bir qürura qapıldı. Allahı Rəbbə xəyanət etdi... (2 Salnamələr, 26:16)

Amma atalarımız qürura qapıldı; dikbaşlıq edib buyruqlarına uymadılar. Söz dinləmək istəmədilər, aralarında göstərdiyin möcüzələri unutdular. Dikbaşlıq etdilər, köhnə köləlik həyatlarına dönmək üçün özlərinə bir öndər tapıb baş qaldırdılar... (Nehemya, 9:16-17)

Qulaqlarına danışar, bildirişi ilə onları qorxudar; onları etdikləri pislikdən çevirmək, qürurdan uzaq tutmaq, canlarını quyudan, həyatlarını ölümdən qurtarmaq üçün. (Əyyub, 33:16-18)

Pislərin qüruru üzündən insanlar fəryad edir... (Əyyub, 35:12)

Onlara etdiklərini, qürura qapılıb üsyan etdiklərini bildirər. Öyüdünü dinlədər, pislikdən dönmələrini buyurar. Əgər dinləyib Ona qulluq etsələr, qalan günlərini bolluq, illərini rahatlıq içində keçirərlər. Amma dinləməsələr, ölər və dərs almadan yox olarlar. (Əyyub, 36:9-12)

Pislər qürurla məzlumları ovlayır, məzlumlar pislərin qurduğu tələyə düşür. Pis insan içindəki istəklərlə öyünər... Özünü bəyənmiş pis insan Allaha yönəlməz... Elə ucadır ki Sənin hökmlərini pislər anlaya bilməz, düşmənini kiçildər. (Zəbur, 10:2-5)

Nə xoş Rəbbə güvənən insana; qürurluya və yalana yönələnə meyl etməyənə. (Zəbur, 40:4)

Qüdrəti ilə sonsuza qədər hökmranlıq edər... Baş qaldıranlar qürura qapılmasın! (Zəbur, 66:7)

... Necə qürurlanıb böyükləndiyini, özünü nə cür bəyəndiyini, qürurlanıb kibirləndiyini, öyünüb özünü çəkdiyini eşitdik. "Təkəbbürünü bilirəm" deyir Rəbb, "Boş yerə öyünür, etdikləri də boş yerədir”. (Yeremya, 48:29-30)
... Güclülərin qüruruna son verəcəyəm... Qorxu gəlincə xoşbəxtlik axtaracaq, amma tapa bilməyəcəklər. (Yezekel, 7:24-25)
Bacın Sodomun günahı bu idi: Özü də, qızları da qürurlu idi, çörəyə doymuşdular, önəm verməzdilər. Düşkünə, yoxsula kömək əlini uzatmadılar... Əxlaqsızlığının və etdiyin iyrənc işlərin nəticələrinə qatlaşacaqsan. Rəbb belə deyir. (Yezekel, 16:49, 58)
... Hakim Rəbb belə deyir: "Qürura qapılıb “Mən Allaham, dənizlərin köksündə, Allahın taxtında otururam” dedin. Özünü Allah sandın, halbuki sən Allah deyil, insansan”. (Yezekel, 28:2)
... Qüruru özünə qarşı şahidlik edir; bütün bunlara baxmayaraq yenə də dönmürlər. Mən Allahları Rəbbi, axtarmırlar Məni. (Huşə, 7:10)
Onları müqəddəs qanununa dönmələri üçün xəbərdar etdinsə də, qürura qapılaraq buyruqlarına qarşı gəldilər. Qaydalarını tapdalayıb günah işlədilər. Halbuki kim qaydalarına bağlı qalsa, həyat tapar. İnadla Sənə arxa çevirdilər, dinləmək istəmədilər. (Nehemya, 9:29)
Öyünənlərə "Öyünməyin artıq!" dedim; pislərə, "Qaldırmayın başınızı! Qaldırmayın başınızı! Təpədən danışmayın!" Çünki nə şərqdən, nə qərbdən, nə də səhradakı dağlardan gələr hökm. Hakim ancaq Allahdır, birini alçaldar, birini yüksəldər. (Zəbur, 75:4-7)
Yox edərəm dostunu gizli incidəni, dözə bilmərəm təpədən baxan qürurlu insana. (Zəbur, 101:5)
Ya Rəbb, qəlbimdə qürur yoxdur, gözüm yüksəklərdə deyil... (Zəbur, 131:1)
Qürurlu, təkəbbürlü və istehza edən: Bunlar ixtisar olunmuş insanın adlarıdır. (Süleymanın məsəlləri, 21:24)
Artıq böyük danışmayın, ağzınızdan kibirli sözlər çıxmasın. Çünki Rəbb hər şeyi bilən Allahdır; Odur davranışları ölçən. (1 Şamuel, 2:3)

**Tövratda qəzəbi yenmək**

Tez hirslənmə, çünki qəzəb ağılsızların köksünə sığınar. (Vaiz, 7:9)
Gec hirslənən ağıllıdır, tez əsəbiləşən axmaqlığını göstərər. (Süleymanın məsəlləri, 14:29)
Tez hirslənən axmaq kimi davranar... (Süleymanın məsəlləri, 14:17)
İdarəçinin hirsi sənə qarşı alovlansa, yerindən tərpənmə; çünki soyuqqanlılıq böyük səhvləri önləyər. (Vaiz, 10:4)
Gizli verilən hədiyyə hirsi... yatırar. (Süleymanın məsəlləri, 21:14)
Lağ edənlər şəhərləri beləcə qarışdırar, müdriklər isə hirsi yatırar. Müdrik adamla mübahisə edən axmaq hirslənər, istehza edər və rahatlıq verməz. (Süleymanın məsəlləri, 29:8-9)
Qəzəbli adam ədavət yaradar, kəmhövsələ adamın üsyanı az olmaz. (Süleymanın məsəlləri, 29:22)
... Hirslənib kədərlənmə işi yolunda olanlara; pis məqsədlərinə qovuşanlara hirslənməkdən çəkin, burax qəzəbi, kədərlənmə; bu, səni yalnız pisliyə aparar. Çünki pislərin kökü kəsiləcək, amma Rəbbə ümid bağlayanlar ölkəni miras alacaq. (Zəbur, 37:7-9)
Çünki südü döyüncə necə kərə yağı... çıxırsa, qəzəbi qurdalayınca da qovğa çıxar. (Süleymanın məsəlləri, 30:33)
Kəmhövsələ adamla yoldaşlıq etmə; tez hirslənənlə yola çıxma. Yoxsa onun yollarına alışıb özünü tələyə düşürərsən. (Süleymanın məsəlləri, 22:24-25)
Qəzəb zalım, hiddət azğındır... (Süleymanın məsəlləri, 27:4)
Axmaq əsəbiləşdiyini dərhal biruzə verər, amma ehtiyatlı olan alçaldılmağa önəm verməz. (Süleymanın məsəlləri, 12:16)
Gizli niyyətlərinə ortaq olmaram, yığıncaqlarına qatılmaram. Çünki hirslənincə adam öldürdülər, ürəkləri istəyincə inəkləri şikəst etdilər. Lənət olsun qəzəblərinə, çünki şiddətlidir. Lənət olsun qəzəblərinə, çünki zülmlə doludur. (Yaradılış, 49:6-7)
Pislik edənlərə hirslənib kədərlənmə... (Zəbur, 37:1)

**Tövratda bağışlamaq**

Nifrət çəkişməni qızışdırar, sevgi hər günahı bağışlayar. (Süleymanın məsəlləri, 10:12)
Ağıllı adam səbirlidir, qüsurları xoş görməsi ona şərəf qazandırar. (Süleymanın məsəlləri, 19:11)
Sevgi istəyən adam günahları bağışlayar, qeybət edən isə can dostlarını ayırar. (Süleymanın məsəlləri, 17:9)
"Mənə etdiyini mən də ona edəcəyəm, əvəzini verəcəyəm mənə etdiyini" demə. (Süleymanın məsəlləri, 24:29)
Sevgi və bağlılıq günahları bağışladar, Rəbb qorxusu insanı pislikdən uzaqlaşdırar. (Süleymanın məsəlləri, 16:6)
Qisas almayacaqsan… Kin saxlamayacaqsan. Qonşunu özün kimi sevəcəksən... (Levililər, 19:18)

**Tövratda şəfqət və mərhəmət**

Qonşunu xor görmək günahdır, nə xoş məzluma lütf edənə! (Süleymanın məsəlləri, 14:21)
Möhtacı əzən, özünü Yaradanı xor görən deməkdir. Yoxsula acıyan isə Yaradanı ucaldar. (Süleymanın məsəlləri, 14:31)
Düşmənin acıbsa, doyur; susayıbsa, su ver. Bunu etməklə ona xəcalət verərsən və Rəbb səni mükafatlandırar. (Süleymanın məsəlləri, 25:21-22)
Allahınız Rəbbin sizə verəcəyi ölkənin hər hansı bir şəhərində yaşayan qardaşlarınızdan biri yoxsuldursa, qəlbinizi qatılaşdırmayın, yoxsul qardaşınıza xəsis davranmayın. (Qanunun təkrarı, 15:7)
Zəifin, yetimi müdafiə edin; məzlumun, yoxsulun haqqını axtarın. Zəifi, yoxsulu qurtarın, onları pislərin əlindən azad edin. (Zəbur, 82:3-4)
Hər şeyə hakim Rəbb deyir ki, "Həqiqi ədalətlə mühakimə edin; bir-birinizə sevgi və mehribanlıq göstərin. Dul qadına, yetimə, qəribə, yoxsula təzyiq etməyin. Ürəyinizdə bir-birinizə qarşı pislik hazırlamayın". (Zəkəriyyə, 7:9-10)
Səxavətli qadın məzluma qollarını açar, yoxsula əlini uzadar. (Süleymanın məsəlləri, 31:20)
"Əgər yoxsulların diləyini geri çevirdimsə, dul qadının ümidini kəsdimsə, çörəyimi tək yeyib yetimlə paylaşmadımsa, gəncliyimdən bəri yetimi ata kimi böyütmədimsə, doğulduğumdan bəri dul qadına yol göstərmədimsə, geyimi olmadığı üçün can verən birini və ya örtüsü olmayan bir yoxsulu görüb qoyunlarımın yunu ilə isitmədimsə… Məhkəmədə sözümün keçdiyini bilərək yetimə əl qaldırdımsa, qolum çiynimdən düşsün, qol sümüyüm qırılsın. Çünki Allahdan gələcək bəladan qorxuram, Onun əzəmətindən ötrü belə bir şey edə bilmərəm. (Əyyub, 31:16-23)
Nə xoş yoxsulu düşünənə! Rəbb qurtarar onu pis gündə. (Zəbur, 41:1)
Yoxsulu əzən yoxsul, məhsulu xarab edən leysan yağış kimidir. (Süleymanın məsəlləri, 28:3)
Yoxsula verən möhtac olmaz, yoxsulu görməməzlikdən gələn isə bir çox lənətə uğrayar. (Süleymanın məsəlləri, 28:27)
Yoxsulun fəryadına qulağını tıxayanın fəryadına cavab verilməyəcək. (Süleymanın məsəlləri, 21:13)
Comərd olan müqəddəs hesab edilər, çünki yeməyini yoxsullarla paylaşar. (Süleymanın məsəlləri, 22:9)
Yeməyinizi acla paylaşmaq deyilmi? Sığınacaqsız yoxsulları evinizə alıb, çılpaq gördüyünüzü geydirib yaxınlarınızdan köməyinizi əsirgəməsəniz, işığınız dan kimi ağaracaq, tez şəfa tapacaqsınız. Doğruluğunuz önünüzdən gedəcək, Rəbbin ucalığı ardındakı qüvvət olacaq. (Yeşaya, 58:7-8)
Aclar uğrunda özünüzü fəda edib yoxsulların ehtiyacını qarşılasanız, işığınız qaranlıqda parlayacaq, qaranlığınız günorta kimi işıq saçacaq. Rəbb həmişə sizə yol göstərəcək, quraq torpaqlarda sizi doyurub gücləndirəcək. Yaxşı sulanmış bağça kimi, tükənməz su qaynağı kimi olacaqsınız. (Yeşaya, 58:10-11)
Qəribə və ya yetimə haqsızlıq etməyəcəksiniz. Dul qadının geyimini girov götürməyəcəksiniz… Tarlanızdakı əkini biçəndə gözdən qaçan bir ovuc olsa, götürmək üçün geri dönməyin. Onu qəribə, yetimə, dul qadına buraxın. Belə ki, Allahınız Rəbb əl atdığınız hər işdə sizi müqəddəs hesab etsin. Zeytun ağaclarınızı döyüb məhsulunu yığdığınızda, budaqlarda qalanı yığmaq üçün geri dönməyəcəksiniz. Qalanları qəribə, yetimə, dul qadına buraxacaqsınız. Yığımda artıq qalan üzümlərə görə geri dönməyəcəksiniz. Qəribə, yetimə, dul qadına buraxacaqsınız. (Qanunun təkrarı, 24:17-21)
… Qəriblərə, yetimlərə və dul qadınlara verəcəksiniz. Belə ki, onlar da şəhərlərinizdə yeyib doysunlar. Sonra Allahınız Rəbbə "Mənə buyurduğun kimi... qəriblərə, yetimlərə və dul qadınlara verdim" deyəcəksiniz, "Buyruqlarından ayrılmadım, heç birini unutmadım". (Qanunun təkrarı, 26:12-13)
Yaxşılıq etməyi öyrənin, ədaləti güdün, zalımı yola gətirin, yetimin haqqını verin, dul qadını müdafiə edin". (Yeşaya, 1:17)

Kor olanı yoldan sapdırana lənət olsun!... Qəribə, yetimə, dul qadına haqsızlıq edənə lənət olsun! Bütün xalq "Amin!" deyəcək. (Qanunun təkrarı, 27:18-19)
Zəifləri gücləndirmədiniz, xəstələri sağaltmadınız, yaralıların yarasını sarımadınız. Yolunu səhv salanları geri gətirmədiniz, itənləri axtarmadınız. Ancaq sərtlik və şiddətlə onlara hakim oldunuz. (Yezekel, 34:4)
Əgər həyatınızı və tətbiqlərinizi həqiqətən düzəldib, bir-birinizə qarşı ədalətli davranıb, qəribə, yetimə, dula haqsızlıq etməyib burada günahsız qanı axıtmaz… Burada sonsuza qədər atalarınıza vermiş olduğum ölkədə qalmağınızı təmin edərəm. (Yeremya, 7:5-7)
Yoxsullardan ədaləti əsirgəmək… düşkünlərin haqqını əlindən almaq, dulların dalınca düşmək (yoldan çıxarmaq), yetimlərin malını yağmalamaq üçün haqsız hökm verənlərin, ədalətsiz qanunlar çıxaranların vay halına! (Yeşaya, 10:1-2)
… Günahı bu idi: Özü də, qızları da qürurlu idi, çörəyə doymuşdular, önəm verməzdilər. Düşkünə, yoxsula kömək əlini uzatmadılar… (Yezekel, 16:49-50)
Mərhəmət qoydu onları əsir alanların qəlbinə. (Zəbur, 106:46)
Hər şeyə gücü çatan Allah, adamın qəlbinə sizə qarşı mərhəmət qoysun… (Yaradılış, 43:14)
... Ac olana çörəyini verər, çılpağı geydirər. (Yezekel, 18:7)
Kökəlib parladılar, etdikləri pisliklərlə sərhədi aşdılar. Qazana biləcəkləri halda yetimin tələbinə baxmır, yoxsulun haqqını müdafiə etmirlər. (Yeremya, 5:28)
Ölkə xalqı təzyiq işlətdi, soyğunçuluq etdi. Düşkünə, yoxsula təzyiq etdi, qəribə haqsız yerə pis davrandı. (Yezekel, 22:29)
Yetimlərin, dul qadınların haqqını güdər. Qəribləri sevər, onlara yemək, geyəcək verər. Siz də qəribləri sevəcəksiniz. (Qanunun təkrarı, 10:18-19)
Ona əfəndilik etməyəcək, sərt davranmayacaqsan. Allahından qorxacaqsan. (Levililər, 25:43)

**Tövratda ədalətlə hökm etmək,**
**haqqı müdafiə etmək**

Hər şeyə hakim Rəbb deyir ki, "Həqiqi ədalətlə mühakimə edin; bir-birinizə sevgi və mehribanlıq göstərin". (Zəkəriyyə, 7:9)
Ey insanlar, Rəbb yaxşı olanı sizə bildirdi; ədalətli davranmağınızdan, sədaqəti sevməyinizdən və təvazökarlıqla yolunda getməyinizdən başqa Allahınız Rəbb sizdən nə istədi? (Mikeya, 6:8)
"Çünki Mən Rəbb ədaləti sevirəm, nifrət edirəm soyğun və haqsızlıqdan. Sözümdə durub layiq olduqlarını verəcək, onlarla əbədi bir razılaşma edəcəyəm. (Yeşaya, 61:8)
Doğru adam yoxsulların haqqını verər, pis adam haqq və hüququn nə olduğunu bilməz. (Süleymanın məsəlləri, 29:7)
Yoxsulları ədalətlə idarə edən şahın taxtı həmişə təhlükəsiz olar. (Süleymanın məsəlləri, 29:14)
Doğru və ədalətli olanı edərək yolumda getməyi oğullarına və soyuna buyursun deyə İbrahimi seçdim... (Yaradılış, 18:19)
Qüsursuz həyat sürən, ədalətli davranan, ürəkdən həqiqəti söyləyən. Böhtan atmaz, dostuna zərər verməz, qonşusuna yalan danışmaz beləsi. (Zəbur, 15:2-3)
(Rəbb) doğruluğu, ədaləti sevər, Rəbbin sevgisi yer üzünü doldurar. (Zəbur, 33:5)
Doğrunun ağzından müdriklik axar, dilindən ədalət damlayar. Allahın qanunu qəlbindədir, ayaqları sürüşməz. (Zəbur, 37:30-31)
... Mühakimə edərkən ədalətlisən. (Zəbur, 51:4)
... Düzgünlüklə, məzlum qullarını ədalətlə mühakimə etsin! Dağlar, təpələr xalqa ədalətlə xoşbəxtlik gətirsin! Məzlumlara haqqını versin, yoxsulların uşaqlarını qurtarsın... (Zəbur, 72:2-4)
Nə xoş ədalətə uyanlara, davamlı doğru olanı edənlərə! (Zəbur, 106:3)
Nə xoş əliaçıq olan, borc verən, işlərini ədalətlə icra edən insana! Əsla sarsılmaz, sonsuza qədər xatırlanar doğru insan. (Zəbur, 112:5-6)
Ədalətli olanların addımlarını qoruyar, sadiq qullarının yolunu güdər. Onda anlayarsan hər yaxşı yolu və nəyin doğru, haqlı və ədalətli olduğunu. (Süleymanın məsəlləri, 2:8-9)
Pislər ədalətdən anlamaz, Rəbbə yönələnlər isə hər yönü ilə anlayar. (Süleymanın məsəlləri, 28:5)

Doğruların qanunları ədalətli, pislərin öyüdləri aldadıcıdır. (Süleymanın məsəlləri, 12:5)
Allah buyruqlarını şahın ağzı ilə açıqlayar, buna görə şah ədaləti tapdalamamalıdır. Şahlar pislikdən iyrənər, çünki taxtın zəmanəti ədalətdir. Şah doğru söyləyəndən razı qalar, dürüst danışanı sevər. (Süleymanın məsəlləri, 16:10-13)
Pis adam ədaləti sapdırmaq üçün gizlicə rüşvət alar. (Süleymanın məsəlləri, 17:23)
Rəbb Özünə qurban verilməsindən çox doğruluğun və ədalətin yerinə yetirilməsini istəyər. (Süleymanın məsəlləri, 21:3)
Ədalətli olan pisin evini diqqətlə gözləyər və pisləri müsibətə uğradar. (Süleymanın məsəlləri, 21:12)
Ədalətlə idarə edən şah ölkəsinə dəstək olar... Yoxsulları ədalətlə idarə edən şahın taxtı həmişə təhlükəsiz olar. (Süleymanın məsəlləri, 29:4, 14)
Hökmdarın gözünə girmək istəyən çoxdur, amma Rəbbdir insanı ədalətə çatdıran. Doğrular haqsızlardan iyrənər, pislər də dürüst yaşayanlardan. (Süleymanın məsəlləri, 29:26-27)
Ağzını aç və ədalətlə mühakimə et; məzlumun, yoxsulun haqqını müdafiə et. (Süleymanın məsəlləri, 31:9)
Yaxşılıq etməyi öyrənin, ədaləti güdün, zalımı yola gətirin, yetimin haqqını verin, dul qadını müdafiə edin. (Yeşaya, 1:17)
Rəbb belə deyir: "Ədalətli və doğru olanı qoruyub yerinə yetirin..." (Yeşaya, 56:1)
Əgər həyatınızı və işlərinizi həqiqətən düzəldib bir-birinizə qarşı ədalətli davransanız... (Yeremya, 7:5-7)
"Dünyada yaxşılıq edən, ədalət və doğruluğu qoruyan, Mən Rəbb olduğumu anlamaqla və Məni tanımaqla öyünsün öyünən. Çünki Mən bunlardan xoşlanıram" deyir Rəbb. (Yeremya, 9:24)
Rəbb belə deyir...: "Hər gün ədaləti tətbiq edin, soyğuna uğramış adamı zalımın əlindən qurtarın..." (Yeremya, 21:12)
Rəbb deyir ki: "Ədalətli və doğru olanı edin. Soyğuna uğrayanı zalımın əlindən qurtarın. Qəribə, yetimə, dula haqsızlıq etməyin, şiddətə əl atmayın. Burada günahsız qanı tökməyin". (Yeremya, 22:3)
Mühakimə edərkən haqsızlıq etməyəcəksən. Yoxsula üstünlük verməyəcək, güclünü himayə etməyəcəksən. Qonşunu ədalətlə mühakimə edəcəksən. (Levililər, 19:15)
… Mühakimələrdə ədalətlə hökm verin. Mühakimə edərkən heç kimi himayə etməyin; kiçiyə də, böyüyə də eyni gözlə baxın. Heç kimdən qorxmayın... (Qanunun təkrarı, 1:17-18)
... "Bu şah müdrikliklə hökmranlıq edəcək, ölkədə ədalətli və doğru olanı edəcək". (Yeremya, 23:5)
Amma pis adam etdiyi pislikdən dönüb ədalətli və doğru olanı etsə, canını qurtaracaq. (Yezekel, 18:27)
Pis adam etdiyi pislikdən dönüb ədalətli və doğru olanı etsə, etdiyi bu işlərlə yaşayacaq. (Yezekel, 33:19)
Hakim Rəbb belə deyir: "Bəsdir artıq... Zülmü, təzyiqi buraxın. Ədalətli və doğru olanı edin..." (Yezekel, 45:9)
Buna görə Allahına dön sən, sevgi və ədalətə sarıl... (Huşə, 12:6)
... Məhkəmədə ədaləti qoruyun... (Amos, 5:15)
... Ədalət su kimi, düzgünlük çay kimi davamlı axsın. (Amos, 5:24)
Etməyiniz lazım olanlar bunlardır: Bir-birinizə həqiqəti söyləyin, şəhər qapılarınızda xoşbəxtliyi təmin edən həqiqi ədalətlə mühakimə edin, qəlbinizdə bir-birinizə qarşı pislik hazırlamayın, yalan yerə and içməkdən iyrənin. Çünki Mən bütün bunlardan nifrət edirəm" belə deyir Rəbb. (Zəkəriyyə, 8:16-17)
"Yalan xəbər daşımayacaqsınız. Haqsız yerə şahidlik edib pis adama tərəf çıxmayacaqsınız. Pislik edən camaatı izləməyəcəksiniz. Bir mühakimədə çoxluğun xeyrinə danışıb ədaləti sapdırmayacaqsınız. Məhkəmədə yoxsulu himayə etməyəcəksiniz. Məhkəmədə yoxsula qarşı ədaləti sapdırmayacaqsınız. Yalandan uzaq durub, günahsız və doğru adamı öldürməyəcəksiniz. Çünki Mən pis adamı bağışlamaram. Rüşvət almayacaqsınız. Çünki rüşvət görəni kor edər, haqlını haqsız çıxarar". (Misirdən çıxış, 23:1-8)
... İki adam arasında düzgünlüklə mühakimə edər. (Yezekel, 18:8)
... Ədalətli olmalı deyilsinizmi?... Mənə Rəbbin ruhu, güc, ədalət və cəsarət verildi. Ədalətdən nifrət edən, doğruları təhrif edən (idarəçilər)... yaxşı dinləyin. (Mikeya, 3:1, 8-9)
Ədalətlə mühakimə edən, iddiasını dürüst müdafiə edən yoxdur. Mənasız sözlərə güvənib yalan danışırlar. Fəsada hamilə qalıb pislik doğarlar. (Yeşaya, 59:4)
Xoşbəxtlik yolunu bilməzlər, izlədikləri yolda ədalət yoxdur. Özlərinə əyri yollar düzəltdilər, o yoldan gedənlərin heç biri xoşbəxtliyin nə olduğunu bilməz. Deyirlər ki, "Buna görə ədalət bizdən uzaqdır, düzgünlük bizə çatmır. İşıq gözləyirik, təkcə

qaranlıq var; işıltı gözləyib qatı qaranlıqda gedirik... Ədalət gözləyirik, ortada yoxdur; qurtuluş gözləyirik, bizdən uzaqdır. (Yeşaya, 59:8-9, 11)
Allahınız Rəbbin sizə verəcəyi şəhərlərdə hər oymağınız üçün hakimlər, idarəçilər təyin edəcəksiniz. Onlar xalqı həqiqi ədalətlə mühakimə edəcəklər. Mühakimə edərkən haqsızlıq etməyəcək, heç kimi himayə etməyəcəksiniz. Rüşvət almayacaqsınız. Çünki rüşvət müdrik adamın gözlərini kor edər, haqlını haqsız çıxarar. (Qanunun təkrarı, 16:18-19)
Rəbb... ədaləti və doğruluğu gətirməyin üçün səni padşah etdi. (1 Padşahlar, 10:9)
... Davud xalqına düzgünlük və ədalət gətirdi. (1 Salnamələr, 18:14)
Şah qanunları bilən müdrik adamlarla görüşdü. Çünki şahın qanunları və ədaləti bilən kəslərə məsləhətləşməsi ənənədən idi. (Ester, 1:13)
Doğruluğu libas kimi geyindim, ədalət cübbəm və sarığım idi sanki. Korlara göz, çolaqlara ayaq idim. Yoxsullara atalıq edər, qəribin mühakiməsini boynuna götürərdim. (Əyyub, 29:14-16)
Ağıl yaşda deyil, başdadır. Ədaləti anlamaq yaşa baxmaz. (Əyyub, 32:9)
Ədaləti boşa çıxaracaqsan? Özünü haqlı çıxarmaq üçün məni günahlandıracaqsan? (Əyyub, 40:8)
... Bunların yerinə ədalətli bir rəhbərlik üçün müdriklik istədin; istəyini yerinə yetirəcəyəm... (1 Padşahlar, 3:11-12)
Yoxsulları ədalətlə mühakimə edəcək, yer üzündə əzilənlər üçün dürüst hökm verəcək. Dünyanı ağzının dəyənəyi ilə cəzalandıracaq, pisləri nəfəsi ilə öldürəcək. Davranışının təməli ədalət və sədaqət olacaq. (Yeşaya, 11:4-5)
... Sevgiyə söykənən bir rəhbərlik qurulacaq... Sədaqətlə padşahlıq edəcək. Mühakimə edərkən ədaləti axtaracaq, doğru olanı etməkdə iti davranacaq. (Yeşaya, 16:4-5)
Bax, şah düzgünlüklə şahlıq edəcək, öndərlər ədalətlə idarə edəcək. Onda ədalət çölə qədər yayılacaq, düzgünlük meyvə bağçasında yer tapacaq. Doğruluğun məhsulu xoşbəxtlik, nəticəsi davamlı hüzur və güvən olacaq. (Yeşaya, 32:1, 16-17)
Budur, özünə dəstək olduğum, könlümün razı olduğu seçdiyim qulum! Ruhumu onun üzərinə qoydum. Ədaləti xalqlara çatdıracaq. Qışqırıb çağırmayacaq, küçədə səsini yüksəltməyəcək. Əzilmiş qamışı qırmayacaq, tüstüləyən fitili söndürməyəcək. Ədaləti sədaqətlə çatdıracaq. Yer üzünə ədaləti gətirənə qədər ümid və cəsarətini itirməyəcək. Kənar xalqlar onun qanununa ümid bağlayacaq. (Yeşaya, 42:1-5)
Yoxsullardan ədaləti əsirgəmək, xalqımın düşkünlərinin haqqını əlindən almaq... Yetimlərin malını yağmalamaq üçün haqsız qərarlar verənlərin, ədalətli olmayan qanunlar çıxaranların vay halına! (Yeşaya, 10:1-2)
... Şəhər meydanlarını araşdırın. Əgər ədalətli davranan, həqiqəti axtaran bir adam tapsanız, bu şəhəri bağışlayacağam. (Yeremya, 5:1)
Ey idarəçilər, həqiqətən ədalətli hökm verirsiniz? Doğru mühakimə edirsiniz insanları? Xeyr! Həmişə haqsızlıq hazırlayırsınız içinizdə, zülm saçır əlləriniz yer üzünə. (Zəbur, 58:1-2)
Allah ona belə dedi: "Madam özün üçün uzun ömür, zənginlik və düşmənlərinin ölümünü istəmədin, bunların yerinə ədalətli bir rəhbərlik üçün müdriklik istədin; istəyini yerinə yetirəcəyəm. Sənə elə bir müdriklik və duyğu dolu bir qəlb verəcəyəm ki, bənzəri nə səndən əvvəlkilərdə görülmüşdür, nə də səndən sonrakılarda görüləcək... Hər kəs ədalətli bir rəhbərlik üçün Süleymanın Allahdan gələn müdrikliyə sahib olduğunu anladı. (1 Padşahlar, 3:11-12, 28)
Ədalət yenə düzgünlük üzərinə qurulacaq, qəlbi təmiz olan hər kəs ona uyacaq. (Zəbur, 94:15)
Ey ədaləti sevən güclü şah, bərabərliyi sən gətidrin... Doğru və ədalətli olanı sən etdin. (Zəbur, 99:4)
Müvəffəqiyyətə aparan tərbiyəni əldə edib doğru, haqlı və ədalətli olanı etmək təmiz adamı ehtiyatlı, gənc adamı bilikli və fərasətli etmək üçündür. (Süleymanın məsəlləri, 1:3-4)
Pisi müdafiə etmək də, günahsızdan ədaləti əsirgəmək də yaxşı deyil. (Süleymanın məsəlləri, 18:5)
Niyyəti pis şahid ədalətlə əylənər, pislərin ağzı fəsadla bəslənər. (Süleymanın məsəlləri, 19:28)
"Mühakimə edərkən, uzunluq və maye ölçərkən, ağırlıq çəkərkən haqsızlıq etməyin. Doğru tərəzidən, ağırlıq daşından, efa və hindən istifadə edin… Qayda və qanunlarımın hamısına tabe olub onları yerinə yetirəcəksiniz. Rəbb Mənəm." (Levililər, 19:35-37)

**Tövratda xeyirxahlıq**

Sizdən nifrət edən adamın ulağını yükün altında çökdüyünü görsəniz, öz halına buraxıb getməyəcək və ona kömək edəcəksiniz. (Misirdən çıxış, 23:5)
Bir qardaşın yoxsullaşıb möhtac olsa, ona kömək etməlisən. Aranızda bir qərib və ya qonaq kimi yaşayacaq. (Levililər, 25:35)
Qardaşının ulağını, geyimini və ya itirdiyi başqa bir şeyini gördükdə eyni şəkildə davranacaqsan. Görməməzlikdən gəlməyəcəksən. Qardaşının ulağını və ya malını yolda qaldığını gördükdə görməməzlikdən gəlmə. Heyvanı ayağa qaldırmaq üçün qəti şəkildə qardaşına kömək edəcəksən. (Qanunun təkrarı, 22:3-4)
… Belə ki, yoxsul qardaşınıza qarşı xəsis davranıb ona kömək etməkdən qaçmayasınız. Yoxsul qardaşınız sizdən Rəbbə şikayətlənə bilər, siz də günah işləmiş olarsınız. Ona çox verin, verərkən qəlbinizdə istəksizlik olmasın. Buna görə Allahınız Rəbb bütün işlərinizdə və əl atdığınız hər şeydə sizi müqəddəs hesab edəcək. Ölkədə həmişə yoxsullar olacaq. Buna görə ölkənizdə yaşayan qardaşlarınıza, yoxsullara, ehtiyacı olanlara əliaçıq davranmağınızı buyururam". (Qanunun təkrarı, 15:9-11)
Çünki kömək istəyən yoxsulu, dəstəyi olmayan yetimi qurtarardım. Ölməkdə olanın xeyir-duasını alıb dul qadının ürəyini sevinclə coşdurardım. Doğruluğu geyim kimi geyindim, ədalət cübbəm və sarığım idi sanki. Korlara göz, çolağa ayaq idim. Yoxsullara atalıq edib qəribin mühakiməsini üzərimə götürərdim. (Əyyub, 29:12-16)
Çünki O, məzlumun çəkdiyi çətinliyi xəfifə almadı, ondan iyrənmədi, üz çevirmədi; Özünü köməyə çağıranda ona qulaq asdı. (Zəbur, 22:24)
Hər kəs qonşusuna kömək edir, qardaşına "Güclü ol" deyir. (Yeşaya, 41:6)
Yeməyinizi acla paylaşmalısınız, deyilmi? Sığınacaqsız yoxsulları evinizə gətirib, çılpaq gördüyünüzü geydirib, yaxınlarınızdan köməyinizi əsirgəməsəniz, işığınız dan kimi ağaracaq, tez şəfa tapacaqsınız… (Yeşaya, 58:7-8)
Bacın Sodomun günahı bu idi: Özü də, qızları da qürurlu idi, çörəyə doymuşdular, önəm verməzdilər. Düşkünə, yoxsula kömək əlini uzatmadılar. (Yezekel, 16:49)
Hər gün insanlar Davuda kömək etməyə gəlirdilər... (1 Salnamələr, 12:22)
... Böyük-kiçik bütün qardaşlarına hədiyyələri paylamaqda... sədaqətlə kömək etdilər. (2 Salnamələr, 31:15)

**Tövratda yaxşılıq etmək, pislikdən çəkinmək**

Pislikdən çəkinin, yaxşılıq edin; xoşbəxtliyi məqsəd bilin, ardınca gedin. (Zəbur, 34:14)
Dul qadına, yetimə, qəribə, yoxsula təzyiq etməyin. Ürəyinizdə bir-birinizə qarşı pislik hazırlamayın. (Zəkəriyyə, 7:10)
Pisliyə deyil, yaxşılığa yönəlin ki, yaşayasınız; beləcə, dediyiniz kimi Rəbb, hər şeyə hakim Allah sizinlə olar. (Amos, 5:14)
Pislikdən qaç, yaxşılıq et; sonsuz həyata qovuşarsan. (Zəbur, 37:27)
Özünü müdrik biri olaraq görmə, Rəbbdən qorx, pislikdən uzaq dur. Beləcə, bədənin sağlamlıq və fərahlıq tapar. (Süleymanın məsəlləri, 3:6-8)
Yaxşılığı məqsəd bilən uğur qazanar, pisliyi məqsəd bilən isə pisliyə uğrayar. Doğru adamın işləri həyat ağacının meyvəsinə bənzəyir, müdrik adam insanları qazanar. (Süleymanın məsəlləri, 11:27, 30)
Pislik hazırlayan yolunu itirməzmi? Halbuki yaxşılıq hazırlayan sevgi və sədaqət qazanar. (Süleymanın məsəlləri, 14:22)
Pislikdən nifrət edin, yaxşılığı sevin... (Amos, 5:15)
Müdrik adam qorxduğu üçün pislikdən uzaqlaşar, ağılsız isə böyüklük edib özünə güvənər. (Süleymanın məsəlləri, 14:16)
Günah pis insana qəlbinin dərinliyindən pıçıldayar: Allah qorxusu yoxdur onda. Özünü elə bəyənir ki, günahını görməz, ondan iyrənməz. Ağzından pislik və yalan axar, ağıllanmaqdan, yaxşılıq etməkdən imtina etmişdir. Yatağında belə fitnə düşünər, pis yoldan əl çəkməz, rədd etməz pisliyi. (Zəbur, 36:1-4)
Sən Rəbbə güvən, yaxşılıq et, ölkədə otur, sədaqətlə çalış. (Zəbur, 37:3)
Qəlbim pisliyə meyl etməsin, cinayət törədənlərin fəsadına bulaşmayım... Doğru insan mənə vursa, yaxşılıq sayılar; danlasa, başa sürtülən yağ kimidir, başım rədd etməz onu. Çünki duam həmişə pislərə qarşıdır. (Zəbur, 141:4-5)
Yoxsula acıyan adam Rəbbə borc vermiş olar, etdiyi yaxşılıq üçün Rəbb onu mükafatlandırar. (Süleymanın məsəlləri, 19:17)
Doğru adama yaxşılıq görəcəyini söyləyin. Çünki yaxşılıqlarının meyvəsini yeyəcək. Vay pislərin halına! Pislik görəcək, etdiklərinin qarşılığını alacaqlar. (Yeşaya, 3:10-11)

Buna görə, ey şah, öyüdümü al: Doğru olanı edib günahından, düşkünlərə yaxşılıq edərək cinayətlərindən imtina et. Ola bilər ki, səadətin uzun sürər. (Daniel, 4:27)
... Bu yaxşılıqdan sizi məhrum edən günahlarınız idi... Pis insanlar var. Quş ovlamaq üçün gizlənənlər kimi tələ qurub insan tutarlar. Quş dolu bir qəfəs necədirsə, onların evləri də hiylə ilə doludur. Bu yolla güclənib zəngin oldular, kökəlib parladılar, etdikləri pisliklərlə sərhədi aşdılar. Qazana biləcəkləri halda yetimin tələbinə baxmayıb yoxsulun haqqını müdafiə etmirlər. (Yeremya, 5:25-26)

**Tövratda düzgünlük və dürüstlük**

Yaşamaq və Allahınız Rəbbin sizə verəcəyi ölkəni miras almaq üçün düzlüyün, təkcə düzlüyün ardınca gedin. (Qanunun təkrarı, 16:20)
Düz insanları müvəffəqiyyətə çatdırar, qalxanıdır dürüst yaşayanların. (Süleymanın məsəlləri, 2:7)
Çünki Sən düz adamı müqəddəs hesab edərsən ya Rəbb, ətrafını qalxan kimi lütfünlə sararsan. (Zəbur, 5:12)
Dürüst adam təhlükəsizlik içində yaşayar, amma hiyləli yoldan gedən zərərə uğrayacaq. (Süleymanın məsəlləri, 10:9)
Ağıldan məhrum adam axmaqlığı ilə sevinər, amma ağıllı insan dürüst bir həyat sürər. (Süleymanın məsəlləri, 15:21)
Dürüstlərin tutduğu yol pislikdən uzaqlaşdırar, yoluna diqqət yetirən canını qoruyar. (Süleymanın məsəlləri, 16:17)
Rəbbin yolu dürüst insan üçün sığınacaq, fitnəkar üçün isə fəlakətdir. Düz adam heç vaxt sarsılmaz, amma pislər ölkədə qala bilməz. (Süleymanın məsəlləri, 10:29-30)
Ləyaqətli insanın dürüstlüyü ona yol göstərər, xainin yalançılığı isə fəlakətə aparar. Qəzəb günü sərvət işə yaramaz, halbuki düzgünlük ölümdən qurtarar. (Süleymanın məsəlləri, 11:3-4)
Dürüst insanın düzlüyü onun yolunu düzəldər, pis adam isə pisliyi üzündən yıxılar. (Süleymanın məsəlləri, 11:5)
Ləyaqətli insanın doğruluğu onu qurtarar, amma xaini öz tamahı ələ verər. (Süleymanın məsəlləri, 11:6)
Düzgünlük dürüst yaşayanı qoruyar, pislik günahkarı həlak edər. (Süleymanın məsəlləri, 13:6)
Doğru adam çətinlikdən xilas olar, onun yerinə çətinliyi pis adam çəkər. (Süleymanın məsəlləri, 11:8)
Rəbb azğın qəlblidən iyrənər, dürüst yaşayandan razı qalar. (Süleymanın məsəlləri, 11:20)
Yoxsulları ədalətlə mühakimə edəcək, yer üzündə əzilənlər üçün dürüst hökm verəcək... (Yeşaya, 11:4)
Doğru adamın yolu düzdür… (Yeşaya, 26:7)
Rəbb xalqları mühakimə edər; məni də mühakimə et ya Rəbb, doğruluğuma və dürüstlüyümə görə. (Zəbur, 7:8)
Axmaqlar günaha istehza edər, dürüstlər isə yaxşı niyyətlidir. (Süleymanın məsəlləri, 14:9)
Bu səbəblə, sən yaxşıların yolunda get, doğruların izindən get. Çünki ölkədə yaşayacaq olan doğrulardır, dürüst kəslərdir orada qalacaq olanlar. Pislər ölkədən çıxarılacaq, xainlər atılacaq. (Süleymanın məsəlləri, 2:20-22)
Dürüst davranmağa diqqət göstərəcəyəm... (Zəbur, 101:2)
Doğru və dürüst bir ataya sahib olan uşaqlara nə xoş! (Süleymanın məsəlləri, 20:7)
Doğru adam xoşbəxtliyə qovuşar... (Yeşaya, 57:2)
... İnsanlar arasında dürüst kimsə yoxdur... Pislik etməkdə əlləri necə bacarıqlıdır! Rəhbərlər hədiyyə istəyir, hakimlər rüşvət alır. Güclülər hər istədiklərini zorla etdirir, düzən üstünə düzən qururlar. Ən yaxşıları kol-kosdan dəyərsizdir, ən dürüstləri tikanlı çəpərdən betərdir. Amma peyğəmbərlərinin xəbərdar etdiyi kimi, cəzalandırılacaqları gün gəlib çatdı... (Mikeya, 7:2-4)
Çünki Rəbb Allah bir günəş, bir qalxandır. Lütf və ucalıq verər; dürüst yaşayanlardan heç bir yaxşılığı əsirgəməz. (Zəbur, 84:11)
… Mənə dürüst yaşayan adam xidmət edəcək. (Zəbur, 101:6)
Qaranlıqda işıq saçılar dürüstlər üçün; lütf edən, mehriban, doğru insanlar üçün. (Zəbur, 112:4)
Şübhəsiz, doğrular Sənin adına şükür edəcək, dürüstlər Sənin hüzurunda oturacaq. (Zəbur, 140:13)
Dürüst yaşayan bir yoxsul olmaq, yalançı bir ağılsız olmaqdan üstündür. (Süleymanın məsəlləri, 19:1)
Dürüst bir yoxsul olmaq, qanunsuz zəngin olmaqdan üstündür. (Süleymanın məsəlləri, 28:6)
Bununla yanaşı, xalqın arasından Allahdan qorxan, qabiliyyətli, haqsız qazancdan nifrət edən, dürüst adamlar seç; onları min, yüz, əlli, on nəfərlik birliyin başına rəhbər qoy. (Misirdən çıxış, 18:21)

Pislər… dürüstlüyün hakim olduğu diyarda haqsızlıq edər, Rəbbin böyüklüyünü görməzlər. (Yeşaya, 26:10)
Çünki dürüst bir həyat sürdüm; sarsılmadan Rəbbə güvəndim. (Zəbur, 26:1)
Onların əlləri pislik alətidir, sağ əlləri rüşvət doludur. Amma mən dürüst yaşayaram, qurtar məni, lütf et mənə! (Zəbur, 26:10-11)
Məbəddə çalışanlara pul ödəməklə vəzifəli olanlar elə dürüst insanlar idi ki, onlardan hesab belə soruşulmazdı. (2 Padşahlar, 12:15)
… O sənə bağlı, doğru, bütün qəlbi ilə dürüst biri olaraq yolunda getdi... (1 Padşahlar, 3:6)
… Yaşayan Rəbbin adı ilə deyirəm ki, sən dürüst bir adamsan… (1 Şamuel, 29:6)
Qana susayanlar dürüst adamdan nifrət edər, doğrular isə onun canını qoruyar. (Süleymanın məsəlləri, 29:10)
Doğrular haqsızlardan iyrənər, pislər də dürüst yaşayanlardan. (Süleymanın məsəlləri, 29:27)

**Tövratda səbirli olmaq**

Rəbbin qarşısında sakit dayan, səbirlə gözlə; qəzəblənib kədərlənmə işi yolunda olanlara, pis məqsədlərinə qovuşanlara. (Zəbur, 37:7)
Rəbbi səbirlə gözlədim... yalvarışımı eşitdi. (Zəbur, 40:1)
Kəmhövsələ adam çəkişmə yaradar, səbirli adam qovğanı yatırar. (Süleymanın məsəlləri, 15:18)
Səbirli adam igiddən üstündür, özünə nəzarət edən də şəhərlər fəth edəndən üstündür. (Süleymanın məsəlləri, 16:32)
Ağıllı adam səbirlidir, qüsurları xoş görməsi ona şərəf qazandırar. (Süleymanın məsəlləri, 19:11)
Bir hadisənin sonu əvvəlindən yaxşıdır. Səbirli qürurludan yaxşıdır. (Vaiz, 7:8)
İnsanın ruhu xəstəlikdə ona dəstəkdir. Amma əzgin ruh necə dözə bilər? (Süleymanın məsəlləri, 18:14)

**Tövratda sədaqət**

Sevgini, sədaqəti  yanından heç ayırma, onları boynuna bağla, yaz qəlbinin lövhəsinə. Beləcə, Allahın və insanların gözündə hörmət qazanacaqsan. (Süleymanın məsəlləri, 3:3-4)
Ataları kimi inadcıl, qiyamçı, qəlbi qərarsız, Allaha sədaqətsiz bir nəsil olmasınlar. (Zəbur, 78:8)
Ey insanlar, Rəbb yaxşı olanı sizə bildirdi; ədalətli davranmağınızdan, sədaqəti sevməyinizdən və təvazökarlıqla yolunda getməyinizdən başqa Allahınız Rəbb sizdən nə istədi? (Mikeya, 6:8)
Sən Rəbbə güvən, yaxşılıq et, ölkədə otur, sədaqətlə çalış. (Zəbur, 37:3)
Sevgi və sədaqət şahın güvənliyidir. Onun taxtını möhkəmləndirən sevgidir. (Süleymanın məsəlləri, 20:28)
Sevgi ilə sədaqət birləşəcəklər, düzgünlüklə xoşbəxtlik öpüşəcək. Sədaqət yerdən bitəcək, düzgünlük göydən baxacaq. (Zəbur, 85:10-11)
... Özlərini sədaqətlə Allaha buraxmışdılar. (2 Salnamələr, 31:18)
Ədalətli olanların addımlarını qoruyar, sadiq qullarının yolunu güdər. (Süleymanın məsəlləri, 2:8)
Rəbbin bütün yolları sevgi və sədaqətə dayanar, razılaşmasındakı buyruqlara uyanlar üçün. (Zəbur, 25:10)
Mən sədaqət yolunu seçdim... (Zəbur, 119:30)
Rəbb sadiq qullarının addımlarını qoruyar, amma pislər qaranlıqda susdurular. Çünki güclə zəfərə çata bilməz insan. (1 Şamuel, 2:9)
Davranışının təməli ədalət və sədaqət olacaq. (Yeşaya, 11:5)
... Sədaqətlə şahlıq edəcək. Mühakimə edərkən ədaləti axtaracaq... (Yeşaya, 16:5)
... Ədaləti sədaqətlə çatdıracaq. Yer üzünə ədaləti gətirənə qədər ümidini, cəsarətini itirməyəcək... (Yeşaya, 42:3-4)
Qurtar məni ya Rəbb, sadiq qulun qalmadı, etibarlı insanlar yox oldu. Hamı bir-birinə yalan danışır, yaltaqlıq, ikiüzlülük edir. (Zəbur, 12:1-2)
Çünki Sən məni ölülər diyarına tərk etməzsən, sadiq qulunun çürüməsinə icazə verməzsən. (Zəbur, 16:10)

Rəbbi sevin, ey Onun sadiq qulları! Rəbb Özünə bağlı olanları qoruyar, böyüklənənləri isə tamamilə məğlub edər. (Zəbur, 31:23)
Çünki Rəbb doğrunu sevər, sadiq qullarını tərk etməz. Onlar sonsuza qədər qorunacaq, pislərin isə kökü kəsiləcək. (Zəbur, 37:28)
Ona ürəkdən bağlı deyildilər, razılaşmasına sadiq qalmadılar. (Zəbur, 78:37)
... Sadiq qullarına xoşbəxtlik sözü verəcək, yetər ki, bir daha ağılsızlıq etməsinlər. (Zəbur, 85:8)
Ey sizlər, Rəbbi sevənlər, pislikdən iyrənin. O, sadiq qullarının canını qoruyar. (Zəbur, 97:10)
Kahinlərin doğruluğu geyinsin, sadiq qulların sevinc səsləri ucaltsın... Qurtuluş verəcəyəm kahinlərinə; həmişə sevinc tərənnümləri söyləyəcək sadiq qulları. (Zəbur, 132:9, 16)
Bütün məxluqların sənə şükür edir ya Rəbb, sadiq qulların sənə təriflər deyir. (Zəbur, 145:10)
Rəbbə təriflər deyin!... Sadiq qullarının yığıncağında Onu tərənnümlə öyün! Bu şərəflə xoşbəxt olsun sadiq qulları, sevinc tərənnümləri oxusunlar yataqlarında!... Bütün sadiq qulları üçün şərəfdir bu. (Zəbur, 149:1-2, 5)
İnsanların çoxu "Vəfalıyam" deyir. Amma sadiq birini kim tapa bilər? (Süleymanın məsəlləri, 20:6)
Rəbbin varlığı haqqı üçün deyərək sədaqətlə, ədalətlə, düzgünlüklə and içsən... (Yeremya, 4:2)
... Məndən dönən sədaqətsiz qəlblərindən... (Yezekel, 6:9)
Adəm oğlu, əgər bir ölkə Mənə sədaqətsizlik edib günah işləsə, Mən də o ölkəyə qarşı əlimi uzadıb, onu hər cür yeməkdən məhrum edib üzərinə qıtlıq göndərsəm və insanları,  heyvanları yox etsəm... (Yezekel, 14:13)
"Ölkəni viranəyə çevirəcəyəm. Çünki Mənə sədaqətsizlik etdilər" hakim Rəbb belə deyir. (Yezekel, 15:8)
... Mənə sədaqətsizliyindən ötrü orada mühakimə edəcəyəm. (Yezekel, 17:20)
Doğru adam doğruluğundan dönüb, günah işləyib, pis adamın etdiyi bütün iyrənc şeyləri etsə, yaşayacaqmı? Onun etdiyi düz işlərin heç biri xatırlanmayacaq. Sədaqətsizliyi üzündən günahkardır, günahları üzündən öləcək. (Yezekel, 18:24)
Sən ədalətlisən ya Rəbb! Sədaqətsizliyimiz üzündən bizi yaxın-uzaq ölkələrə apardın... (Daniel, 9:7)
... Yox olmub sevgi, sədaqət, Allah bilgisi. Lənət, yalan, adam öldürmək, oğurluq, zina almıb hər şeyin yerini. Zülm edirlər, qan üstünə qan tökürlər. (Huşə, 4:1)
Baxın bu öyünən adama, niyyəti yaxşı deyil. Amma doğru adam sədaqəti ilə yaşayacaq. (Habaqquq, 2:4)
... Ölkədə Allaha sadiq qul qalmadı... (Mikeya, 7:2)
Sadiq quluna sədaqət göstərər... (Zəbur, 18:25)
Gözüm ölkənin sadiq insanları üzərində olacaq. (Zəbur, 101:6)

**Tövratda zülmdən çəkinmək**

Pis insan həyatı boyunca qıvrılar, zalıma ayrılan illər saylıdır. (Əyyub, 15:20)
Allah gücü ilə zalımı yox edər, başlayınca zalımların həyata ümidi qalmaz. (Əyyub, 24:22)
Pisliyi öz başına gələcək, zülmü öz təpəsinə enəcək. (Zəbur, 7:16)
Rəbb doğru insanı sınayar, pisdən, zülmü sevəndən iyrənər. (Zəbur, 11:5)
Zülmə güvənməyin, qarət malla öyünməyin; varınız çoxalsa belə, ona könül bağlamayın. (Zəbur, 62:10)
Yaxşı insan ağzından çıxan sözlər üçün mükafatlandırılar, amma xainlərin aldığı nəfəs zülmdür. (Süleymanın məsəlləri, 13:2)
Zalım başqalarını yoldan çıxarar və onları pis yola yönəldər. (Süleymanın məsəlləri, 16:29)
Pislərin zülmü özlərini süpürüb aparar, çünki doğrunu etməyə yanaşmazlar. (Süleymanın məsəlləri, 21:7)
… Hərəkətləri pis hərəkətlərdir, əlləri zülmün vasitəsidir. Ayaqları pisliyə qaçar, çəkinmədən günahsız qanı tökərlər. Ağılları, fikirləri həmişə pislikdədir, şiddət və müsibət var yollarında. Xoşbəxtlik yolunu bilməzlər, izlədikləri yolda ədalət yoxdur. Özlərinə əyri yollar düzəltdilər, o yoldan gedənlərin heç biri xoşbəxtliyin nə olduğunu bilməz. (Yeşaya, 59:6-8)
Amma doğru yolda gedib doğru-dürüst danışan, zülmlə əldə edilən qazancı rədd edən, əlini rüşvətdən uzaq tutan, qan tökənlərin təlqinlərinə qulaq asmayan, pisliyə dözməyən yüksəklərdə oturacaq… Çörəyi veriləcək, heç susuz qalmayacaq. (Yeşaya, 33:15-16)
Hakim Rəbb belə deyir: "Bəsdir artıq... Zülmü, təzyiqi buraxın. Ədalətli və doğru olanı edin..." (Yezekel, 45:9)

Bütün insanlar və heyvanlar çula bürünsün. Hər kəs var gücü ilə Allaha yalvarıb pis yoldan, zülmdən imtina etsin. (Yunis, 3:8)
Xalqlar bunu görüncə etdikləri bu qədər zülmdən utanacaqlar. Əlləri ilə ağızlarını bağlayacaq, qulaqlarını tıxayacaqlar. (Mikeya, 7:16)
... "Paltarının üstündən bir də zülmə bürünən adamdan da nifrət edirəm" belə deyir hər şeyə hakim Rəbb. Buna görə özünüzə diqqət yetirin və xəyanət etməyin. (Malaki, 2:16)
Rəbb "Onlar düzgünlük nədir bilmirlər" deyir, "Saraylarına zülm və soyğun yığmışlar". (Amos, 3:10)

**Tövratda sülh və dostluğa**
**verilən əhəmiyyət**

Bir şəhərə hücum etməzdən əvvəl şəhər xalqına sülh təklif edin. (Qanunun təkrarı, 20:10)
Nə yaxşıdır və necə gözəldir birlik içində qardaş kimi yaşamaq! (Zəbur, 133:1)
... Bütün şahlıqları Süleyman idarə edirdi. Hər tərəfdə sülh var idi. (1 Padşahlar, 4:24)
Pislik hazırlayanın qəlbi hiyləgər, sülhü nəsihət edənin qəlbi isə sevinclidir. (Süleymanın məsəlləri, 12:20)
Pislikdən çəkinin, yaxşılıq edin; məqsədiniz xoşbəxtlik olsun, onun ardınca gedin. (Zəbur, 34:14)
... Bizi yaradan eyni Allah deyilmi? Elə isə niyə hamı atalarımızın etdiyi razılaşmanı pozub qardaşına xəyanət edir? (Malaki, 2:10)
Bunun üzərinə öndərlərimiz və ölkəmizin bütün xalqı bizə belə dedilər: "Onları qarşılamaq üçün yemək götürüb yola çıxın... Bizimlə bir sülh razılaşması etməyinizi istəyirik" deyin. (Yeşua, 9:11)
Yeşua da onları sağ buraxacağına söz verib onlarla bir sülh razılaşması etdi. Birliyin öndərləri də razılaşmaya bağlı qalacaqlarına and içdilər. (Yeşus, 9:15)
Ardından bütün birlik... vasitəçilər göndərib sülh bağlamağı təklif etdi. (Hakimlər, 21:13)
Rəbb verdiyi sözə uyğun olaraq Süleymana müdriklik verdi. Süleymanla Hiram arasında sülh var idi. Aralarında bir razılaşma etdilər. (1 Padşahlar, 5:12)
... "Necə olsa, yaşadığım müddətdə sülh və güvənlik olacaq" deyə düşünürdü. (2 Padşahlar, 20:19)
... Ölkə onun rəhbərliyi altında sülh içində yaşadı. (2 Salnamələr, 14:5)
... Ölkəsi isə sülh içində idi. Çünki Allahı hər yandan onu xoşbəxtliklə əhatə etmişdi. (2 Padşahlar, 20:30)
Kamil adama göz qoy, doğru adama bax, çünki irəlidə sülhsevərindir. (Zəbur, 37:37)
Mən sülh tərəfdarıyam, amma sözə başladığımda onlar döyüşə qalxır! (Zəbur, 120:7)
Bütün dünya xoşbəxtlik və sülh içində sevinclə səslənir. (Yeşaya, 14:7)
Sənə tunc yerinə qızıl, dəmir yerinə gümüş, ağac yerinə tunc, daş yerinə dəmir gətirəcəyəm. Sülhü idarəçin, düzlüyü öndərin edəcəyəm. (Yeşaya, 60:17)
... Döyüş oxları qırılacaq. Şahınız xalqlara sülhü eşitdirəcək... (Zəkəriyyə, 9:10)
"Bu adamlar bizə dostluq göstərir" dedilər, "Ölkəmizdə yaşasınlar, ticarət etsinlər. Torpaqlarımız genişdir, onlara da bəs edər, bizə də..." (Yaradılış, 34:21)
... Davuda bəslədiyi dərin sevgidən ötrü, onunla bir dostluq razılaşması etdi. (1 Şamuel, 18:3)
Düşmənin acıbsa, doyur; susayıbsa, su ver. Bunu etməklə onu utandırarsan və Rəbb səni mükafatlandırar. (Süleymanın məsəlləri, 25:21-22)
Böhtan atmaz, dostuna zərər verməz, qonşusunu aldatmaz beləsi. (Zəbur, 15:3)
Dostuyam bütün Səndən qorxanların, şərtlərinə uyanların. (Zəbur, 119:63)
Dost həmişə sevər, qardaş çətin gündə bəlli olar. (Süleymanın məsəlləri, 17:17)
... Allahından qorx ki, qardaşın yanında həyatını davam etdirə bilsin. (Levililər, 25:36)
Aranızda yaşayan bir qardaşın yoxsullaşıb özünü kölə olaraq sənə satsa, onu bir kölə kimi işlətməyəcəksən. (Levililər, 25:39)
Ayrıca hakimlərinizə "Qardaşlarınızın arasındakı problemləri dinləyin" dedim... Mühakimələrdə ədalətlə hökm verin. (Qanunun təkrarı, 1:16)

Borcları bağışlamaq üçün belə edəcəksiniz: Hər borc verən qonşusunun borcunu bağışlayacaq. Borcun ödənməsi üçün qonşusunu və ya qardaşını məcbur etməyəcək... (Qanunun təkrarı, 15:2)
Ölkədə həmişə yoxsullar olacaq. Buna görə, ölkənizdə yaşayan qardaşlarınıza, yoxsullara, ehtiyacı olanlara əliaçıq davranmağınızı buyururam. (Qanunun təkrarı, 15:11)
... Nifrət etməyəcəksiniz. Onlar qardaşınızdır... (Qanunun təkrarı, 23:7)
Yolları sevinc yollarıdır, bəli, bütün yolları xoşbəxtliyə çıxarar. (Süleymanın məsəlləri, 3:17)
Düzlüyün məhsulu xoşbəxtlik, nəticəsi davamlı hüzur və güvən olacaq… Xoşbəxtlik dolu evlərdə, etibarlı və rahat yerlərdə yaşayacaq. (Yeşaya, 32:17-18)
"… Şəhər qapılarınızda xoşbəxtliyi təmin edən həqiqi ədalətlə mühakimə edin, qəlbinizdə bir-birinizə qarşı pislik hazırlamayın… Çünki Mən bütün bunlardan nifrət edirəm" belə deyir Rəbb. Hər şeyə hakim Rəbb mənə yenə səsləndi: Hər şeyə hakim Rəbb deyir ki, "… Bu səbəblə həqiqəti və xoşbəxtliyi sevin". (Zəkəriyyə, 8:16,)
… Budur, bütün dünya xoşbəxtlik və güvənlik içindədir! (Zəkəriyyə, 1:11)
... "Hüzur tapsın Səni sevənlər! Talelərinə xoşbəxtlik, saraylarına hüzur hakim olsun!" Qardaş və dostlarıma "Xoşbəxt olun!" deyirəm. (Zəbur, 122:6-8)

**Tövratda ağıl və hikmətə verilən əhəmiyyət**

Rəbb qorxusudur müdrikliyin təməli. Ağıl müqəddəs olanı tanımaqdır. (Süleymanın məsəlləri, 9:10)
Müdriklik qazanmaq qızıldan daha qiymətlidir, ağıla sahib olmaq da gümüşdən üstündür. (Süleymanın məsəlləri, 16:16)
Rəbb qorxusu müdriklik öyrədər, təvazökarlıq da ləyaqətin birinci şərtidir. (Süleymanın məsəlləri, 15:33)
Yanında mərcanla büllurun sözü edilməz, müdrikliyin dəyəri ləl-cəvahiratdan üstündür. (Əyyub, 28:18)
İnsana "Bax, Rəbb qorxusu, müdriklik budur" dedi. "Pislikdən uzaq durmaq ağıllı olmaqdır". (Əyyub, 28:28)
Halbuki insana ruh, hər şeyə qüdrəti çatanın nəfəsi ağıl verər. Ağıl yaşda deyil, başdadır... (Əyyub, 32:8-9)
Müdriklik gücdən, bilik kobud qüvvətdən üstündür. (Süleymanın məsəlləri, 24:5)
Müdrikliyə çatana, ağılı tapana nə xoş! (Süleymanın məsəlləri, 3:13)
Müdriklik həyat ağacıdır ona sarılanlara, nə xoş ondan bərk yapışanlara! (Süleymanın məsəlləri, 3:18)
Müdrik adam mənasız sözlərlə cavablayarmı, qarnını şərq küləyi ilə doldurarmı? Mənasız sözlərlə mübahisə edib faydasız söz danışarmı? (Əyyub, 15:2-3)
Ağıllı adamı danlamaq, ağılsıza yüz zərbə vurmaqdan təsirlidir. (Süleymanın məsəlləri, 17:10)
Müdrikin dili bilikdən yaxşı istifadə edər, ağılsızın ağzından isə axmaqlıq axar. (Süleymanın məsəlləri, 15:2)
Müdriklərin dodaqları bilik yayar, amma ağılsızların qəlbi elə deyil. (Süleymanın məsəlləri, 15:7)
Ağıldan məhrum adam axmaqlığı ilə sevinər, amma ağıllı insan dürüst bir həyat sürər. (Süleymanın məsəlləri, 15:21)
Müdrik insan kimisi varmı? Kim olub-keçənlərin mənasını belə bilər? Müdriklik insanın üzünü nurlandırar, sərt görünüşünü dəyişdirər. (Vaiz, 8:1)
Müdrik hara getdiyini görər, amma ağılsız qaranlıqda gedər... (Vaiz, 2:14)
Müdrikin qəlbi həmişə doğruya meyllidir, ağılsızın isə həmişə səhvə. (Vaiz, 10:2)
Müdrikin ağzından çıxan sözlər mənimsənər, halbuki ağılsız öz ağzı ilə müsibətə gətirib çıxarar. (Vaiz, 10:12)
İğtişaşlı ölkə çoxbaşlı olar, amma ağıllı, bilikli adam nizam gətirər. (Süleymanın məsəlləri, 28:2)
Özünə güvənən ağılsızdır, müdrik davranan güvənlikdə olar. (Süleymanın məsəlləri, 28:26)
Bilikli adam az danışar, ağıllı adam sakit ruhludur. Çənəsini tutub susan axmaq belə müdrik və ağıllı sayılar. (Süleymanın məsəlləri, 17:27-28)
Müdrik adamın ağzından çıxan sözlər dərin sular kimidir, müdriklik bulağı da coşğun bir axar sudur. (Süleymanın məsəlləri, 18:4)
Ağıllı adam biliyi satın alar, müdrikin qulağı da bilik dalıncadır. (Süleymanın məsəlləri, 18:15)
Həyat verən nəsihətləri dinləyən müdriklər arasında yerləşər. (Süleymanın məsəlləri, 15:31)

Şah Süleyman dünyanın bütün şahlarından daha varlı və daha müdrik idi. (1 Padşahlar, 10:23)
... Rəbbin  müdriklik və anlayış verdiyi bütün bacarıqlı insanlar hər işi tam Rəbbin buyurduğu kimi edəcəklər. (Misirdən çıxış, 36:1)
Rəbbin qanunu yetkindir, cana can verər, Rəbbin buyruqları etibarlıdır, təmiz adama müdriklik verər. (Zəbur, 19:7)
Doğrunun ağzından müdriklik axar, dilindən ədalət damlayar. (Zəbur, 37:30)
Müdrikliyin sirlərini bildirsə! Çünki müdriklik çox istiqamətlidir. (Əyyub, 11:6)
Çünki müdriklik ləl-cəvahiratdan qiymətlidir, istədiyin heç bir şey onunla müqayisə edilə bilməz. Mən müdriklik olaraq ehtiyatı özümə iqamət götürdüm. Bilgi və bəsirət məndədir. (Süleymanın məsəlləri, 8:11-12)
Müdrikliyə və ağıla sahib ol, söylədiklərimi unutma, onlardan sapma. Müdriklikdən ayrılma. O, səni qoruyar. Sev onu, səni qoruyar. Müdrikliyə ilk addım ona sahiblənməkdir. Bütün sərvətin bahasına olsa da, ağıla sahib çıx. Onu əlinin üzərində tut. O da səni ucaldacaq; Ona sarılsan, səni şərəfləndirəcək... (Süleymanın məsəlləri, 4:5-8)
Oğlum, müdrikliyə qulaq asıb, qəlbdən ağıla yönəlib sözlərimi qəbul etsən və buyruqlarımı ağlında tutsan, bəli, ağılı çağırıb ona könüldən səslənsən, gümüş və xəzinə kimi onu axtarsan, Rəbb qorxusunu anlayar və Allahı yaxından tanıyarsan. (Süleymanın məsəlləri, 2:1-3)
Çünki müdrikliyin qaynağı Rəbbdir. Onun ağzından bilgi və anlayış çıxar. (Süleymanın məsəlləri, 2:6)
Çünki qəlbin müdrikliklə dolacaq, zövq alacaqsan bilgidən. Bəsirət sənə gözətçilik edəcək və ağıl səni qoruyacaq. Bunlar səni pis yoldan, əxlaqsızın sözlərindən qurtaracaq. Onlar ki, qaranlıq yollarda getmək üçün doğru yoldan ayrılarlar. (Süleymanın məsəlləri, 2:10-13)
Lovğalığın ardından utanmaq gəlir, amma müdriklik təvazökarlardadır. (Süleymanın məsəlləri, 11:2)
Ağıllı adamın dodaqlarından müdriklik axar, amma Ağıldan məhrum olan kürəyindən kötək yeyər. (Süleymanın məsəlləri, 10:13)
Pislik ağılsızlar üçün əyləncə kimidir. Ağlı başında olanlar üçün isə müdriklik eyni şeydir. (Süleymanın məsəlləri, 10:23)
Düşünmədən deyilən sözlər qılınc kimi kəsər, müdriklərin dili isə şəfa verər. (Süleymanın məsəlləri, 12:18)
Müdrik adam tərbiyəni sevər, istehzaçı adam danlansa da, önəm verməz. (Süleymanın məsəlləri, 13:1)
Qürurdan ancaq qovğa çıxar, öyüd dinləyən isə müdrikdir. (Süleymanın məsəlləri, 13:10)
Tez hirslənən axmaq davranar, kələkbazdan hər kəs nifrət edər. (Süleymanın məsəlləri, 14:17)
Gec hirslənən ağıllıdır, tez əsəbiləşən axmaqlığını göstərər. (Süleymanın məsəlləri, 14:29)
Ağılsıza hörmət etmək, daşı sapanda bağlamaq kimidir. (Süleymanın məsəlləri, 26:8)
Müdriklərin öyrətdikləri həyat qaynağıdır, insanı ölüm tələlərindən uzaqlaşdırar. Sağlamdüşünəcli davranış hörmət qazandırar, xainlərin yolu isə fəlakətə aparar. Ehtiyatlı adam işini bilərək edər, ağılsız adam isə axmaqlığını göstərər. (Süleymanın məsəlləri, 13:14-16)
Rəbb qorxusudur biliyin təməli. Axmaqlar isə müdrikliyi və tərbiyəni kiçik görər. (Süleymanın məsəlləri, 1:7)
... Fironun ağıllı və bilikli bir adam tapıb onu Misirə rəhbər etməsi lazımdır… Sonra Yusifə "Madam Allah bütün bunları sənə açıqladı, səndən daha ağıllı və bilikli adam yoxdur" dedi. "Sarayımın rəhbərliyini sənə verəcəyəm. Bütün xalqım buyruqlarına uyacaq… Səni bütün Misirə rəhbər edirəm". (Yaradılış, 41:33, 39-41)
Öndərlər toplanıb məni pisləsələr belə, mən qulun Sənin qaydalarını dərin-dərin düşünəcəyəm. Nəsihətlərin mənim zövqümdür, mənə ağıl verirlər. (Zəbur, 119:23-24)
Buyruqların məni düşmənlərimdən müdrik edir, çünki həmişə ağlımdadır onlar. Bütün müəllimlərimdən daha ağıllıyam, çünki nəsihətlərin üzərində düşünürəm. Yaşlılardan daha müdrikəm, çünki Sənin şərtlərinə uyuram. Çəkinirəm hər pis yoldan, Sənin sözünü tutmaq üçün. Ayrılmaram hökmlərindən, çünki mənə Sən öyrətdin. Necə şirin gəlir verdiyin sözlər damağıma, baldan şirin gəlir ağzıma! Sənin şərtlərinə tabe olmaqla müdriklik qazanıram, buna görə nifrət edirəm hər səhv yoldan. (Zəbur, 119:98-104)
Özünüzə hər oymaqdan müdrik, anlayışlı, təcrübəli adamlar seçin. Onları sizə rəhbər təyin edəcəyəm… Beləcə, oymaqlarınızın müdrik və təcrübəli irəli gələnlərini sizə başçı təyin etdim. Onlara min, yüz, əlli və onlarla birliyin cavabdehliyini verdim. Oymaqlarınıza da idarəçilər seçdim. (Qanunun təkrarı, 1:13, 15)

Onlara möhkəm sarılın. Çünki necə müdrik və anlayışlı olduğunuzu xalqlara bunlar göstərəcək. Bu qaydaları eşidincə, xalqlar "Bu böyük xalq həqiqətən müdrik və anlayışlı bir xalqdır!" deyəcək. (Qanunun təkrarı, 4:6)
Rəbbə beləmi cavab verilər, ey ağılsız və müdriklikdən məhrum xalq? Sizi yaradan, sizə quruluş verən… Yaradıcınız O deyilmi? (Qanunun təkrarı, 32:6)
Süleymanın bu istəyi Rəbbi məmnun etdi. Allah ona belə dedi: "Madam özün üçün uzun ömür, zənginlik və düşmənlərinin ölümünü istəmədin və bunların yerinə ədalətli bir rəhbərlik üçün müdriklik istədin, istəyini yerinə yetirəcəyəm. Sənə elə bir müdriklik və duyğu dolu bir qəlb verəcəyəm ki, bənzəri nə səndən əvvəlkilərdə görülmüşdür, nə də səndən sonrakılarda görüləcək". (1 Padşahlar, 3:10-13)
... Hər kəs ədalətli bir rəhbərlik üçün Süleymanın Allahdan gələn müdrikliyə sahib olduğunu anladı. (1 Padşahlar, 3:28)
Allah Süleymana müdriklik, dərin bir hiss, sahillərdəki qum qədər anlayış verdi. Süleymanın müdrikliyi, bütün şərqlilərin və misirlilərin müdrikliyindən daha üstün idi... Hər kəsdən daha müdrik idi. Şöhrəti ətrafdakı bütün xalqlara yayılmışdı. Üç min məsəli və min beş mərsiyəsi var idi... Süleymanın müdrikliyini eşidən dünyanın bütün padşahları ona adamlarını göndərirdi. Bütün xalqlardan insanlar gəlib Süleymanın müdrik sözlərini dinləyirdi. (1 Padşahlar, 4:29-34)
... Rəbbə "Bunu etməklə böyük günah işlədim!" dedi, "ya Rəbb, qulunun günahını bağışla. Çünki çox ağılsız davrandım". (2 Şamuel, 24:10)
Hiram məktubunu belə davam etdirdi: "Yeri, göyü yaradan... Rəbbə təriflər olsun!" Şah Davuda müdrik bir oğul verdi... ağıllı və anlayışlı bir oğul. "Sənə... usta və ağıllı birini göndərirəm". (2 Salnamələr, 2:12-13)
Müdriklik yaşlılarda, ağıl uzun həyatdadır. Müdriklik və güc Allaha məxsusdur, Ondadır öyüd və ağıl. (Əyyub, 12:12-13)
Ey müdriklər, sözlərimi dinləyin, qulaq asın mənə ey bilik sahibləri. Çünki damaq necə yeməyi dadırsa, qulaq da sözləri sınayır. Gəlin, doğrunu seçək, yaxşını birlikdə öyrənək. (Əyyub, 34:2-4)
Ey şahlar, ağıllı olun! Ey dünya rəhbərləri, dərs alın! Rəbbə qorxu ilə xidmət edin, titrəyərək sevinin. (Zəbur, 2:10-11)
Ey ədalətli Allahım! Pislərin pisliyi sona çatsın, doğrular güvənə qovuşsun. Sən ki ağılları, könülləri sınayırsan. (Zəbur, 7:9)
Ağılsız daxilən "Allah yoxdur!" deyir. İnsanlar pozuldu, nifrət baş alıb gedir, yaxşılıq edən yoxdur... Ağıllı, Allahı axtaran biri varmı?... Hamısı yolunu azdı, hamısı korlandı, yaxşılıq edən yoxdur, bir adam belə! (Zəbur, 14:1-3)
Ağılsız və bilgisiz idim, qarşında bir heyvan kimi. Yenə də davamlı Səninləyəm... Öyüdlərinlə yol göstərər, məni sonunda ucalığa çatdırarsan. (Zəbur, 73:22-24)
Etdiklərin nə böyükdür ya Rəbb, düşüncələrin necə dərindir! Axmaq insan bilə bilməz, axmaq başa düşməz. (Zəbur, 92:5-6)
Ey xalqın içindəki axmaqlar, diqqət yetirin; ey axmaqlar, nə vaxt ağıllanacaqsınız? Qulağı yaradan eşitməzmi? Gözə quruluş verən görməzmi? (Zəbur, 94:8-9)
Sözlərinin açıqlanması nur saçar, təmiz insanlara ağıl verər. (Zəbur, 119:130)
Nəsihətlərin sonsuza qədər doğrudur; mənə ağıl ver ki, yaşayım. (Zəbur, 119:144)
Fəryadım Sənə çatsın ya Rəbb, sözünü tutacaq qədər ağıl ver mənə! (Zəbur, 119:169)
Özünü müdrik biri olaraq görmə, Rəbbdən qorx, pislikdən uzaq dur. (Süleymanın məsəlləri, 3:7)
Səni müdriklik yolunda öyrədib doğru yollara yönəldərəm. (Süleymanın məsəlləri, 4:11)
Oğlum, müdrikliyimə diqqət yetir, ağıllı sözlərimə qulaq as. Beləliklə, həmişə bəsirətli olar, dodaqlarınla biliyi qoruyarsan. (Süleymanın məsəlləri, 5:1-2)
... Müdrik adamı danlasan, səni sevər. Müdrik adamı öyrətsən, daha müdrik olar, doğru adama öyrətsən, biliyini artırar. (Süleymanın məsəlləri, 9:8-9)
Müdriksənsə, müdrikliyinin faydası sənədir; istehzaçı olsan, acısını tək sən çəkərsən. (Süleymanın məsəlləri, 9:12)
Ağılsız qadın hay-küyçü və sadəlövhdür, heç bir şey bilməz. (Süleymanın məsəlləri, 9:13)
Müdrik adam bilgi toplayar, axmağın ağzı isə onu müsibətə yaxınlaşdırar. (Süleymanın məsəlləri, 10:14)
Doğru adamın işləri həyat ağacının meyvəsinə bənzəyir, müdrik adam insanları qazanar. (Süleymanın məsəlləri, 11:30)
Müdriklərlə oturub-duran müdrik olar, ağılsızlarla dost olan isə zərər görər. (Süleymanın məsəlləri, 13:20)
Lağbaz müdrikliyi axtarsa da, tapa bilməz; ağıllı üçün isə bilik əldə etmək asandır. (Süleymanın məsəlləri, 14:6)
Ağılsız adamdan uzaq dur, çünki sənə öyrətməyə bir şeyi yoxdur. (Süleymanın məsəlləri, 14:7)
Ehtiyatlı adamın müdrikliyi nə edəcəyini bilməyidir, ağılsızın axmaqlığı isə aldanmağıdır. (Süleymanın məsəlləri, 14:8)

Müdrik adam qorxduğu üçün pislikdən uzaqlaşar, ağılsız isə böyüklük göstərib özünə güvənər. (Süleymanın məsəlləri, 14:16)
Maymaqların mirası ağılsızlıqdır, ehtiyatlı kəslərin tacı isə bilikdir. (Süleymanın məsəlləri, 14:18)
Müdriklərin tacı sərvətləridir, ağılsızlar isə axmaqlıqları ilə tanınar. (Süleymanın məsəlləri, 14:24)
Müdrik şah pisləri ayırd edər, xırman döyürmüş kimi cəzalandırar. (Süleymanın məsəlləri, 20:26)
Müdriklik ağıllı adamın qəlbinə sığınar, ağılsızlarda belə özünü bəlli edər. (Süleymanın məsəlləri, 14:33)
Tərbiyədən qaçan özünə zərər verər, danlağa qulaq asan isə ağıl qazanar. (Süleymanın məsəlləri, 15:32)
Müdrik qəlbli olanlara ağıllı deyilir, şirin söz razı salmaq gücünü artırır. (Süleymanın məsəlləri, 16:21)
Ağıllı adam gözünü müdriklikdən ayırmaz, ağılsızın gözü isə həmişə sağda-soldadır. Ağılsız uşaq atasına kədər, anasına acı verər. (Süleymanın məsəlləri, 17:24-25)
Lağbaz cəzalandırılanda səfeh adam ağıllanar, müdrik olan öyrədiləndən bilgi qazanar. (Süleymanın məsəlləri, 21:11)
Qulaq as, müdriklərin sözlərini dinlə, öyrətdiyimi yadda saxla. (Süleymanın məsəlləri, 22:17)
Ağılsıza öyüd verməyə çalışma, çünki sənin sözlərindəki ağılı kiçik görər. (Süleymanın məsəlləri, 23:9)
Oğlum, dinlə və müdrik ol, qəlbini doğru yolda tut. (Süleymanın məsəlləri, 23:19)
Həqiqəti satın al və satma; müdrikliyi, tərbiyəni və ağılı da. (Süleymanın məsəlləri, 23:23)
... Müdrikliyi tapsan, bir gələcəyin olar və ümidin boşa çıxmaz. (Süleymanın məsəlləri, 24:14)
Bunlar da müdriklərin sözləridir: Mühakimə edərkən tərəf saxlamaq yaxşı deyil. (Süleymanın məsəlləri, 24:23)
Ağılsıza axmaqlığına görə cavab vermə, yoxsa sən də onun səviyyəsinə enərsən. (Süleymanın məsəlləri, 26:4)
Oğlum, müdrik davran ki, qəlbim sevinsin, məni ayıblayana cavab verim. Ehtiyatlı adam təhlükəni görüncə gizlənər, axmaq isə önə atılar və zərər görər. (Süleymanın məsəlləri, 27:11-12)
Lağbaz adamlar şəhərləri beləcə qarışdırar, müdriklər isə qəzəbi yatırar. Müdrik adamla mübahisə edən axmaq hirslənər, istehza edər və rahatlıq verməz. (Süleymanın məsəlləri, 29:8-9)
Şəhərdə yoxsul, amma müdrik bir adam vardı. Müdrikliyi ilə şəhəri qurtardı… "Müdriklik gücdən yaxşıdır" dedim… Müdrikin səssiz söylədiyi sözlər, ağılsızlar arasındakı başçının qışqırmasından yaxşıdır. Müdriklik silahdan yaxşıdır... (Vaiz, 9:15-18)
Müdriklik müdrik adamı şəhərdəki on idarəçidən daha güclü edər. (Vaiz, 7:19)
Şah... şah soyundan gələn və ya bəzi əsilli gənclərin seçilib saraya gətirilməsi üçün saray vəzifəlilərinin başçısı Aşpenaza buyruq verdi. Bu gənclər qüsursuz, yaraşıqlı, hər mövzuda müdrik, bilikli, öyrənməyə qabiliyyətli, sarayda vəzifə tutmağa uyğun xüsusiyyətdə kəslər olmalı idi... (Daniel, 1:3-4)
Sənə şükür edib Səni tərifləyirəm. Sən ki, mənə müdriklik və güc verdin... (Daniel, 2:23)
Səndə... qavrayış, ağıl və fövqəladə müdrikliklə bəzənmiş olduğunu eşitdim. (Daniel, 5:14)
... Onun adından qorxmaq müdriklikdir... (Mikeya, 6:9)
Ağılsıza axmaqlığına uyğun cavab ver, yoxsa özünü müdrik sanar. (Süleymanın məsəlləri, 26:5)
Ağılsızın əli ilə xəbər göndərən öz ayaqlarını kəsən biri kimi özünə zərər verər. (Süleymanın məsəlləri, 26:6)
Ağılsızın ağzındakı məsəl iflicin sallanan ayaqları kimidir. (Süleymanın məsəlləri, 26:7)

**Tövratda comərd olmaq,
xəsislikdən qaçmaq**

Əliaçıq olan daha çox qazanar, haqq yeyənin sonu isə yoxsulluqdur. Comərd olan bolluğa çatacaq, başqasına su verənə su veriləcək. (Süleymanın məsəlləri, 11:24-25)
Pislər borc alıb geri verməz; doğrular isə comərdliklə verər. (Zəbur, 37:21)
… yoxsuldursa qəlbinizi qatılaşdırmayın, yoxsul qardaşınıza xəsis davranmayın. Əksinə, əliniz açıq olsun… (Qanunun təkrarı, 15:7-8)
Acgöz qovğa çıxarar, Rəbbə güvənən isə bolluq içində yaşayar. (Süleymanın məsəlləri, 28:25)
O, həmişə comərdliklə borc verər, soyu müqəddəs tutular. (Zəbur, 37:26)
Nə xoş əliaçıq olan, borc verən, işlərini ədalətlə icra edən insana! Əsla sarsılmaz... (Zəbur, 112:5-6)

Pulu sevən pula doymaz, zənginliyi sevən qazancı ilə kifayətlənməz. Bu da boşunadır. Mal çoxaldıqca yeyəni də çoxalar. Sahibinə nə faydası var seyr etməkdən başqa? Az və ya çox yesin, işçi rahat yatar. Amma varlının malı onu yatmağa qoymaz. (Vaiz, 5:10-12)

Comərd olan müqəddəs bilinər, çünki yeməyini yoxsullarla paylaşar. (Süleymanın məsəlləri, 22:9)
… Yoxsul qardaşınıza qarşı xəsis davranıb ona kömək etməkdən qaçmayasınız… Ona çoxluca verin, verərkən qəlbinizdə istəksizlik olmasın. Buna görə Allahınız Rəbb bütün işlərinizdə və əl atdığınız hər şeydə sizi müqəddəs görəcək… Ölkənizdə yaşayan qardaşlarınıza, yoxsullara, ehtiyacı olanlara əliaçıq davranmağınızı buyururam. (Qanunun təkrarı, 15:7-8)
Sərvət aldadıcıdır... Acgözdürlər ölülər diyarı kimi və ölüm kimi heç doymazlar. Ölkələri ələ keçirib xalqları əsir götürərlər. (Habaqquq, 2:5)
Tamahı üzündən rahatlığın  nə olduğunu bilmədi, sərvəti onu qurtara bilməyəcək. Yediyindən artıq qalan olmadı, buna görə bolluğu uzun sürməyəcək. Varlıq içində yoxluq çəkəcək, sıxıntıya düşəcək. Qarnını həddən artıq doyurduğunda... üzərinə qəzəb yağdıracaq. (Əyyub, 20:20-23)
Xəsisin verdiyi yeməyi yemə, ləzzətli yeməklərini ürəyin istəməsin. Çünki yediyin hər şeyi sayıb "ye, iç" deyər sənə, amma qəlbi səni istəməz. (Süleymanın məsəlləri, 23:6-7)
Xəsis sərvət arxasınca qaçar, yoxsulluğa uğrayacağını düşünməz. (Süleymanın məsəlləri, 28:22)
Yoxsula verən möhtac olmaz, yoxsulu görməməzlikdən gələn isə bir çox lənətə uğrayar. (Süleymanın məsəlləri, 28:27)
… Borc verdiyin yeməkdən qazanc götürməyəcəksən. (Levililər, 25:27)
Etibarlı adam bolluğa çatar, zəngin olmağa can atan isə bəladan xilas ola bilməz. (Süleymanın məsəlləri, 28:20)
Bölgə valilərinin hər biri özünə düşən bir ay boyunca şah Süleymana və süfrəsinə oturan hər kəsə yemək verib heç bir şeyi əskik etməzdi. (1 Padşahlar, 4:27)

**Tövratda maddi gücə deyil,**
**yalnız Allaha güvənmək**

Beləliklə, Məni sevənləri sərvət sahibi edər, xəzinələrini dolduraram. (Süleymanın məsəlləri, 8:21)
Onlar varlıqlarına güvənər, böyük sərvətləri ilə lovğalanarlar. (Zəbur, 49:6)
Varlı sərvətini bir qala, aşılmaz bir sədd sanar. (Süleymanın məsəlləri, 18:11)
Bax, bu adam Allaha sığınmaq istəmədi, sərvətinin bolluğuna güvəndi, başqalarını talan edib gücləndi! (Zəbur, 52:7)
Mühakimə günü uzaqlardan başınıza fəlakət gəldiyində nə edəcəksiniz? Kömək üçün kimə qaçacaqsınız, sərvətinizi harada saxlayacaqsınız? (Yeşaya, , 10:3)
Rəbb eyibsizlərin hər gününə göz qoyar, onların mirası sonsuza qədər sürəcək. Pis gündə utanmayacaqlar, qıtlıqda qarınları doyacaq. Amma pislər müsibətə uğrayacaq; Rəbbin düşmənləri tarla çiçəkləri kimi quruyub gedəcək, tüstü kimi dağılıb yox olacaq. (Zəbur, 37:18-20)
Qəzəb günü sərvət işə yaramaz, halbuki düzgünlük ölümdən qurtarar... Pis adam öldüyündə ümidləri yox olar, güvəndiyi güc də bitər. (Süleymanın məsəlləri, 11:4, 7)
Ticarətdəki üstün bacarıqların sayəsində sərvətini çoxaltdın, zənginliyin səni qürura sürüdü. (Yezekel, 28:5)
Kimisi heç bir şeyi yox ikən özünü varlı göstərər, kimisi də sərvəti çox ikən özünü yoxsul göstərər. Adamın sərvəti bir gün canına fidyə olar, halbuki yoxsul adam təhdidə önəm verməz. (Süleymanın məsəlləri, 13:7-8)
Varlı olmaq üçün çalışma, çıxar bunu ağlından. Sərvət göz açıb yumanadək yox olar, qanadlanıb qartal kimi göylərə uçar. (Süleymanın məsəlləri, 23:4-5)
... Sahibinin zərərinə yığılan və... yox olub gedən sərvət... (Vaiz, 5:13)
Varlılığın və ya bütün gücün yetərmi çətinlik çəkməyini önləməyə? (Əyyub, 36:19)
Pis insan qum kimi gümüş və çoxlu geyim yığsa, onun yığdığını düz insan geyəcək, gümüşü günahsızlar bölüşəcək. Evini güvə baraması kimi tikər, gözətçinin qurduğu çardaq kimi. Varlı olaraq yatar, amma bu belə sürməz, gözlərini açdığında hamısı yox olub getmişdir. (Əyyub, 27:16-19)

**Tövratda haqsız qazancdan qaçmaq**

... Özünə aid olmayanı ələ keçirənin, xərac alıb varlananın vay halına!... (Habaqquq, 2:6)
Diqqətli ol, pul səni başdan çıxarmasın, böyük rüşvət səni sapdırmasın. (Əyyub, 36:18)
Yumurtlamadığı yumurtaların üzərində oturan kəklik necədirsə, haqsız sərvət əldə edən adam da elədir. Həyatının ortasında sərvəti onu buraxar, həyatının sonunda özü axmaq çıxar. (Yeremya, 17:11)
Havadan qazanılan pul yox olar, az-az yığanın sərvəti çox olar. (Süleymanın məsəlləri, 13:11)
Pulunu faizə verməz, günahsıza qarşı rüşvət almaz. Belə yaşayan əsla sarsılmayacaq. (Zəbur, 15:5)
Düzün az olan varlığı, bir çox pisin sərvətindən yaxşıdır. (Zəbur, 37:16)
Sarayını haqsızlıqla... tikən, qonşusunu pulsuz işlədən, pulunu ödəməyən adamın vay halına! (Yeremya, 22:13)
Sərvətini çoxaltmaq üçün yoxsulu əzən və varlıya hədiyyə verənin sonu yoxsulluqdur. (Süleymanın məsəlləri, 22:16)
Pis adamların evləri haqsızlıqla qazanılmış sərvətlərlə doludur... Əskik ölçü lənətlidir. Hiyləli tərəzidən istifadə edən, torbasında əskik çəki olan adama necə haqq qazandırım? Şəhərin varlıları zalım, xalqı da yalançıdır... (Mikeya, 6:10-12)
Pul üçün dostlarını satan adamın uşaqlarının gözünün nuru sönər. (Əyyub, 17:5)
Haqsız qazanc müdriki dəli edər, rüşvət xarakteri pozar. (Vaiz, 7:7)
Xeyirxahın faydası özünədir, qəddar isə öz başına bəla gətirər. Pis adamın qazancı hiyləlidir, düzgünlük əkənin mükafatı isə etibarlıdır. (Süleymanın məsəlləri, 11:17)
Kimsəyə haqsızlıq etməz, girov olaraq aldığını verər, soyğunçuluq etməz, ac olana çörək verər, çılpağı geydirər. Faizlə pul verməz, həddindən artıq qazanc güdməz. Əlini pislikdən çəkər, iki adam arasında düzgünlüklə mühakimə edər. (Yezekel, 18:7-8)
Evini haqsız qazancla dolduranın… vay halına! (Habaqquq, 2:9)
… Dediklərini etmirlər. Ağızları ilə istəkli olduqlarını açıqlayırlar, amma qəlbləri haqsız qazanc arxasındadır. (Yezekel, 33:31)
"… Faiz aldın, sələmçilik etdin, zülmkarlıqla qonşularından haqsız qazanc götürdün. Məni unutdun" hakim Rəbb belə deyir. (Yezekel, 22:12)
Qəddar rəhbərin ağlı azdır; haqsız qazancdan nifrət edən isə uzun ömürlü olar. (Süleymanın məsəlləri, 28:16)
Alnı ağ yaşayan xilas olar, rüşvət alan qəflətən müsibətə uğrayar. (Süleymanın məsəlləri, 28:18)
Dürüst bir yoxsul olmaq, rüşvətlə varlı olmaqdan üstündür. (Süleymanın məsəlləri, 28:6)
Haqsız qazanca düşkün olanların sonu belədir. Bu düşkünlük onları canlarından edər. (Süleymanın məsəlləri, 1:19)
… Ya Rəbb… qəlbimi haqsız qazanca deyil, Öz öyüdlərinə yönəlt. (Zəbur, 119:33, 36)
Amma oğulları onun yolunda getmədilər. Əksinə, haqsız qazanca yönəlib rüşvət alar, mühakimədə tərəf tutardılar. (1 Şamuel, 8:3)
... Çünki günah üstünə günah işlədilər; doğrunu pula, yoxsulu bir cüt çarığa satdılar. (Amos, 2:6)
Bununla yanaşı xalqın arasından Allahdan qorxan, qabiliyyətli, haqsız qazancdan nifrət edən dürüst adamlar seç; onları min, yüz, əlli və onlarla adam olan birliyə başçı seç. (Misirdən çıxış, 18:21)

**Tövratda tənbəllikdən qaçmaq,
çalışqan olmaq**

Hər əmək qazanc gətirər, amma boşboğazlıq yoxsulluğa aparar. (Süleymanın məsəlləri, 14:23)
Tənbəlin yolu tikanlı çəpər kimidir, doğrunun yolu isə ana yola bənzəyir. (Süleymanın məsəlləri, 15:19)
Çalışqanların əli ağalığa, tənbəllik isə köləliyə aparar. (Süleymanın məsəlləri, 12:24)
Tənbəl ürəyinin istədiyini əldə edə bilməz, çalışqan isə bütün istəklərinə çatar. (Süleymanın məsəlləri, 13:4)
Tənbəlin istəyi onu ölümə aparar, çünki əlləri çalışmaqdan qaçar. (Süleymanın məsəlləri, 21:25)
Tənbəl adam işini bitirməz, halbuki çalışqan qiymətli bir sərvət qazanar. (Süleymanın məsəlləri, 12:2)

Tənbəl əllər insanı yoxsullaşdırar, çalışqan əl zəngin edər. (Süleymanın məsəlləri, 10:2-4)
Ey tənbəl adam, get qarışqalara bax, onların həyatından müdriklik öyrən. (Süleymanın məsəlləri, 6:6)
Tənbəllik insanı laqeydliyə aparar, avara adam da ac qalar. (Süleymanın məsəlləri, 19:15)
Payızda cüt sürməyən tənbəl, biçində axtardığını tapa bilməz. (Süleymanın məsəlləri, 20:4)
Torpağını işlədənin çörəyi bol olar, xəyal arxasında qaçan isə yoxsulluğa qane olar. (Süleymanın məsəlləri, 28:19)
Tənbəllikdən dam çökər, miskinlikdən dam axar. (Vaiz, 10:18)
Dişlər üçün sirkə, gözlər üçün tüstü nədirsə, tənbəl ulaq da özünü göndərən üçün elədir. (Süleymanın məsəlləri, 10:26)
Evdəkilərin işlərini idarə edər, tənbəllik nədir bilməz. (Süleymanın məsəlləri, 31:27)
... Çox qabiliyyətli biriydi. Süleyman bu gənc adamın necə çalışqan olduğunu görüncə... Bütün ağır işlərinin məsuliyyətini ona verdi. (1 Padşahlar, 11:28)
İşdən məsul olanlar çalışqan idi, təmir işi onların sayəsində irəlilədi. (2 Salnamələr 24:13)
Çalışqanın planları həmişə bolluqla, hər cür tələskənlik həmişə yoxluqla nəticələnər. (Süleymanın məsəlləri, 21:5)

**Tövratda istehzadan qaçmaq**

Amma onlar Allahın xəbərçilərinə istehza edib sözlərini saymadılar, peyğəmbərlərini alçaltdılar... (2 Salnamələr, 36:16)
Lağbazı qov, döyüş bitər; çəkişmə və alçaltmalar da sona çatar. (Süleymanın məsəlləri, 22:10)
Lağbazlar şəhərləri beləcə qarışdırar, müdriklər isə qəzəbi yatırar. (Süleymanın məsəlləri, 29:8)
... Qardaşlarının o pis günündən zövq almamalı idin. Başlarına gələn müsibətə sevinməməli, çətin günlərində onlara istehza etməməli idin. (Avdiya, 1:12)
Masqaraçı müdrikliyi axtarsa da, tapa bilməz; ağıllı üçün isə biliyi əldə etmək asandır. (Süleymanın məsəlləri, 14:6)
… İnsanlar məni küçümsəyir, xalq xor görür. Məni görən hər kəs istehza edir, dişini ağardıb başını yelləyərək deyirlər ki, "Kürəyini Rəbbə söykədi, qurtarsın görək onu, madam onu sevir, kömək etsin!" Halbuki məni ana rəhmindən çıxaran, ana qucağında ikən Sənə güvənməyi öyrədən Sənsən. Doğulduğumdan bəri Sənə təslim edildim, ana rəhmindən bəri Allahım Sənsən. (Zəbur, 22:6-10)
... İstehzaçılar üçün cəza, ağılsızların kürəyi üçün kötək hazırdır. (Süleymanın məsəlləri, 19:29)
Ey axmaqlar, axmaqlığı nə vaxtadək sevəcəksiniz? Masqaraçılar nə vaxtadək istehza etməkdən zövq alacaq? Ağılsızlar nə vaxtadək bilikdən nifrət edəcək? (Süleymanın məsəlləri, 1:22)
Allah tanımaz, istehzaçı təlxəklər kimi dişlərini qıcırdatdılar mənə... Qurtar məni onların hücumundan… (Zəbur, 35:16-17)
Rəbb masqaraçılara istehza edər, amma təvazökarlara lütf edər. (Süleymanın məsəlləri, 3:34)
Lağbaz adam danlanmaqdan xoşlanmaz, müdriklərin yanına gedib məsləhətləşməz. (Süleymanın məsəlləri, 15:12)
Yoxsula istehza edən onu Yaradanı xor görər... (Süleymanın məsəlləri, 17:5)
Lağbaz cəzalandırıldıqda səfeh ağıllanar, müdrik olan öyrədiləndən bilik qazanar. (Süleymanın məsəlləri, 21:11)
Qürurlu, məğrur və istehzaçı: Bunlar qürurlanan insanın adlarıdır. (Süleymanın məsəlləri, 21:24)
Lağ etməyin artıq, yoxsa zəncirləriniz daha da qalınlaşar. Çünki bütün ölkənin gerçək müsibətə uğrayacağını Rəbbdən, hər şeyə hakim Rəbbdən eşitdim. (Yeşaya, , 28:22)
Çünki mərhəmətsizlər yox olacaq, masqaraçılar silinəcək, pisliyə fürsət verənlərin hamısı məhv ediləcək. (Yeşaya, , 29:20)
... Qürurlanmaqlarının... alçaldıb istehza etməklərinin qarşılığı bu olacaq. Dəhşətə salacaq Rəbb onları… (Sefanya, 2:10-11)
Çünki günahına üsyan da əlavə edir, önümüzdə istehza edirmiş kimi əl çalır, Allaha qarşı çox danışır. (Əyyub, 34:37)

**Tövratda hüznə qapılmamaq,**
**Allaha imanla hüzur tapmaq**

... Kədərlənməyin. Rəbbin verdiyi sevinc sizi güclü edər. (Nehemya, 8:10)
Sakit ürək vücudun həyat qaynağıdır, hirs isə insanı daxildən məhv edər. (Süleymanın məsəlləri, 14:30)
Axmağı kədər öldürər, axmağı qısqanclıq bitirər. (Əyyub, 5:2)

Xoşbəxt qəlb üzü sevindirər, qəmgin qəlb ruhu əzər. (Süleymanın məsəlləri, 15:13)
... Mənə dönün, hüzur tapın, xilas olarsınız. Narahat olmayın, Mənə güvənin, güclü olarsınız... (Yeşaya, , 30:15)
Düzlüyün məhsulu xoşbəxtlik, nəticəsi davamlı hüzur və güvən olacaq. (Yeşaya,  32:17)
Həyat yolunu mənə bildirərsən. Bol sevinc vardır Sənin hüzurunda... xoşbəxtlik azalmaz. (Zəbur, 16:11)
Qəlbim təkcə Allahda hüzur tapar, qurtuluşum Ondan gələr. (Zəbur, 62:1)
Ey qəlbim, yalnız Allahda hüzur tap, çünki ümidim Ondadır. (Zəbur, 62:5)
Rəbbə dedim ki, "Əfəndim Sənsən. Səndən kənar xoşbəxtlik yoxdur mənim üçün". (Zəbur, 16:2)
Məni hüzura qovuşdurdu, qurtardı, çünki məndən razı qaldı. (2 Şamuel, 22:20; Zəbur, 18:19)
Hüzur eşidincə dedim ki, "Əsla sarsılmayacağam!" (Zəbur, 30:6)
Amma təvazökarlar ölkəni miras alacaq, dərin bir hüzurun zövqünü dadacaq. (Zəbur, 37:11)
Çətin gündə cəsarətini itirsən, deməli gücün azdır. (Süleymanın məsəlləri, 24:10)
Pislik edənlərə hirslənib kədərlənmə, günah işləyənlərə etina etmə!... Rəbbin hüzurunda sakit dayan, səbirlə gözlə; hirslənib kədərlənmə işi yolunda olanlara, pis məqsədlərinə qovuşanlara... Hirslənməkdən qaçın, burax əsəbi, kədərlənmə, bu səni ancaq pisliyə sürüyər. (Zəbur, 37:1, 7-8)
Pislik edənlərə hirslənib kədərlənmə, onlara etina etmə. Çünki pislərin gələcəyi yoxdur, çırası sönəcək onların. (Süleymanın məsəlləri, 24:19-20)
Düz adam çətinlikdən xilas olar, onun yerinə çətinliyi pis adam çəkər. (Süleymanın məsəlləri, 11:8)
Çətinliyə düşdüyünüzdə və bütün bu hadisələr başınıza gəldiyində sonunda Allahınız Rəbbə dönəcək, Onun sözünə qulaq asacaqsınız. (Qanunun təkrarı, 4:30)
... Düz adam çətinliyi sovuşdurar. (Süleymanın məsəlləri, 12:13)
... Rəbbin... etdiyi bütün yaxşılıqlardan ötrü sevinc duyub xoşbəxtlik içində evlərinə döndülər. (1 Padşahlar, 8:66)
Nə xoş adamlarına! Nə xoş Sənə xidmət edən vəzifəlilərə! Çünki davamlı müdrikliyinə şahid olurlar. (1 Padşahlar, 10:8; 2 Salnamələr, 9:7)
... Nə xoş Allahı Rəbb olan xalqa! (Zəbur, 144:15)
... Allah onun qəlbini xoşbəxtliklə doldurar. (Vaiz, 5:20)
Qullarım xoşbəxtlik içində tərənnüm edəcək, amma siz ürək acısından fəryad edib əzgin bir ruhla səslənəcəksiniz. (Yeşaya, 65:14)
Nə xoş Rəbbə güvənən insana, etibarı tək Rəbb olana! (Yeremya, 17:7)
Səndə nəşə və sevinc tapsın bütün sənə yönələnlər! "Rəbb ucadır!" desin həmişə Sənin xilasını gözləyənlər! (Zəbur, 40:16)
... Qəlbləri Rəbbdə sevinc tapacaq. (Zəkəriyyə, 10:7)
Ey qəlbim, yenə hüzura qovuş, çünki Rəbb sənə yaxşılıq etdi. (Zəbur, 116:7)
Mənə hüzur verdiyin üçün buyruqlarının yönündə gedəcəyəm. (Zəbur, 119:32)
... Hüzur tapsın Səni sevənlər! (Zəbur, 122:6)
Amma Məni dinləyən güvənlikdə yaşayacaq, pislikdən qorxmayacaq, hüzur tapacaq. (Süleymanın məsəlləri, 1:33)
... Günbəgün sevinclə dolub daşdım, hüzurunda həmişə coşdum. (Süleymanın məsəlləri, 8:30)

**Tövratda ruh təmizliyi**

Nə xoş yolları təmiz olanlara, Rəbbin qanununa görə yaşayanlara! (Zəbur, 119:1)
Tamam təmizlə məni günahımdan, ayır məni günahımdan. (Zəbur, 51:2)
... Qəlbini pislikdən təmizlə ki, xilas olasan. Nə vaxtadək qəlbində pis fikirlər saxlayacaqsan? (Yeremya, 4:14)
Yaqub ailəsinə və yanındakılara "Özgə ilahlarınızı atın" dedi, "Özünüzü təmizləyib geyimlərinizi dəyişdirin". (Yaradılış, 35:2)
Artıq bütləri ilə, iyrənc işləri ilə, üsyanları ilə özlərini kirlətməyəcəklər. Onları yerləşdikləri, içində günah işlədikləri yerlərdən qurtarıb təmizləyəcəyəm... (Yezekel, 37:23)
Bir çoxları özlərini ayıraraq təmizlənəcək, ləkəsiz olacaq, amma pislər pislik etməyi davam etdirəcək. Pislərin heç biri anlamayacaq, müdriklər anlayacaq. (Daniel, 12:10)

Əlləri pak, ürəyi təmiz olan, könlünü bütlərə verməyən, yalan yerə and içməyən. Rəbb müqəddəs hesab edir beləsini, xilaskarı Allah bağışlayar. Ona yönələnlər… bax belədir. (Zəbur, 24:4-6)
Düzlər öz yolunu tutur, əlləri təmiz olanlar getdikcə güclənir. (Əyyub, 17:9)
Rəbb... təmiz niyyətlərdən razı qalar. (Süleymanın məsəlləri, 15:26)
Allah qalxan kimi yanımdadır, ürəyi təmiz olanları O qurtarar. (Zəbur, 7:10)
Ey Allah, təmiz bir qəlb yarat, yenidən qərarlı bir ruh ver mənə. (Zəbur, 51:10)
...Natəmizliklərindən, üsyanlarından, bütün günahlarından təmizləyəcək. Hüzur çadırı üçün də eyni şeyi edəcək. Çünki kirli insanların arasındadır. (Levililər, 16:16)
... Ayırıb dini baxımdan təmizlə. (Səhrada saylar, 8:6)
... Özlərini müqəddəs hesab etdikdən sonra, Rəbbin sözünə uyğun olaraq padşahın buyruğu ilə Rəbbin məbədini dini baxımdan təmizləmək üçün içəri girdilər. (2 Salnamələr, 29:15)
Sən bizi sınadın ey Allah, gümüşü təmizləyən kimi təmizlədin. (Zəbur, 66:10)
Qızıl ocaqda, gümüş putada təmizlənər, qəlbi təmizləyən isə Rəbbdir. (Süleymanın məsəlləri, 17:3)
Elələri vardır ki, özlərini tərtəmiz sanarlar, halbuki pisliklərindən təmizlənmiş deyildirlər. (Süleymanın məsəlləri, 30:12)
Üzərinizə təmiz su tökəcəyəm, təmizlənəcəksiniz. Sizi bütün kirlərdən və bütlərinizdən təmizləyəcəyəm. (Yezekel, 36:25)
Hakim Rəbb belə deyir: Sizi bütün günahlarınızdan təmizlədiyim gün şəhərlərinizdə yaşamağınızı təmin edəcəyəm; xarabalıqlar düzəldiləcək. (Yezekel, 36:33)
Müdriklərdən biri duruxacaq; belə ki, son gələnə qədər təmizlənə bilsin, ləkəsiz ola bilsinlər. Çünki son yenə də təyin olunan zamanda gələcək. (Daniel, 11:35)
... Günahdan və ruhi natəmizlikdən təmizləmək üçün bir mənbə açılacaq. (Zəkəriyyə, 13:1)
Rəbb düzlüyümün əvəzini verdi, məni təmiz əllərimə görə mükafatlandırdı. (2 Şamuel, 22:21)
Təmiz və düzsənsə, O, indi belə... Səni layiq olduğun yerə geri gətirəcək. (Əyyub, 8:6)
... Ey qəlbi təmiz olanlar, hamınız sevinc səsləndirin! (Zəbur, 32:11)
Səni tanıyanlara davamlı göstər sevgini, qəlbi təmiz olanlara doğruluğunu. (Zəbur, 36:10)
Düz insan Rəbbdə sevinc tapacaq, Ona sığınacaq, bütün qəlbi təmiz olanlar Onu tərifləyəcək. (Zəbur, 64:10)
Allah həqiqətən... ürəyi təmiz olanlara qarşı yaxşıdır. (Zəbur, 73:1)
Ədalət yenə düzgünlük üzərinə qurulacaq, ürəyi təmiz olan hər kəs ona uyacaq. (Zəbur, 94:15)
Ey sizlər, Rəbbi sevənlər, pislikdən çəkinin. O, sadiq qullarının canını qoruyar, onları pislərin əlindən qurtarar. Düzlərə işıq, qəlbi təmiz olanlara sevinc saçar. (Zəbur, 97:10-11)
... Səni ilahilərlə tərifləyəcəyəm ya Rəbb. Dürüst davranmağa diqqət göstərəcəyəm, nə vaxt gələcəksən mənə? Təmiz bir həyat sürəcəyəm evimdə, önümdə alçaqlığa icazə verməyəcəyəm. (Zəbur, 101:1-3)
Nə xoş yolları təmiz olanlara, Rəbbin qanununa görə yaşayanlara! (Zəbur, 119:1)
Şükür edəcəyəm Sənə təmiz ürəklə, ədalətli hökmlərini öyrəndikcə. (Zəbur, 119:7)
Yaxşılıq et ya Rəbb yaxşılara, ürəyi təmiz olanlara. (Zəbur, 125:4)
Ürək təmizliyini və gözəl sözləri sevən, padşahın dostluğunu qazanar. (Süleymanın məsəlləri, 22:11)

**Tövratda Allahın xoşbəxtlik vəd etdiyi qulları**

Nə xoş Rəbbə güvənən insana, etibarı tək Rəbb olana! (Yeremya, 17:7)
Nə xoş Onun öyüdlərinə uyanlara, bütün qəlbi ilə Ona yönələnlərə! (Zəbur, 119:2)
Nə xoş Rəbbdən qorxana, Onun yolunda gedənə! (Zəbur, 128:1)
Nə xoş yolları təmiz olanlara, Rəbbin qanununa görə yaşayanlara! (Zəbur, 119:1)
Nə xoş Rəbbə güvənən insana, qürurluya və yalana yönələnə meyl etməyənə. (Zəbur, 40:4)
Nə xoş gücünü Səndən alan insana!... (Zəbur, 84:5)
Nə xoş yolları təmiz olanlara, Rəbbin qanununa görə yaşayanlara! (Zəbur, 119:1)
Nə xoş o insana ki, pislərin öyüdü ilə getməz, günahkarların yolunda dayanmaz, istehzaçıların arasında oturmaz. (Zəbur, 1:1)

... Ruhunda hiylə olmayan insana nə xoş! (Zəbur, 32:2)
Ey hər şeyə hakim Rəbb, nə xoş Sənə güvənən insana! (Zəbur, 84:12)
... Nə xoş Rəbbdən qorxan insana, Onun buyruqlarından böyük zövq alana! (Zəbur, 112:1)
Nə xoş əliaçıq olan, borc verən, işlərini ədalətlə icra edən insana! (Zəbur, 112:5)
Nə xoş ədalətə uyanlara, həmişə doğru olanı edənlərə! (Zəbur, 106:3)
Müdrikliyə çatana, ağılı tapana nə xoş! (Süleymanın məsəlləri, 3:13)
Budur, nə xoş Allahın öyrətdiyi insana!... (Əyyub, 5:17)
Müdriklik həyat ağacıdır ona sarılanlara, nə xoş ondan möhkəm yapışanlara! (Süleymanın məsəlləri, 3:18)
Öyüdə qulaq asan müvəffəqiyyətə çatar, Rəbbə güvənən xoşbəxt olar. (Süleymanın məsəlləri, 16:20)
... Rəbb nə yaxşıdır, nə xoş Ona sığınan adama! (Zəbur, 34:8)
... Nə xoş Sənə xidmət edən vəzifəlilərə! Çünki davamlı müdrikliyinə şahid olurlar. (1 Padşahlar, 10:8; Salnamələr, 9:7)
... Nə xoş Ona sığınanlara! (Zəbur, 2:12)
Nə xoş üsyanı bağışlanan, günahı örtülən insana! (Zəbur, 32:1)
Nə xoş yoxsulu düşünənə! Rəbb qurtarar onu pis gündə. (Zəbur, 41:1)
... Nə xoş Allahı Rəbb olan xalqa! (Zəbur, 144:15)
Nə xoş... ümidi Allahı Rəbbdə olana!
... Yolumu izləyənlərə nə xoş! (Süleymanın məsəlləri, 8:32)
... Nə xoş məzluma lütf edənə! (Süleymanın məsəlləri, 14:21)
Ədalətli və doğru olanı qoruyub yerinə yetirin… Bunu edən insana, buna möhkəm sarılan Adəm oğluna nə xoş!... (Yeşaya 56:1-2)
Nə xoş sevinc səsləndirməyi bilən xalqa ya Rəbb! Üzünün nurunda gedərlər. (Zəbur, 89:15)

**Tövratda Allahın xoşbəxtlik vəd etdiyi qulları**

Nə xoş Rəbbə güvənən insana, inamı tək Rəbb olana! (Yeremya, 17:7)
Nə xoş Onun öyüdlərinə uyanlara, bütün qəlbi ilə Ona yönələnlərə! (Zəbur, 119:2)
Nə xoş Rəbbdən qorxana, Onun yolunda gedənə! (Zəbur, 128:1)
Nə xoş yolları təmiz olanlara, Rəbbin qanununa görə yaşayanlara! (Zəbur, 119:1)
Nə xoş Rəbbə güvənən insana, qürurluya və yalançıya meyl etməyənə. (Zəbur, 40:4)
Nə xoş gücünü Səndən alan insana!... (Zəbur, 84:5)
Nə xoş yolları təmiz olanlara, Rəbbin qanununa görə yaşayanlara! (Zəbur, 119:1)
Nə xoş o insana ki, pislərin öyüdü ilə getməz, günahkarların yolunda durmaz, masqaraçıların arasında oturmaz. (Zəbur, 1:1)
... Ruhunda hiylə olmayan insana nə xoş! (Zəbur, 32:2)
Ey hər şeyə hakim Rəbb, nə xoş Sənə güvənən insana! (Zəbur, 84:12)
... Nə xoş Rəbbdən qorxan insana, Onun buyruqlarından böyük zövq alana! (Zəbur, 112:1)
Nə xoş əliaçıq olan, borc verən, işlərini ədalətlə icra edən insana! (Zəbur, 112:5)
Nə xoş ədalətə uyanlara, davamlı doğru olanı edənlərə! (Zəbur, 106:3)
Müdrikliyə çatana, ağılı tapana nə xoş! (Süleymanın məsəlləri, 3:13)
Bax, nə xoş Allahın öyrətdiyi insana!... (Əyyub, 5:17)
Müdriklik həyat ağacıdır ona sarılanlara, nə xoş ondan möhkəm tutanlara! (Süleymanın məsəlləri, 3:18)
Öyüdə qulaq asan müvəffəqiyyətə çatar, Rəbbə güvənən xoşbəxt olar. (Süleymanın məsəlləri, 16:20)
... Rəbb nə yaxşıdır, nə xoş Ona sığınan adama! (Zəbur, 34:8)
... Nə xoş Sənə xidmət edən vəzifəlilərə! Çünki davamlı müdrikliyinə şahid olurlar. (1 Padşahlar, 10:8; Salnamələr, 9:7)
... Nə xoş Ona sığınanlara! (Zəbur, 2:12)
Nə xoş üsyanı bağışlanan, günahı örtülən insana! (Zəbur, 32:1)
Nə xoş yoxsulu düşünənə! Rəbb qurtarar onu pis gündə. (Zəbur, 41:1)

... Nə xoş Allahı Rəbb olan xalqa! (Zəbur, 144:15)
Nə xoş... ümidi Allahı Rəbbdə olana!
... Yolumu izləyənlərə nə xoş! (Süleymanın məsəlləri, 8:32)
... Nə xoş məzluma lütf edənə! (Süleymanın məsəlləri, 14:21)
Ədalətli və doğrunu qoruyub yerinə yetirin… Bunu edən insana, buna möhkəm sarılan Adəm oğluna nə xoş!... (Yeşaya 56:1-2)
Nə xoş sevinc səsləndirməyi bilən xalqa, ya Rəbb! üzünün nurunda gedərlər. (Zəbur, 89:15)

## TÖVRATDA ALLAHI ANMAQ VƏ GÖZƏL SÖZ SÖYLƏMƏYİN ƏHƏMİYYƏTİ

### Tövratda Allahı anmaq

Gördüyün hər işdə Rəbbi an, O, sənin yolunu düzə çıxarar. (Süleymanın məsəlləri, 3:6)
Qanun kitabında yazılanları dilindən salma. Hamısını diqqətlə yerinə yetirmək üçün gecə-gündüz onu düşün. O zaman müvəffəqiyyətli olacaq və məqsədinə çatacaqsan. (Yeşua, 1:8)
Bu sözlərimi ağlınızda və ürəyinizdə saxlayın... Onları uşaqlarınıza öyrədin. Evinizdə oturarkən, yolda gedərkən, yatarkən, qalxarkən onlardan danışın. (Qanunun təkrarı, 11:18-19)
Ağzımdan Sənə tərif azalmaz, gün boyu ucalığını xatırlayıram. (Zəbur, 71:8)
Gecə adını xatırlayıram ya Rəbb, qanununa tabeyəm. (Zəbur, 119:55)
Həmişə Rəbbə tariflər deyəcəyəm, tərifi dilimdən düşməyəcək. Rəbblə öyünürəm… Mənimlə birlikdə Rəbbin böyüklüyünü bildirin, adını birlikdə ucaldaq. (Zəbur, 31:1-3)
… Rəbbin qanunu həmişə ağzınızda olsun. Çünki Rəbb güclü əli ilə sizi Misirdən çıxardı. (Misirdən çıxış, 13:9)
Allahın sözü sizə çox yaxındır; tabe olmağınız üçün ağzınızda və ürəyinizdədir. (Qanunun təkrarı, 30:14)
Mənimlə birlikdə Rəbbin böyüklüyünü bildirin, adını birlikdə ucaldaq. (Zəbur, 34:3)
O gün deyəcəksiniz ki, "Rəbbə şükr edin, Ona yalvarın, xalqlara bildirin etdiklərini, adının uca olduğunu çatdırın! Rəbbi tərənnüm edin, çünki möhtəşəm işlər etdi. Bütün dünya bilsin bunu. (Yeşaya, 12:4-5)
Ey bütün xalqlar, Rəbbi öyün, Rəbbin gücünü, ucalığını öyün. (1 Salnamələr, 16:28)
Ey Allah, məni qurtaran Allah, dilim Sənin xilasını ilahilərlə tərifləsin. Ya Rəbb, aç dodaqlarımı, ağzım Sənin təriflərini eşitdirsin. (Zəbur, 51:14-15)
Rəbbin ruhu mənim vasitəmlə danışır, sözü dilimin ucundadır. (2 Şamuel, 23:2)
Mən isə gücün üçün səhər tərənnüm edəcək, sevgini sevinclə dilə gətirəcəyəm. Çünki Sən mənə qala, çətin günümdə sığınacaq oldun. Gücüm Sənsən, Səni ilahilərlə tərifləyəcəyəm; çünki qalam və məni sevən Allah Sənsən. (Zəbur, 59:16-17)
Ağzımla Ona yalvardım, tərifi dilimdən düşmədi. (Zəbur, 66:17)
Səni ilahilərlə tərifləyərkən dodaqlarımla, varlığımla sevincimi dilə gətirəcəyəm. Çünki Sən məni qurtardın. Dilim gün boyu Sənin zəfərindən danışacaq… (Zəbur, 71:23-24)
… Belə desinlər davamlı: "Qulunun xoşbəxtliyindən xoşlanan Rəbb ucalsın!" O zaman gün boyu ədalətin, təriflərin dilimdən düşməyəcək. (Zəbur, 35:27-28)
Sözlərimi ürəyində saxlasan, xoşbəxt olarsan. Onlar həmişə hazır olsun dodaqlarında. (Süleymanın məsəlləri, 22:18)
Sənin sevgin həyatdan yaxşıdır; buna görə dodaqlarım Səni ucaldar. Ömrüm boyu Sənə tərifler deyəcəyəm, Sənin adınla əllərimi qaldıracağam… Ağzım Sənə tariflər deyəcək. (Zəbur, 63:3-5)
Ağzından çıxan bütün hökmləri dodaqlarımla təkrarlayıram. Sevinc duyuram öyüdlərini izləyərkən, sanki mənim olur bütün xəzinələr… Dodaqlarımdan tərifler çıxsın, çünki mənə qaydalarını öyrədirsən. Dilimdə sözün tərənnümə çevrilsin, çünki bütün buyruqların doğrudur. (Zəbur, 119:13-14, 171-172)
... Bu qanunu onlara oxuyacaqsınız. Xalqı -kişiləri, qadınları, uşaqları və şəhərlərinizdə yaşayan qəribləri toplayın. Belə ki, hər kəs eşidib öyrənsin, Allahınız Rəbbdən qorxsun. Bu qanunun bütün sözlərinə uymağa diqqət yetirsin. Qanunu bilməyən uşaqlar da eşitsinlər... Allahınız Rəbbdən qorxmağı öyrənsinlər. (Qanunun təkrarı, 31:11-13)

… Sonsuza qədər şükür edəcəyik Sənə, nəsillər boyu təriflərini dilimizdən salmayacağıq. (Zəbur, 79:13)
Rəbb deyir ki, "… Üzərindəki ruhum, ağzına qoyduğum sözlər indidən sonsuza qədər sənin, uşaqlarının və nəvələrinin ağzından düşməyəcək". (Yeşaya, 59:20-21)
Bu gün sizə verdiyim bu buyruqları ağlınızda tutun. Onları uşaqlarınıza mənimsədin. Evinizdə oturarkən, yolda gedərkən, yatarkən, qalxarkən onlardan danışın. (Qanunun təkrarı, 6:5-7)

**Tövratda doğru söz söyləmək**

Doğrunun ağzından müdriklik axar, dilindən ədalət damlayar. Allahının qanunu ürəyindədir, ayağı büdrəməz. (Zəbur, 37:30-31)
Kim həyatdan zövq alıb yaxşı günlər görmək istəyirsə, dilini pislikdən, dodaqlarını yalandan uzaq tutsun. (Zəbur, 34:12-13)
Etməyiniz lazım olanlar bunlardır: Bir-birinizə doğrunu söyləyin... Yalan yerə and içməkdən çəkinin..." Belə deyir Rəbb. (Zəkəriyyə, 8:16-17)
Dürüst şahid doğrunu söyləyər, yalançı şahid isə hiylə tənəffüs edər… Həqiqi sözlər sonsuza qədər qalıcıdır, halbuki yalanın ömrü bir anlıqdır. Pislik hazırlayanın qəlbi hiyləgər, sülhü nəsihət edənin qəlbi isə sevinclidir. Doğru adama heç zərər gəlməz, pisin başı isə bəladan xilas olmaz. Rəbb yalançı dodaqlardan nifrət edər, amma həqiqətə uyanlardan razı qalar. (Süleymanın məsəlləri, 12:17-22)
Doğru adamın ağzı həyat mənbəyidir, pislər isə zülmlərini sözlə gizləyərlər. (Süleymanın məsəlləri, 10:11)
Doğru adam müdrik danışar, azğın dil isə kəsilər. Doğru adamın dodaqları deyiləcək sözü bilər, pisin ağzından isə azğın sözlər çıxar. (Süleymanın məsəlləri, 10:31-32)
Doğru adam yalandan nifrət edər, pisin sözləri isə iyrəncdir, həqarətdir. (Süleymanın məsəlləri, 13:5)
Qərar verdim: "Addımlarıma diqqət yetirəcəyəm, dilimi günahdan qoruyacağam; qarşımda pis biri olduqca ağzımı yumacağam”. (Zəbur, 39:1)
Doğru öyüd ağzında idi. Dodaqlarında hiylə yox idi. Mənimlə xoşbəxtlik və düzgünlük içində getdi. Bir çoxlarını da günah yolundan çevirdi. (Malaki, 2:6)
… Ağzımı doğruları söyləmək üçün açaram. Ağzım həqiqəti eşitdirər, çünki dodaqlarım pislikdən nifrət edir. Ağzımdan çıxan hər söz doğrudur, yoxdur əyri və ya sapmış olanı. Açıq-aşkardır hamısı anlayana; biliyə çatan doğruluğunu bilər onların. (Süleymanın məsəlləri, 8:6-9)
Ağzında yalanla gəzən adam soysuz və fəsadçıdır. (Süleymanın məsəlləri, 6:12)
Etibarlı şahid yalan danışmaz, yalançı şahid isə yalan nəfəs alar. (Süleymanın məsəlləri, 14:5)
Yalandan zövq alarlar. Ağızları ilə xeyir-dua edərkən daxilən lənətləyərlər. (Zəbur, 62:4)
… Ürəyi nifrət dolu adam sözləri ilə niyyətini gizləməyə çalışar, amma içi hiylə ilə doludur. (Süleymanın məsəlləri, 26:23-24)
İçimdə həyat əlaməti olduğu müddətcə, Allahın nəfəsi burnumda olduğu müddətcə ağzımdan pis söz, dilimdən də yalan çıxmayacaq. (Əyyub, 27:3-4)
Nə üçün pisliyinlə öyünürsən ey lovğa? Allahın sadiq qullarına qarşı bütün gün dilin müsibət hazırlayır. İti ülgüc kimi, ey hiyləgər. Yaxşılıqdan çox pisliyi, doğru danışmaqdan çox yalanı sevirsən. Ey səni hiyləgər! Hər zərərli sözü sevirsən. Amma Allah səni sonsuza qədər məhv edəcək… Həyat diyarından kökünü kəsəcək. (Zəbur, 52:1-5)
Sussun o yalançı dodaqlar; doğru insana qarşı qürurla yuxarıdan baxıb, küçümsəyib danışan dodaqlar. (Zəbur, 31:18)
Ağzından pislik və yalan çıxar, ağıllanmaqdan və yaxşılıq etməkdən imtina etmişdir. (Zəbur, 36:3)
Başqasına qarşı yalançı şahidlik edən toppuz, qılınc və ya iti ox kimidir… Şimaldan əsən külək necə yağış gətirirsə, böhtançı dil də qəzəbli baxışa gətirib çıxarar. (Süleymanın məsəlləri, 25:18, 23)
Yalançı dil incitdiyi kəslərdən nifrət edər... (Süleymanın məsəlləri, 26:28)
Ya Rəbb, qurtar məni yalançı dodaqlardan, hiyləgər dillərdən! (Zəbur, 120:1)
… Dodaqlarınız yalan, diliniz ayıb danışır. Mühakiməsini ədalətlə qaldıran və dürüst müdafiə edən yoxdur. Mənasız sözlərə güvənir, yalan danışırlar. Fəsada hamilə qalıb pislik doğurlar. (Yeşaya, 59:3-4)

Dost dostu aldadır, heç kim həqiqəti söyləmir. Dillərinə yalan danışmağı öyrətdilər, günah işləyə-işləyə yoruldular… Dilləri öldürücü bir oxdur, həmişə aldadır. Qonşusuna xoşbəxtlik diləyir, amma içində ona tələ qurur. (Yeremya, 9:5, 8)
Ağzını pislik üçün istifadə edib dilini yalana yönəldirsən. (Zəbur, 50:19)
Onların ağzı yalan danışar, sağ əllərini qaldırıb yalan yerə and içərlər. (Zəbur, 144:8)
Nifrətini gizləyən adamın dodaqları yalançıdır. Böhtan atan ağılsızdır. (Süleymanın məsəlləri, 10:18)
Doğru adamın dili saf gümüş kimidir, pisin niyyəti isə dəyərsizdir. Doğru adamın sözləri bir çoxlarını bəsləyər, axmaqlar isə ağıl yoxluğundan ölər. (Süleymanın məsəlləri, 10:20-21)
Dürüst cavab gerçək dostluğun işarəsidir. (Süleymanın məsəlləri, 24:26)
… Düz yolda gedib doğru-dürüst danışan… yüksəklərdə oturacaq; uçurumun başındakı qalalar onu qoruyacaq, çörəyi veriləcək və heç susuz qalmayacaq. (Yeşaya, 33:15-16)
Etməyiniz lazım olanlar bunlardır: Bir-birinizə doğrunu söyləyin… (Zəkəriyyə, 8:16)

**Tövratda hikmətli və yığcam danışmaq**

Müdrik adamın ağzından çıxan sözlər dərin sular kimi, müdriklik bulağı da coşğun bir çay kimidir. (Süleymanın məsəlləri, 18:4)
Müdriklərə ağıllı deyilər, şirin söz inam gücünü artırar… Müdrikin ağlı dilinə yön verər, dodaqlarının inam gücünü artırar. (Süleymanın məsəlləri, 16:21, 23)
Padşah Süleyman dünyanın bütün padşahlarından daha zəngin, daha müdrik idi. Allahın Süleymana verdiyi müdrikliyi dinləmək üçün bütün dünya onu görmək istəyirdi. (1 Padşahlar, 10:23-24)
Axmaq əsəbiləşdiyini dərhal bəlli edər… Düşünmədən deyilən sözlər qılınc kimi kəsər, müdriklərin dili isə şəfa verər. (Süleymanın məsəlləri, 12:16, 18)
Ehtiyatlı adam biliyini özünə saxlayar, halbuki ağılsızın ürəyi axmaqlığını elan edər. (Süleymanın məsəlləri, 12:23)
Axmağın sözləri kürəyinə kötəkdir, amma müdrikin dodaqları özünü qoruyar. (Süleymanın məsəlləri, 14:3)
Müdrikin dili bilikdən yaxşı istifadə edər, ağılsızın ağzından isə axmaqlıq axar. (Süleymanın məsəlləri, 15:2)
Müdriklərin dodaqları bilgi yayar, amma ağılsızların qəlbi elə deyil. (Süleymanın məsəlləri, 15:7)
Uyğun cavab sahibini xoşbəxt edər, yerində deyilən söz nə gözəldir! (Süleymanın məsəlləri, 15:23)
Ağıllı adamın dodaqlarından müdriklik axar, amma ağıldan məhrum olan kürəyindən kötək yeyər. Müdrik adam bilgi yığar, axmağın ağzı isə onu müsibətə yaxınlaşdırar. (Süleymanın məsəlləri, 10:13-14)
Başqasını kiçik görən ağıldan məhrumdur, ağıllı adam isə dilini tutar. (Süleymanın məsəlləri, 11:12)
Bilikli adam az danışar, ağıllı adam sakit ruhludur. Çənəsini tutub susan axmaq belə müdrik və ağıllı sayılır. (Süleymanın məsəlləri, 17:27-28)
Dolanışığı olmayan adam öz mənfəətinin arxasınca qaçar, yaxşı öyüdə həmişə qarşı çıxar. Ağılsız adam bir şey anlamaqdan çox öz fikirlərini deməkdən xoşlanar. (Süleymanın məsəlləri, 18:1-2)
Çoxlu qızılın, ləl-cəvahiratın ola bilər, amma bilikdən danışan dodaqlar daha qiymətlidir. (Süleymanın məsəlləri, 20:15)
(ləyaqətli qadının) ağzından müdriklik axar, dili yaxşılıq nəsihət edər. (Süleymanın məsəlləri, 31:26)
Dilini tutan canını qoruyar, amma boşboğazın sonu müsibətdir. (Süleymanın məsəlləri, 13:3)
Allah Süleymana müdriklik, dərin bir duyğu, sahillərdəki qum qədər anlayış verdi. Süleymanın müdrikliyi bütün şərqlilərin və misirlilərin müdrikliyindən daha üstün idi... Üç min məsəli və min beş mərsiyəsi vardı. Livan sidr ağacından ta divarlarda bitən mərzə otuna qədər bütün ağaclardan danışdığı kimi heyvanlar, quşlar, sürünənlər və balıqlardan da danışa bilirdi. Süleymanın müdrikliyini eşidən dünyanın bütün şahları ona adamlarını göndərirdi. Bütün xalqlardan insanlar gəlib Süleymanın müdrik sözlərini dinləyirdi (1 Padşahlar, 4:29-34)

**Tövratda pis sözdən uzaq olmaq, gözəl sözlü olmaq**

Nəvazişli dil həyat verər, əyri dil isə ruhu yaralayar. (Süleymanın məsəlləri, 15:4)

Xoş sözlər bal kimidir, cana şirin və bədənə şəfadır. (Süleymanın məsəlləri, 16:24)
Yumşaq cavab qəzəbi yatırar, halbuki yaralayıcı söz qəzəbi alovlandırar. (Süleymanın məsəlləri, 15:1)
Səbirlə bir hökmdar belə razı salınar, şirin dil ən güclü müqaviməti qırar. (Süleymanın məsəlləri, 25:15)
Narahat ürək insanı məhv edər, amma gözəl söz sevindirər. (Süleymanın məsəlləri, 12:25)
… Qərarlıyam, ağzımdan pis söz çıxmaz. (Zəbur, 17:3)
Ağzı lənət, hiylə və zülmlə doludur, dilinin altında pislik və fəsad gizlənmişdir. (Zəbur, 10:7)
Onlar ürəklərində pislik hazırlayar, döyüşü davamlı qızışdırar, ilan kimi dillərini bilərlər, gürzə zəhəri var dodaqlarının altında. (Zəbur, 140:2-3)
Allahsız adam başqalarını ağzı ilə müsibətə aparar, halbuki doğrular bilgi sayəsində xilas olar… Dürüstlərin xeyir-duasıyla şəhər inkişaf edər, amma pislərin ağzı şəhəri yerlə bir edər. (Süleymanın məsəlləri, 11:9, 11)
Onlar dillərini qılınc kimi itiləmiş, acı sözlərini pusqularından günahsız insanın üzərinə atmaq üçün ox kimi hədəfə yönəltmişlər. Heç çəkinmədən qəflətən vurarlar. Dilləri ucbatından müsibətə uğrayacaqlar… (Zəbur: 3-4, 8)
Doğru adamın ağlı cavabını yaxşı düşünər, pisin ağzı pislik saçar. (Süleymanın məsəlləri, 15:28)
Pis adam fəsad dolu dodaqları dinləyər, yalançı da təxribatçı dilə qulaq asar. (Süleymanın məsəlləri, 17:4)
... Ürəklərinə toxunacaq gözəl sözlərlə onlara güvən verdi. (Yaradılış, 50:21)
Ürəyimdən gözəl sözlər daşır... Dilim dahi bir yazıçının qələmi kimi olsun. (Zəbur, 45:1)

**Tövratda yaxşılığa çağırmaq,
pislikdən çəkindirmək**

Qardaşına ürəyində nifrət bəsləməyəcəksən. Qonşun günah işləyərsə, onu xəbərdar edəcəksən. Yoxsa sən də günah işləmiş olarsan. (Levililər, 19:17)
Ağzından müdriklik axar, dili yaxşılıq nəsihət edər. (Süleymanın məsəlləri, 31:26)
Doğru adam yoldaşına da yol göstərər, pisin tutduğu yol isə özünü sapdırar. (Süleymanın məsəlləri, 12:26)
Atalarınız kimi davranmayın! Əvvəlki peyğəmbərlər "Hər şeyə hakim Rəbb pis yollarınızdan və pis işlərinizdən dönün deyir" deyərək onları xəbərdar etdilər. Lakin onlar dinləmədilər, mənə diqqət yetirmədilər... (Zəkəriyyə, 1:4)
"Qardaşlar, gəlin bu pisliyi etməyin" dedi. (Yaradılış, 19:7)
Məni dinlə, sənə öyüd verim. Allah səninlə olsun... (Misirdən çıxış, 18:19)
… "Xeyr qardaşlarım, xahiş edirəm belə bir pislik etməyin… belə bir alçaqlıq etməyin… adama bu pisliyi etməyin" (Hakimlər, 19:23-24)
Pislik hazırlayanın ürəyi hiyləgər, sülhü nəsihət edənin ürəyi isə sevinclidir. (Süleymanın məsəlləri, 12:20)
Bundan ötrü onları xəbərdar et ey adəm oğlu, onları xəbərdar et. (Yezekel, 11:4)
Qalx… o böyük şəhərə get və xalqı xəbərdar et… (Yunis, 1:1-2)
… Məni buraxıb başqa ilahlara qulluq etdilər… Onları açıq şəkildə xəbərdar et… (1 Şamuel, 8:8-9)
(Davud:) Pislikdən çəkinin, yaxşılıq edin; xoşbəxtliyi məqsəd bilin, ardınca gedin. (Zəbur, 34:14)
(Əyyub:) Ağzımdan çıxan sözlərlə ürəkləndirib dodaqlarımdan çıxan təsəlli verən sözlərlə sakitləşdirərdim sizi. (Əyyub, 16:5)

**Tövratda mənasız söz söyləməkdən çəkinmək**

Hər əmək qazanc gətirər, amma mənasız söz yoxsulluğa aparar. (Süleymanın məsəlləri, 14:23)
… Kefinizə baxmayıb, mənasız mövzularla məşğul olmayıb o günü ucaltsanız, Rəbbdən zövq alarsınız... (Yeşaya, 58:13-14)
Müdrik adam mənasız sözlərlə cavab verərmi, qarnını şərq küləyi ilə doldurarmı? Mənasız sözlərlə mübahisə edib faydasız söhbət edərmi? (Əyyub, 15:2-3)
Buna görə hakim Rəbb belə deyir: "Söylədiyiniz mənasız sözlərə, gördüyünüz yalan fikirlərə görə sizə qarşıyam" Belə deyir hakim Rəbb. (Yezekel, 13:8)
… Elə isə niyə boş-boş danışırsınız? (Əyyub, 27:12)

… Mənasız danışıb fəsad yığır içində, sonra çölə çıxıb fəsadı yayır. (Zəbur, 41:6)
… Sizə uydurma fikirlərdən, falçılıqdan, mənasız şeylərdən, ağıllarından keçən xəyallardan danışırlar. (Yeremya, 14:14)
Mənasız sözlərlə mənə necə təsəlli veririsiniz? Cavablarınızdakı tək nəticə yalandır. (Əyyub, 21:34)

**Tövratda qeybətdən uzaq olmaq**

Kəmhövsələ adam nifaqı qızışdırar, qeybətçi can dostlarını ayırar. (Süleymanın məsəlləri, 16:28)
Odun bitəndə atəş sönər, qeybətçi yox olunca döyüş dayanar. Köz üçün kömür və atəş üçün odun nədirsə, ixtilafı alovlandırmaq üçün də davakar elədir… (Süleymanın məsəlləri, 26:20-22)
Qeybətçi sirr saxlaya bilməz, bu səbəblə ağzı zəif olanla yoldaşlıq etmə. (Süleymanın məsəlləri, 20:19
Qeybətçi sirr saxlaya bilməz, halbuki etibarlı insan sirdaş olar. (Süleymanın məsəlləri, 11:13)
Xalqının arasında insanları çəkişdirib gəzməyəcəksən. Qonşunun canına zərər verməyəcəksən. Rəbb Mənəm. (Levililər, 19:16)
Hamısı çox dikbaşdır, insanları çəkişdirib gəzən insanlardır. Tunc və dəmir qədər qatıdırlar. Hamısı başdan çıxmışdır… Rəbb onları rədd etdi. (Yeremya, 6:28, 30)

**Tövratda tövsiyə edilən digər danışıq formaları**

Sabahla öyünmə, çünki nə gətirəcəyini bilə bilməzsən. Səni öz ağzın deyil, başqaları tərifləsin; öz dodaqların deyil, başqası tərifləsin. (Süleymanın məsəlləri, 27:1-2)
Artıq böyük danışmayın, ağzınızdan qürurlu sözlər çıxmasın. Çünki Rəbb hər şeyi bilən Allahdır; Odur davranışları ölçən. (1 Şamuel, 2:3)
Dinləmədən cavab vermək axmaqlıq və rüsvayçılıqdır. (Süleymanın məsəlləri, 18:13)
Sevgi istəyən adam günahları bağışlayar, qeybətçi isə can dostlarını ayırar. (Süleymanın məsəlləri, 17:9)
… Yaltaqlanan ağızdan müsibət gələr. (Süleymanın məsəlləri, 26:28)
Ağılsızın dodaqları ixtilafı, ağzı da kötəyi gətirər. Ağılsızın ağzı özünü məhv edər, dodaqları da canına tələdir. (Süleymanın məsəlləri, 18:6-7)
İnsan ağzının məhsulu ilə yaxşılığa çatar, əlinin əməyinə görə də qarşılığını alar. (Süleymanın məsəlləri, 12:14)
Yaxşı insan ağzından çıxan sözlərə görə mükafatlandırılar, amma xainlərin nəfsi zülmdür. (Süleymanın məsəlləri, 13:2)
… Allahın hüzurunda düşünməyi əngəlləyirsən. Çünki günahın ağzını səsləndirir, hiyləgərlərin dili ilə danışırsan. Öz ağzın səni günahlandırır, mən deyil, dodaqların sənə qarşı şahidlik edir. (Əyyub, 15:4-6)
Pis adamın günahkar sözləri özü üçün tələdir, amma düz adam çətinliyi sovuşdurar. (Süleymanın məsəlləri, 12:13)
Susdursun Rəbb yaltaqların ağzını, qürurlanan dilləri. Onlar "Dilimizlə qazanarıq, dodaqlarımız əmrimizdədir, kim bizə ağalıq edə bilər?" deyirlər. (Zəbur, 12:3)

## TÖVRATDA QURANA UYĞUN ƏMR VƏ QADAĞALAR

**Yalan danışmamaq**

... Bir-birinizə yalan danışmayacaqsınız. Mənim adımla yalan yerə and içməyəcəksiniz... (Levililər, 19:11-12)
Qonşuna qarşı yalan yerə şahidlik etməyəcəksən. (Misirdən çıxış, 20:16; Qanunun təkrarı, 5:20)
Yalandan uzaq durub günahsız və düz adamı öldürməyəcəksiniz. Çünki Mən pis adamı bağışlamam. (Misirdən çıxış, 23:7)
Yalan xəbər daşımayacaqsan, haqsız şahid olmaq üçün pisə əl verməyəcəksən. Pislik üçün çoxluğun arxasında olmayacaqsan və bir mühakimədə ədaləti pozmaq üçün çoxluğun tərəfini tutub söyləməyəcəksən... (Misirdən çıxış, 23:1-2)

İtmiş bir əşya tapıb yalan danışsa, yalan yerə and içsə, yəni insanların işləyə biləcəyi bu günahlardan birini işləsə, günah işləmiş olar və günahkar sayılar... (Levililər 6:3-4)
... Geridə qalanlar haqsızlıq etməyəcək, yalan danışmayacaq, kimsəni aldatmayacaq, tox qarınla yatacaqlar və onları qorxudan olmayacaq. (Sefenya, 3:13)

**Oğurluq etməmək**

Oğurlamayacaqsan. (Misirdən çıxış, 20:15; Qanunun təkrarı, 5:19)
Oğurlamayacaqsınız. Hiylə etməyəcəksiniz. Bir-birinizə yalan danışmayacaqsınız. (Levililər, 19:11)
... Evlərə oğru girir, çöldə quldur dəstələri soyğunçuluq edir. Lakin düşünmürlər pisliklərini unutmadığımı. Günahları onları sarımışdır, gözümün önündədirlər. (Huşə, 7:1-2)
Oğurlamaq, adam öldürmək, zina etmək, yalan yerə and içmək, saxta tanrıya büxur yandırmaq, tanımadığınız başqa ilahların ardınca getmək, bütün bu iyrənc işləri etmək üçünmü Mənə aid olan məbədə gəlib önümdə dayanırsınız və təhlükəsizlikdə olduğunuzumu deyirsiniz? (Yeremya, 7:9-10)
Oğruya ortaq olanın düşməni özüdür... (Süleymanın məsəlləri, 29:24)

**Donuz əti yeməmək**

Donuz cüt və yarıq dırnaqlıdır, amma gövşəməz. Sizin üçün natəmiz sayılır. Bu heyvanların ətini yeməyəcək, leşinə toxunmayacaqsınız, sizin üçün natəmizdir. (Levililər, 11:7-8)
... Donuz əti yeyərlər; qablarında haram ət var. (Yeşaya, 65:4)
"... Donuz, siçan və digər iyrənc heyvanların ətini yeyənlərin ortasında duranı izləyənlər birlikdə yox olacaqlar" deyir Rəbb. (Yeşaya, 66:17)

**Faizlə pul işlətməmək**

Qardaşınıza pul, yemək və ya faiz gətirən başqa bir şey borc verdiyinizdə ondan faiz almayacaqsınız. (Qanunun təkrarı, 23:19)
... Aranızda yaşayan bir yoxsula borc pul versəniz, ona sələmçi kimi davranmayacaqsınız. Üzərinə faiz əlavə etməyəcəksiniz. (Misirdən çıxış, 22:25)
Ondan faiz və qazanc götürmə. Allahından qorx ki, qardaşın yanında həyatını davam etdirə bilsin. Ona faizlə pul verməyəcəksən. Borc verdiyin yeməkdən qazanc götürməyəcəksən. (Levililər, 25:36-37)
Pulunu faizə verməz... Belə yaşayan əsla sarsılmayacaq. (Zəbur, 15:5)
Qardaşlarım, adamlarım və mən borc olaraq xalqa pul və buğda veririk. Gəlin faiz götürməkdən imtina edək! (Nehemya, 5:10)
Deyək ki, ədalətli və doğru olanı edən doğru bir adam var... Faizlə pul verməz. (Yezekel, 18:5, 8)

**Fal, cadu kimi işlərlə məşğul olmamaq**

… Kəhanətlə məşğul olmayacaqsınız, falçılıq etməyəcəksiniz. (Levililər, 19:26)
… Fala baxmaq üçün istifadə etdiyi kasa deyilmi bu? Bunu etməklə pislik etdiniz. (Yaradılış, 44:5)
Aranızda… falçı, cadugər, tilsimçi, kahin, ruh çağıran və ya ölülərin ruhlarından soruşan kimsə olmasın. Çünki Rəbb bunları edənlərə nifrət edir. Allahınız Rəbb bu pis adətləri üzündən bu xalqları önünüzdən qovacaq. (Qanunun təkrarı, 18:10-12)
Ölkələrini alacağınız xalqlar cadugərlərin, falçıların öyüdünə qulaq asırlar. Amma Allahınız Rəbb buna izin vermir. (Qanunun təkrarı, 18:14)
... Falçılıq, cadugərlik etdilər. Rəbbin gözündə pis olanı etdilər... (2 Padşahlar, 17:17)
Mən söyləmədiyim halda Rəbbin sözü olduğunu deyirsiniz. Halbuki baxıcılığınız uydurma, etdiyiniz falçılıq yalan deyilmi? Buna görə hakim Rəbb belə deyir: Söylədiyiniz mənasız sözlər, gördüyünüz yalan fikirlərdən ötrü sizə qarşıyam. Belə deyir

hakim Rəbb. Əlim uydurma baxıcılıq və yalan falçılıq edən peyğəmbərlərə qarşı olacaq... Bir daha uydurma baxıcılıq və falçılıq etməyəcəksiniz... (Yezekel, 13:7-9, 23)
Sizə gəlincə... falçılarınızı, yuxu yozanlarınızı, kahinlərinizi, cadugərlərinizi dinləməyin!... (Yeremya, 27:9)
Sizinlə bağlı baxıcılıq hiylədir, açılan fal yalandır... Onların günü yaxınlaşdı, sonunda mühakimə günləri gəldi. (Yezekel, 21:29)
Cadu etmək gücünüzü qıracağam, aranızda falçı qalmayacaq. Bütlərinizi, ucaldılmış daşlarınızı götürüb atacağam. Əllərinizlə düzəltdiyiniz bütlərə artıq tapınmayacaqsınız... Söz dinləməyən xalqları hirs və qəzəblə cəzalandıracağam. (Mikeya, 5:12-15)
... Sizə uydurma fikirlərdən, falçılıqdan, boş şeylərdən, ağıllarından keçən xəyallardan danışırlar... Etdikləri pisliyi öz başlarına gətirəcəyəm. (Yeremya, 14:14-16)

**Rüşvət almamaq**

Mühakimə edərkən haqsızlıq etməyəcək, kimsəni aldatmayacaqsınız. Rüşvət almayacaqsınız. Çünki rüşvət müdrik adamın gözlərini kor edər, haqlını haqsız çıxarar. (Qanunun təkrarı, 16:19; Misirdən çıxış, 23:8)
Günahsız birini öldürmək üçün rüşvət alana lənət olsun! (Qanunun təkrarı, 27:25)
Amma düz yolda gedib doğru-dürüst danışan, zülmlə əldə edilən qazancı rədd edən, əlini rüşvətdən uzaq tutan... yüksəklərdə oturacaq… Çörəyi veriləcək, heç susuz qalmayacaq. (Yeşaya, 33:15-16)
Çünki üsyanlarınızın çox, günahlarınızın saysız olduğunu bilirəm ey doğru adamı sıxışdıran, rüşvət alan, məhkəmədə məzlumun haqqını yeyənlər! (Amos, 5:12)
... Günahsıza qarşı rüşvət almaz. Belə yaşayan əsla sarsılmayacaq. (Zəbur, 15:5)
... Rüşvət uğruna pisi haqlı çıxaranların, haqlıların haqqını əlindən alanların vay halına! (Yeşaya, 5:22-23)
Ona görə Rəbbdən qorxun, diqqətlə mühakimə edin. Çünki Allahımız Rəbb kimsənin haqsızlıq etməsinə, birisini aldatmasına, rüşvət almasına göz yummaz. (2 Salnamələr, 19:7)
Diqqət yetir, pul səni başdan çıxarmasın, böyük rüşvət səni sapdırmasın. (Əyyub, 36:18)

**Hiylə etməmək**

… Hiylə etməyəcəksiniz… (Levililər, 19:11)
Günahı Rəbb tərəfindən sayılmayan, ruhunda hiylə olmayan insana nə xoş! (Zəbur, 32:2)
Yaxşı adam Rəbbin lütfünə çatar, amma hiyləgəri Rəbb məhkum edər. (Süleymanın məsəlləri, 12:2)

**Cinayət işləməmək**

Adam öldürməyəcəksən. (Misirdən çıxış, 20:13; Qanunun təkrarı, 5:17)
Yalandan uzaq duracaq, günahsız və doğru adamı öldürməyəcəksiniz. Çünki Mən pis adamı bağışlamam. (Misirdən çıxış, 23:7)
Oğurlamaq, adam öldürmək, zina etmək, yalan yerə and içmək, saxta tanrıya büxur yandırmaq, tanımadığınız başqa ilahların ardınca getmək, bütün bu iyrənc işləri etmək üçünmü Mənə aid olan məbədə gəlib önümdə dayanırsınız və təhlükəsizlikdə olduğunuzumu deyirsiniz? (Yeremya, 7:9-10)
Oğlum, səni yoldan çıxarmağa çalışan günahkarlara təslim olma. Belə deyə bilərlər: "Bizimlə gəl, adam öldürmək üçün pusquda duraq, zövq üçün günahsızları tələyə salaq". (Süleymanın məsəlləri, 1:10-11)

**Zina etməmək**

Zina etməyəcəksən. (Misirdən çıxış, 20:14; Qanunun təkrarı 5:18)
Etdikləri işlər Allahlarına dönməyə imkan vermir, çünki zina ruhu var içlərində, Rəbbi tanımırlar. (Huşə, 5:4)

... Zina ruhu onları sapdırdı, öz Allahlarından ayrılıb zina etdilər. (Huşə, 4:12)
... O biri xalqlar kimi sevinmə, coşma! Çünki öz Allahına vəfasızlıq edərək zina etdin, xırman yerlərinin hamısında zina qazancına könül verdin. (Huşə, 9:1)
... Ölkə zina edənlərlə doludur... İzlədikləri yol pisdir... (Yeremya, 23:10)
Zina edən adam ağıldan məhrumdur. Etdikləri ilə özünü yox edər. Payına düşən dayaq və namussuzluqdur, əsla xilas ola bilməz rüsvayçılıqdan. (Süleymanın məsəlləri, 6:32-33)
Zina edənin gözü alaqaranlıqdadır, "Məni kimsə görməz" deyə düşünər... Qaranlığın dəhşəti ilə dostdurlar. (Əyyub 24:15-17)

**Livatanın qadağan edilməsi**

Bir kişi başqa bir kişi ilə cinsi əlaqəyə girsə, ikisi də iyrənclik etmiş olar... (Levililər, 20:13)
Qadınla yatırmış kimi bir kişi ilə yatma. Bu iyrənc işdir. (Levililər, 18:22)

**Qanın qadağan olması**

… Qan yeməyəcəksiniz. Yaşadığınız hər yerdə nəsillər boyu bu qanun həmişə etibarlı olacaq. (Levililər, 3:17)
Harada yaşayırsınız yaşayın, heç bir quşun, yaxud heyvanın qanını yeməyəcəksiniz. (Levililər, 7:26)
Amma qan yeməməyə diqqət yetirin… Qan yeməməlisiniz… Qan yeməyəcəksiniz. Belə ki, sizə və sizdən sonra gələn uşaqlarınıza yaxşılıq gəlsin. Beləcə, Rəbbin gözündə doğru olanı etmiş olarsınız. (Qanunun təkrarı, 12:23-25)
Ancaq qan yeməyəcəksiniz… (Qanunun təkrarı, 15:23)

**Ölü heyvan ətinin qadağan olması**

Ölü tapılmış və ya vəhşi heyvanlar tərəfindən parçalanmış bir leşi yeyib özünü kirlətməyəcək. Rəbb Mənəm. Kahinlər buyruqlarıma uymadılar... (Levililər, 22:8-9)
Kahinlər ölü tapılmış, yaxud vəhşi heyvan tərəfindən parçalanmış heç bir quşu və heyvanı yeməyəcək. (Levililər, 44:31)
Özlüyündən ölən heç bir heyvanın ətini yeməyəcəksiniz… (Qanunun təkrarı, 14:21)
Yerli olsun, qərib olsun ölü tapdığı və vəhşi heyvanların parçaladığı bir heyvanın leşini yeyən hər kəs… natəmiz sayılacaq… (Levililər, 17:5)

**TÖVRATDA QURANA**

**UYĞUN İBADƏTLƏR**

**Tövratda qiyam (ayaq üstə durmaq)**

... **Ayağa qalxıb...** Rəbbi yüksək səslə təriflədilər. (2 Salnamələr, 20:19)

... Ayağa qalxıb yüksək səslə Allahları Rəbbə yalvardılar... "Ayağa qalxın!" dedilər, "Başlanğıcdan sonsuza qədər var olan Allahınız Rəbbə təriflər olsun..." (Nehemya, 9:4-5)

... Ayağa qalxdı və üzü üstə yerə qapanıb üç dəfə əyildi. (1 Şamuel, 2:41)

**Tövratda ruku (əyilib əlləri dizə qoymaq)**

… Başqa ilahlara tapınmayıb, önlərində əyilməyib, onlara qulluq etməyib qurban kəsməyəcəksiniz. Yalnız ulu gücü ilə, hər yerə çatan əli ilə sizləri Misirdən çıxaran Rəbbə tapınacaqsınız. Onun qarşısında əyilib Ona qurban kəsəcəksiniz. (2 Padşahlar, 17:35-36)

**Adam əyilib Rəbbə tapındı.** (Yaradılış, 24:26)

... Sevinclə təriflədilər, başlarını əyib tapındılar. (2 Salnamələr 29:30)

**Əyilib Rəbbə tapındım…** Rəbbi tərif lədim. (Yaradılış, 24:48)

Gəlin, tapınaq, əyilək, bizi yaradan Rəbbin qarşısında diz çökək. (Zəbur, 95:6)

… **Əyilib tapındılar.** Sonra gedib Rəbbin Musa ilə Haruna verdiyi buyruğu nöqsansız yerinə yetirdilər. (Misirdən çıxış, 12:27-28)

Xalq inandı; Rəbbin özləri ilə maraqlandığını, çəkdikləri çətinliyi görmüş olduğunu eşidincə əyilib tapındılar. (Misirdən çıxış, 4:31)

**Tövratda səcdə (əyilib alını yerə qoymaq)**

... **Üzü üstə yerə qapanıb üç dəfə əyildi...** (1 Şamuel 20:41)

Ezra uca Allahı, Rəbbi tərifl ədi. Bütün xalq əllərini qaldırıb "Amin! Amin!" deyə cavab verdi. **Birlikdə əyilib, səcdəyə gedərək** Rəbbə tapındılar. (Nehemya, 8:6)

Avram (İbrahim) **üzü üstə səcdəyə getdi...** (Yaradılış ,17:3)

İbrahimin xidmətçisi bu sözləri eşidincə səcdəyə gedib Rəbbə tapındı. (Yaradılış, 24:52)

**Musa dərhal səcdə edib tapındı.** (Misirdən çıxış, 34:8)

Bunu eşidən Musa **üzü üstə səcdə etdi.** (Səhrada saylar, 16:4)

Musa ilə Harun üzü üstə səcdə edib "Ey Allah, bütün insan ruhlarının Allahı!" dedilər... (Səhrada saylar, 16:22)

Musa ilə Harun... **üzü üstə səcdə etdilər.** Rəbbin əzəməti onlara göründü. (Səhrada saylar, 20:6)

Allahın sözlərini eşidən, hər şeyə gücü çatanın təcəllilərini görən, səcdə edən, Allahın gözlərini açdığı adam bildirir. (Səhrada saylar, 24:4)

... O zaman Yeşua **üzü üstə səcdə edib** Ona tapındı... (Yeşua, 5:14)

Xalq olanları görüncə üzü üstə səcdə etdilər. "Rəbb Allahdır, Rəbb Allahdır!" dedilər. (1 Padşahlar, 18:39)

... **Məbəddə onunla birlikdə səcdə etdiyimdə** Rəbb bu qulunu bağışlasın. (2 Padşahlar, 5:18)

Allahın... qarşısında **başlarını əyib səcdə etdilər.** (1 Salnamələr, 29:20)

... Sarayda üzü üstə səcdə etdilər; **Rəbbə tapınıb** Onu tərif lədilər. (2 Salnamələr, 7:3)

... Padşahla yanındakılar **səcdə edib tapındılar...** Rəbbi tərifləmələrini söylədilər. Onlar da sevinclə tərif lədilər, başlarını əyib tapındılar. (2 Salnamələr 29:29-30)

... **Səcdə edib tapındı.** Dedi ki, "Bu dünyaya çılpaq gəldim, çılpaq gedəcəyəm. Rəbb verdi, Rəbb aldı, Rəbbin adına tariflər olsun!" (Əyyub, 1:20-21)

Bütün padşahlar qarşısında **səcdə etsin,** bütün xalqlar Ona qulluq etsin! (Zəbur, 72:11)

Rəbb insana boyunduruq asınca insan təkcə oturub susmalı; ümidini kəsmədən səcdə etməlidir. (Mərsiyələr, 3:28-29)

**Tövratda səcdədən sonra oturuş**

Gəlin, tapınaq, əyilək, bizi yaradan Rəbbin qarşısında diz çökək. (Zəbur, 95:6)

… **Hər gün üç dəfə diz çöküb dua etdi,** Allahını tərif lədi. (Daniel, 6:10)

Axşam tərifi saatı gəlincə… **əllərimi dizlərimin üzərinə qoyub Allahım Rəbbə açdım.** (Ezra, 9:5)

Süleyman Rəbbə duasını və yalvarışını bitirincə əllərini göylərə açıb dizləri üzərinə qoyub oturduğu Rəbbin qurbangahının önündən qalxdı. (1 Padşahlar, 8:54)

… **Diz çöküb** əllərini göylərə açdı. (2 Salnamələr, 6:13)

**Tövratda oruc**

**Oruc tutduq** və bu mövzuda Allahımıza yalvardıq. O da yalvarışımızı cavabladı. (Ezra, 8:23)

... **Oruc tutub** göylərin Allahına dua etdim. (Nehemya, 1:4)

... O gün axşama qədər **oruc tutdular...** (1. Hakimlər, 20:26)

... O gün **oruc tutdular ...** (1 Şamuel, 7:6)

... Çula sarınıb **oruc tutmağa başladı.** Çul içində yatıb və durub təvazökar bir yol tutdu. (1 Padşahlar 21:27)

Eyni ayın iyirmi dördüncü günü... hamısı **oruc tutmuş**, çula bürünmüş, başına torpaq səpmişdi. (Nehemya, 9:1)

Sən **oruc günü** Rəbbin məbədinə get. Oradakı xalqa sənə yazdırdığım Rəbbin sözlərini bükülü kağızdan oxu... Rəbbin qarşısında **oruc elan edildi.** (Yeremya, 36:6, 9)

Bunun üzərinə üzümü Rəbb Allaha çevirdim. Dua ilə, iltimasla, **orucla Ona yalvardım;** çul geyinib küldə oturdum. (Daniel, 9:3)

**Oruc üçün** gün təyin edin, xüsusi bir yığıncaq qurun; yaşlıları və ölkədə yaşayanların hamısını Allahınız Rəbbin məbədinə yığıb Rəbbə yalvarın. (Yoel, 1:14)

**Hər şeyə hakim Rəbb deyir ki, "Dördüncü, beşinci, yeddinci və onuncu ayların orucları...** sevinc, coşğu dolu, gözəl bayramlar olacaq. Bu səbəblə həqiqəti və xoşbəxtliyi sevin". (Zəkəriyyə, 8:19)

**Tövratda zəkat-sədəqə ibadəti**

Yığımda bağınızı tamamilə toplamayıb, yerə düşən üzümləri yığmayacaqsınız. Onları **yoxsullara və qəriblərə buraxacaqsınız...** (Levililər, 19:10)

Ölkənizdəki əkinləri biçərkən tarlalarınızı sərhədlərinə qədər biçməyin. Artıq qalan sünbülləri toplamayın. Onları **yoxsullara və qəriblərə buraxacaqsınız...** (Levililər, 23:22)

Bir qardaşın yoxsullaşıb möhtac olsa, ona kömək etməlisən. Aranızda qalan bir qərib və ya qonaq kimi yaşayacaq. (Levililər, 25:35)

Allahınız Rəbbin sizə verəcəyi ölkənin hər hansı bir şəhərində yaşayan qardaşlarınızdan biri yoxsul olarsa, qəlbinizi qatılaşdırmayın, **yoxsul qardaşınıza xəsis davranmayın.** Əksinə, əliniz açıq olsun; **ehtiyaclarını qarşılayacaq qədər ona borc verin.** "Yeddinci il, borcları bağışlama ili yaxındır" deyərək qəlbinizdə pis niyyət saxlamaqdan çəkinin. Belə ki, yoxsul qardaşınıza qarşı xəsis davranıb ona kömək etməkdən qaçmayasınız. Yoxsul qardaşınız sizdən Rəbbə şikayətlənə bilər, siz də günah işləmiş olarsınız. **Ona bolluca verin, verərkən qəlbinzdə istəksizlik olmasın.** Buna görə Allahınız Rəbb bütün işlərinizdə və əl atdığınız hər şeydə sizi müqəddəs hesab edəcək. Ölkədə həmişə yoxsullar olacaq. Bunun üçün, ölkənizdə yaşayan **qardaşlarınıza, yoxsullara, ehtiyacı olanlara əliaçıq davranmağınızı buyururam.** (Qanunun təkrarı, 15:7-11)

Sizlər, levililər və aranızda yaşayan qəriblər Allahınız Rəbbin sizə və ailənizə verdiyi bütün yaxşı şeylərə görə sevinəcəksiniz. Üçüncü il, **onluğu vermə ili bütün məhsulunuzun onluğunu bir tərəfə ayırın.** Ayırıb bitirəndə onluğu levililərə, qəriblərə, yetimlərə və dul qadınlara verəcəksiniz. Belə ki, onlar da şəhərlərinizdə yeyib doysunlar. Sonra Allahınız Rəbbə "Mənə buyurduğun kimi… verdim" deyəcəksiniz, "Buyruqlarından ayrılmadım, heç birini unutmadım". (Qanunun təkrarı, 11-13)

**Tövratda dəstəmaz**

Yuyunmaq üçün tunc bir qab düzəlt. Ayaqlığı da tuncdan olacaq. Hüzur çadırı ilə qurbangahın arasına qoyub içinə su doldur. Harunla oğulları **əllərini, ayaqlarını orada yuyacaqlar. Hüzur çadırına girmədən və ya Rəbb üçün yandırılanı təqdim edərək xidmət etmək üçün qurbangaha yaxınlaşmadan əvvəl... əllərini, ayaqlarını yumalıdırlar.** Harunla soyunun bütün nəsilləri boyunca davamlı bir qayda olacaq bu. (Misirdən çıxış, 30:18-21)

Harunla oğullarını hüzur çadırının giriş hissəsinə **gətirib yu**... Qabı hüzur çadırı ilə qurbangahın arasına qoydu, yuyunmaq üçün içinə su doldurdu. **Musa, Harun və Harunun oğulları əllərini, ayaqlarını orada yudular. Hüzur çadırına girib qurbangaha yaxınlaşdıqları vaxt Rəbbin Musaya buyurduğu kimi orada yuyundular.** (Misirdən çıxış, 40:12, 30-32)

Harunla oğullarını hüzur çadırının giriş hissəsinə gətirib yu. (Misirdən çıxış, 29:4)

## TÖVRATDA PEYĞƏMBƏRİMİZİN (S.Ə.V.) SÜNNƏSİNƏ UYĞUN İŞLƏR

Allah Quranda bütün iman edənlər üçün Peyğəmbərimizdə (s.ə.v.) "çox gözəl nümunələr" olduğunu bildirmişdir. Bu səbəblə, Peyğəmbər əfəndimizin (s.ə.v.) gündəlik həyatı bütün müsəlmanlar üçün çox əhəmiyyətli və qiymətlidir. Saleh möminlər gündəlik həyatlarının Peyğəmbərimizin (s.ə.v.) həyatına bənzəməsi üçün diqqət yetirərlər. Hz. Muhəmmədin (s.ə.v.) bir gününü necə keçirdiyi, hansı yeməkləri sevdiyi, bunları necə yediyi, hansı paltarlarının olduğu, saçlarını necə şəkilləndirdiyi, təmizlik mövzusundakı həssaslığı, söhbətləri, müsəlmanlara və digər insanlara qarşı necə davrandığı möminlər üçün çox qiymətli məlumatlardır.

Peyğəmbərimiz (s.ə.v.) və səhabələrinin (yaxın ətrafının) etdiyi əməl və işləri sünnə olaraq adlandırılır və bütün müsəlmanlar bu sünnəyə uyğun yaşamaqla mükəlləfdir. Hz. Adəmdən etibarən göndərilən bütün elçilərin üstün əxlaqları və digər insanlara nümunə olacaq həyatları vardır. Peyğəmbər əfəndimizin (s.ə.v.) bildirdiyinə görə, bütün elçilər Rəbbimizin gözəl əxlaq, heybət, hikmət, təsirli xitab, alicənablıq və nur lütf etdiyi müqəddəs insanlardır. Bu mübarək şəxslərin həyatları, cəmiyyətlərə işıq saçan adətləri və ədəbləri də onların sünnəsidir. Peyğəmbərimiz (s.ə.v.) hədisi-şəriflərində bütün peyğəmbərlərin və göndərilən elçilərin sünnələrinin bir-birinə bənzər olduğunu xəbər vermişdir. Peyğəmbərimizin (s.ə.v.) sünnəsi də peyğəmbərlər silsiləsinin sünnəsidir və *"Sünnələrin ən gözəli Muhəmmədin (s.ə.v.) sünnəsidir"* hədisində buyurulduğu kimi, bunların ən gözəlidir.

Quranda da bütün peyğəmbərlərin eyni soydan gəldikləri, eyni inancda və əxlaqda olduqları xəbər verilir:

**Bu bizim İbrahimə öz tayfasına qarşı verdiyimiz dəlildir. Biz istədiyimiz şəxsi dərəcə-dərəcə yüksəldərik. Şübhəsiz ki, Rəbbin hikmət sahibi, elm sahibidir.**
**Biz İshaqı və Yə'qubu Ona əta etdik. Onların hər birini hidayətə çatdırdıq. Bundan əvvəl Nuhu və onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da hidayətə qovuşdurmuşduq. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq.**
**Zəkəriyyanı, Yəhyanı, İsanı, İlyası da (hidayətə çatdırdıq). Onların hamısı əməlisalehlərdən idi.**
**Biz, həmçinin İsmaili, Əlyəsə'i, Yunisi və Lutu da (hidayətə qovuşdurduq) və onları aləmlərdən üstün tutduq.**
**Biz onların atalarından, nəsillərindən və qardaşlarından da (bir qismini hidayətə çatdırdıq), onları seçdik və düz yola yönəltdik.**
**Bu, Allahın haqq yoludur. Bəndələrindən istədiyini ona yönəldir. Əgər onlar şərik qoşsaydılar, etdikləri əməllər puça çıxardı.**
**Onlar Bizim kitab, hökm və peyğəmbərlik verdiyimiz kimsələrdir. Əgər bunlar bu dəlilləri dansalar, Biz onlara həmin dəlilləri inkar etməyən bir tayfanı müvəkkil edərik.** (Ənam surəsi, 83-89)
**Bunlar Adəmi və Nuhla gəmiyə mindirdiyimiz adamların nəslindən, İbrahimin, İsrailin (Yə'qubun) nəslindən seçib haqq yola yönəltdiyimiz və Allahın ne'mət bəxş etdiyi peyğəmbərlərdəndir. Onlar Rəhmanın ayələri özlərinə oxunduğu zaman ağlayaraq səcdəyə qapanırdılar.** (Məryəm surəsi, 58)

Hz. Musaya vəhy edilmiş Tövrat detallı olaraq araşdırıldığında içində Peyğəmbərimizdən (s.ə.v.) əvvəl yaşamış elçilərin və nəbilərin həyatları, əxlaqları və sünnələri ilə əlaqədar əhəmiyyətli məlumatların olduğu görülər. Günümüzdəki Tövrat zamanla təhrif olmuş və müxtəlif pozulmalara uğramışdır. Tövratdakı məlumatların hansının doğru, hansının səhv olduğunu anlamaq üçün onları Quran və sünnə işığında qiymətləndirmək lazımdır. Peyğəmbərimizin (s.ə.v.) sünnəsinə bənzəyən və Quran ayələrinə uyğun Tövrat şərhləri doğru olduğuna hüsnü-zənn edilən şərhlərdir. Bu nöqteyi-nəzərlə araşdırıldığında Tövratda izah edilən peyğəmbərin sünnələri ilə Peyğəmbərimizin (s.ə.v.) mübarək sünnəsi arasındakı bənzərliklər də ortaya çıxacaq.

Kitabın bu hissəsində aləmlərə nur olaraq göndərilən son peyğəmbər Hz. Muhəmmədin (s.ə.v.) sünnəsinə bənzəyən və bu sünnəyə uyğun Tövrat şərhləri yer almışdır.

Tövratda təsvir edilən geyim formaları

**Araqçın (başlıq, təkkə) qoymaq:**

Araqçın geyərdi. Bəzən onu sarığın altından, bəzən də tək geyərdi. Bəzən də onu çıxardıb başına və alnına şal bağlayardı. (Tirmizi, şəmaildə, s. 9; Buxari, cild 4, s. 248)

Mübarəyin paltarının çoxu ağ idi. Araqçınının üzərinə sarıq buraxardı. Köynəyini sağ tərəfdən geyinərdi. Cümə günü geydiyi xüsusi bir paltarı vardı. (Əl-mənakib, cild 1, s. 145; Əd-daaim, cild 2, s. 207)

Rəsulullah (s.ə.v.) zolaqlı araqçın taxardı. (Əl-məkarim, cild 1, s. 137; Əd-daaim, cild 2, s. 159)

Harunun oğullarına mintanlar, kəmərlər, görkəm və hörmət qazandıran başlıqlar düzəlt. (Misirdən çıxış, 28:40)

Bellərinə kəmər bağla, başlarına başlıq qoy. Qalıcı bir qayda olaraq kahinlik onların işi olacaq. Beləcə, Harunla oğullarını təyin etmiş olacaqsan. (Misirdən çıxış, 29:9 )

Harunun oğullarını önə çıxardı, onlara mintan geydirdi, bellərinə kəmər bağladı, başlarına başlıq qoydu. Musa hər şeyi Rəbbin buyurduğu kimi etdi. (Levililər, 8:13)

**Köynək geymək:**

Qəzali İhyaul-ulum kitabında belə deyir: Rəsulullah (s.ə.v.) özü üçün hazırlanan hər cür paltarı geyərdi. Köynək, cübbə, şal, və s. (Qəzali, İhyaul-ulum)

Onu köynəyinin üzərinə bağlayırdı, bəzən namaz və namaz xaricində açırdı. (Qəzali, İhyaul-ulum)

Köynəyini sağ tərəfdən geyinərdi. (Əl-mənakib, cild 1, s. 145; Əd-daaim, cild 2, s. 207)

İncə kətandan işlənmiş **bir mintan* toxu**, incə kətandan bir sarıq, bir də naxışlı kəmər düzəlt. (Misirdən çıxış, 28:39)

**Mintan: Yaxasız, uzun qollu kişi köynəyi.*

Harunun oğullarını önə çıxarıb onlara **mintan geydir.** (Misirdən çıxış, 29:8)

Oğullarını gətirib **mintanları geydir.** (Misirdən çıxış, 40:14)

**Haruna mintanı geydirdi, belinə kəməri bağladı, üzərinə cübbəni, onun üzərinə də efodu* geydirdi... (Levililər, 8:7)**

***Efod: Antarinin üzərinə geyilən bir növ paltar.***

**Kətan paltarlardan istifadə edilməsi:**

İbni şəhri-Aşib Mənakib kitabında belə rəvayət etmişdir: "(Hz. Muhəmməd) Eyni şəkildə pambıq və kətandan toxunmuş paltarlar geyərdi. Mübarəyin paltarının çoxu ağ idi..." (Əl-mənakib, cild 1, s. 145; Əd-daaim, cild 2, s. 207)

Məkarimul-əxlaq kitabında isə bu rəvayətə yer verilmişdir: "Kətan peyğəmbərlərin geyimlərindən idi". (Əl-məkarim, cild 1, s. 118)

Harunla oğulları üçün **incə kətandan nəfis toxunmuş mintanlar**, sarıqlar, bəzəkli başlıqlar, **incə kətan paltarlar** və göy, bənövşəyi, qırmızı ipliklə **nəfis toxunmuş incə kətandan naxışlı kəmər düzəltdilər;** eynilə Rəbbin Musaya buyurduğu kimi. (Misirdən çıxış, 39:27-29)

... **Onlara kətan paltarlar tik. Boyu beldən dizə qədər olsun.** Harunla oğulları hüzur çadırına girdiklərində və ya müqəddəs yerdə xidmət etmək üçün qurbangaha yaxınlaşdıqlarında... bu paltarları geyəcəklər. **Harun və soyundan gələnlər üçün davamlı bir qayda olacaq bu.** (Misirdən çıxış, 28:40-43)

**Başlarına kətan sarıq sarıyacaq, kətan paltar geyəcəklər.** Özlərini tərlədən bir şey geyməyəcəklər. (Yezekel, 44:18)

Müqəddəs **kətan mintan, kətan paltar** geyəcək, **kətan kəmər** bağlayacaq, **kətan sarıq** sarıyacaq. Bunlar müqəddəs geyimlərdir. Bunları geymədən əvvəl yuyunacaq. (Levililər, 16:4)

Haruna mintanı geydirdi, belinə kəməri bağladı, **üzərinə cübbəni, onun üzərinə də efodu geydirdi.** Nəfis toxunmuş şəridi ilə efodu bağladı. (Levililər, 8:7)

Müdriklik verdiyim bacarıqlı adamlara söylə, **Haruna paltar tiksinlər.** Belə ki, Mənə kahinlik etmək üçün müqəddəs qılınmış olsun. **Tikəcəkləri paltarlar bunlardır: Sinəbənd, efod, cübbə, naxışlı mintan, sarıq, kəmər.** Mənə kahinlik etmələri üçün böyük qardaşın Haruna və oğullarına bu müqəddəs geyimləri tikəcəklər. Qızıldan göy, bənövşəyi, qırmızı iplikdən, incə kətandan istifadə edəcəklər. (Misirdən çıxış, 28:3-5)

**Sarıqdan istifadə etmək:**

Araqçınının üzərinə sarıq buraxardı. (Əl-mənakib, cild 1, s. 145; Əd-daaim, cild 2, s. 207)

Rəvayətə görə Peyğəmbərimiz sarığını üç və ya beş dəfə dolayıb bağlayardı. (Əl-mənakib, cild 1, s. 145; Əd-daaim, cild 2, s. 207)

Sahab adında bir sarığı var idi və onu Əliyə (ə.s) bağışladı, Əli (ə.s) bu sarıqla gəldiyində Rəsulullah (s.ə.v.) belə buyurardı: "Sahabın içindəki Əli sizin yanınıza gəldi". (Qəzali, İhyaul-ulum, cild 2, s. 377)

Mən də Yeşuanın başına **təmiz bir sarıq sarımalarını** söylədim. Başına **təmiz bir sarıq sarıyıb onu geydirdilər.** Rəbbin mələyi də onun yanında idi. (Zəkəriyyə, 3:5)

**Tikəcəkləri geyimlər** bunlardır: Sinəbənd, efod, cübbə, naxışlı köynək, sarıq, kəmər... (Misirdən çıxış, 28:4)

Başlarına kətan sarıq sarıyacaq, kətan paltar geyəcəklər. Özlərini tərlədəcək bir şey geyməyəcəklər. (Yezekel, 44:18)

**Cübbə geymək:**

Döyüşdə və normal günlərdə astarlı paltar geyərdi. Yaşıl rəngli, ipək sündüs bir cübbəsi var idi, mübarək onu geyib ağ vücudu ilə birləşdiyində baxmağa dəyərdi...

Paltarlarının üzərinə geydiyi paltarı zəfəranla boyanmışdı. Bəzən o bir tək paltarı ilə camaata camaat namazı qıldırırdı. Bəzən də yalnız əba geyirdi...

Bəzən zolaqlı bədri-yəməni (geyim növü), bəzən yundan tikilmiş əbanı (cübbə) paltarının üstünə atardı. Eyni şəkildə pambıq və kətandan toxunmuş paltar geyərdi. (Qəzali, İhyaul-ulum)

**Efodun altından geyilən cübbəni** nəfis toxunmuş tam göy iplikdən tikdilər. Ortasında başın keçəcəyi qədər boşluq buraxdılar. Cırılmaması üçün boşluğun kənarlarını yaxa kimi toxuyub çevirdilər. Cübbənin kənarını göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan nar naxışları ilə bəzədilər. (Misirdən çıxış, 39:22-24)

Harunla oğullarını hüzur çadırının giriş hissəsinə gətirib yuyundur. **Paltarları götür;** köynəyi, **efodun altından geyilən cübbəni, efodu və sinəbəndi** Haruna geydir. Efodun nəfis toxunmuş şəridini bağla. (Misirdən çıxış, 29:4-5)

Haruna mintanı geydirdi, belinə kəməri bağladı, üzərinə cübbəni, onun üzərinə də efodu geydirdi. Nəfis toxunmuş şəridi ilə efodu bağladı. (Levililər, 8:7)

Müdriklik verdiyim bacarıqlı adamlara söylə, **Haruna geyim tiksinlər.** Belə ki, Mənə kahinlik etmək üçün müqəddəs qılınmış olsun. **Tikəcəkləri geyimlər bunlardır: Sinəbənd, efod, cübbə, naxışlı mintan, sarıq, kəmər.** Mənə kahinlik etmələri üçün böyük qardaşın Haruna və oğullarına bu müqəddəs geyimləri tikəcəklər. Qızıldan göy, bənövşəyi və qırmızı iplikdən, incə kətandan istifadə edəcəklər. (Misirdən çıxış, 28:3-5)

**Tövratda təmizliyə verilən əhəmiyyət**

Mübarək üçün iki jilet toxumuşdular, bunları yalnız namazlarda geyərdi. Ümmətini təmizliyə təşviq edər və təmizliyi əmr edərdi. (Kənzül-Fuad, s. 285)

Biz əhli-beyt yatmaq istədiyimiz zaman on şeyə riayət edərik: Təharətli (təmiz) olmaq... (Fəlahüs-Sail, s. 280)

Ömər Xəttabın oğlundan rəvayət edilmişdir: Rəsulullahdan (s.ə.v.) daha comərd, cəsur və  təmiz birini görmədim. (Məkarim, cild 1)

Rəsulullah belə buyurmuşdur: "Müsəlmanlıq təmizdir, kirsizdir. Siz də təmiz olun, təmizlənin, çünki Cənnətə təmizlər girər". (Q. Əhməd Ziyauddin, Ramuz əl-hədis, cild 1, Qönçə nəşriyyat, İstanbul, 1997, 96/2)

Rəbb Musaya **"Get, bu gün və sabah xalqı təmizlə"** dedi, **"Paltarlarını yusunlar"** (Misirdən çıxış, 19:10)

Sonra **Musa** dağdan xalqın yanına enib **onları təmizlədi. Hamı paltarlarını yudu.** (Misirdən çıxış, 19:14)

... **"Əfəndim, Peyğəmbər səndən daha çətin bir şey istəsəydi, etməzdinmi?" dedilər, "Halbuki o sənə yalnız “Yuyun, təmizlən” deyir".** (2 Padşahlar, 5:13)

Hüzur çadırına girib qurbangaha yaxınlaşdıqlarında Rəbbin Musaya buyurduğu kimi orada yuyundular. (Misirdən çıxış, 40:32)

Bunun üzərinə **Davud yerindən qalxdı.** Yuyundu, gözəl ətir vurub **paltarını dəyişdi.** Rəbbin məbədinə gedib tapındı... (2 Şamuel, 12:20)

**... Xalqını kirdən təmizləyəcəksən.** Belə ki, aralarında olan iqamətgahımı kirlədib natəmizlik içində ölməsinlər. (Levililər, 15:31)

**Sonra geyimlərini yuyacaq, yuyunacaq. Ancaq o zaman düşərgəyə girə bilər.** Amma axşama qədər kirli sayılacaq. (Səhrada saylar, 19:7)

... **Geyimlərini yuyub özü də yuyunduqdan sonra düşərgəyə** girəcək. (Levililər, 16:28)

**Müqəddəs bir yerdə yuyunub öz paltarlarını geyəcək...** (Levililər, 16:24)

... **Özlərini günahdan təmizləyib paltarlarını yudular...** (Səhrada saylar, 8:21)

Müqəddəs, kətan köynək və kətan paltar geyəcək, kətan kəmər bağlayacaq, kətan sarıq sarıyacaq. Bunlar müqəddəs geyimlərdir. **Bunları geymədən əvvəl yuyunacaq.** (Levililər, 16:4)

**Yuyunub təmizlənin...** Pislik etməkdən imtina edin. (Yeşaya, 1:16)

**Müqəddəslə adi olanı, kirli ilə təmizi bir-birindən** ayırd etməlisiniz. (Levililər, 10:10)

**Gözəl ətir vurmaq:**

Rəsulullahın (s.ə.v.) içində müşk olan bir qutusu vardı. Hər dəstəmazdan sonra dərhal onu götürüb sürərdi. Evdən çıxanda keçdiyi hər yerdə bu gözəl qoxu yayılardı. (Əl-kafi, cild 1, s. 515; Əl-məkarim, cild 1, s. 44)

Mübarəyə ətir təklif ediləndə  alıb sürərdi. "Qoxusu gözəl, daşımaq asandır" buyurardı. Ətir sürmək üçün səbəb olduqda barmağının ucunu ətirə vurmaqla kifayətlənərdi. (Əl-məkarim, cild 1, s. 34)

Peyğəmbər əfəndimizin (s.ə.v.) nəvəsi hz. Həsən onun gözəl ətir haqqındakı fikrini belə ifadə etmişdir: "Peyğəmbər əfəndimiz bizə əldə etdiyimizin ən yaxşısını geyməyimizi və tapa bildiyimiz ən xoş ətirləri sürməyimizi əmr edərdi". (Buxari, Ət-tarixül-kəbir, cild 1, 382, n: 1222)

"Cismi-nəzif (təmiz), qoxusu lətif (xoş) idi. Ətir vursa da, vurmasa da vücudu ən gözəl ətirlərdən daha gözəl qoxardı. Bir adam onunla görüşdükdə (əl tutmaq, qucaqlaşmaq, məhəbbətini, dostluğunu və sevgisini göstərmək) bütün gün onun rayiheyi-tayyibəsini (təmiz qoxusunu) hiss edərdi və mübarək əli ilə bir uşağın başını sığalladıqda rayiheyi-tayyibəsi ilə

(təmiz qoxusu ilə) o uşaq sair (digər) uşaqlar arasında məlum olardı (bilinərdi)". (Əhməd Cövdət Paşa, Qisasi-ənbiya, IV. Cüz, Qənaət mətbəəsi, İstanbul 1331, s. 364-365)

Bunun üzərinə Davud yerindən qalxdı. **Yuyundu, gözəl ətir vurub paltarını dəyişdi...** (2 Şamuel, 12:20)

Yuyun, ətir vur, geyin və xırmana get... (Rut, 3:3)

**Məscidlərin gözəl qoxması:**

Təmizliyə çox əhəmiyyət verən, müsəlmanların təmiz məkanlarda olmasını istəyən, gözəllikdən və gözəl qoxulardan Allahın bir təcəllisi kimi çox xoşlanan Peyğəmbər əfəndimiz (s.ə.v.) məscidlərin təmiz tutulmasını buyurmuşlar. Məscidlərin gözəl qoxmasını və ibadət üçün gələn möminlərə fərahlıq verəcək bir mühitin meydana gəlməsini istəyən Peyğəmbərimiz (s.ə.v.) bu məqsədlə məscid və camilərdə büxur da yandırtmışdır. Gözəl qoxu məqsədi ilə büxur yandırılması Tövratda da keçir. Aşağıda mövzu ilə əlaqədar rəvayətlər və Tövrat açıqlamaları var:

Peyğəmbərimizin (s.ə.v.) ümumi məclislərində kamfara (kafur ağacından əldə edilən yağ) və ya başqa büxurlar yandırılar, bu surətlə camaatın istirahətinə diqqət yetirilərdi. Cümə günləri məscidə gözəl qoxu saçılmasını əmr edərdi. (Əbu Davud; M. Asim Köksal, İslam tarixi, XI, 162)

Rəsulullah (s.ə.v.) "Əvdül-qumari" (odun üstünə atılan zaman gözəl ətir saçan bir növ bitki) ilə büxur verərdi. (Əl-məkarim, cild 1, s. 34)

... Müqəddəs yer üçün gözəl qoxulu büxuru tam sənə buyurduğum kimi etsinlər. (Misirdən çıxış, 31:11)

Rəbbin özünə buyurduğu kimi **üzərində gözəl qoxulu büxur yandırdı.** (Misirdən çıxış, 40:27)

**Gözəl qoxu və büxur cana fərahlıq verər...** (Süleymanın məsəlləri, 27:9)

Harun hər səhər qəndillərə baxarkən qurbangahın üzərində gözəl qoxulu büxur yanacaq. Axşam qəndilləri yandırarkən yenə büxur yanacaq. **Beləcə, hüzurumda nəsillər boyu davamlı büxur yanacaq...** (Misirdən çıxış, 30:7-9)

Hüzurumda mayasız çörək səbətindən bir yastı çörək kökəsi, zeytun yağından yoğrulmuş çörək kökəsi və xəmir götür, hamısını Harunla oğullarına ver. Bunları Mənim hüzurumda yellə, sonra əllərindən alıb qurbangahda **Məni razı edən ətir kimi yandır.** Bu, Rəbb üçün yandırılandır. (Misirdən çıxış, 29:23-25)

Rəbb Musaya belə dedi: "... De Mənə hədiyyə gətirsinlər. Könüldən verən hər kəsin hədiyyəsini alın… Qəndil üçün zeytun yağı, **məsh yağı ilə gözəl ətirli büxur üçün ədviyyat.** (Misirdən çıxış, 25:2, 6)

**Məscidlərin təmizliyi:**

*İsti bir gündə iş sahibləri və işçilər iş paltarları ilə məscidə gəlmiş, məscid də kiçik olduğu üçün havası ağırlaşmış və narahatçılıq olmuşdu. Bunun üzərinə Rəsuli-Əkrəm (s.ə.v.) "Yuyunub gəlsəydiniz, daha yaxşı olardı" buyurmuşlar. Ondan sonra cümə günləri yuyunmaq sünnə olmuşdur. (M. Asim Koksal, İslam tarixi, XI, 162)*

*Rəsulullahın (s.ə.v.) məscidi müntəzəm silinib, süpürülüp, təmizlənərdi. (M. Asim Koksal, İslam tarixi, XI, 162 vd.)*

Məbədin xidmətindən ayrılmayacaq, **Allahının məbədini kirlətməyəcək.** Çünki Allahın buyurduğu məsh yağı ilə Allahına adanmışdır… **Məbədimi kirlətməsin.** Onları müqəddəs edən Rəbb Mənəm. Musa Harunla oğullarına və bütün İsrail xalqına bunları bildirdi. (Levililər, 21:12, 23-24)

**Otaqları təmizləmələri üçün buyruq verdim.** Allah məbədinin əşyalarını, taxılları, kündürü yenə oraya qoydurdum. (Nehemya, 13:9)

**Rəbbin məbədini təmizləmək üçün içəri girən kahinlər** məbəddə tapdıqları bütün kirli şeyləri məbədin həyətinə çıxardılar... (2 Salnamələr, 29:16)

Yeddinci gün **paltarlarınızi yuyun. Beləcə, təmiz sayılacaqsınız. Sonra düşərgəyə girə bilərsiniz.** (Səhrada saylar, 31:24)

Sonra **paltarlarını yuyacaq və yuyunacaq. Ancaq o zaman düşərgəyə girə bilər.** Amma axşama qədər kirli sayılacaq. (Səhrada saylar, 19:7)

**Bədən təmizliyinə əhəmiyyət verilməsi:**

***Müsəlmanlıq təmizdir, kirsizdir. Siz də təmiz olun, təmizlənin, çünki Cənnətə təmizlər girər. (Tirmizi, İmam Əhməd və Hakimdən; Höccətül-İslam imam Qəzali, İhyaul-ulumiddin, cild 2, tərcümə: Dr. Sıtqı Güllə, Hüzur nəşriyyat, İstanbul 1998, s. 789)***

***Rəsulullah (s.ə.v.) saçını darayardı, çox vaxt su ilə düzəldər və belə buyurardı: "Möminin gözəl qoxulu olması üçün su kifayətdir". (Əl-müstədrək, cild 1, s. 59; Əl-məkarim, cild 1, s. 76; Kurbul-əsnad, s. 45)***

***İbni Şubə Tuhəful-ukul kitabında rəvayət edir: "Təmizlik peyğəmbərlərin əxlaqındandır". (Tuhəful-ukul, s. 442)***

Naamanın vəzifəliləri yanına çatıb "Əfəndim, peyğəmbər səndən daha çətin bir şey istəsəydi, etməzdinmi?" dedilər. Halbuki o, sənə yalnız **"Yuyun, təmizlən"** deyir". (2 Padşahlar, 5:13)

**Sabun otuyla yuyunub** əllərimi kül suyu ilə təmizləsəm. (Əyyub, 9:30)

**Yuyunub təmizlənin,** pislik etdiyinizi gözüm görməsin, pislik etməkdən imtina edin. (Yeşaya, 1:16)

**Yuyunmaq üçün tuncdan bir qab düzəlt.** Ayaqlığı da tuncdan olsun. Hüzur çadırı ilə qurbangahın arasına qoyub içinə su doldur. (Misirdən çıxış, 30:18)

Çəkilin, çəkilin, oradan çıxın, **murdara toxunmayın. Oradan çıxıb təmizlənin…** (Yeşaya, 52:11)

**… Dişləri süddən ağ** olacaq. (Yaradılış, 49:12)

**Saç və geyimə baxım:**

Hz. Aişə (r.ə.) anamız buyurur: "Rəsuli-Əkrəm (s.ə.v.) saçlarını darayıb yağladığında..." (Ət-Tirmizi imam Əbu İsa Muhəmməd, şəmaili-şərifə, cild 1, Hilal nəşrləri, Ankara, 1976, s. 58)

Tabərsi Məkarimül-əxlaq kitabında rəvayət etmişdir: Rəsulullah (s.ə.v.) "Mederi" adında xüsusi bir daraqla saçını darayardı… Çox vaxt saçını gündə iki dəfə darayardı". Yenə rəvayət etmişdir ki, "Saçını daradıqdan sonra darağını döşəyinin altına qoyardı". (Tabərsi, Məkarimül-əxlaq, cild 1, s. 34)

Bir gün Peyğəmbər (s.ə.v.) səhabələrinin yanına gələcəyi zaman küpdəki suya baxıb sarığını və saqqalını düzəltdi və belə dedi: "Allah qardaşlarının yanlarına çıxarkən qulunun qardaşları üçün bəzənməsini sevər". (İbn Adiyyə Əl-Kamil; Höccətül-İslam imam Qəzali, İhyaul-ulumiddin, 3-cü cild, tərcümə: Dr. Sıtqı Güllə, Hüzur nəşriyyat, İstanbul 1998, s. 679)

Peyğəmbər əfəndimizin (s.ə.v.) nəvəsi hz. Həsən onun geyim mövzusundakı fikrini belə ifadə etmişdir: "Peyğəmbər əfəndimiz (s.ə.v.) bizə əldə etdiyimizin ən yaxşısını geyməmizi və tapa bildiyimiz ən xoş ətirləri sürməyimizi əmr edərdi". (3131 Buxari, Ət-tarixül-kəbir, cild 1, 382, n: 1222)

Kahinlər başlarını təraş etməyəcək, saçlarını uzatmayacaqlar. Ancaq **saçlarını** kəsib **düzəldəcəklər.** (Yezekel, 44:20)

Sonra Musa Harunla oğulları Elazarla İtamara **"Saçlarınızı dağıtmayın, paltarlarınızı cırmayın"** dedi… (Levililər, 10:6)

O biri kahinlər arasından başına məsh yağı tökülən və **xüsusi paltarlar geymək** üçün təyin edilən baş kahin, saçlarını dağıtmayacaq, paltarlarını cırmayacaq. (Levililər:21:10)

**… Paltarların** incə kətandan, bahalı və **naxışlı parçadan idi**… (Yezekel, 16:13)

Harunla oğulları üçün incə kətandan **nəfis toxunmuş** mintanlar, sarıqlar, **bəzəkli** başlıqlar, incə kətan paltarlar və **göy, bənövşəyi, qırmızı ipliklə və nəfis toxunmuş** incə kətandan **naxışlı kəmər hazırladılar;** eynilə Rəbbin Musaya buyurduğu kimi. (Misirdən çıxış, 39:27-29)

**Saçları və başı yağlamaq:**

Rəsulullah (s.ə.v.) bir çox fərqli yağla bədənini yağlayar, yağlama əsnasında saqqalından əvvəl başını yağlayar və belə buyurardı: "Baş saqqaldan əvvəldir". (Əl-məkarim, cild 1, s. 33)

Mübarək ən çox bənövşə çiçəyi yağı ilə bədənini yağlayar və belə buyurardı: "Bu yağların ən yaxşısıdır". (Əl-məkarim, cild 1, s. 33)

Peyğəmbərimiz (s.ə.v.) yağ sürmək istədiyi zaman, əvvəl qaşlarına sonra bığına daha sonra burnuna apararaq iyləyər və axırda mübarək başına sürərdi. (Təbərsi, Məkarimül-əxlaq, cild 1, s. 34)

Harunu müqəddəs etmək üçün **başına yağ töküb** məsh çəkdi. (Levililər, 8:12)

**Başa sürülən qiymətli yağ kimi;** saqqaldan, Harunun saqqalından cübbəsinin yaxasına qədər enən yağ kimi. (Zəbur, 133:2)

Düşmənlərimin önündə Mənə süfrə açarsan; **başıma yağ sürərsən**... (Zəbur, 23:5)

Doğru insan mənə vursa, yaxşılıq sayılar; danlasa, başa sürülən yağ kimidir; başım rədd etməz onu. Çünki duam həmişə pislərə qarşıdır. (Zəbur, 141:5)

**Tövratda diqqət yetirilən yemək və içmək**

**Şorba:**

Məkarim kitabında rəvayət edilmişdir: "Rəsulullah (s.ə.v.) çox vaxt həlim (yarma, ət və sudan hazırlanan bir növ şorba) yeyərdi. Bəzən də sahur yeməyi üçün həlimi seçərdi". (Əl-məkarim, cild 1, s. 30)

"Həzrəti Peyğəmbərin qatqı olaraq yediyi yeməklərin bir qismini belə sıralamaq olar: Qoyunun ön qolu və kürək əti, kotlet, kabab, toyuq, toy quşu, ət şorbası, ət suyu, balqabaq, zeytun yağı, süzmə, qovun, halva, bal, xurma, pazı, ənbər balığı…" (Əbu Davud, III, 496-497, n: 3840; Nəsai, VII, 207-209; Prof. Dr Əli Yardım, Peyğəmbərimizin şəmaili, Damla nəşriyyat, 3-cü nəşr, İstanbul, 1998, s. 219)

… Elişa bir peyğəmbər birliyi ilə oturarkən xidmətçisinə "Böyük qazanı ocağa qoy, peyğəmbərlərə **şorba bişir**" dedi. (2 Padşahlar, 4:38)

Bir gün Yaqub **şorba bişirərkən** Esav ovdan gəldi... (Yaradılış, 25:29)

**Ət:**

Həzrətin yanında ən yaxşı yemək ət idi. Sulu yemək şəklində yeyərdi... Ovlanmış heyvanın ətindən yeyərdi… Qoyun ətinin çiyin, bud, və bilək hissəsini sevərdi. (Əl-mənakib, cild 1, s. 145; Əd-daaim, cild 2, s. 207)

Məkarim kitabında Rəsulullahdan (s.ə.v.) rəvayət edilmişdir: … Həzrətin ən çox sevdiyi yemək ət idi… Süfrədəki yeməklərin arasından əlini ona uzadardı. Toyuq əti və digər çöl heyvanlarının, quşların ətini yeyərdi... (Əl-məkarim dəyişik yerlərdə zikr etmişdir, s. 26-29-30-31; Əl-məhasin, s. 433-459; Əl-hisal; Əl-kafi; Əl-müstədrək; Ət-daaim, cild 2, s. 113)

"Ən çox xoşladığı yemək ət idi". (Əbbuşeyx, Höccətül-İslam imam Qəzali, İhyaul-ulumiddin, cild 2, tərcümə: Dr Sıtqı Güllə, Hüzur nəşriyyat, İstanbul 1998, s. 803)

Yaqub "Mən ilk oğlun Esavam" deyə cavab verdi, "**Söylədiyini etdim**. Buyur, dur otur, **gətirdiyim ov ətini ye**. Belə ki, məni mübarək edəsən". (Yaradılış, 27:19)

Sonra Musa, "Axşam **sizə yemək üçün ət**, səhər də dilədiyiniz qədər çörək verilincə Rəbbin əzəmətini görəcəksiniz" dedi... (Misirdən çıxış, 16:8)

İshaq "Oğlum, **ov ətini gətir yeyim ki,** səni mübarək edim" dedi... (Yaradılış, 27:25)

Esav da **ləzzətli bir yemək hazırlayıb** atasına apardı. Ona "Ata qalx, **gətirdiyim ov ətini ye**" dedi, "Belə ki, məni mübarək edə biləsən." (Yaradılış, 27:31)

Onlara da ki, "Axşam **ət yeyəcəksiniz**, səhər də çörəklə qarnınızı doyuracaqsınız. Onda biləcəksiniz ki, Allahınız Rəbb Mənəm". (Misirdən çıxış, 16:12)

**Xurma:**

Məkarim kitabında belə rəvayət edilmişdir: "... Oruc tutduğu zamanlar təzə xurma vaxtında yalnız onunla iftar edərdi... Mübarəyin yeməyi ən çox xurma və su idi". (Əl-məkarim müxtəlif yerlərdə zikr etmişdir, s. 26-29-30-31; Əl-məhasin, s. 433-459; Əl-hisal; Əl-kafi; Əl-müstədrək; Əd-daaim, cild 2, s. 113)

"Xurmalardan acvə xurmasını sevirdi." (Əbuşşeyx, höccətül-İslam imam Qəzali, İhyaul-ulumiddin, cild 2, tərcümə: Dr. Sıtqı Güllə, Hüzur nəşriyyat, İstanbul 1998, s. 803)

Hz Aişə (r.ə.) əlavə olaraq bunları bildirmişdir: "Qovun və qarpızı yaş xurma ilə yeyərdilər". (Q. Əhməd Ziyauddin, Ramuz əl-hədis, cild 2, Qönçə nəşriyyat, İstanbul, 1997, 552/5)

Hz Cabirdən (r.ə.): "Təzə xurma və qovun çox yeyərdilər və "bunlar gözəl meyvədir" deyərdilər." (Q. Əhməd Ziyauddin, Ramuz əl-hədis, cild 2, Qönçə nəşriyyat, İstanbul, 1997, 549/1)

Sonra Əlimə getdilər. Orada on iki su qaynağı, yetmiş **xurma ağacı** var idi. Su sahilində yerləşdilər. (Misirdən çıxış, 15:27)

Davud... Ardından qadın, kişi hər kəsə... bir kömbə çörəklə **bir xurma** və üzüm lavaşanası payladı. Sonra hamı evinə döndü. (2 Şamuel, 6:17, 19)

İlk gün meyvə ağaclarının gözəl meyvələrini, **xurma budaqlarını**, sıx yarpaqlı ağac budaqlarını, vadi qovaqlarını **yığıb** Allahınız Rəbbin qarşısında yeddi gün şənlik edəcəksiniz. (Levililər, 23:40)

**Çörək:**

Əbu Hazim rəvayət edir: "Rəsulullahın dövründə səhabələrin ələyi var idimi?" dedim. "Əleyhissalatu vəssalam vəfat edənə qədər ələk görmədim" dedi. "Elə isə ələnməmiş arpa çörəyini necə yeyirdiniz?" dedim. "Biz onu üfləyərdik, içindəki kəpəklər təmizlənərdi. Qalan "kəpək"ləri də su ilə yumşaldıb yoğurardıq" cavabını verdi". (Kutubi-sittə, nömrə: 6945)

Ümmi Eymənin (r.ə.) rəvayətinə görə:… Əleyhissalatu vəssalam da: "Su ələyib ayırdığın kəpəyi o birisinə (un qisminə) qat, sonra yoğur (və çörək hazırla)" buyurmuşdur". (Kutubi-sittə, nömrə: 6946)

Hz Ənəs (r.ə.) rəvayət edir:… "Rəsulullah əleyhissalatu vəssalam "bəsi" yeməyi yedi və möhkəm paltar geydi". (Ənəsin ravisi) Həsəndən soruşuldu: " "Bəsi" dediyin yemək nədir?" O, bu cavabı verdi: "Arpanın iri üyüdülmüşüdür, ağızdakı loxmanı adam ancaq bir qurtum su ilə uda bilərdi". (Kutubi-sittə, nömrə: 949)

İbni Abbas (r.ə.) rəvayət edir: "Rəsulullah əleyhissalatu vəssalamın ən çox sevdiyi yemək çörəkdən hazırlanmış tirit və heysdən (ərəblərin məşhur bir yeməyi) hazırlanan tirit idi". (Əbu Davud, Ətimə 23, (3783))

Süleyman sarayının bir günlük yemək ehtiyacı bunlar idi: **Otuz kor incə, altmış kor kəpəkli un;** onu tövlədə, iyirmisi otlaqda yetişdirilmiş mal və yüz qoyun; ayrıca marallar, ceyranlar, cüyürlər və kök quşlar. (1 Padşahlar, 4:22-23)

Sonra Musa "Axşam sizə yemək üçün ət, səhər də **dilədiyiniz qədər çörək verilincə** Rəbbin əzəmətini görəcəksiniz". dedi... (Misirdən çıxış, 16:8)

Hüzurumdakı **mayasız çörək səbətindən bir yastı çörək kökəsi**, zeytun yağı ilə yoğrulmuş çörək kökəsi və qoğal götür, hamısını Harunla oğullarına ver. (Misirdən çıxış, 29:23)

Onlara de ki, "Axşam ət yeyəcəksiniz, səhər də **çörəklə qarnınızı doyuracaqsınız**. Onda biləcəksiniz ki, Allahınız Rəbb Mənəm". (Misirdən çıxış, 16:12)

Rəbbin söylədiklərini edən İlyas… dərədən su içir… ət və **çörəklə bəslənirdi**. (1 Padşahlar, 17:5-6)

Amma Lut çox təkid etdi. Axırda onunla birlikdə evinə getdilər. Lut onlara yemək hazırladı, **mayasız çörək bişirdi**. Yedilər. (Yaradılış, 19:3)

**Buğda, arpa**, paxla, mərcimək, darı, qırmızı buğda götür və bir qaba qoy. **Bunlardan özünə çörək bişir.** Bir yanı üstə uzanacağın üç yüz doxsan gün boyunca **bu çörəkdən** yeyəcəksən. Hər gün müəyyən zamanda yeməyin üçün iyirmi misqal çörək çəkəcəksən. (Yezekel, 4:9-10)

Musa Haruna və sağ qalan oğulları Elazarla İtamara belə dedi: "Rəbb üçün yandırılanlardan qalan taxılı götürün, **mayasız çörək bişirib qurbangahın yanında yeyin. Çünki çox müqəddəsdir.** (Levililər, 10:12)

Rəbbə şükr etmək üçün, xoşbəxtliyi **mayalı çörək kökələri ilə** birlikdə təqdim edəcək. (Levililər, 7:13)

**Bəhməz və üzüm:**

**İbni Ömərdən rəvayət; soruşdular ki: "Üzüm tərkibi necədir?" Dedi ki: "Sən iç". Tərkib dedikləri budur: Üzüm şirəsini qaynadarlar, üç payın ikisi gedər, bir payı qalar. (Öndər Çağıran, Tibbi Nəbəvi, 1-ci nəşr, Boğaziçi nəşrləri, İstanbul 1996)**

**Ümeyyi İbni Zeyd rəvayət edir: "Peyğəmbər səllallahu əleyhi və səlləm yemişlərdən üzümlə qovunu sevərdi". (Öndər Çağıran, Tibbi Nəbəvi, 1-ci nəşr, Boğaziçi nəşrləri, İstanbul 1996)**

Qaydalarıma görə yaşayıb buyruqlarımı diqqətlə yerinə yetirsəniz, yağışları zamanında yağdıracağam. Torpaq məhsul, ağaclar meyvə verəcək. Yığıma qədər xırman döyüb əkin vaxtına qədər **bağlarınızdan üzüm yığacaqsınız. Bolluca yeyib** ölkənizdə güvənlikdə yaşayacaqsınız. (Levililər, 26:3-5)

Allahınız Rəbb sizi məhsuldar bir ölkəyə aparır. Elə bir ölkə ki, çayları, bulaqları, dərə və təpələrdən çıxan su qaynaqları vardır; buğdası, arpası, **üzümü,**ənciri, narı, zeytun yağı, balı vardır. (Qanunun təkrarı, 8:7-8)

Eşkol vadisinə çatanda üzərində **bir salxım üzüm olan bir asma budağı kəsdilər.** Adamlardan ikisi budağı uzun bir ağacda daşıdılar. Yanlarında nar və əncir də götürdülər. (Səhrada saylar, 13:23)

**Bal:**

**Heysəmə bin Əsvəd Abdullahdan rəvayət edir: "Peyğəmbər əleyhissalam buyurdu ki: “Qurandan və də baldan şəfa alın”". (Öndər Çağıran, Tibbi Nəbəvi, 1-ci nəşr, Boğaziçi nəşrləri, İstanbul 1996).**

**"Şirnini və balı sevərdilər". (Q. Əhməd Ziyauddin, Ramuz əl-hədis, cild 2, Qönçə nəşriyyat, İstanbul, 1997, 552/11)**

**"Peyğəmbər əfəndimiz (s.ə.v.) bal şərbəti, xurma və kişmiş şirəsi kimi içkiləri sevərdilər". (Arizətül-Ahzəvi şərhi-sünənit-Tirmizi, VIII, 89-90, Prof. Dr. Əli Yardım, Peyğəmbərimizin şəmaili, Damla nəşriyyat, 3-cü nəşr, İstanbul, 1998, s. 255)**

**"Şərbətlərin içində ən çox bal şərbətini sevərdi". (Q. Əhməd Ziyauddin, Ramuz-əl-hədis, cild 2, Qönçə nəşriyyat, İstanbul, 1997, 521/17)**

Bunun üzərinə İsrail "Elə isə gedin" dedi. "Yalnız torbalarınıza **bu ölkənin ən yaxşı məhsullarından** bir az balzam, bir az bal, kitrə, laden, fıstıq, badam qoyun və Misirin rəhbərinə hədiyyə aparın". (Yaradılış, 43:11)

... Ayrıca, Davudla yanındakıların yeməsi üçün buğda, arpa, un, qovrulmuş buğda, paxla, mərcimək, **bal**, kərə yağı, inək pendiri və qoyun da **gətirdilər.** "Xalq tarlada yorulmuşdur, ac və susuzdur" deyə düşünmüşdülər. (2 Şamuel, 17:28-29)

... O ölkədən çıxarıb **geniş və məhsuldar torpaqlara, süd və bal axan ölkəyə**... aparacağam. (Misirdən çıxış, 3:8)

... Zeytun yağı, **bal** və bütün tarla məhsullarından **bolluca verdilər**. Bununla yanaşı, hər şeyin onluğunu da bolluca gətirdilər. (2 Salnamələr, 31:5)

**Süd:**

"... Allah bir kimsəyə bir miqdar süd içirdiyi zaman  o adam “Allahım bizə bu südü bərəkətli et və bizə daha çox süd ver” deyə dua etsin. Çünki yemək və içməyin yerini tutan süddən başqa şey bilmirəm". (Heydər Hatipoğlu, Sünəni-İbni Macə tərcüməsi və şərhi, Qəhrəman nəşrləri, cild 9, İstanbul 1983, s. 75)

"İçkilərdən ən çox südü sevərdilər". (Q. Əhməd Ziyauddin, Ramuz əl-hədis, cild 2, Qönçə nəşriyyat, İstanbul, 1997, 521/18)

Sisera su istədi, Yael ona **süd verdi.** (Hakimlər, 5:25)

... Yael **süd tuluğunu açıb ona içirdikdən sonra** üzərini yenə örtdü. (Hakimlər, 4:19)

... Özləri üçün **seçdiyim ən gözəl ölkəyə**, süd və bal **axan ölkəyə**... (Yezekel, 20:6)

**Nar:**

Məkarim kitabında Rəsulullahdan (s.ə.v.) rəvayət edilmişdir: Həzrətin ən sevdiyi meyvələr qovun və nar idi... Çox vaxt narı dənə-dənə yeyərdi". (Əl-məkarim müxtəlif yerlərdə zikr etmişdir, s. 26-29-30-31; Əl-məhasin, s. 433-459; Əl-hisal; Əl-kafi; Əl-müstədrək; Əd-daaim, cild 2, s. 113)

Kuleyni Ömər bin Əbani-Kuleyninin belə dediyini rəvayət edir: İmam Baqir və imam Sadiqin (ə.s.) belə buyurduqlarını eşitdim: "Rəsulullah (s.ə.v.) yer üzündəki meyvələr arasında ən çox narı sevərdi". (Əl-Emali, cild 2, s. 294; Emaliye-Müfid, s. 114; Əl-məkarim, cild 1, s. 176; Əl-kafi, cild 2, s. 138 və cild 8, s. 168)

Eşkol vadisinə çatanda üzərində bir salxım üzüm olan bir asma budağı kəsdilər. Adamlardan ikisi budağı uzun bir ağacda daşıdılar. **Yanlarına nar** və əncir də götürdülər. (Səhrada saylar, 13:23)

Anbarda heç toxum qaldımı? Asma, əncir, **nar**, zeytun ağacları bu günə qədər məhsul verdimi? "Bu gündən başlayaraq üzərinizə bərəkət yağdıracağam". (Haqqay, 2:19)

**Zeytun yağı:**

"Zeytun yağını yeyin və ondan istifadə edin. Çünki bu yağ mübarəkdir". (Heydər Hatipoğlu, Sünəni-İbni Macə tərcüməsi və şərhi, Qəhrəman nəşrləri, cild 9, İstanbul 1983, s. 73)

… İncə un, bal, **zeytun yağı ilə bəsləndin**. Getdikcə gözəlləşdin, padşahlığa yaraşdın. (Yezekel, 16:13)

Mənə kahinlik edə bilmələri üçün, Harunla oğullarını müqəddəs etmək üçün bunları et: Bir öküz ilə iki eyibsiz qoç al. İncə buğda unundan mayasız çörək, **zeytun yağı ilə yoğurulmuş** mayasız çörək kökəsi, **üzərinə yağ sürülmüş** mayasız qoğal bişir. (Misirdən çıxış, 29:1-2)

Əgər adam Rəbbə şükr etmək üçün versə, **zeytun yağı ilə yoğurulmuş** mayasız çörək kökəsi, **üzərinə zeytun yağı sürülmüş** mayasız qoğal və yaxşıca qarışdırılmış incə undan yağla yoğurulmuş mayasız çörək kökəsi də verəcək. (Levililər, 7:12)

Əgər verəcəyi sacda bişirilmiş taxıldırsa, **zeytun yağı ilə yoğurulmuş** mayasız incə undan bişirilməlidir. Onu verərkən hissələrə ayırıb **üzərinə zeytun yağı tökəcəksən**. Bu verəcəyin taxıldır. Əgər tavada bişirilmiş taxıldırsa, incə un və **zeytun yağı ilə yoğurulmalıdır**. (Levililər, 2:5-7)

**Tövratda peyğəmbərimizin (s.ə.v.) sünnəsinə uyğun digər işlər**

**Əqiq daşından istifadə:**

*"Hz. Peyğəmbər (s.ə.v.) qonşu dövlət hökmdarlarına göndərdiyi məktubların altını möhürləmək məqsədi ilə üzərində üç sətirdə "Muhəmməd Rəsulullah" yazılı bir möhürdən istifadə edirdi. Yazı əqiq daşı üzərinə işlənmişdi və möhür də gümüşdən idi. Üzük şəklində idi və Peyğəmbərimiz (s.ə.v.) onu barmağına taxırdı. Yazdırdığı rəsmi sənədi möhürləmək üçün barmağından çıxarar, möhürlədikdən sonra təkrar taxardı". (Qəzali, İhyaul-ulum)*

Efod kimi qızıl ilə və göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan nəfis bir sinəbənd tikdilər. Dörd künc, eni və uzunu bir qarış idi, ikiyə qatlanmışdı. Üzərində dörd sıra daş oyuğu düzəltdilər. Birinci sırada yaqut, topaz, zümrüd; ikinci sırada firuzə, lacivərd daşı, ay daşı (ağ əqiq); üçüncü sırada yaqut, əqiq, ametist; dördüncü sırada sarı yaqut, oniks (qara əqiq), yaşma var idi. Daşlar oyuqlara qoyulmuşdu… Belə ki, sinəbənd efodun nəfis toxunmuş şəridinin yuxarısında qalsın və efoddan ayrılmasın. Eynilə Rəbbin Musaya buyurduğu kimi etdilər. (Misirdən çıxış, 39:8-13, 21)

Nəfis bir hökm sinəbəndi hazırla. Onu da efod kimi qızıl ilə və göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan tik. Dörd künc, eni və uzunu bir qarış olsun; ikiyə qatlansın. Üzərində dörd sıra daş oyuğu düzəlt. Birinci sırada yaqut, topaz, zümrüd; ikinci sırada firuzə, lacivərd daşı, ay daşı (ağ əqiq); üçüncü sırada yaqut, əqiq, ametist; dördüncü sırada sarı yaqut, oniks (qara əqiq) və yaşma olsun. Daşlar qızıl oyuqlara qoyulsun… İki qızıl halqa əlavə düzəlt; efodun önündəki çiyinliklərə altdan, tikişə yaxın, nəfis toxunmuş şəridin yuxarısına tax. (Misirdən çıxış, 28:15-20, 27)

**Möhür üzüyündən istifadə:**

Ənəs bin Malik (r.ə.) rəvayət edir: "Peyğəmbər əfəndimizin (s.ə.v.) mübarək möhürü gümüşdən düzəldilmişdi. Qaşı isə həbəş daşından idi. Rəsulullah əfəndimiz (s.ə.v.) xarici dövlət başçılarına məktub yazmaq istədikdə bir möhür üzük düzəldilməsini buyurdu. Peyğəmbər əfəndimizin (s.ə.v.) barmağındakı üzüyün parıltısı hələ gözümün qabağındadır. Peyğəmbər əfəndimizin (s.ə.v.) mübarək möhrünün qaşına üç sətir halında "Muhəmməd Rəsulullah" ibarəsi həkk edilmişdi. Birinci sətirdə "Muhəmməd", ikinci sətirdə "Rəsul", üçüncü sətirdə də "Allah" sözləri yazılmışdı. (Ət-Tirmizi imam Əbu İsa Muhəmməd, şəmaili-şərifə, cild 1, Hilal nəşrləri, Ankara, 1976, s. 114-117)

Bir daş gətirib quyunun ağzına qoydular. Daniellə əlaqəli heç bir şey dəyişdirilməsin deyə padşah həm **öz möhür üzüyü ilə**, həm də **əsilzadələrin möhür üzükləri ilə** daşı möhürlədi. (Daniel, 6:17)

Bunun üzərinə padşah **möhür üzüyünü** barmağından çıxarıb… Hamana verdi… adını və **üzüyünün möhürünü** daşıyırdı. (Ester, 3:10, 12)

Amma padşahın adına yazılmış və onun **üzüyü ilə möhürlənmiş** yazını kimsə keçərsiz saya bilməz… siz yazın və padşahın üzüyü ilə möhürləyin. (Ester, 8:8)

## QURAN VƏ TÖVRATDAKI BƏNZƏR İFADƏLƏRİN BİR QİSMİ

**Hər şeyin bir kitabda yazılı olması:**

TÖVRAT: Gizli yerdə yaradıldığımda, yerin dərinliklərində toxunduğumda vücudum Səndən gizli deyildi. Hələ bətndə ikən Gözlərin gördü məni; mənə ayrılan günlərin heç biri gəlmədən hamısı Sənin kitabına yazılmışdı. (Zəbur, 139:16)

**QURAN: Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunus surəsi, 61)**

**Allahın hər yerdə iman edənlərlə birlikdə olması:**

TÖVRAT: "Sənə güclü və ürəkli ol demədimmi? Qorxma, çəkinmə. Çünki Allahın Rəbb gedəcəyin hər yerdə səninlə birlikdə olacaq". (Yeşua, 1:9)

**QURAN: (Allah) buyurdu: "Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm! (Taha surəsi, 46)**

İman edənlərin sayılarının az olmasına baxmayaraq həmişə qalib gəlmələri:

TÖVRAT: Quşlular və luvlular çox sayda döyüş arabaları və atlıları ilə böyük bir ordu deyildilərmi? Amma sən Rəbbə güvəndin, O da onları sənə təslim etdi. (2 Salnamələr, 16:8)

**QURAN: ... "Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbr edənlərlədir. (Bəqərə surəsi, 249)**

**Min illik müddətin Allah qatında bir gün kimi olması:**

TÖVRAT: Çünki Sənin gözündə min il əslində keçmiş bir gün, dünən kimi, bir gecə keşiyi kimidir. (Zəbur, 90:4)

**QURAN: ... Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir! (Həcc surəsi, 47)**

**Günahkarların simalarından tanınması:**

TÖVRAT: Üzlərindəki ifadə onlara qarşı şahidlik edir. Sodom kimi günahlarını açıq şəkildə söyləyir, gizləmirlər. Vay onların halına! Çünki bu fəlakəti başlarına özləri gətirdilər. (Yeşaya, 3:9)

QURAN: **Günahkarlar simalarından tanınacaq, kəkillərindən və ayaqlarından yaxalanacaqlar.** (Rəhman surəsi, 41)

**İnsanın imtahanda olması:**

TÖVRAT: Mən Rəbb hər kəsi davranışlarına, etdiklərinin nəticəsinə görə mükafatlandırmaq üçün qəlbi yoxlayar, fikiri sınayaram. (Yeremya, 17:10)

**QURAN: ... Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız! (Ənbiya surəsi, 35)**

**İnkar edənlərin göndərilən elçilərə istehza etmələri:**

TÖVRAT: Amma onlar Allahın elçilərinə istehza edib sözlərini küçümsədilər, peyğəmbərlərini alçaltdılar... (2 Padşahlar, 36: 16)

**QURAN: Onlara elə bir peyğəmbər gəlmədi ki, ona istehza etməsinlər! (Hicr surəsi, 11)**

**Allahın iman edənlərə yaxınlığı, duaları qəbul etməsi:**

TÖVRAT: Rəbb Özünə yalvaran, səmimiyyətlə yalvaran hər kəsə yaxındır. Diləyini yerinə yetirər. Özündən qorxanların, fəryadlarını eşidib onları qurtarar. Rəbb qoruyar Özünü sevən hər kəsi... (Zəbur, 145:18-20)

**QURAN: (Ya Rəsulum!) Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər. (Bəqərə surəsi, 186)**

**İnsanın əsl vəzifəsinin Allaha qulluq olması:**

TÖVRAT: ... Allahdan qorx və Onun əmrlərini tut; çünki insanın bütün vəzifəsi budur. (Vaiz, 12:13)

**QURAN: Mən, cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım. (Zəriyət surəsi, 56 )**

**Qəlblərin qatılaşması:**

TÖVRAT: Müqəddəs Qanunu və hər şeyə hakim Rəbbin öz Ruhu ilə göndərdiyi, əvvəlki peyğəmbərlər vasitəsilə çatdırdığı sözləri dinləməmək üçün qəlblərini daş kimi qatılaşdırdılar. Buna görə hər şeyə hakim Rəbb onlara çox qəzəbləndi. (Zəkəriyyə, 7:12)

**QURAN: Bundan sonra qəlbləriniz yenə sərtləşərək daş kimi, bəlkə, daha da qatı oldu. Həqiqətən, bəzi daşların içərisindən nəhrlər axar, bəzisi yarılıb içindən su fışqırar və bəzisi də Allahın qorxusundan yuvarlanıb düşər. Allah sizin etdiklərinizdən, əlbəttə, qafil deyildir! (Bəqərə surəsi, 74)**

**İnkar edənlərin peyğəmbərləri öldürmələri:**

TÖVRAT: ... (Xalq) söz dinləmədi, Sənə baş qaldırdı. Qanununa arxa çevirdilər, Sənə dönmələri üçün özlərini xəbərdar edən peyğəmbərləri öldürdülər... (Nehemya, 9:26)

**QURAN: ... Allahın qəzəbinə düçar oldular. Bu onların Allahın ayələrini inkar etdiklərinə və peyğəmbərləri haqsız yerə öldürdüklərinə görə idi. Bu onların (Allaha) asi olduqlarına və həddi aşdıqlarına görə idi. (Bəqərə surəsi, 61)**

**İman edənlərin Allahın yaratdıqları haqqında dərin düşünmələri:**

TÖVRAT: (Rəbbin) Etdikləri üzərində dərin düşünəcəyəm, bütün işlərinin üzərində diqqətlə dayanacağam. (Zəbur, 77:12)

**QURAN: O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər: "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru!** (Ali-İmran surəsi, 191)

**Allahın hökmlərini heç kimin dəyişdirə bilməməsi:**

TÖVRAT: Allahın etdiyi hər şeyin sonsuza qədər sürəcəyini bilirəm. Ona nə bir şey əlavə oluna bilər, nə də ondan bir şey çıxarıla bilər... (Vaiz, 3:14)

**QURAN: Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O, eşidəndir, biləndir!** (Ənam surəsi, 115)

**Dünyəvi zənginlik axirətdə adama fayda verməz:**

TÖVRAT: Rəbbin qəzəb günündə qızılları da, gümüşləri də onları qurtara bilməyəcək… Rəbb ölkədə yaşayanların hamısını qorxunc bir sona uğradacaq. (Sefenya, 1:18)

**QURAN: Haqqı inkar edənlərin nə malları, nə də övladları onları Allah yanında heç bir şeydən qurtara bilməz. Əlbəttə, onlar cəhənnəm odunun yanacağıdırlar! (Ali-İmran surəsi, 10)**

**Allahın nemətlərinin sayıla bilməyəcək qədər çox olması:**

TÖVRAT: Ya Rəbb, Allahım, möcüzələrin, düşüncələrin necə də çoxdur bizim üçün; Sənə ortaq qoşulmaz! Eşitdirmək, bildirmək istəsəm etdiklərini, saymaqla bitməz. (Zəbur, 40:5)

**QURAN: Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 18)**

**Allahın dilədiyini ucaldıb, dilədiyini də alçaltması:**

TÖVRAT: Hakim olan ancaq Allahdır, birisini alçaldar və birisini yüksəldər. (Zəbur, 75:7)

**QURAN: Özlərini təmizə çıxaranları görmürsənmi? Xeyr. Allah istədiyini təmizə çıxardar və onlara xurma çərdəyindəki nazik tel qədər zülm olunmaz! (Nisa surəsi, 49)**

TÖVRAT: O kimisini yoxsul, kimisini varlı edər; kimisini alçaldar, kimisini də yüksəldər… Yer üzünün təməlləri Rəbbindir… (1 Şamuel, 2:7-8)

**QURAN: De: "Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən! (Ali-İmran surəsi, 26)**

**İnsanların öz etdikləri pisliklərin cəzasını çəkmələri:**

TÖVRAT: Başımıza gələnlərə etdiyimiz pisliklər və böyük günahımız səbəb oldu. Sən ey Allahımız, bizi layiq olduğumuzdan daha az cəzalandırdın... (Ezra, 9:13)

**QURAN: Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların ucbatındandır! Allah çoxunu əfv edər. (Şura surəsi, 30)**

**Əxlaqsızların qaş-göz hərəkətləri ilə razılaşmaları:**

TÖVRAT: Ağzında yalanla gəzən adam mənfur və fəsadçıdır. Göz qırpar, bir çox ayaq və əl-qol hərəkətləri edər. Əxlaqsız qəlbində pislik hazırlayar, dayanmadan çəkişmə yaradar. (Süleymanın məsəlləri, 6:12-14)

**QURAN: (Dalda) qeybət edib (üzdə) tənə vuran hər kəsin vay halına! (Huməzə surəsi, 1)**

**İnkar edənlərin göz və qulaq hisslərinin yox olması:**

TÖVRAT: "Get, bu xalqa bunu eşitdir" dedi, "Eşidib, eşidib, amma anlamayacaqsınız; baxıb,baxıb, amma görməyəcəksiniz!" (Yeşaya, 6:9)

TÖVRAT: Rəbb mənə belə səsləndi: "Adəm oğlu, üsyankar bir xalqın arasında yaşayırsan. Gözləri varkən görmür, qulaqları varkən eşitmirlər. Çünki bu xalq üsyankardır." (Yezekel, 12:1-3)

**QURAN: Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)**

TÖVRAT: Ey karlar, eşidin; ey korlar, baxın görün!... Bir çox şey gördünüz, amma əhəmiyyət vermirsiniz, qulaqlarınız açıqdır, amma eşitmirsiniz. (Yeşaya, 42:18, 20)

**QURAN Sənmi karlara eşitdirəcəksən, yaxud korları və aşkar azğınlıq içində olanları doğru yola yönəldəcəksən? (Zuxruf surəsi, 40)**

**İman edənlərin pisliyə yaxşılıqla cavab vermələri:**

TÖVRAT: Düşmənin acıbsa, doyur və susayıbsa, su ver. Bunu etməklə onu utandırarsan və Rəbb səni mükafatlandırar. (Zəbur, 25:21-22)

**QURAN: Yaxşılıqla pislik eyni ola bilməz! Sən yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən! (Fussilət surəsi, 34)**

**Allahın ruzi verən olması:**

TÖVRAT: Hər kəsin ümidi Sənədir, onlara yeməklərini vaxtında verən Sənsən... Bütün canlıları doyurarsan istədiklərində. (Zəbur 145:15-16)

**QURAN: Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. (Allah) onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. (Bunların) hamısı açıq-aydın Yazıdadır (Lövhi-məhfuzdadır). (Hud surəsi, 6)**

**Heç bir şeyin Allahdan gizli qalmaması:**

TÖVRAT: (Allah) Dərin və gizli şeyləri ortaya çıxarar, qaranlıqda nələr olduğunu bilər, ətrafı işıqla əhatə edilmişdir. (Daniel, 2:22)

TÖVRAT: Allah hər işi, hər gizli şeyi mühakimə edəcək, istər yaxşı və ya istər pis olsun. (Vaiz, 12:14)

TÖVRAT: Ağılsızlığımı bilirsən ey Allah, günahlarım Səndən gizli deyil. (Zəbur, 69:5)

**QURAN: Göylərdə, yerdə, onların arasında və torpağın altında nə varsa, Ona məxsusdur. Sən ucadan danışsan da (danışmasan da, fərqi yoxdur). Çünki (Allah) sirri də, (bundan) daha gizli olanı da bilir. (Taha surəsi, 6-7)**

**QURAN: Ey Rəbbimiz! Sən bizim gizli saxladığımız və aşkar etdiyimiz hər şeyi bilirsən. Yerdə də, göydə də Allahdan gizli heç bir şey qalmaz! (İbrahim surəsi, 38)**

**QURAN: İstər sözünüzü gizli saxlayın, istər açıq deyin. (Allah) ürəklərdə olanları biləndir! (Mülk surəsi, 13)**

**Heç kim başqasının günahı ilə yüklənə bilməz:**

TÖVRAT: … Oğul atasının günahından məsul ola bilməz, ata da oğlunun günahından məsul ola bilməz. Doğru adam doğruluğunun, pis adam pisliyinin qarşılığını alacaq. (Yezekel, 18:20)

**QURAN: Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz** ... (İsra surəsi, 15)

**Allaha təvəkkül etməyənlərin nümunəsi:**

TÖVRAT: Allahı unudan hər kəsin sonu belədir, Allahsız insanın ümidi belə yox olar. Onun güvəndiyi şey məhv olar, dayağı isə bir hörümçək torudur. Hörümçək toruna söykənər, amma tor çökər, ona yapışar, amma tor saxlamaz. (Əyyub, 8:13-15)

**QURAN: Allahdan başqa özlərinə dost qəbul edənlər özünə yuva qurmuş hörümçəyə bənzəyirlər. Evlərin ən zəifi isə, şübhəsiz ki, hörümçək yuvasıdır. Kaş biləydilər! (Ənkəbut surəsi 41)**

**Yaxşılıq və ya pislik edənlər qarşılığını alacaqlar:**

TÖVRAT: Düz adama yaxşılıq görəcəyini söyləyin. Çünki yaxşılıqlarının meyvəsini yeyəcək. Vay pislərin halına! Pislik görəcək, etdiklərinin qarşılığını alacaqlar. (Yeşaya 3: 10-11)

**QURAN: Yaxşı işlər görənləri Cənnət və daha artıq mükafat (Allah rizası) gözləyir. Onların üzünə nə bir toz (ləkə), nə də bir zillət qonar. Onlar cənnətlikdirlər və orada əbədi qalacaqlar! Günah qazananlara günahları qədər cəza verilər. Onları zillət basar (bürüyər). Onları Allahdan (Allahın əzabından) heç kəs qurtara bilməz. Onların üzü, sanki gecənin zülmət parçaları ilə örtülmüşdür. Onlar cəhənnəmlikdirlər, özləri də orada əbədi qalacaqlar! (Yunus surəsi, 26-27)**

**Günahkarlar dərhal cəzalandırılsaydı, yer üzündə heç kim qalmazdı:**

TÖVRAT: Dərinliklərdən Sənə səslənirəm ya Rəbb... Ya Rəbb, Sən günahların hesabını çəksən, kim həyatda qala bilər ya Rəbb? (Zəbur, 130:1-3)

**QURAN: Əgər Allah insanları zülmləri üzündən cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ buraxmazdı. Lakin (Allah) onlara müəyyən müddət möhlət verər. Əcəlləri gəlib çatdıqda isə bircə saat belə nə geri qalar, nə də irəli keçə bilərlər. (Nəhl surəsi, 61)**

**Allahın birliyi:**

TÖVRAT: Sonunda dünyanın bütün xalqları bilsinlər ki, tək Allah Rəbbdir və Ondan başqa Allah yoxdur. (1 Padşahlar, 8:60)

**QURAN: Sizin ilahınız Tək olan İlahdır. Ondan başqa ilah yoxdur, Mərhəmətlidir, Rəhmlidir.... (Bəqərə surəsi, 163)**

**Allahın əsirgəyən və sevən olması:**

TÖVRAT: ... "Mən Rəbbəm" dedi, "Rəbb acıyan, lütf edən... sevgisi dərindir... Minlərlə insana sevgi göstərər, günahlarını və üsyanlarını bağışlayaram…" (Misirdən çıxış, 34:6)

TÖVRAT: Bütün günahlarını bağışlayan… Odur… Rəbb mehriban və lütf edəndir… Sevgisi dərindir. (Zəbur, 103:3-8)

**QURAN: Rəbbinizdən bağışlanmağınızı diləyin və Ona tövbə edin. Həqiqətən, Rəbbim rəhm edəndir, sevəndir!" (Hud surəsi, 90)**

**QURAN: Çox bağışlayan, çox sevən də Odur. (Buruc surəsi, 14)**

**Allahın Öz yolunda olanları müvəffəqiyyətə çatdırması:**

TÖVRAT: Allahın Rəbbin verdiyi vəzifələri yerinə yetir. Onun yollarında get... Allahın qaydalarına, buyruqlarına, qanunlarına və öyüdlərinə tabe ol ki, etdiyin hər şeydə və getdiyin hər yerdə müvəffəqiyyətli olasan. (1 Padşahlar, 2: 3)

**QURAN: Kim Allahı, Onun Elçisini və iman gətirənləri (özünə )dost tutarsa, (bilsin ki,) qələbə çalanlar da məhz Allahın firqəsidir. (Maidə surəsi, 56)**

**Allah yeri, göyü və ikisinin arasındakıları yaradandır:**

TÖVRAT: Yeri, göyü, dənizi və içindəki hər şeyi yaradan... Odur. (Zəbur, 146:6-7)

**QURAN: Göyləri, yeri və onların arasındakıları altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. Sizin Ondan başqa nə bir haminiz, nə də bir şəfaətçiniz vardır. Məgər düşünərək ibrət götürməyəcəksiniz? (Səcdə surəsi, 4)**

**İman edənlərin Allaha ümidlə bağlı olmaları:**

TÖVRAT: Ümidini Rəbbə bağla, güclü və ürəkli ol; ümidini Rəbbə bağla! (Zəbur, 27:14)

TÖVRAT: Sənə ümid bağlayan heç kim utanmaz… Mənə gerçək yolunda öndərlik et, öyrət məni; çünki məni qurtaran Allah Sənsən. Bütün gün ümidim Sənədir. (Zəbur, 25:3-5)

**QURAN: (Qullarıma mənim bu sözümü) de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin... (Zumər surəsi, 53)**

**QURAN: Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə (kafirlə eynidirmi?) De: “Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? (Bundan) ancaq ağıl sahibləri düşünüb ibrət alarlar”. (Zumər surəsi, 9)**

**Qulaqları və gözləri yaradandır:**

TÖVRAT: Eşidən qulağı da, görən gözü də Rəbb yaratmışdır. (Süleymanın məsəlləri, 20:12)

**QURAN: Sizə qulaq, göz və ürək verən Odur. Siz çox az şükür edirsiniz. (Muminun surəsi, 78)**

**Hər şeyin Allahın əmri ilə bir anda olması:**

TÖVRAT: ... O söyləyincə hər şey var oldu; O buyurunca hər şey meydana çıxdı. (Zəbur, 33: 9)

**QURAN: Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: “Ol!”– deyər, o da olar. (Bəqərə surəsi, 117)**

**Hidayət verən (doğru yola çatdıran) Allahdır:**

TÖVRAT: Etdiyin hər işdə Rəbbi an, O, sənin yolunu düzə çıxarar. "Bütün yollarında onu tanı, O da sənin yollarını yönəldər. (Süleymanın məsəlləri, 3:6)

**QURAN: Doğru yol göstərmək Allaha aiddir. Əyri yollar da vardır. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi. (Nəhl surəsi, 9)**

**Allah Özünə sığınılandır:**

TÖVRAT: Belə dedi: "Rəbb mənim gücüm, sığınacağım, xilaskarımdır... Özünə sığınan hər kəsin qalxanıdır (qoruyucusudur). (2 Şamuel, 22:2, 31)

TÖVRAT: Rəbb yaxşıdır, sığınacaqdır çətinlik anında. Qoruyar Özünə sığınanları. (Nahum, 1:7)

**QURAN: Rəbbinin Kitabından sənə vəhy olunanları oxu. Onun kəlmələrini heç kəs dəyişdirə bilməz. Ondan başqa heç bir sığınacaq tapa bilməzsən. (Kəhf surəsi, 27)**

**QURAN: De: “Həqiqətən, məni Allahdan kimsə xilas edə bilməz və mən Ondan başqa bir pənah yeri tapa bilmərəm! (Cinn surəsi, 22)**

**Qiyamət günü yer üzünün düzləşməsi:**

TÖVRAT: Hər vadi yüksəldiləcək, hər dağ və hər təpə alçaldılacaq. Beləliklə, kələ-kötür yerlər düzləşdiriləcək, sıldırımlı yerlər düzənliyə çevriləcək. O zaman Rəbbin ucalığı görünəcək... Bunu söyləyən Rəbbdir. (Yeşaya, 40:4-5)

**QURAN: O gün Biz dağları hərəkətə gətirəcəyik. (O vaxt) yerin dümdüz olduğunu görəcəksən. Biz hamını bir yerə toplayacaq, onlardan heç birini (kənara) buraxmayacağıq. (Kəhf surəsi, 47)**

**Yaşadan və öldürən Allahdır:**

TÖVRAT: Artıq anlayın ki, Mən, bəli Mən Oyam, Məndən başqa Allah yoxdur! Öldürən də, yaşadan da, yaralayan da, sağaldan da Mənəm... (Qanunun təkrarı, 32:39)

TÖVRAT: Rəbb öldürər də, dirildər də... (2 Şamuel, 2: 6)

**QURAN: Dirildən də, öldürən də Odur. Gecə və gündüzü bir-birinin ardınca gedib-gəlməsi də Onun əmrilədir. Məgər dərk etmirsiniz? (Muminun surəsi, 80)**

**QURAN: Öldürən də, dirildən də Odur! (Nəcm surəsi, 44)**

**Allahın bütün canlıları insanlara nemət olaraq verməsi:**

TÖVRAT: Budur, yer üzündə toxum verən hər otu, toxumu meyvəsində olan hər meyvə ağacını sizə verirəm. Bunlar yeməyiniz olacaq. (Yaradılış, 1:29)

TÖVRAT: Bütün canlılar yeməyiniz olacaq. Yaşıl bitkilər olmaqla hamısını sizə verirəm. (Yaradılış, 9:3)

**QURAN: Davarı da O yaratdı. Bunlarda sizin üçün istilik, cürbəcür mənfəət vardır, həm də onlardan yeyirsiniz. (Nəhl surəsi, 5)**

**QURAN: Yer üzündə yaratdığı cürbəcür şeyləri də sizin ixtiyarınıza verdi. Öyüd-nəsihət qəbul edənlər üçün, sözsüz ki, bunda da əlamətlər vardır! Təzə ət yeməyiniz, taxdığınız bəzək şeylərini çıxartmağınız üçün dənizi də sizə ram edən Odur.... (Nəhl surəsi, 13-14)**

**Allahın istədiyini ucaldıb, istədiyini alçaltması; istədiyinə mülk verməsi:**

TÖVRAT: Hakim olan ancaq Allahdır, birisini alçaldar və birisini yüksəldər. (Zəbur, 75:7)

TÖVRAT: O, kimisini yoxsul, kimisini varlı edər; kimisini alçaldar, kimisini yüksəldər. Yer üzünün təməlləri Rəbbindir. (1 Şamuel, 2:7-8)

**QURAN: De: "Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən! (Ali-İmran surəsi, 26)**

**QURAN: Özlərini təmizə çıxaranları görmürsənmi? Xeyr. Allah istədiyini təmizə çıxardar və onlara xurma çərdəyindəki nazik tel qədər zülm olunmaz! (Nisa surəsi, 49)**

**İman edənlərin Allahdan başqa heç kimdən qorxmaması:**

TÖVRAT: Qüvvətli və ürəkli olun, çəkinməyin və onların üzlərindən qorxmayın, çünki səninlə birlikdə gedən (sənə dəstək olan) Allahın Rəbbdir, səni boşa çıxarmaz və səni buraxmaz. (Qanunun təkrarı, 31:6)

TÖVRAT: ... Və sənin qarşında gedən (sənə yol göstərən) Rəbbdir. O, səninlə olacaq, səni boşa çıxarmaz və səni buraxmaz, çəkinmə və qorxuya düşmə. (Tensiye 31:8)

TÖVRAT: Güclü və ürəkli olun! Asar şahından və yanındakı böyük ordudan qorxmayın, çəkinməyin. Çünki bizimlə olan, onunla olandan daha üstündür. (2 Salnamələr, 32: 7)

**QURAN: Onlar dedilər: "Ey Rəbbimiz! Biz, onun bizə şiddətli cəza verməsindən və ya həddini aşmasından qorxuruq". (Allah) buyurdu: "Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm! (Ta ha surəsi, 45-46)**

**QURAN: Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub (deyirlər:) "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! (Fussilət surəsi, 30)**

**Göylərdəki nizam:**

TÖVRAT: Başınızı qaldırıb göylərə baxın. Kim yaratdı bütün bunları? Ulduzları sıra ilə aşkar edir, hər birini adı ilə çağırır. Böyük qüdrəti, üstün gücü sayəsində hamısı yerində dayanır. (Yeşaya, 40:26)

**QURAN: Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Mərhəmətli (Allahın) yaratdığında qətiyyən bir uyuşmazlıq tapmazsan. Bir başını qaldırıb (göyə) diqqət yetir, heç onda bir çat görürsənmi? Sonra göz gəzdirib təkrar bax. Göz zəlil və yorğun halda özünə tərəf dönəcəkdir. (Mülk surəsi, 3-4)**

**Allahın insana şəkil verməsi:**

TÖVRAT: ... Ey ağılsız və müdriklikdən məhrum xalq! Sizi yaradan, sizə şəkil verən... Yaradıcınız O deyilmi? (Qanunun təkrarı, 32:6)

**QURAN: Mən ona biçim verib Öz ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!" (Hicr surəsi, 29)**

**QURAN: Bətnlərdə sizə istədiyi surəti verən Odur. Ondan başqa ilah yoxdur, Qüdrətlidir, Müdrikdir. (Ali-İmran surəsi, 6)**

## *ƏLAVƏ HİSSƏ*

Nə xoş o insana ki, pislərin öyüdü ilə getməz, günahkarların yolunda durmaz, istehzaçıların arasında oturmaz. Ancaq zövqünü Rəbbin qanunundan alar və gecə-gündüz onun üzərində dərin düşünər. Beləsi axar su sahillərinə əkilmiş ağaca bənzəyir, meyvəsini mövsümündə verər, yarpağı heç solmaz. Etdiyi hər işi bacarır. Pislər belə deyil, küləyin sovurduğu saman çöpünə bənzərlər. Buna görə, mühakimə olununca bağışlana bilməz; doğrular birliyində yer tapa bilməz günahkarlar. Çünki Rəbb doğruların yoluna diqqət edər, pislərin yolu isə ölümə aparar. (Zəbur, 1:1-6)

Nədir xalqlar arasındakı bu qarışıqlıq, niyə mənasız nizamlar qurur bu xalqlar? Dünyanın padşahları cərgə düzüb hökmdarlar birləşir Rəbbə... qarşı... Ey padşahlar, ağıllı olun! Ey dünya öndərləri, dərs alın! Rəbbə qorxu ilə xidmət edin, titrəyərək sevinin. (Zəbur, 2:1, 10-11)

Ya Rəbb, düşmənlərim nə qədər çoxaldı, hələ mənə qarşı qiyam qaldıranlar! Bir çoxu mənim üçün: "Allah qatında ona qurtuluş yoxdur!" deyir. Amma Sən ya Rəbb, ətrafımda qalxansan (məni qoruyansan), şərəfim, başımı yuxarı qaldıran Sənsən. Rəbbə səslənərəm, cavablayar məni... Uzanıb yataram, oyanıb qalxaram, Rəbb dəstəkdir mənə. Qorxum yoxdur ətrafımı sarıyan minlərlə düşməndən. Ya Rəbb... Ey Allahım, qurtar məni!... Qurtuluş Rəbbdədir, xalqının üzərində olsun bərəkətin! (Zəbur, 3:1-8)

Sənə səslənincə cavabla məni, ey ədalətli Allahım! Fərahlıq ver mənə çətinliyə düşəndə, lütf et mənə, dinlə duamı. Ey insanlar... Nə vaxtadək mənasız şeylərə könül verib yalan arxasında qaçacaqsınız... Günah işləməyin; yaxşı düşünün yatağınızda... Ona güvənin... Ya Rəbb, üzünün nuruyla bizi aydınlat! Elə bir sevinc verdin ki, mənə... Xoşbəxtliklə uzanıb yatıram, çünki tək Sən ya Rəbb, güvənlikdə tutursan məni. (Zəbur, 4:1-8)

Sözlərimi dinlə ya Rəbb, iltimasımı eşit. Fəryadımı dinlə... Allahım! Duam Sənədir. Səhər səsimi eşidirsən ya Rəbb, hər səhər Sənə dua edər, ümidlə gözləyərəm... Pislik Sənə sığınmaz. Lovğalananlar qarşında dura bilməz... Ya Rəbb, Sən əli qanlılardan, hiyləgərlərdən xoşlanmazsan və razı olmazsan. Mən isə bol sevgin sayəsində Müqəddəs Məscidinə girəcəyəm; oraya tərəf hörmətlə əyiləcəyəm. Yol göstər mənə doğruluğunla ya Rəbb... Yolunu önümdə düzləşdir. Çünki onların sözünə güvənmək olmaz, qəlbləri fitnə ilə doludur. Ağızları açıq bir məzardır, vicdansız davranarlar. Ey Allah... Qurduqları nizam müsibətlərinə gətirib çıxarsın. Qov onları saysız üsyanları üzündən. Çünki Sənə qarşı qiyam qaldırdılar. Sevinsin Sənə sığınan hər kəs, sevinc səsləri ucaltsın davamlı, çünki onları Sən qoruyarsan; sevinclə coşsun adını sevənlər Səndə. Çünki Sən doğru adamı müqəddəs edərsən ya Rəbb, ətrafını qalxan kimi lütfünlə sarıyarsan. (Zəbur, 5:1-12)

Ya Rəbb... Məni qəzəblə yola gətirmə. Lütf et mənə ya Rəbb, əldən düşmüşəm; şəfa ver mənə ya Rəbb, sümüklərim sızlayır, çox acı çəkirəm. Ah, ya Rəbb!... Qurtar məni, kömək et sevgin səbəbiylə. (Zəbur, 6:1-4)

Sənə sığınıram ya Rəbb, Allahım! Arxamca gələnlərdən qurtar məni, azad et.... Buyur, ədalət olsun... Rəbb xalqları mühakimə edir; məni də mühakimə et ya Rəbb, doğruluğuma, dürüstlüyümə görə. Ey ədalətli Allahım! Pislərin pisliyi sona çatsın, doğrular güvənliyə qovuşsun, Sən ki ağılları, könülləri sınayırsan. Allah qalxan kimi yanımdadır, təmiz ürəkliləri O qurtarar. Allah ədalətli hakimdir... Budur, pis insan pislik sancısı çəkir, fəsada hamilə qalıb yalan doğur. Bir quyu qazır, qazdığı quyuya özü düşür. Pisliyi öz başına gələcək, zülmü öz təpəsinə enəcək. Şükr edim doğruluğu üçün Rəbbə, uca Rəbbin adını ilahilərlə tərifləyim. (Zəbur, 7:1, 7-11, 14-17)

Ey hakimimiz Rəbb, necə də uca Adın var bütün yer üzündə! Göy üzünü əzəmətinlə örtdün. Seyr edərkən əllərinin əsəri olan göyləri, oraya qoyduğun ayı və ulduzları, soruşuram özümdən: "İnsan nədir ki, onu anasan və ya Adəm oğlu nədir ki, ona maraq göstərəsən?"... Başına ucalıq və şərəf tacını qoydun. Əllərinin əsərləri (yaratdıqlarının) üzərinə onu hakim etdin, hər şeyi ayaqlarının altına sərdin; davarları, malları, vəhşi heyvanları, göydəki quşları, dənizdəki balıqları, dənizdə hərəkət edən bütün canlıları. Ey hakimimiz Rəbb, necə də uca Adın var bütün yer üzündə! (Zəbur, 8:1-9)

Ya Rəbb, bütün qəlbimlə Sənə şükr edəcəyəm, yaratdığın möcüzələrin hamısını bildirəcəyəm. Səndə sevinc tapıb coşacağam, Adını ilahilərlə tərifləyəcəyəm ey ucalar ucası! Çünki haqqımı, mühakiməmi ədalətli hakim kimi Sən müdafiə etdin... Təməlindən dağıtdığın şəhərlərə gəldikdə onların xatirələri belə silinib getdi. Halbuki Rəbb sonsuza qədər hökmranlıq edər, mühakimə üçün qurmuşdur hökmdarlığını; O idarə edər düzgünlüklə dünyanı, O mühakimə edər ədalətlə xalqları. Rəbb əzilənlər üçün bir sığınacaq, çətin günlərdə bir qaladır. Səni tanıyanlar Sənə güvənər, çünki Sənə yönələnləri heç tərk etmədin ya Rəbb... Rəbbi ilahilərlə tərifləyin! Etdiklərini xalqlar arasında eşitdirin!... Əzilənlərin fəryadını unutmaz. Acı mənə ya Rəbb!... Tərifə dəyər işlərini bildirim (Təriflə Səni anım)... Verdiyin qurtuluşla sevinim. Xalqlar öz qazdıqları quyuya düşdü, ayaqları gizlədikləri tora ilişdi. Ədalətli mühakimələri ilə Rəbb Özünü göstərdi, pislər öz qurduqları tələyə düşdü. Pislər ölülər diyarına (Cəhənnəmə) gedəcək, Allahı unudan bütün xalqlar... Amma yoxsul tamamilə unudulmayacaq, məzlumun ümidi sonsuza qədər itməyəcək. (Zəbur, 9:1-18)

Ya Rəbb... Pis insan daxilindəki istəklərlə öyünər... Özünü bəyənmiş pis insan Allaha yönəlməz... Elə ucadır ki, Sənin mühakimələrin pislər anlaya bilməz... Daxilindən "Mən sarsılmaram" deyər, "Heç bir zaman çətinliyə düşmərəm". Ağzı lənət, hiylə və zülmlə doludur, dilində pislik və fəsad gizlənmişdir. Kəndlərin ətrafında tələ qurar, günahsızı gizli yerlərdə öldürər, çarəsizi hiyləgərliklə güdər. Gizli yerlərdə pusqu qurar kolluqdakı aslan kimi, qapmaq üçün məzlumu gözləyər və toruna salıb tutar... Ya Rəbb... Halbuki Sən çətinlik və acı çəkənləri görürsən, kömək etmək üçün onları izləyirsən; çarəsizlər Sənə söykənər, yetimin köməkçisi Sənsən... Məzlumların diləyini eşidərsən ya Rəbb, ürəkləndirərsən onları, qulağın həmişə üzərlərindədir; yetimə, düşkünə haqqını vermək üçün, bir daha dəhşət saçmasın ölümlü insan. (Zəbur, 10:1-18)

Mən Rəbbə sığınıram... Bütün insanları görür, hər kəsi sınayır. Rəbb doğru insanı sınayar, pisdən, zülmü sevəndən xoşlanmaz, razı olmazsan. Pislərin üzərinə qızğın kömür və kükürd yağdıracaq, paylarına düşən kasa sovuran külək olacaq. Çünki Rəbb doğrudur, doğruları sevər; dürüst insanlar Onun üzünü görəcək. Qurtar məni ya Rəbb, sadiq qulun qalmadı, etibarlı insanlar yox oldu. Hamı bir-birinə yalan danışır, yaltaqlıq, ikiüzlülük edir. Susdursun Rəbb yaltaqların ağzını, böyüklənən dilləri. Onlar "Dilimizlə qazanırıq, dodaqlarımız əmrimizdədir, kim bizə ağalıq edə bilər?" deyərlər... Rəbbin sözləri pak sözlərdir; torpaq ocaqda əridilmiş, yeddi dəfə təmişlənmiş gümüşə bənzəyir. Sən onları qoru ya Rəbb, bu pis nəsildən həmişə uzaq tut! İnsanlar arasında alçaqlıq rəğbət görüncə pislər hər yanda dolaşmağa başladı. (Zəbur, 11:1-7)

Gör halımı ya Rəbb... Mən Sənin sevginə güvənirəm, qəlbim xilasınla coşsun. Səni tərənnüm edəcəyəm ya Rəbb, çünki yaxşılıq etdin mənə. (Zəbur, 13:3-6)

Ya Rəbb... Qüsursuz həyat sürən, ədalətli davranan, ürəkdən həqiqəti söyləyən. Böhtan atmaz, dostuna zərər verməz, qonşusunun qeybətini etməz beləsi. Alçaq insanları xor görər, amma Rəbbdən qorxanlara hörmət edər. Öz zərərinə and içsə belə, dönməz andından. Pulunu faizə verməz, günahsıza qarşı rüşvət almaz. Belə yaşayan əsla sarsılmayacaq. (Zəbur, 15:1-5)

Qoru məni ey Allah, çünki Sənə sığınıram. Rəbbə dedim ki, "Böyüyüm Sənsən. Səndən kənar xoşbəxtlik yoxdur mənim üçün"... Başqa ilahların ardınca qaçanların dərdi artacaq. Onların... adlarını ağzıma almayacağam. Mənim payıma, mənim kasama düşəni təyin edən Sənsən ya Rəbb; həyatım Sənin əllərindədir (Sənin təqdirindədir). Payıma necə gözəl yerlər düşdü, necə möcüzə bir mirasım var! Tərifləyərəm mənə öyüd verən Rəbbi, gecələr belə vicdanım xəbərdar edər məni. Gözümü Rəbbdən ayırmaram, sağımda dayandığı üçün sarsılmaram. Bu səbəblə qəlbim sevinc doludur, ürəyim coşur, bədənim güvənlik içindədir. Çünki Sən məni ölülər diyarına (Cəhənnəmə) tərk etməzsən, sadiq qulunun çürüməsinə izn verməzsən. Həyat yolunu mənə bildirərsən. Bol sevinc vardır Sənin hüzurunda, sağ əlindən xoşbəxtlik azalmaz. (Zəbur, 16:1-11)

Hiyləsiz dodaqlardan çıxan duamı dinlə! Haqlı çıxar məni, çünki Sən gerçəyi görürsən. Qəlbimi yoxladın, gecə yoxladın, sınadın məni, pis bir şey tapmadın; qərarlıyam, ağzımdan pis söz çıxmaz, başqalarının etdiklərinə gəlincə, mən Sənin sözlərinə uyub qəddarlıq yollarından qaçdım. Möhkəm addımlarla Sənin yollarını tutdum, sürüşmədi ayaqlarım. Sənə yalvarıram ey Allah, çünki məni cavablayarsan... Göstər möcüzəvi sevgini, ey Sənə sığınanları təcavüzkarlardan sağ əli ilə qurtaran (inayəti ilə qoruyan)! Qoru məni göz bəbəyi kimi; qanadlarının gölgəsində gizlə pislərin hücumundan, ətrafımı sarıyan öldürücü düşmənlərimdən. Ürəkləri yağ bağlamışdır, ağızları böyük danışır. İzimi tapdılar, üzərimə gəlirlər, yerə

vurmaq üçün göz qoyurlar. Eynilə parçalamaq üçün səbirsiz bir aslan, pusqu quran gənc bir aslan kimi... ya Rəbb, kəs önlərini, əy başlarını!... Qurtar məni pislərdən... ya Rəbb, həyat payı bu dünyada olan insanlardan... (Zəbur, 17:1-15)

Səni sevirəm, gücüm Sənsən ya Rəbb! Rəbb mənim dayağım, sığınacağım, xilaskarımdır Allahım; dayağım, sığınacaq yerim, qalxanım (qoruyucum), güclü xilaskarım, himayəmdir!... Çətinlikdə Rəbbə yalvardım, köməyə çağırdım Allahımı... Səsimi eşitdi... O zaman yer üzü sarsılıb silkələndi, titrəyib sarsıldı dağların təmәlləri, Rəbb... çıxardı məni dərin sulardan. Məni məndən nifrət edənlərdən qurtardı, çünki onlar məndən güclü idi. Müsibət günümdə qarşıma çıxdılar, amma Rəbb mənə dəstək oldu. Məni hüzura qovuşdurdu, qurtardı, çünki məndən razı qaldı. Rəbb doğruluğumun qarşılığını verdi, məni təmiz əllərimə görə mükafatlandırdı. Çünki Rəbbin yolunda getdim, Allahımdan uzaqlaşaraq pislik etmədim. Onun bütün qanunlarını gözümün önündə tutdum, qaydalarından ayrılmadım. Onunla kamiləm və cinayət törətməkdən çəkindim. Buna görə Rəbb məni doğruluğuma və nəzərində pak olan əllərimə görə mükafatlandırdı. Mərhəmətli quluna mərhəmət göstərərsən... Təvazökarları qurtarar, qürurlulara boyun əydirərsən. nurumun qaynağı Sənsən ya Rəbb, Allahım! Qaranlığımı nurlandırarsan... Allahın yolu qüsursuzdur, Rəbbin sözü pak edər. O, Özünə sığınan hər kəsin qalxanıdır. Varmı Rəbbdən başqa Allah? Allahımızdan başqa dayaq varmı? Allah mənə güc verər, yolumu qüsursuz edər. Ayaq verdi mənə, marallarınkı kimi və zirvələrdə tutar məni... Addım atdığım yerləri genişləndirərsən, burxulmaz biləklərim... Rəbb yaşayır! Dayağıma (Allahıma) təriflər olsun! Ucalsın xilaskarım Allah!... Düşmənlərimdən qurtarar, qiyamçılardan üstün edər məni, zalımların əlindən alar. Buna görə xalqlar arasında Sənə şükr edəcəyəm ya Rəbb, adını ilahilərlə tərifləyəcəyəm. Rəbb padşahını böyük zəfərlərə çatdırar. (Zəbur, 18:1-49)

Göylər Allahın əzəmətini əks etdirir, göy qübbəsi əllərinin əsərini eşitdirir. Gün günə söz söyləyər, gecə gecəyə məlumat verər... Göyün bir ucundan çıxar, o biri ucuna dönər, heç bir şey gizlənməz istiliyindən. Rəbbin qanunu kamildir, cana can qatar, Rəbbin buyruqları etibarlıdır,  saf adama müdriklik verər, Rəbbin qaydaları doğrudur, qəlbi sevindirər, Rəbbin buyruqları pak edər, gözləri nurlandırar. Rəbb qorxusu pakdır, sonsuza qədər qalar, Rəbbin qanunları gerçək və tamamilə ədalətlidir. Onlara qızıldan, bol miqdarda saf qızıldan çox istək duyular, onlar baldan, süzmə baldan şirindir. Xəbərdar edərlər qulunu, onlara uyanların mükafatı böyükdür. Kim səhvlərini görə bilər? Bağışla görə bilmədiyim qüsurlarımı, bilərək işlənən günahlardan qoru qulunu, izn vermə mənə hakim olmalarına! O zaman böyük üsyandan uzaq, kamil olaram. Ağzımdan çıxan sözlər, qəlbimdəki düşüncələr Səndən qəbul görsün ya Rəbb, dayağım, xilaskarım mənim! (Zəbur, 19:1-14)

Çətin günündə Rəbb səni cavablasın... səni qorusun! Kömək göndərsin sənə... Bəziləri döyüş arabalarına, bəziləri də atlarına güvənər; biz isə Allahımız Rəbbə güvənirik. Onlar çöküb yıxılırlar; biz isə qalxıb dik dururuq. Ya Rəbb... Cavabla bizi Sənə yalvardığımız gün! (Zəbur, 20:1-9)

Ya Rəbb, padşah sevinir göstərdiyin gücə... Üzərinə davamlı bərəkət yağdırdın, varlığınla onu sevincə qərq etdin. Çünki padşah Rəbbə güvənər və ucalar ucasının sevgisi sayəsində sarsılmaz... Saflar qursalar Sənə, aldatmağa çalışsalar, yenə də müvəffəqiyyətli ola bilməzlər... Ucalığını göstər ya Rəbb, gücünlə! Səni tərənnüm edib ilahilərlə tərifləyəcəyik qüdrətini. (Zəbur, 21:1-13)

Sənə güvəndilər atalarımız, Sənə söykəndirlər, onları qurtardın. Sənə yalvarıb xilas oldular, Sənə güvəndilər, aldanmadılar... Məni ana rəhmindən çıxaran, ana qucağında ikən Sənə güvənməyi öyrədən Sənsən. Doğulduğumdan bəri Sənə təslim edildim, ana rəhmindən bəri Allahım Sənsən... Ya Rəbb ... Ey gücüm mənim... Qurtar məni aslanın ağzından, vəhşi öküzlərin buynuzundan. (Zəbur, 22:4-21)

Adını qardaşlarıma eşitdirim, topluluğun ortasında Sənə təriflər deyim: Ey sizlər, Rəbbdən qorxanlar, Ona təriflər deyin!... Onu ucaldın!... Ona hörmət göstərin!... Tərif mövzum Sən olacaqsan böyük topluluqda, Səndən qorxanların qarşısında yerinə yetirəcəyəm əhdlərimi. Yoxsullar yeyib doyacaq, Rəbbə yönələnlər Ona tərif deyəcək... Yer üzünün dörd tərəfi xatırlayıb Rəbbə dönəcək, xalqların bütün soyları Onun qarşısında yerə qapanacaq. Çünki hökmranlıq Rəbbindir, xalqları O idarə edər. Yer üzündəki bütün varlılar... Onun qarşısında yerə qapanacaq, torpağa gedənlər, ölümlərinə maneə ola bilməyənlər əyiləcəklər Onun qarşısında. Gələcək nəsillər Ona qulluq edəcək, Rəbb yeni nəsillərə danışılacaq. Onun xilasını "Rəbb etdi bunları" deyərək hələ doğulmamış bir xalqa (gələcək nəsillərə) eşitdirəcəklər. (Zəbur, 22:22-31)

Rəbb yol göstərənimdir, bir nöqsanım olmaz. Məni yamyaşıl çəmənlikdə yatırdar, sakit suların sahilinə aparar. Ruhumu təzələyər, Adı uğruna mənə doğru yollarda öndər olar. Qaranlıq ölüm vadisindən keçsəm belə, pislikdən qorxmaram. Çünki Sən mənimləsən. Ömrüm boyunca tək yaxşılıq və sevgi izləyəcək məni, həmişə Rəbbin evində oturacağam. (Zəbur, 23:1-6)

Rəbbindir yer üzü və içindəki hər şey, dünya və üzərində yaşayanlar; çünki Odur dənizlərin üzərində onu quran, suların üzərində saxlayan. (Zəbur, 24:1-2)

Əlləri pak, ürəyi təmiz olan, könlünü bütlərə verməyən, yalan yerə and içməyən. Rəbb müqəddəs hesab edər beləsini, xilaskarı Allah acıyar... (Zəbur, 24:4-5)

Ya Rəbb, bütün varlığımla Sənə yaxınlaşıram, ey Allahım, Sənə güvənirəm... Sənə ümid bağlayan heç kim utanmaz; səbəbsiz xainlik edənlər utanar. Ya Rəbb, yollarını mənə öyrət, yönlərini bildir. Mənə həqiqi yolunda öndər ol, öyrət məni; çünki məni qurtaran Allah Sənsən. Bütün gün ümidim Sənədir. Ya Rəbb... Gənclik günahlarımı, üsyanlarımı xatırlama (14), sevginə görə xatırla məni, çünki Sən yaxşısan, ya Rəbb. Rəbb yaxşı və doğrudur, ona görə günahkarlara yol göstərər. Təvazökarlara ədalət yolunda öndər olar, Öz yolunu öyrədər onlara. Rəbbin bütün yolları sevgi və sədaqət doludur, əhdimdəki buyruqlara uyanlar üçün. Ya Rəbb, Adın naminə günahımı bağışla... Kim Rəbbdən qorxsa, Rəbb ona seçəcəyi yolu göstərər. Rahatlıq içində yaşayacaq o insan... Rəbb Özündən qorxanlarla bölüşər sirrini, onlara açıqlayar əhdini. Gözlərim həmişə Rəbbdədir, çünki ayağımı tordan O çıxarar. Halıma bax, lütf et mənə; çünki qərib və məzlumam... Qurtar məni dərdlərimdən!... Bütün günahlarımı bağışla!... Məni qoru, qurtar məni!... Sənə sığınıram! Dürüstlük, düzgünlük qorusun məni, çünki ümidim Sənədir. (Zəbur, 25:1-21)

Məni haqlı çıxar ya Rəbb, çünki dürüst bir həyat sürdüm; sarsılmadan Rəbbə güvəndim. Sına məni ya Rəbb, sına; duyğularımı, düşüncələrimi yoxla. Çünki sevgini həmişə göz önündə tutur, Sənin həqiqətini yaşayıram mən. Yalançılarla oturmaram, ikiüzlülərin yolu ilə getmərəm. Pislik edən camaatdan nifrət edərəm, fəsadçıların arasına girmərəm... Ya Rəbb, yüksək səslə təşəkkürümü eşitdirmək və bütün möcüzələrini göstərmək üçün. Sevirəm ya Rəbb... əzəmətinin olduğu yeri. Günahkarların, əli qanlı adamların... əlləri pislik alətidir, sağ əlləri rüşvətlə doludur. Amma mən dürüst yaşayıram, qurtar məni, lütf et mənə! Ayağım əmin yerdədir. İnsanların arasında Sənə tariflər deyəcəyəm ya Rəbb. (Zəbur, 26:1-12)

Rəbb mənim nurum və qurtuluşumdur, kimsədən qorxmaram. Rəbb həyatımın qalasıdır (15), kimsədən qorxmaram. Rəqiblərim, düşmənlərim olan pislər məni yenmək üçün üzərimə gələrkən büdrəyib yıxılarlar. Qarşımda bir ordu yerləşsə, tüküm tərpənməz, mənə qarşı döyüşsələr, yenə güvənimi itirmərəm. Rəbbdən tək diləyim, tək istəyim budur: Rəbbin gözəlliyini seyr etmək (16), məscidində Ona heyran olmaq üçün bütün ömrümü Onun evində keçirmək... Sevinc səsləri ilə qurbanlar kəsəcəyəm Onun çadırında (17), Onu tərənnüm edib ilahilərlə tərifləyəcəyəm. Sənə yalvarıram ya Rəbb... lütf et, cavab ver mənə! Ya Rəbb, içimdən bir səs eşitdim: "Üzümü axtar! " dedin (18), budur, üzünü (rizanı) axtarıram. Üzünü məndən gizlətmə (Rizanı məndən əsirgəmə)... Mənə həmişə köməkçi oldun; buraxma, tərk etmə məni, ey məni qurtaran Allah! Ata-anam məni tərk etsə belə, Rəbb məni qəbul edər. Ya Rəbb, yolunu öyrət mənə, düşmənlərimə qarşı düz yolda mənə öndər ol. Məni düşmənlərimin nazına buraxma, çünki qarşımda yalançı şahidlik edirlər, ağızları şiddət saçır. Həyat diyarında Rəbbin yaxşılığını görəcəyimə şübhə etmirəm. Ümidini Rəbbə bağla, güclü və ürəkli ol; ümidini Rəbbə bağla! (Zəbur, 27:1-14)

Ya Rəbb, Sənə yalvarıram, gücüm mənim... Səni köməyə çağırdığımda... dinlə iltimaslarımı. Məni pislərlə, haqsızlıq edənlərlə bir tutub cəzalandırma. Onlar qonşuları ilə dost kimi danışar, amma ürəklərində pislik bəsləyərlər. Hərəkətlərinə, etdikləri pisliklərə görə onların  cavabını ver; etdiklərinin, layiq olduqlarının qarşılığını ver. Onlar Rəbbin etdiklərinə, əllərinin əsərinə (Allahın xəlq etməsinə) əhəmiyyət verməzlər; buna görə Rəbb onları yıxıb bir daha ayağa qaldırmayacaq. Rəbbə təriflər olsun! Çünki iltimasımı eşitdi. Rəbb mənim gücüm və qalxanımdır (qoruyucumdur). Ona ürəkdən güvənirəm və kömək görürəm. Ürəyim coşur, tərənnümlə Ona şükr edirəm. Rəbb xalqının gücüdür... (Zəbur, 28:1-8)

... Rəbbi öyün, Rəbbin gücünü, ucalığını öyün, Rəbbin əzəmətini adına yaraşan şəkildə öyün, müqəddəs geyimlərdə Rəbbə qulluq edin!... Rəbbin səsi güclüdür, Rəbbin səsi əzəmətlidir...  Onun məscidində hamı "Ucasan!" deyə səslənər... (Zəbur, 29:1-9)

Səni ucaltmaq istəyirəm ya Rəbb, çünki məni qurtardın, düşmənlərimi mənə güldürmədin. Ya Rəbb Allahım, Sənə yalvardım, mənə şəfa verdin. Ya Rəbb... həyat verdin mənə, ölüm quyusuna (Cəhənnəmə) salmadın. Ey Rəbbin sadiq qulları, Onu tərənnüm edin, müqəddəsliyini xatırlayıb Ona şükr edin... Hüzur duyunca dedim ki, "Əsla sarsılmayacağam!" ya Rəbb, lütfünlə məni güclü bir dağ kimi sarsılmaz etdin... "Ya Rəbb, acı mənə; köməkçim ol ya Rəbb!" Yasımı şənliyə çevirdin, çulumu çıxarıb məni sevincə bürüdün. Belə ki, könlüm Səni ilahilərlə tərifləsin, susmasın! Ya Rəbb Allahım, Sənə davamlı şükr edəcəyəm. (Zəbur, 30:1-12)

Ya Rəbb, Sənə sığınıram. Utandırma məni heç bir zaman! Ədalətinlə qurtar məni! Qulaq as mənə, tez çat, qurtar məni; bir güc ol mənə sığınmağım üçün, güclü bir qala (sığınacaq) ol xilas olmağım üçün!... Gücüm və qalam (sığınacağım) Sənsən, öndər ol, yol göstər mənə Öz Adın naminə. Mənə qurduqları tələdən uzaq tut məni, çünki sığınacağım Sənsən. Ruhumu əllərinə (Sənin qüdrətinə, elminə) buraxıram ya Rəbb, sadiq Allah, qurtar məni. Dəyərsiz bütlərə bel bağlayanlardan xoşlanmaram, Rəbbə güvənirəm mən. Sədaqətindən ötrü sevinib coşacağam, çünki düşkün halımı görür, çəkdiyim çətinlikləri bilirsən, məni düşmən əlinə salmadın, ayaq qoyduğum yerləri genişlətdin... Amma mən Sənə güvənirəm ya Rəbb, "Allahım Sənsən!" deyirəm. Həyatım Sənin əlindədir (Sənin təqdirində, qüdrətində), qurtar məni düşmənlərimin pəncəsindən, dalıma düşənlərdən. Üzün (nurun) qulunu nurlandırsın, sevgi göstər, qurtar məni! Utandırma məni ya Rəbb, Sənə səslənirəm; pislər utansın, ölülər diyarında (cəhənnəmdə) səsləri kəsilsin. Sussun o yalançı dodaqlar; doğru insana qarşı qürurla, təpədən baxaraq, küçümsəməklə danışan dodaqlar. Yaxşılığın necə də böyükdür ya Rəbb, onu Səndən qorxanlar üçün saxlayırsan hər kəsin gözü önündə, Sənə sığınanlara yaxşı davranırsan. İnsanların düzənlərinə qarşı, qoruyucu hüzurunla üzərlərinə qanad açarsan (19); təcavüzkar dillərə qarşı onları çardağında (20) gizləyərsən. Rəbbə tariflər olsun, ətrafı sarılmış bir şəhərdə sevgisini mənə möcüzəvi şəkildə göstərdi... Rəbbi sevin, ey Onun sadiq qulları! Rəbb Özünə bağlı olanları qoruyar, böyüklənənlərin isə hamısının cəzasını verər. Ey Rəbbə ümid bağlayanlar, güclü və ürəkli olun! (Zəbur, 31:1-24)

Nə xoş qiyamı bağışlanan, günahı örtülən insana! Günahı Rəbb tərəfindən sayılmayan, ruhunda hiylə olmayan insana nə xoş!... Sığınacağım Sənsən, məni çətinlikdən qoruyar, ətrafımı qurtuluş ilahiləri ilə əhatə edərsən... Pislərin acısı çoxdur, amma Rəbbə güvənənləri Onun sevgisi əhatə edər. Ey doğru insanlar, sevincinizi Rəbbdən alın, coşun; ey ürəyi təmiz olanlar, hamınız sevinc səsləri ucaldın! (Zəbur, 32:1-11)

Ey doğru insanlar, Rəbbə sevinclə səslənin! Dürüstlərə Onu tərifləmək yaraşar. Lira çalıb Rəbbə şükr edin, on telli çənglə Ona ilahilər deyib öyün. Ona yeni bir tərənnüm deyin, sevinc səsləri ilə sazınızı çalın. Çünki Rəbbin sözü doğrudur, hər işi sədaqətlə edər. Doğruluğu, ədaləti sevər, Rəbbin sevgisi yer üzünü doldurar. Göylər Rəbbin sözüylə... yaradıldı. Dəniz sularını bir yerə toplayar, dərin suları anbarlara yığar. Bütün yer üzü Rəbbdən qorxsun, dünyada yaşayan hər kəs Ona hörmət etsin. Çünki O söyləyincə hər şey var oldu; O buyurunca hər şey meydana çıxdı. Rəbb xalqların planlarını pozar, xalqların qanunlarını boşa çıxarar. Amma Rəbbin planları sonsuza qədər sürər... Nə xoş Allahı Rəbb olan xalqa... Rəbb... bütün insanları görər... Yer üzündə yaşayan hər kəsə göz qoyar. Hər kəsin ürəyini yaradan, etdikləri hər şeyi ölçən Odur. Nə böyük orduları ilə zəfər çalan padşah var, nə də böyük gücüylə xilas olan igid. Zəfər üçün at mənasız bir ümiddir, böyük gücünə baxmayaraq heç kimi qurtara bilməz. Amma Rəbbin gözü (21) Özündən qorxanların, sevgisinə ümid bağlayanların üzərindədir; beləcə, onları ölümdən qurtarar, qıtlıqda onları yaşadar. Ümidimiz Rəbbdədir, köməkçimiz, qalxanımız (qoruyanımız) Odur. Onda sevinc tapar ürəyimiz, çünki Onun müqəddəs adına güvənirik... Ümidimiz Sənədir, sevgin üzərimizdə olsun ya Rəbb! (Zəbur, 33:1-22)

Həmişə Rəbbə tariflər deyəcəyəm, tərifi dilimdən düşməyəcək. Rəbb ilə öyünürəm, məzlumlar eşidib sevinsin! Mənimlə birlikdə Rəbbin böyüklüyünü bildirin, adını birlikdə ucaldaq. Rəbbə yönəldim, cavab verdi mənə, bütün qorxularımdan qurtardı məni. Ona baxanların üzü  parlayar, üzləri xəcalətdən qızarmaz. Bu məzlum yalvardı, Rəbb eşitdi, bütün çətinliklərdən qurtardı onu. Rəbbin mələyi Ondan qorxanların ətrafına düşərgə qurar, qurtarar onları... Rəbb necə də yaxşıdır, nə xoş Ona sığınan adama! Rəbbdən qorxun... çünki Ondan qorxanın nöqsanı olmaz. Gənc aslanlar belə ac və möhtac olar; amma Rəbbə yönələnlərdən heç bir yaxşılıq əsirgənməz. Gəlin, ey uşaqlar, dinləyin məni: Sizə Rəbb qorxusunu öyrədim. Kim həyatdan zövq almaq, yaxşı günlər görmək istəyirsə, dilini pislikdən və dodaqlarını yalandan uzaq tutsun. Pislikdən çəkinin, yaxşılıq edin; xoşbəxtliyi məqsəd bilin, ardınca gedin. Rəbbin gözləri doğruların üzərindədir, qulağı onların iltimasına açıqdır

(22). Rəbb pislik edənlərə qarşıdır, onların xatirəsini yer üzündən silər. Doğrular yalvarar, Rəbb eşidər; bütün çətinliklərdən qurtarar onları... Pis insanın sonu pisliklə bitər, cəzasını tapar doğrulardan nifrət edənlər. Rəbb qullarını qurtarar, Ona sığınanların heç biri cəza görməz. (Zəbur, 34:1-22)

... Rəbbdə sevinc tapacağam, məni qurtardığı üçün coşacağam. Bütün varlığımla belə deyəcəyəm: "Sənin kimisi varmı ya Rəbb, məzlumu zalımın əlindən, məzlumu və yoxsulu soyğunçudan qurtaran?"... Böyük yığıncaqda Sənə şükrlər edəcəyəm, camaatın arasında Səni tərifləyəcəyəm... Sülh sözünü etməz onlar, hiyləgərliklə saflar düzərlər ölkənin sakit insanlarına. (Zəbur, 35:9-20)

Günah səslənər pis insana qəlbindən: Allah qorxusu yoxdur onda. Özünü elə bəyənib ki, günahını görməz, ondan çəkinməz. Ağzından pislik və yalan axar; ağıllanmaqdan, yaxşılıq etməkdən imtina etmişdir. Yatağında belə fəsad düşünər, mənfi yolda müqavimət göstərər, rədd etməz pisliyi. Ya Rəbb, sevgin göylərə, sədaqətin səmaya çatar. Doğruluğun ulu dağlara bənzəyər, ədalətin ucsuz-bucaqsız dənizlərə. İnsanı da, heyvanı da qoruyan Sənsən ya Rəbb. Sevgin necə də qiymətlidir ey Allah! Qanadlarının gölgəsinə (23) sığınar Adəm oğlu. Evindəki bolluqdan doyarlar, zövqlərinin bulağından içirərsən onlara. Çünki həyat qaynağı Sənsən, Sənin nurunla nurlanırıq. Davamlı göstər Səni tanıyanlara sevgini, qəlbi təmiz olanlara doğruluğunu. Qürurlunun ayağı mənə çatmasın, pislərin əli məni qovmasın. (Zəbur, 36:1-11)

Pislik edənlərə qəzəblənib kədərlənmə, günah işləyənlərə etina etmə! Çünki onlar ot kimi tez solacaq, yaşıl bitki kimi quruyub gedəcək. Sən Rəbbə güvən, yaxşılıq et, ölkədə otur, sədaqətlə çalış. Rəbbdən zövq al, O, istəklərini yerinə yetirəcək. Hər şeyi Rəbbə burax, Ona güvən, O, lazım olanı edər. O, sənin doğruluğunu işıq kimi, haqqını zöhr günəşi kimi aydınlığa çıxarar. Rəbbin qarşısında sakit dur, səbirlə gözlə; Qəzəblənib kədərlənmə işi yolunda olanlara, pis məqsədlərinə qovuşanlara. Qəzəbdən uzaqlaş, burax hirsi, kədərlənmə, yalnız pisliyə sürüyər bu səni... Yaxında pisin sonu gələcək, yerini axtarsan da, tapılmayacaq. Amma təvazökarlar ölkəni miras alacaq, dərin bir hüzurun zövqünü dadacaq. Pis insan doğru insana düzən qurar, diş qıcayar... Doğrunun azacıq varı bir çox pisin sərvətindən yaxşıdır. Çünki pislərin gücü bitəcək, amma doğrulara Rəbb dəstək olacaq. Rəbb kamil olanın hər gününə göz qoyar, onların mirası sonsuza qədər sürəcək. Pis gündə utanmayacaqlar, qıtlıqda qarınları doyacaq. Amma pislər müsibətə uğrayacaq; Rəbbin düşmənləri tarla çiçəkləri kimi quruyub gedəcək, tüstü kimi dağılıb yox olacaq. Pislər borc alar, geri verməz; doğrular isə comərdliklə verər... Rəbb insana möhkəm addım atdırar, insanın yolundan razı olarsa. Büdrəsə belə, yıxılmaz insan, çünki əlindən tutan Rəbbdir (24). Gənc idim, ömrüm tükəndi, amma heç görmədim doğru insanın tərk edildiyini, soyunun çörək diləndiyini. O, həmişə comərdliklə borc verər, soyu müqəddəs hesab edilər. Pislikdən uzaq dur, yaxşılıq et; sonsuz həyata qovuşarsan. Çünki Rəbb doğrunu sevər, sadiq qullarını tərk etməz. Onlar sonsuza qədər qorunacaq... Doğrunun ağzından müdriklik axar, dilindən ədalət damlayar. Allahın qanunu qəlbindədir, ayağı sürüşməz. Pis doğruya tələ qurar, onu öldürməyə çalışar. Amma Rəbb onu pisin əlinə salmaz... Rəbbə ümid bağla, Onun yolunu tut... Pis və mərhəmətsiz adamı gördüm, ilk əkildiyi torpaqda yaşıllaşan ağac kimi qol-budaq atırdı; keçib getdi, yox oldu, axtardım, tapılmadı. Kamil olan adama göz qoy, doğru adama bax, çünki irəlidə sülh sevənindir... Doğruların qurtuluşu Rəbbdən gələr, çətin gündə onlara qala olar (25). Rəbb onlara kömək edər, qurtarar onları, pislərin əlindən alıb azad edər, çünki Özünə sığınarlar. (Zəbur, 37:1-40)

Ya Rəbb, bütün arzularımı bilirsən... Ümidim Sənədir ya Rəbb... Sən cavablayacaqsan ya Rəbb, Allahım mənim! Çünki dua edirəm... Yaxşılığa qarşı pislik edənlər mənə qarşı çıxır, yaxşılığın arxasında olduğum üçün. Məni tərk etmə ya Rəbb! Ey Allahım, məndən uzaq durma! Köməyimə gəl ya Rəbb, qurtuluşum mənim! (Zəbur, 38:9-22)

Qərar verdim: "Addımlarıma diqqət yetirəcəyəm, dilimi günahdan qoruyacam..." Yalnız bir qarış ömür verdin mənə, bir heçdir həyatım Sənin qarşında. Hər insan bir nəfəsdir yalnız, ən güclü çağında belə. "Bir kölgə kimi gəzər insan, boş yerə çırpınar, mal yığar kimə qalacağını bilmədən. "Nə gözləyə bilərəm indi ya Rəbb? Ümidim Sənədir. Qurtar məni... Hər insan bir nəfəsdir yalnız. "Duamı eşit ya Rəbb, dinlə iltimasımı... (Zəbur, 39:1-12)

Rəbbi səbirlə gözlədim; mənə yönəlib iltimasımı eşitdi. Ölüm quyusundan, palçıqdan çıxardı məni, ayaqlarımı qaya üzərində tutdu ki, sürüşməyim. Mənə yeni bir tərənnüm (ilahi), Allahımız üçün bir tərif ilahisi verdi. Çoxları görüb qorxacaq və Rəbbə güvənəcəklər. Nə xoş Rəbbə güvənən insana, qürurluya və yalana yönələnə meyl etməyənə. Ya Rəbb, Allahım,

möcüzələrin, düşüncələrin necə də çoxdur bizim üçün; Sənə ortaq qoşulmaz! Eşitdirmək, bildirmək istəsəm etdiklərini, saymaqla bitməz... Belə dedim: "... Ey Allahım, Sənin istəyini etməkdən zövq alıram mən, qanunun ürəyimin dərinliyindədir". Böyük yığıncaqda müjdə verərəm Sənin zəfərini, sözümü əsirgəmərəm ya Rəbb, bildiyin kimi! Zəfərini qəlbimdə gizləmərəm, bağlılığını və xilasını eşitdirərəm; sevgini, sədaqətini saxlamaram böyük topluluqdan. Ya Rəbb, əsirgəmə mehribanlığını məndən! Sevgin, sədaqətin həmişə qorusun məni! Saysız bəlalar ətrafımı sarıdı... Nə olar ya Rəbb, qurtar məni!Köməyimə gəl ya Rəbb!... Səndə nəşə və sevinc tapsın bütün Sənə yönələnlər! "Rəbb ucadır!" desin həmişə Sənin xilasını gözləyənlər!...Köməkçim və xilaskarım Sənsən... ey Allahım! (Zəbur, 40:1-17)

Nə xoş yoxsulu düşünənə! Rəbb qurtarar onu pis gündə. Qoruyar Rəbb, yaşadar onu, ölkədə xoşbəxt edər, buraxmaz düşmənlərinin əlinə. Dəstək olar Rəbb ona yatağa düşüncə; xəstələndiyində sağaldar onu. "Acı mənə ya Rəbb!" dedim, "Şəfa ver mənə". Dürüstlüyümə görə mənə dəstək olar, sonsuza qədər məni hüzurunda tutarsan. Əzəldən sonsuzadək təriflər olsun... Rəbbə! Amin! Amin! (Zəbur, 41:1-13)

Maral axan sular üçün necə darıxırsa, canım da Sənin üçün elə darıxır ey Allah! Qəlbim Allaha, yaşayan Allaha susadı; nə vaxt görməyə gedəcəyəm Allahın üzünü? (26)... Allaha ümid bağla, çünki Ona yenə təriflər deyəcəyəm; O, mənim xilaskarım və Allahımdır... Gündüz Rəbb sevgisini göstərər, gecə ilahi söyləyər və dua edərəm həyatımın Allahına... Allaha ümid bağla, çünki Ona yenə təriflər deyəcəyəm; O, mənim xilaskarım və Allahımdır. (Zəbur, 42:1-11)

... Qurtar hiyləgər, haqsız insandan. Çünki Sən Allahımsan, qalamsan (27)... Göndər nurunu, həqiqətini, yol göstərsinlər mənə... Nəşə, sevinc qaynağım olan Allaha gedəcəyəm və Sənə ey Allah, Allahım mənim, lira ilə şükr edəcəyəm... Allaha ümid bağla, çünki Ona yenə təriflər deyəcəyəm; O, mənim xilaskarım və Allahımdır. (Zəbur, 43:1-5)

Onlar... öz biləkləri ilə zəfərə çatmadılar. Sənin sağ əlin, biləyin, üzünün nuru (28) sayəsində oldu bu; çünki Sən onları sevdin... Sənsən bizi düşmənlərimizdən qurtaran, bizdən nifrət edənləri utandıran. Hər gün Allahla öyünər, sonsuza qədər adına şükr edərik... O, qəlbdə gizlənənləri bilər. (Zəbur, 44:3-21)

Allah sığınacağımız və gücümüzdür, çətinlikdə həmişə köməyə hazırdır. Buna görə qorxmarıq yer üzü alt-üst olsa, dağlar dənizlərin qoynuna aşsa, sular guruldayıb köpüklənsə, qabaran dəniz dağları titrətsə belə... Hər şeyə hakim Rəbb bizimlədir... (Zəbur, 46:1-7)

Ey bütün xalqlar, əl çalın! Sevinc səsləri ucaldın Allahın izzətinə! Necə müdhişdir uca Rəbb... Tərənnüm edin (ilahilərlə) Allahı, tərənnüm... Allaha aiddir yer üzünün padşahları. O, çox ucadır. (Zəbur, 47:1-2, 6-8)

Rəbb böyükdür və yalnız O, təriflənməyə dəyər... Adın kimi ey Allah, tərifin də dünyanın dörd bucağına çatar. Sağ əlin zəfərlə doludur... Bu Allah sonsuza qədər bizim Allahımız olacaq, bizə həmişə yol göstərəcək. (Zəbur, 48:1, 10-14)

Ey bütün xalqlar, dinləyin! Qulaq asın hamınız, ey dünyada yaşayanlar, xalq övladları, bəy balaları, zənginlər, yoxsullar! Müdriklik çıxacaq ağzımdan, anlayış verəcək beynimdəki düşüncələr, qulaq asacağam məsəllərə... Onlar var-dövlətlərinə güvənər, böyük sərvətləri ilə lovğalanarlar. Heç kim başqasının həyatının əvəzini ödəyə bilməz, Allaha fidyə verə bilməz... Bütün göstərişinə baxmayaraq keçicidir insan, ölüb gedən heyvanlar kimi. Axmaqların yolu, onların sözünü təsdiqləyənlərin sonu budur. Sürü kimi ölülər diyarına (Cəhənnəmə) sürüləcəklər... Dan yeri ağarınca doğrular onlara hakim olacaq, cəsədləri çürüyəcək, ölülər diyarı (Cəhənnəm) onlara iqamətgah olacaq. Amma Allah məni ölülər diyarının (Cəhənnəmin) pəncəsindən qurtaracaq və yanına aparacaq. Qorxma birisi varlansa, evinin əzəməti artsa. Çünki ölüncə heç bir şey apara bilməz, əzəməti onunla məzara getməz. Yaşayarkən özünü xoşbəxt saysa belə, müvəffəqiyyətli olunca tərif görsə belə. Atalarının nəslinə qatılacaq, onlar ki, əsla işıq üzü görməyəcəklər. Bütün göstərişinə qarşı anlayışsızdır insan, ölüb gedən heyvanlar kimi. (Zəbur, 49:1-20)

Güclü olan Allah, Rəbb danışır; Günəşin doğulduğu yerdən batdığı yerə qədər bütün yer üzünə səslənir. Gözəlliyin... parıldayır Allah... Göylər Onun ədalətini bildirəcək, çünki hökm verən Allahın Özüdür... "Mən Allaham... Bütün meşə varlıqları, dağlardakı bütün heyvanlar Mənimdir. Dağlardakı bütün quşları qoruyaram, çöllərdəki bütün vəhşi heyvanlar Mənimdir... Çətin günündə səslən Mənə, səni qurtararam, sən də Məni ucaldarsan". Amma Allah pisə belə deyir: "... Yola

gəlməkdən nifrət edib sözlərimə məhəl qoymursan. Oğru görüncə onunla dost olur, zina edənlərə ortaq olursan. Ağzını pislik üçün istifadə edir, dilini yalana yönəldirsən... Günahlarını gözünün önünə gətirirəm. ..Yolunu düzəldənə xilasımı göstərəcəyəm". (Zəbur, 50:1-23)

Ey Allah, lütf et mənə, sevgin naminə; sil üsyanlarımı, sərhədsiz mərhəmətin naminə. Bütünlüklə yu məni günahımdan, təmizlə məni günahımdan... Sən könüldə sədaqət istəyirsən, müdriklik öyrət mənə qəlbimin dərinliklərində. Məni... təmizlə, pak olum, yu məni (günahlarımdan təmizlə), qardan ağ olum... Ey Allah, təmiz bir qəlb yarat, yenidən qərarlı bir ruh var et içimdə. Məni hüzurundan atma, müqəddəs ruhunu məndən alma. Geri ver mənə bəxş etdiyin qurtuluş sevincini, mənə dəstək ol, istəkli bir ruh ver. Baş qaldıranlara Sənin yollarını öyrədim, günahkarlar geri dönsün Sənə. Qurtar məni qan tökmək günahından. Ey Allah, məni qurtaran Allah, dilim Sənin xilasını ilahilərlə tərifləsin. Ya Rəbb, aç dodaqlarımı, ağzım Sənin təriflərini eşitdirsin... Sənin qəbul etdiyin qurban təvazökar bir ruhdur, təvazökar və peşman bir qəlbi xor görməzsən, ey Allah. (Zəbur, 51:1-17)

Nə üçün pisliyinlə öyünürsən ey lovğa? Allahın sadiq qullarına qarşı bütün gün dilin müsibət hazırlayar iti ülgüc kimi, ey hiyləgər. Yaxşılıqdan çox pisliyi, doğru danışmaqdan çox yalanı sevirsən. Ey səni hiyləgər! Hər zərərli sözü sevirsən. Amma Allah səni sonsuza qədər məhv edəcək... Doğrular bunu görüncə qorxacaq... belə deyəcəklər: "Bax, bu adam Allaha sığınmaq istəmədi, sərvətinin bolluğuna güvəndi, başqalarını yıxıb gücləndi!" Amma mən... sonsuza qədər Allahın sevgisinə güvənərəm. Davamlı Sənə şükr edərəm etdiklərin üçün, sadiq qullarının önündə ümid bağlayaram, çünki Adın yaxşıdır. (Zəbur, 52:1-9)

Ağılsız qəlbində "Allah yoxdur!" deyər. İnsanlar pozuldu, pis işlər baş alıb getdi, yaxşılıq edən yoxdur... Hamısı azdı, korlandı, yaxşılıq edən yoxdur... Allaha yalvarmırlar. Amma qorxulmayacaq yerdə qorxacaqlar, çünki Allah... onları rədd etdiyi üçün hamısını utandıracaq. (Zəbur, 53:1-5)

Ey Allah, məni Adınla qurtar, gücünlə acı mənə!... Məğrurlar mənə hücum edir, zalımlar canımı almaq istəyir, Allaha məhəl qoymurlar. Budur, Allah mənim köməkçimdir, tək dəstəyim Rəbbdir... Ya Rəbb, sənə könüldən bir qurban verəcəyəm, adına şükr edəcəyəm, çünki Adın yaxşıdır. Məni bütün çətinliklərdən qurtardın... (Zəbur, 54:1-7)

Heyrətləndir pisləri ya Rəbb, qarışdır dillərini, çünki şəhərdə şiddət və qarşıdurma görürəm. Gecə-gündüz şəhərin divarlarının üzərində gəzərlər, haqsızlıqla və fəsadla doludur şəhərin içi. Təxribat şəhərin göbəyindədir, zülm, hiylə azalmaz meydanından... Mən isə Allaha səslənirəm, Rəbb qurtarar məni... Allahdan qorxmurlar. Yoldaşım dostlarına hücum çəkib etdiyi andlaşmağı pozdu. Ağzından bal damlayır, amma qəlbində döyüş var. Sözləri yağdan yumşaqdır, amma açıq bir qılıncdır. Yükünü Rəbbə burax, O, sənə dəstək olar. Əsla izn verməz doğru insanın sarsılmasına. Amma Sən ey Allah, ölüm quyusuna (Cəhənnəmə) atacaqsan pisləri, günlərinin yarısını görməyəcək qatillər və xainlər; mən isə Sənə güvənirəm. (Zəbur, 55:9-23)

Sənə güvənərəm qorxduğum zaman. Allaha, sözünü tərifədiyim Allaha güvənərəm mən, qorxmaram. İnsan mənə nə edə bilər? Gün boyu sözlərimi təhrif edib haqqımda həmişə pislik hazırlayırlar. Fəsadlıq üçün çalışır, pusqu qurur, addımıma göz qoyur, canımı almaq istəyirlər... Bilirəm, Allah mənim tərəfimdədir. Sözünü tərifədiyim Allaha, sözünü tərifədiyim Rəbbə, Allaha güvənərəm mən, qorxmaram; insan mənə nə edə bilər ki?... Çünki məni ölümdən qurtardın, ayağımı büdrəməkdən qorudun; budur, həyat işığında, Allah hüzurunda gedirəm. (Zəbur, 56:3-13)

Acı mənə ey Allah, acı, çünki Sənə sığınıram; fəlakət keçənə qədər, qanadlarının kölgəsinə (29) sığınacağam. Uca Allaha, mənim üçün hər şeyi edən Allaha səslənirəm... Ucalığını göstər göylərin üstündə ey Allah, əzəmətin bütün yer üzünü örtsün! Yoluma quyu qazdılar, içinə özləri düşdülər. Qərarlıyam ey Allah, qərarlıyam,  İlahilər söyləyəcəyəm. Xalqların arasında Sənə şükr edəcəyəm ya Rəbb, xalqların arasında Səni ilahilərlə tərifləyim. Çünki sevgin göylərə çatar, sədaqətin səmaya çatar. Ucalığını göstər göylərin üstündə ey Allah, əzəmətin bütün yer üzünü örtsün! (Zəbur, 57:1-11)

Ey idarəçilər, həqiqətən ədalətli hökm verirsinizmi? Doğru mühakimə edirsinizmi insanları? Xeyr! Həmişə haqsızlıq hazırlayırsınız daxilinizdə, zülm saçır əlləriniz yer üzünə.... (Zəbur, 58:1-3)

Qurtar məni düşmənlərimdən ey Allahım, qalam (sığınacağım) ol rəqiblərimə qarşı. Qurtar məni cinayətkarlardan, uzaq tut qanlı qatillərdən... Sən ya Rəbb, hər şeyə hakim Allah... Gücüm Sənsən, Səni gözləyirəm, çünki qalamsan (sığınacağımsan) ey Allah. Allahım sevgisiylə qarşılayar məni... Ya Rəbb, qalxanımız (qoruyucumuz) bizim... Gücünü səhər tərənnüm edəcək, sevgini sevinclə dilə gətirəcəyəm. Çünki Sən mənə qala (30), çətin günümdə sığınacaq oldun. Gücüm Sənsən, Səni ilahilərlə tərifləyəcəyəm, çünki qalam (sığınacağım), məni sevən Allah Sənsən. (Zəbur, 59:1-17)

Qurtar bizi sağ əlinlə, kömək et ki, sevdiklərin azadlığa qovuşsun! Kömək et bizə düşmənə qarşı, çünki insan köməyinin xeyri yoxdur. Allahla zəfər qazanarıq... (Zəbur, 60:5, 11-12)

Ey Allah... çünki Sən mənim üçün sığınacaq, düşmənə qarşı güclü bir dəstək oldun. Çadırında (31) sonsuza qədər oturub qanadlarının kölgəsinə (32) sığınmaq istəyirəm. Çünki Sən ey Allah, əhdlərimi eşitdin, adından qorxanların mirasını mənə verdin... Sevgin və sədaqətinlə qoru!... Adını həmişə ilahilərlə tərifləyəcəyəm... (Zəbur, 61:1-8)

Qəlbim yalnız Allahda hüzur tapar, qurtuluşum Ondan gələr. Tək gücüm, qurtuluşum, qalam (sığınacağım) Odur, əsla sarsılmaram... Ey qəlbim, tək Allahda hüzur tap, çünki ümidim Onadır. Tək gücüm, qurtuluşum, qalam (sığınacağım) Odur, sarsılmaram. Qurtuluşum və şərəfim Allaha bağlıdır, qüvvətli gücüm, sığınacağım Odur. Ey xalqım, həmişə Ona güvən... Çünki Allah sığınacağımızdır... Zalımlığa güvənməyin... Güc Allahındır, sevgi də Sənindir ya Rəbb! Çünki Sən hər kəsə, etdiyinin qarşılığını verərsən. (Zəbur, 62:1-12)

Ey Allah, Sənsən mənim Allahım, Səndən ötrü çox darıxıram, qəlbim Sənə susayıb, quraq, yorucu, susuz bir diyarda, bütün varlığımla Səni axtarıram... Sənin sevgin həyatdan yaxşıdır, buna görə dodaqlarım Səni ucaldar. Ömrüm boyunca Sənə tariflər deyəcəyəm, Sənin adınla əllərimi qaldıracağam. Zəngin yeməklərə doymuş kimi sənə doyacağam, ötən dodaqlarla ağzım Sənə təriflər deyəcək. Yatağıma uzananda Səni xatırlayaram, gecə boyu Səni dərin düşünürəm. Çünki Sən mənə köməkçi oldun, qanadlarının kölgəsində (33) sevincimi dilə gətirərəm. Canım Sənə möhkəm sarılar, sağ əlin mənə dəstək olar... Padşah isə Allahda sevinc tapacaq. Allahın adıyla and içənlərin hamısı öyünəcək, yalançıların ağzı isə bağlanacaq. (Zəbur, 63:1-11)

Pislərin gizli qanunlarından, o günahkar güruhun qalmaqalından qoru məni. Onlar dillərini qılınc kimi bülövləyib acı sözlərini ox kimi hədəfə yönəldiblər, pusqularından günahsız insanın üzərinə atmaq üçün. Qəflətən vurarlar, heç çəkinmədən. Bir-birlərini pislik etməyə vadar edər, gizli tələlər hazırlayarkən "Kim görəcək?" deyərlər. Haqsızlıq etməyi düşünər, "Qüsursuz bir plan qurduq!" deyərlər. İnsanın daxili və qəlbi dərin bir sirrdir, naməlumdur. Amma ... Dilləri ücbatından müsibətə uğrayacaqlar... Doğru insan Rəbbdə sevinc tapacaq, Ona sığınacaq, bütün təmiz qəlblilər Onu tərifləyəcək. (Zəbur, 64:2-10)

Ey Allah... Ey Sən, duaları eşidən, bütün insanlar Sənə gələcək. Günahlarımızın altında əzildik, amma Sən üsyanlarımızı bağışlayarsan. Nə xoş bağçalarında otursun deyə seçib Özünə yaxınlaşdırdığın adama! Evinin, müqəddəs məscidinin nemətlərinə doyacağıq. Ey bizi qurtaran Allah, müdhiş işlər görüb zəfərlə cavablayarsan bizi. Sən yer üzünün dörd tərəfində uzaq dənizlərdəkilərin ümidisən; qüdrətli olan, gücüylə dağları quran, dənizlərin və dalğaların gurultusunu, xalqların iğtişaşını yatıran Sənsən. Dünyanın o biri tərəfində yaşayanlar qorxuya düşər Sənin nişanələrinin qarşısında. Şərqdən qərbə qədər insanlara sevinc səsləndirərsən. Torpağa baxar, çox məhsuldar, zəngin edərsən. Ey Allah, çayların su ilə doludur, insanlara taxıl verərsən, çünki Sən torpağı belə hazırlayarsan: Şumun açdığı novcuğu bolluca sulayıb yaylalarını hamarlaşdırarsan. Yağışla torpağı yumşaldar, məhsullarına bərəkət qatarsan. Yaxşılıqlarınla ili taclandırarsan, arabaların keçdiyi yollardan bolluq axar, otlaqlar yaşıllanar, təpələr sevincə bürünər, otlaqlar sürülərlə bəzənər, vadilər əkinlə örtülər, sevincdən səslənib tərənnüm (ilahi) söyləyərlər. (Zəbur, 65:1-13)

Ey yer üzündəki bütün insanlar, Allaha sevinc səsləri ucaldın! Adının ucalığına ilahilər söyləyin, Ona görkəmli təriflər deyin! "Necə böyük işlərin var!" deyin Allaha, "Elə böyük gücün var ki, düşmənlərin əyilir qarşında. Bütün yer üzü Sənə qulluq edir, ilahilər oxuyur, adını ilahilərlə tərifləyir". Gəlin, baxın Allahın nələr etdiyinə! Necə müdhiş işlər gördü insanların içində: Dənizi quruya çevirdi, atalarımız piyada keçdilər çaydan. Etdiyinə sevindik orada. Qüdrətiylə sonsuza qədər hakim olar, gözü xalqları süzər (34); Qiyam edənlər qürura qapılmasın! Ey xalqlar, Allahımıza şükr edin, təriflərini bildirin. Həyatımızı qoruyan, ayağımızın sürüşməsinə izn verməyən Odur. Sən bizi sınadın ey Allah, gümüş təmizləyən kimi

təmizlədin... Gəlin, dinləyin, ey sizlər, Allahdan qorxanlar, mənim üçün nələr etdiyini sizə bildirim. Ağzımla Ona yalvardım, tərifi dilimdən düşmədi. Qəlbimdə pisliyə yer versəydim, Rəbb məni dinləməzdi. Halbuki Allah dinlədi məni, qulaq asdı duamın səsinə. Təriflər olsun Allaha, çünki duamı geri çevirmədi, sevgisini məndən əsirgəmədi. (Zəbur, 66:1-10, 20)

Allah bizə lütf etsin, bolluq versin, üzünün nuru (35) üzərimizə saçsın. Belə ki, yer üzündə yolun, bütün xalqlar içində qurtarıcı gücün bilinsin. Xalqlar Sənə şükr etsin ey Allah, bütün xalqlar Sənə şükr etsin! Xalqlar sevinsin, sevincdən səslənsin, çünki Sən xalqları ədalətlə mühakimə edərsən, yer üzündəki xalqlara yol göstərərsən. Xalqlar Sənə şükr etsin ey Allah, bütün xalqlar Sənə şükr etsin! Torpaq məhsulunu verdi, Allah, Allahımız, bizi bolluğa qovuşdursun. Allah bizə bolluq versin, dünyanın dörd tərəfində olanlar Ondan qorxsun! (Zəbur, 67:1-7)

Ancaq doğrular sevinsin, bayram etsinlər Allahın qarşısında, sevinclə coşsunlar. Allahı tərənnüm edin, adını ilahilərlə öyün... Allah kimsəsizlərə ev verər, məhbusları azadlığa və rahatlığa qovuşdurar, amma qiyam edənlər quraq yerdə oturar... Hər gün yükümüzü daşıyan Rəbbə, bizi qurtaran Allaha təriflər olsun. Allahımız qurtarıcı bir Allahdır, ölümdən (Cəhənnəmdən) xilas yalnız hakim Rəbbə məxsusdur... "Ey sizlər... yığıncaqlarınızda Allaha, Rəbbə təriflər deyin!"... Ey Allah... Məhv et döyüşdən zövq alan xalqları!... Ey yer üzünün padşahlıqları, Allahı tərənnüm edin, ilahilərlə öyün Rəbbi... Allahın gücünü tanıyın... Necə də heybətlisən ey Allah... Güc, qüdrət verən Allaha təriflər olsun! (Zəbur, 68:3-35)

Amma mənim duam Sənədir ya Rəbb. Ey Allah, sevginin bolluğu ilə, etibarlı xilasınla uyğun gördüyündə cavabla məni. Məni palçıqdan qurtar, izn vermə batmağıma; məndən nifrət edənlərdən, dərin sulardan xilas olum. Sellər məni aparmasın, dəniz məni udmasın, ölüm quyusu ağzını üstümə bağlamasın. Cavab ver mənə ya Rəbb, çünki sevgin yaxşıdır. Üzünü çevir mənə (məndən rəhmətini əsirgəmə) böyük mərhəmətinlə! Qulundan üzünü gizləmə (məni mərhəmətindən uzaq tutma), çünki çətinlikdəyəm, dərhal cavabla məni! Yaxınlaş mənə, qurtar məni, götür üzərimdəki düşmənlərimi... Sənin xilasın ey Allah, mənə bir qala (sığınacaq) olsun! Allahın adını tərənnüm edəcəyəm, şükrlərimlə Onu ucaldacağam... Məzlumlar bunu görüncə sevinsin, ey Allaha yönələn sizlər, ürəyiniz canlansın. Çünki Rəbb yoxsulları eşidər... Ona təriflər deyin ey yer, göy, dənizlər və onlardakı bütün canlılar! (Zəbur, 69:13-18, 29-34)

Səndə nəşə və sevinc tapsın bütün Sənə yönələnlər! "Allah ucadır!" desin həmişə Sənin xilasını gözləyənlər!... Köməkçim və qurtarıcım Sənsən... ya Rəbb! (Zəbur, 70:4-5)

Ya Rəbb, Sənə sığınıram... Ədalətinlə qurtar məni, təhlükədən uzaqlaşdır... Qurtar məni! Sığınacaq gücüm ol, həmişə yönələ biləcəyim; buyruq ver, xilas olum, çünki gücüm və qalam (sığınacağım) Sənsən. Ey Allahım, qurtar məni pisin əlindən, haqsızın, qəddarın pəncəsindən! Çünki ümidim Sənsən, ey hakim Rəbb, gəncliyimdən bəri dayağım Sənsən. Doğulduğum gündən bəri Sənə güvənirəm, məni ana rəhmindən çıxaran Sənsən. Təriflərim həmişə Sənədir. Bir çoxlarına yaxşı bir nümunə oldum, çünki Sən güclü sığınacağımsan. Ağzımdan Sənə tərif azalmaz, gün boyu ucalığını xatırlayaram... Amma mən həmişə ümidliyəm, Sənə tərif üstünə tərif düzəcəyəm. Gün boyu Sənin zəfərini, xilasını bildirəcəyəm... Ey hakim Rəbb, Sənin, yalnız Sənin zəfərini eşitdirəcəyəm. Ey Allah, uşaqlığımdan bəri məni Sən yetişdirdin, Sənin möcüzələrini hələ danışıram... Ey Allah, doğruluğun göylərə çatır, əzəmətli işlər gördün... Sən ki... mənə yenidən həyat verib məni torpağın dərinliklərindən çıxaracaqsan. Hörmətimi artırıb yenə mənə təsəlli verəcəksən. Mən də Səni, Sənin sədaqətini... lira çalıb Səni ilahilərlə tərifləyəcəyəm... Səni ilahilərlə tərifləyərkən, dodaqlarımla, varlığımla sevincimi dilə gətirəcəyəm, çünki Sən məni qurtardın. Dilim gün boyu Sənin zəfərindən danışacaq... (Zəbur, 71:1-24)

Rəbb Allaha... təriflər olsun, möcüzələr yaradan yalnız Odur. Uca adına sonsuzadək təriflər olsun, bütün yer üzü Onun ucalığı ilə dolsun! Amin! Amin! (Zəbur, 72:18-19)

Allah həqiqətən... Qəlbi təmiz olanlara qarşı yaxşıdır... Onların (pislərin) acıdan xəbəri yoxdur, bədənləri sağlamdır, kökdür. Başqalarının dərdini bilməz, onlar kimi əziyyət çəkməzlər. Buna görə qürur onlara boyunbağı, zülm də onları örtən libas kimidir... İçləri pislik qazanı kimi qaynayar. İnsanlarla əylənər, pis niyyətlə danışar, təpədən baxar, zor gücü ilə təhdid edərlər. Ağızlarını göylərə açarlar, mənasız sözləri yer üzünü dolaşar... Bunu anlamaq üçün düşündüyümdə ağır gəldi mənə, Allahın məscidinə girənə qədər; o zaman anladım sonlarının nə olacağını. Həqiqətən onları sürüşkən yerə qoyub müsibətə sürüyürsən... Yenə də davamlı Səninləyəm, sağ əlimdən tutarsan (36) məni. Öyüdlərinlə yol göstərib məni sonda ucaldarsan.

Səndən başqa kimim var ki, göylərdə? İstəmərəm Səndən başqasını yer üzündə. Vücudum, ürəyim tükənə bilər, amma Allah ürəyimdə güc, mənə düşən paydır sonsuza qədər... Mənim üçün ən yaxşısı Allaha yaxın olmaqdır; bütün işlərini eşitdirim deyə sığınacaq etdim hakim Rəbbi özümə. (Zəbur, 73:1-28)

Çay və bulaqlar fışqırtdın, davamlı axan çayları qurutdun. Gün Sənindir, gecə də Sənindir, Ay və Günəşi Sən yerləşdirdin, yer üzünün bütün sərhədlərini Sən təyin etdin, yazı və qışı da yaradan Sənsən. (Zəbur, 74:15-17)

Sənə şükr edirik ey Allah, şükr edirik, çünki Sən yaxınsan, möcüzələrin bunu göstərər. "Təyin etdiyim zaman gəlincə düzgünlüklə mühakimə edəcəyəm" deyir Allah, "Yer üzü alt-üst olunca üzərindəkilərlə birlikdə mən bərqərar edəcəyəm onun dirəklərini". Öyünənlərə "Öyünməyin artıq!" dedim; Pislərə "Qaldırmayın başınızı! Qaldırmayın başınızı! yuxarıdan danışmayın!" Çünki nə şərqdən, nə qərbdən, nə də səhradakı dağlardan doğular mühakimə. Hakim ancaq Allahdır (37), birisini alçaldar, birisini yüksəldər... Mən isə davamlı eşitdirəcəyəm bunu... Allahı ilahilərlə tərifləyəcəyəm: "Əzəcəyəm pislərin bütün gücünü, doğruların gücü isə artacaq". (Zəbur, 75:1-10)

Tək Sənsən qorxulması gərəkən, qəzəblənincə kim dura bilər qarşında?... Vəd edin Allahınız Rəbbə, yerinə yetirin vədinizi... (Zəbur, 76:7-11)

Yüksək səslə Allaha yalvarıram... Çətin günümdə Rəbbə yönəlirəm... Rəbbin işlərini xatırlayacağam, bəli, keçmişdəki möcüzələrini xatırlayacağam. Etdikləri üzərində dərin düşünəcəyəm, bütün işlərinin üzərində diqqətlə dayanacağam. Ey Allah, yolun müqəddəsdir!... Möcüzələr yaradan Allah Sənsən, xalqlar arasında gücünü göstərdin... (Zəbur, 77:1-19)

... Bunları gizləməyəcəyik; Rəbbin tərifli işlərini, gücünü, göstərdiyi möcüzələri gələcək nəsillərə eşitdirəcəyik... Allaha güvən duysunlar, Allahın etdiklərini unutmasınlar, Onun buyruqlarını yerinə yetirsinlər; ataları kimi inadcıl, baş qaldıran, qəlbi qərarsız, Allaha sədaqətsiz bir nəsil olmasınlar... Allahın əhdinə uymadılar, Onun qanununa görə yaşamağı rədd etdilər. Unutdular Onun işlərini, özlərinə göstərdiyi möcüzələri... Allah möcüzələr yaratmışdı atalarının önündə. Dənizi yarıb keçirmişdi onları, bir divar kimi dəstək olmuşdu suları. Gündüz buludla, gecə od işığında onlara yol göstərmişdi. Səhrada qayaları yarmış, sanki dibi olmayan bulaqlardan onlara çoxlu su içirmişdi. Qayadan axar sular fışqırtmış, suları çay kimi axıtmışdı. Amma onlar səhrada ucalar ucasına (Allaha) baş baldırıb günah işləməyə davam etdilər. Könüllərindən keçən yeməyi istəyib qəlblərində Allahı sınadılar (Allahı tənzih edirik). "Allah səhrada süfrə aça bilərmi?" deyib Allaha qarşı danışdılar. "Bax, qayaya vurunca sular fışqırdı, dərələr daşdı. Yaxşı, çörək və ət verə bilərmi xalqına?" Rəbb bunu eşidincə çox qəzəbləndi... (38). Çünki Allaha inanmırdılar, Onun xilasına güvənmirdilər. Yenə də Rəbb buyruq verdi buludlara, qapaqlarını açdı göylərin... Doyumluq yemək göndərdi onlara. Şərq küləyini əsdirdi göylərdə, gücüylə cənub küləyinə yol göstərdi... İstəklərini yerinə yetirdi Allah... Yenə də günah işləməyə davam etdilər, Onun möcüzələrinə inanmadılar. Buna görə Allah onların günlərini boşluq, illərini dəhşət içində bitirdi. Allah onları öldürdükcə Ona yönəlməyə, istəklə Onu yenidən axtarmağa başlayırdılar. Allahın gücləri olduğunu, Uca Allahın xilaskarları olduğunu xatırlayırdılar. Halbuki ağızları ilə Ona vicdansız davranır, dilləri ilə yalan danışırdılar. Ona ürəkdən bağlı deyildilər, əhdinə sadiq qalmadılar. Yenə də Allah mehriban idi, günahlarını bağışlayıb onları yox etmirdi... Səhrada neçə dəfə Ona baş qaldırdılar... Xatırlamadılar Onun güclü əlini (39), özlərini düşməndən qurtardığı günü, Misirdə göstərdiyi əlamətləri... Etdiyi təəccüblü işləri. Misirin kanallarını qana çevirdi, sularını içə bilmədilər. Göndərdiyi at milçəkləri yedi xalqı, göndərdiyi qurbağalar yox etdi ölkəni. Əkinlərini tırtıllara, əməklərinin məhsulunu çəyirtkələrə verdi. Asmalarını dolu ilə, əncir ağaclarını iri dolu dənələri ilə yox etdi. Böyük heyvanlarını qırğına, kiçik heyvanlarını ildırıma təslim etdi... Canlarını ölümdən əsirgəmədi, onları yoluxucu xəstəliyin pəncəsinə saldı... Onlara təhlükəsizlik içində yol göstərdi, qorxmadılar; düşmənlərini isə dəniz uddu... Amma onlar... Ona baş qaldırdılar, şərtlərinə uymadılar. Üz döndərib ataları kimi xəyanət etdilər, etibarsız bir yay kimi xarab çıxdılar... (Zəbur, 78:4-57)

... Şəfqətini dərhal göstər bizə... Kömək et bizə uca Adın naminə, ey bizi qurtaran Allah, qurtar bizi Adın uğruna, bağışla günahlarımızı!... Sonsuzadək şükr edəcəyik Sənə, nəsillər boyu təriflərini dilimizdən salmayacağıq. (Zəbur, 79:8-13)

Bizi əvvəlki halımıza qovuşdur ey Allah, üzünün nuru ilə (nurunla) işıqlandır, xilas olaq! Ya Rəbb, Hər şeyə hakim Allah... Bizi əvvəlki halımıza qovuşdur, ey hər şeyə hakim Allah, üzünün nuru ilə (nurunla) işıqlandır, xilas olaq!... Səndən əsla

ayrılmayacağıq; həyat ver bizə, adını anaq! Ya Rəbb, ey hər şeyə hakim Allah, bizi əvvəlki halımıza qovuşdur, üzünün nuru ilə (nurunla) işıqlandır, xilas olaq! (Zəbur, 80:3-19)

Sevincinizi dilə gətirin gücümüz olan Allaha, sevinc səsləri ucaldın... Çalğıya başlayın, dəf çalın, şirin səsli lira və çəng zingildədin. Yeni Ayda, bütöv ayda, boru çalın bayram günümüzdə.... "... Başqa bir ilaha tapınmayın! Səni Misirdən çıxaran Allahın Rəbb Mənəm". (Zəbur, 81:1-10)

"Nə zamana qədər haqsız hökm verəcək, pisləri himayə edəcəksiniz? Zəifin, yetimin mühakiməsini müdafiə edin; məzlumun, yoxsulun haqqını axtarın. Zəifi, düşkünü qurtarın, onları pislərin əlindən azad edin". Bilmirlər, anlamırlar, qaranlıqda gəzirlər... (Zəbur, 82:2-5)

Utandırmaqla ört üzlərini, Sənə yönəlsinlər ya Rəbb... Sənin Adın Rəbbdir, anlasınlar yalnız Sənin yer üzünə hakim ən uca Allah olduğunu. (Zəbur, 83:16-18)

Ey hər şeyə hakim Rəbb... Qəlbim, bütün varlığım Sənə, yaşayan Allaha sevinclə səslənir... Ey hər şeyə hakim Rəbb... Allahım! Nə xoş Sənin evində oturanlara (Allahın məscidində Allahı ananlara), Səni davamlı tərifləyərlər! Nə xoş gücünü Səndən alan insana!... Sənin həyətlərində (Allahın adının xatırlandığı məsciddə) bir gün başqa yerdəki min gündən yaxşıdır; pislərin çadırında yaşamaqdansa, Allahımın evinin (Allahın adının xatırlandığı məscidin) eşiyində dayanmağı üstün tutaram. Çünki Rəbb Allah bir Günəş (40), bir qalxandır (41). Lütf və ucalıq verər; dürüst yaşayanlardan heç bir yaxşılığı əsirgəməz. Ey hər şeyə hakim Rəbb, nə xoş Sənə güvənən insana! (Zəbur, 84:1-12)

Ya Rəbb, sevgini göstər bizə, xilasını bağışla! Dinləyəcəyəm Rəbb Allahın nə deyəcəyini... Sadiq qullarına xoşbəxtlik sözü verəcək, yetər ki, bir daha ağılsızlıq etməsinlər. Bəli, O, Özündən qorxanları qurtarmaq üzrədir, əzəməti ölkəmizdə yaşasın deyə. Sevgi və sədaqət görüşəcək, düzgünlük və xoşbəxtlik öpüşəcək. Sədaqət yerdən bitəcək, düzgünlük göydən baxacaq. Və Rəbb yaxşı olan nədirsə, onu verəcək, torpağımızdan məhsul çıxacaq. Düzgünlük öndə gedəcək... (Zəbur, 85:7-13)

... Ya Rəbb, cavabla məni, çünki məzlum və yoxsulam. Qoru məni, çünki Sənin sadiq qulunam. Ey Allahım, qurtar Sənə güvənən qulunu! Acı mənə ya Rəbb, çünki gün boyu Sənə yalvarıram. Sevindir qulunu ya Rəbb, çünki dualarımı Sənə yüksəldirəm. Sən yaxşı və bağışlayansan ya Rəbb, Sənə yalvaran hər kəsə bol sevgi göstərərsən. Dinlə duamı ya Rəbb, yalvarışlarıma diqqət yetir! Çətin günümdə Sənə yalvararam, çünki cavablayarsan məni... Sənin kimisi yoxdur ya Rəbb, bənzərsizdir işlərin. Yaratdığın bütün xalqlar gəlib Sənə qulluq edəcəklər ya Rəbb, adını ucaldacaqlar. Çünki Sən ulusan, möcüzələr yaradarsan, tək Allah Sənsən. Ya Rəbb, yolunu mənə öyrət, Sənin həqiqətinə görə gedim, qərarlı et məni, yalnız Sənin Adından qorxum. Ya Rəbb Allahım, bütün qəlbimlə Sənə şükr edəcəyəm, Adını sonsuzadək ucaldacağam. Çünki mənə sevgin böyükdür, məni ölülər diyarının (Cəhənnəmin) dərinliklərindən Sən qurtardın... Sən, ya Rəbb, mehriban və lütf edənsən... sevgin və sədaqətin boldur... Sən ya Rəbb, mənə kömək etdin, mənə təsəlli verdin. (Zəbur, 86:1-17)

Ya Rəbb, məni qurtaran Allah, gecə gündüz Sənə yalvarıram... Hər gün Sənə yalvarıram ya Rəbb... Ya Rəbb, köməyə çağırıram Səni, sübh duam Sənə çatar. (Zəbur, 88:1, 9-13)

Rəbbin sevgisini sonsuza qədər tərənnümlə (ilahilərlə) tərifləyəcəyəm, sədaqətini bütün nəsillərə bildirəcəyəm. “Sevgin sonsuzadək var olar” deyəcəyəm... Ya Rəbb, göylər tərifləyər möcüzələrini, müqəddəslər birliyində (saleh möminlər arasında) təriflənər sədaqətin... Müqəddəslər birliyində (saleh möminlər arasında) Allah qorxu oyadar, ətrafındakılarının hamısından ulu və müdhişdir... Göylər Sənindir, yer üzü də Sənindir; dünyanın və içindəki hər şeyin təməlini Sən atdın. Şimalı, cənubu Sən yaratdın... Qolun güclüdür, əlin qüdrətlidir, sağ əlin ucadır (42). Taxtın (Allahın uca məqamı) ədalət və düzgünlük üzərinə qurulmuşdur, sevgi və sədaqət öndə gedər. Nə xoş sevinc səslərini bilən xalqa (Allahın adını xatırlayaraq xoşbəxt olanlara) ya Rəbb! Üzünün nurunda gedərlər. Gün boyu Sənin Adınla sevinər, doğruluğunla ucalarlar. Çünki Sən onların gücü və ucalığısan, lütfün sayəsində gücümüz artar. Qalxanımız Rəbbə aiddir (qoruyucumuz Allahdır)... Sonsuzadək təriflər olsun Rəbbə! Amin! Amin! (Zəbur, 89:1-52)

Ya Rəbb, sığınacaq oldun bizə nəsillər boyunca. Dağlar var olmadan, hələ kainatı və dünyanı yaratmadan, əzəldən sonsuzluğa qədər Allah Sənsən. İnsanı torpağa çevirərsən, "Ey adəm övladları, torpağa dönün!" deyərək. Çünki Sənin gözündə min il keçmiş bir gün, dünən kimi, bir gecə növbəsi kimidir. İnsanları bir xəyal kimi silər, süpürərsən səhər bitən ot kimi: Səhər cücərib  böyüyər, axşam solub quruyar... Bizi sevginlə doyur, ömrümüz boyu sevinclə səslənək. Allahımız Rəbb bizdən razı qalsın. Əllərimizin əməyini boşa çıxarma. Bəli, əllərimizin əməyini boşa çıxarma. (Zəbur, 90:1-17)

Ucalar ucasının evində oturan (Allahın məscidində Allahı anan) hər şeyə qüdrəti yetənin kölgəsinə sığınar (43). "O, mənim sığınacağım, qalamdır (qoruyucumdur)" deyirəm Rəbb üçün, "Allahım, Ona güvənirəm." Çünki O, səni ovçu tələsindən, öldürücü xəstəlikdən qurtarar. Səni qanadlarının altına (44) alar, onların altına sığınarsan. Onun sədaqəti sənin qalxanın, sipərin (qoruyucun) olar. Nə gecənin dəhşətindən qorxarsan, nə gündüz uçan oxdan, nə qaranlıqda gəzən xəstəlikdən, nə də günortanın məhv edici qırğınından... Sən Rəbbi özünə sığınacaq, ucalar ucasını iqamət bildiyin (Allahı dost bildib Ona sığındığın) üçün, başına bəla gəlməyəcək, çadırına fəlakət yaxınlaşmayacaq. Çünki Allah mələklərinə buyruq verəcək, gedəcəyin hər yerdə səni qorusunlar deyə... "Məni sevdiyi üçün onu qurtaracağam" deyir Rəbb, "Məni yaxşı tanıdığı üçün ona qala olacağam (onu qoruyacağam). Mənə səslənincə onu cavablayacağam, çətinlikdə onun yanında olacağam, qurtarıb ucaldacağam onu. Onu uzun ömürlə doyuracaq, ona xilasımı göstərəcəyəm". (Zəbur, 91:1-16)

Ya Rəbb, sənə şükr edib ucalar ucası adını ilahilərlə tərifləmək, səhər sevgini, gecə sədaqətini on telli sazla, çəng və lira ilə eşitdirmək necə gözəldir! Çünki etdiklərinlə məni sevindirdin ya Rəbb, əllərinin işi (bənzərsiz xəlqin) qarşısında sevinc ilahiləri oxuyuram. Etdiklərin necə də böyükdür ya Rəbb... Axmaq insan bilə bilməz, səfeh ağıl başa düşməz... Sən sonsuzadək ucasan ya Rəbb. Ya Rəbb... Doğru insan xurma ağacı kimi böyüyəcək, Livan sidri kimi yüksələcək... Belələri yaşlanınca da meyvə verəcək, təptəzə və yaşıl qalacaqlar. "Rəbb doğrudur! Gücümdür mənim! Onda haqsızlıq olmaz!" deyə eşitdirəcəklər. (Zəbur, 92:1-15)

Rəbb hökmranlıq edir, əzəmətə bürünmüşdür (üstün güc sahibidir) və qüdrətlidir. Dünya möhkəm qurulmuşdur, sarsılmaz. Ya Rəbb, hökmranlığın sonradan əvvəl qurulmuşdur, varlığın əzəlidir. Dənizlər guruldayır ya Rəbb, dənizlər gur-gur guruldayır, dənizlər dalğalarını səsləndirir... Şərtlərin həmişə etibarlıdır... (Zəbur, 93:1-5)

Ey xalqın içindəki səfehlər, diqqət edin; ey axmaqlar, nə vaxt ağıllanacaqsınız? Qulağı yaradan eşitməzmi? Gözə şəkil verən görməzmi? Xalqları yola gətirən mühakimə etməzmi? İnsanı öyrədən bilməzmi? Rəbb insanın fikirlərinin mənasız olduğunu bilər. Nə xoş ya Rəbb, yola gətirdiyin, qanunu öyrətdiyin insana!... Ədalət yenə düzgünlük üzərinə qurulacaq, qəlbi təmiz olan hər kəs ona uyacaq... "Ayağım sürüşür" dediyimdə sevgin dəstək olar mənə ya Rəbb. Məni qayğı bürüyəndə Sənin təsəllin (Sənin hüzur və güvən duyğusu endirməyin) könlümü sevindirər... Rəbb mənə qala (sığınacağım, tək köməkçim, dostum) oldu, Allahım sığındığım güc oldu. Allahımız Rəbb etdikləri pisliyi öz başlarına gətirəcək... (Zəbur, 94:8-23)

Gəlin, Rəbbə sevinclə səslənək, bizi qurtaran gücə sevinc səsləri ucaldaq, şükrlə hüzuruna çıxaq, Ona sevinc ilahiləri ucaldaq! Çünki Rəbb ulu Allahdır... Yerin dərinlikləri Onun əlindədir, dağların zirvəsi də Onundur. Dəniz Onundur, çünki O yaratdı, torpağa da Onun əlləri şəkil verdi. Gəlin, ibadət edək, əyilək, bizi yaradan Rəbbin qarşısında diz çökək. Çünki O, Allahımızdır... Ürəyinizi qatılaşdırmayın. (Zəbur, 95:1-8)

Yeni bir tərənnüm (ilahi) söyləyin Rəbbə! Ey bütün dünya, Rəbbi tərənnüm edin! Tərənnüm (ilahi) söyləyin, Rəbbin adını öyün, hər gün eşitdirin xilasını! Əzəmətini xalqlara, möcüzələrini bütün millətlərə danışın! Çünki Rəbb uludur, yalnız O tərifə layiqdir... Ondan qorxmaq lazımdır... Göyləri yaradan Rəbbdir. Ucalıq, ululuq Onun hüzurundadır, güc və gözəllik Onun ibadət yerindədir. Ey bütün xalqlar, Rəbbi öyün, Rəbbin gücünü, ucalığını öyün, Rəbbin əzəmətini adına yaraşan şəkildə öyün... Rəbbə qulluq edin! Əsin Onun qarşısında, ey bütün yer üzündəkilər! Xalqlara "Rəbb hökmranlıq edir" deyin... O, xalqları ədalətlə mühakimə edər. Sevinsin göylər, coşsun yer üzü! Guruldasın dəniz içindəkilərlə birlikdə! Bayram etsin düzəngahlar və üzərindəkilər! O zaman Rəbbin qarşısında bütün meşədəki ağaclar sevinclə səslənəcək. (Zəbur, 96:1-12)

Rəbb hökmranlıq edir, coşsun yer üzü, bütün sahil xalqları sevinsin!... Şimşəkləri dünyanı işıqlandırar, yer üzü görüb titrəyər... Göylər Onun doğruluğunu eşitdirər, bütün xalqlar əzəmətini görər. Utansın bütə tapınanlar, dəyərsiz bütlərlə öyünənlər! Rəbbə qulluq edin... Sənsən ya Rəbb, bütün yer üzünün ən ucası... Çox ulusan. Ey sizlər, Rəbbi sevənlər, pislikdən

çəkinin. O, sadiq qullarının canını qoruyar, onları pislərin əlindən qurtarar. Doğrulara işıq, təmiz qəlblilərə sevinc saçar. Ey doğrular, Rəbbdə sevinc tapın, müqəddəsliyini xatırlayaraq Ona şükr edin! (Zəbur, 97:1-12)

Yeni bir tərənnüm (ilahi) söyləyin Rəbbə. Çünki möcüzələr yaratdı, zəfərlər qazandı sağ əli... Rəbb xalqların gözü önünə sərdi xilasını, zəfərini bildirdi... Sevinc səsləri yüksəldin Rəbbə ey yer üzündəkilər! Sevinc ilahiləri ilə yeri-göyü titrədin! Lira ilə tərənnüm edin Rəbbi, lira və tərənnümlə bərabər! Boru və şeypurla birlikdə sevinc səsləri ucaldın... Rəbbin qarşısında. Guruldasın dəniz və içindəkilər, guruldasın yer üzü və üzərindəkilər. Əl çalsın çaylar, sevinclə səslənsin dağlar Rəbbin qarşısında! (Zəbur, 98:1-8)

Rəbb.. uludur, ucadır O, bütün xalqlara hakimdir. Tərifləsinlər böyük, müdhiş Adını! O, müqəddəsdir. Ucaldın Allahımız Rəbbi... O, müqəddəsdir. Musa ilə Harun Onun elçilərindən idi... Rəbbə səslənərdilər, O da cavablayardı... Tabe oldular Onun buyruqlarına, özlərinə verdiyi qaydalara. Ya Rəbb Allahımız, cavab verdin onlara; bağışlayan oldun... Allahımız Rəbbi ucaldın, qulluq edin... Çünki Allahımız Rəbb müqəddəsdir. (Zəbur, 99:2-9)

Ey bütün dünya, Rəbbə sevinc səsləri ucaldın! Ona sevinclə qulluq edin, sevinc tərənnümləri ilə çıxın hüzuruna! Bilin ki, Rəbb Allahdır. Bizi yaradan Odur, biz də Onunuq... Şükr edin Ona, adına təriflər deyin! Çünki Rəbb yaxşıdır, sevgisi sonsuzdur... (Zəbur, 100:1-5)

Sevgini və ədalətini tərənnümlə (ilahilərlə) xatırlayacağam, Səni ilahilərlə tərifləyəcəyəm ya Rəbb. Dürüst davranmağa diqqət göstərəcəyəm... Təmiz bir həyat sürəcəyəm evimdə, önümdə alçaqlığa izn verməyəcəyəm. Xoşlanmaram dönənlərin işindən, təsir etməz mənə. Uzaq olsun məndən pozğunluq, tanımaq istəmərəm pisliyi. Yox edərəm (yox sayaram) dostunu gizlicə çəkişdirəni, dözə bilmərəm yuxarıdan baxan qürurlu insana. Gözüm ölkənin sadiq insanları üzərində olacaq, yanımda oturmalarını istəyərəm; mənə dürüst yaşayan adam xidmət edəcək. Hiyləgər evimdə oturmayacaq, yalan danışan gözümün qabağında durmayacaq. (Zəbur, 101:1-7)

... Ya Rəbb, şanın nəsillər boyu sürər. Xalqlar Rəbbin adından, yer üzü padşahları əzəmətindən (güc və qüdrətindən) qorxacaq... Lap əvvəldən atdın dünyanın təməllərini, göylər də Sənin əllərinin əsəridir. Onlar yox olacaq, amma Sən qalıcısan. Hamısı bir paltar kimi köhnələcək. Onları bir cübbə kimi dəyişdirəcəksən, keçib gedəcəklər. (Zəbur, 102:12-26)

Rəbbə təriflər de ey könlüm! Onun müqəddəs Adına təriflər de ey bütün varlığım! Rəbbə təriflər de ey qəlbim! Yaxşılıqlarının heç birini unutma! Bütün günahlarını bağışlayan, bütün xəstəliklərini sağaldan, canını ölüm quyusundan (Cəhənnəmdən) qurtaran, sənə sevgi və şəfqət tacı geydirən, həyat boyu səni yaxşılıqlarla doyuran Odur, bu səbəblə gəncliyin qartal kimi təzələnər. Rəbb bütün düşkünlərə haqq və ədalət verər... Rəbb mehriban və lütf edəndir, tez qəzəblənməz, sevgisi dərindir... Özündən qorxanlara qarşı sevgisi də o qədər böyükdür... Rəbb Özündən qorxanlara mehriban davranar... İnsana gəlincə ota bənzər ömrü tarla çiçəyi kimi sovrular; külək üzərinə əsincə yox olub gedər, olduğu yer onu tanımaz. Amma Rəbb Özündən qorxanları sonsuza qədər sevər, sözləşməsinə (əələrinə) uyan və buyruqlarına tabe olmağı xatırlayan soylarına ədalətli davranar... Onun hökmranlığı hər yeri əhatə edər. Rəbbə təriflər deyin ey sizlər, Onun mələkləri, Onun sözünü dinləyən, söylədiklərini yerinə yetirən güc sahibləri! Rəbbə təriflər deyin ey sizlər, Onun... istəyini yerinə yetirən qulları! Rəbbə təriflər deyin... Rəbbə təriflər de ey könlüm! (Zəbur, 103:1-22)

Rəbbə təriflər de ey könlüm! Ya Rəbb Allahım, necə də ulusan! Əzəmətli və ucasan... İşığa (nura) bürünmüsən... Yer üzünü təməllər üzərinə qurdun ki, əsla sarsılmasın. Dənizi ona bir libas kimi geydirdin, sular dağların üzərində dayandı... (Sular) dağları aşıb dərələrə axdı, onlar üçün təyin etdiyin yerlərə doğru. Bir sərhəd qoydun önlərinə keçməsinlər ki, gəlib yer üzünü bir daha örtməsinlər. Vadilərdə fışqırtdığın bulaqlar dağların arasından axar. Bütün çöl heyvanlarına su içirərsən, çöl eşşəklərinin susuzluğunu aradan qaldırarlar. Quşlar yanlarında yuva qurar, budaqların arasında ötüşərlər... Heyvanlar üçün ot, insanların faydası üçün bitkilər yetişdirərsən; insanlar çörəyini torpaqdan çıxarsın deyə... Üzlərini güldürən zeytun yağını, güclərini artıran çörəyi həmişə Sən verərsən. Rəbbin ağacları... suya doyar. Quşlar orada yuva qurar, leyləyin evi isə şamlardadır. Yüksək dağlar dağ keçilərinin gəzdiyi yerlərdir, qayalar da qaya dovşanlarının sığınacağıdır. Mövsümləri göstərsin deyə Ayı, batacağı zamanı bilən Günəşi yaratdın. Qaraldarsan hər yeri, gecə olar, tərpənməyə başlayar meşə heyvanları. Gənc aslan ov arxasında nərildəyib Allahdan yemək istəyər. Günəş doğunca yuvalarına çəkilib yatarlar. İnsan

işinə gedər, axşama qədər çalışmaq üçün. Ya Rəbb, necə də çox əsərin var! Hamısını müdrikliklə (hikmətlə) yaratdın; yer üzü yaratdıqlarınla doludur. Budur, ucsuz-bucaqsız dənizlər, içində qaynaşan saysız canlılar, böyük-kiçik varlıqlar. Orada gəmilər gəzər... Hamısı Səni gözləyir, yeməklərini zamanında verməyin üçün. Sən verincə onlar toplayar... Yaxşılığa doyar... Ruhunu göndərincə (Allahın diləməsiylə, Ruhundan üfləməsiylə) var olarlar, yer üzünə yeni həyat verərsən. Rəbbin əzəməti sonsuza qədər sürsün!... Ömrüm boyu Rəbbi tərənnüm edəcək, var olduqca Allahımı ilahilərlə tərifləyəcəyəm. Niyyətim ona xoş görünsün, sevincim Rəbb olsun!.. Rəbbə tariflər de ey könlüm! Rəbbə təriflər de! (Zəbur, 104:1-35)

Rəbbə şükr edin, Ona yalvarın, xalqlara danışın yaratdıqlarını! Onu tərənnümlə, ilahilərlə öyün, bütün möcüzələrini danışın! Müqəddəs adı ilə öyünün, sevinsin Rəbbə yönələnlər! Rəbbə və Onun gücünə baxın, dayanmadan Onun üzünü (Allahın rizasını) axtarın!... Onun yaratdığı möcüzələri, fövqəladə işlərini (üstün xəlqini) və mühakimələrini (hökmünü) xatırlayın! Allahımız Rəbb Odur, mühakimələri (hökmü) bütün yer üzünü əhatə edir. (Zəbur, 105:1-7)

Təriflər deyin Rəbbə! Rəbbə şükr edin, çünki O, yaxşıdır, sevgisi sonsuzdur. Rəbbin böyük işlərini kim danışa bilər, kim Ona kifayət qədər tərif deyə bilər? Nə xoş ədalətə uyanlara, davamlı doğru olanı edənlərə!... Onun sözlərinə inandılar, tərənnümlər deyib Onu təriflədilər. Lakin Rəbbin etdiklərini tez unutdular... Allahın verdiyi sözə inanmadılar. Çadırlarında deyindilər, dinləmədilər Rəbbin səsini... Bütlərinə tapındılar, bu da onlara tələ oldu... Günahsızların qanını tökdülər... Etdiklərinə görə kirli sayıldılar, vəfasız oldular... Rəbb onları bir neçə dəfə qurtardı, amma ağılları, fikirləri üsyan etmək idi və alçaldıldılar günahları üzündən... Qurtar bizi ey Allahımız... Müqəddəs adına şükr edək, ucalığınla öyünək. Əzəldən sonsuza qədər... Rəbbə təriflər olsun! Bütün xalq "Amin!" desin. Rəbbə təriflər olsun! (Zəbur, 106:1-48)

Rəbbə şükr edin, çünki O, yaxşıdır, sevgisi sonsuzdur. Belə desin Rəbbin qurtardıqları, düşmən pəncəsindən azad etdikləri, şərqdən, qərbdən, şimaldan, cənubdan, bütün ölkələrdən topladıqları. Kimsəsiz çöllərdə gəzdilər, yerləşəcəkləri şəhərə gedən bir yol tapa bilmədilər. Ac, susuz, səfil oldular. O zaman çətinlik içində Rəbbə yalvardılar, Rəbb qurtardı onları dərdlərindən... Onlara doğru yolda öndər oldu. Şükr etsinlər Rəbbə sevgisinə görə, insanların faydası üçün yaratdığı möcüzələrə görə. Çünki O, susamış canın susuzluğunu aparar, ac canı yaxşı şeylərlə doyurar... Çətinlik içində Rəbbə yalvardılar, Rəbb qurtardı onları dərdlərindən; çıxardı qaranlıqdan, zülmət qaranlıqdan, qırdı zəncirlərini. Şükr etsinlər Rəbbə sevgisi üçün, insanların faydasına olan möcüzələrə görə!... Çətinlik içində Rəbbə yalvardılar, Rəbb qurtardı onları dərdlərindən... Şükr etsinlər Rəbbə sevgisi üçün, insanların faydasına yaratdığı möcüzələrə görə! Şükr qurbanları versinlər və sevinc səsləri ilə eşitdirsinlər Onun yaratdıqlarını! Gəmilərlə dənizə çıxanlar, okeanlarda iş görənlər, Rəbbin işlərini, dərinliklərdə yaratdığı möcüzələri gördülər. Çünki O buyurunca şiddətli bir fırtına qopdu, dalğalar şahə qalxdı. Göylərə yüksəlib aşağı endi gəmilər, çətinlik içində çox qorxdular gəmiçilər... Mahir olmaqları işə yaramadı. O zaman çətinlik içində Rəbbə yalvardılar, Rəbb qurtardı onları dərddən. Fırtınanı sakitliyə çevirdi, yatdı dalğalar; rahatlayınca sevindilər, dilədikləri limana apardı Rəbb onları. Şükr etsinlər Rəbbə sevgisi üçün, insanların faydasına yaratdığı möcüzələrə görə! Ucaltsınlar Onu... Çayları səhraya çevirər, bulaqları quru torpağa, məhsuldar torpağı quraq sahəyə... Səhranı su yığınına çevirər, quru torpağı bulağa. Acları oraya yerləşdirər ki, yaşayacaq bir şəhər qursunlar, tarlalar əkib bağlar salsınlar, bol məhsul götürsünlər... Doğru insanlar görüb sevinəcək, pislər isə ağızlarını bağlayacaq. Ağlı olan bunları göz önündə tutsun, Rəbbin sevgisinə diqqət etsin. (Zəbur, 107:1-43)

Xalqların arasında Sənə şükrlər edim ya Rəbb, xalqların arasında Səni ilahilərlə tərifləyim. Çünki sevgin göylərə çatar, sədaqətin səmaya çatar. Ucalığını göstər göylərin üstündə ey Allah, əzəmətin bütün yer üzünü örtsün! Qurtar bizi sağ əlinlə, kömək et ki, sevdiklərin azadlığa qovuşsun! (Zəbur, 108:1-12

Ey təriflər dediyim Allah... Sevgimə qarşı mənə düşmən oldular, mən isə dua edirəm. Yaxşılığıma pisliklə, sevgimə nifrətlə cavab verdilər... Amma Sən ey hakim Rəbb... Qurtar məni, yaxşılığın, sevgin naminə!... Kömək et mənə ya Rəbb Allahım; qurtar məni sevgin naminə! Bilsinlər bu işdə Sənin əlinin olduğunu (Sənin təqdirinlə olduğunu), bunu Sənin etdiyini ya Rəbb!... Rəbbə çox şükr edəcəyəm, camaatın arasında Ona təriflər düzəcəyəm... (Zəbur, 109:1-30)

Təriflər deyin Rəbbə! Doğru insanların yığıncağında, topluluq içində, bütün qəlbimlə Rəbbə şükr edəcəyəm. Rəbbin işləri böyükdür, onlardan zövq alanlar həmişə onları düşünər. Onun etdikləri uca və əzəmətlidir, doğruluğu sonsuza qədər sürər. Rəbb unudulmayan möcüzələr yaratdı, O, mehriban və lütf edəndir. Özündən qorxanları bəsləyər... Etdiyi hər işdə sadiq və

ədalətlidir, bütün şərtləri etibarlıdır; sonsuza qədər sürər, sədaqət və düzgünlüklə edilər... Adı müqəddəs və müdhişdir. Müdrikliyin təməli Rəbb qorxusudur, Onun qaydalarını yerinə yetirən hər kəs kamal sahibi olar. Ona sonsuza qədər tərif deyilər! (Zəbur, 111:1-10)

Təriflər deyin Rəbbə! Nə xoş Rəbbdən qorxan insana, Onun buyruqlarından böyük zövq alana!... Doğruların nəsli müqəddəs hesab ediləcək. Bolluq və zənginlik azalmaz evindən... Qaranlıqda işıq doğular dürüstlər üçün, lütf edən, mehriban, doğru insanlar üçün. Nə xoş əliaçıq olan, borc verən, işlərini ədalətlə icra edən insana! Əsla sarsılmaz, sonsuza qədər xatırlanar doğru insan. Pis xəbərdən qorxmaz, ürəyi sarsılmaz, Rəbbə güvənər. Gözü itidir, qorxu nədir bilməz, sonda düşmənlərinin yenildiyini görər. Hədiyyələr payladı, yoxsullara verdi; doğruluğu sonsuza qədər qalıcıdır, gücü və hörməti artar. Pis adam bunu görüncə qudurar, dişlərini qıcayar, öz-özünü yeyib qurtarar. Pislərin diləyi boşa çıxar. (Zəbur, 112:1-10)

Təriflər deyin Rəbbə! Təriflər deyin ey Rəbbin qulları, Rəbbin adına təriflər deyin! İndidən sonsuza qədər Rəbbin adına şükrlər olsun! Günəşin doğulduğu yerdən batdığı yerə qədər Rəbbin adına təriflər deyilməlidir! Rəbb bütün xalqlara hakimdir, əzəməti göyləri aşar. Varmı Allahımız Rəbb kimi.... Rəbbə təriflər deyin! (Zəbur, 113:1-9)

... Onların bütləri qızıl və gümüşdən düzəldilmiş insan əlinin əsəridir. Ağızları var danışmazlar, gözləri var görməzlər, qulaqları var eşitməzlər, burunları var qoxu hiss etməzlər, əlləri var hiss etməzlər, ayaqları var getməzlər, boğazlarından səs çıxmaz... Rəbbə güvənin, Odur köməkçiniz və qalxanınız (qoruyanınız, sığınacağınız)!... Ey Rəbbdən qorxanlar, Rəbbə güvənin, Odur köməkçiniz və qalxanınız (qoruyanınız, sığınacağınız)!... Böyük-kiçik, Özündən qorxan hər kəsi müqəddəs hesab edəcək... Yeri-göyü yaradan Rəbb sizləri müqəddəs hesab etsin... Rəbbə təriflər deyin! (Zəbur, 115:1-18)

Rəbbi sevirəm... Yaşadıqca Ona səslənəcəyəm... Çətinliyə, acıya düşmüşdüm. O zaman Rəbbə yalvardım, "Aman ya Rəbb, qurtar məni!" dedim. Rəbb lütfkar və ədalətlidir, mehribandır Allahımız. Rəbb təmiz insanları qoruyar, zəiflədiyim zaman məni qurtardı. Ey qəlbim, yenə hüzura qovuş, çünki Rəbb sənə yaxşılıq etdi... Rəbbin hüzurunda gedəcəyəm. İman etdim, "Böyük acı çəkirəm" dediyim zaman belə... Rəbbə əhdlərimi yerinə yetirəcəyəm. Rəbbin gözündə (Allahın qatında) qiymətlidir sadiq qullarının ölümü. Ya Rəbb, mən həqiqətən Sənin qulunam... Ya Rəbb, Sənə səslənəcək, şükr qurbanı verəcəyəm... Rəbbə təriflər deyin! (Zəbur, 116:1-19)

Ey bütün xalqlar, Rəbbə təriflər deyin! Ey bütün xalqlar, Onu ucaldın! Çünki bizə bəslədiyi sevgi böyükdür, Rəbbin sədaqəti sonsuza qədər sürər. Rəbbə təriflər deyin! (Zəbur, 117:1-2)

Rəbbə şükr edin, çünki O, yaxşıdır, sevgisi sonsuzdur... "Sonsuzdur sevgisi!" desin Rəbbdən qorxanlar. Çətinlik içində Rəbbə səsləndim; cavabladı, rahatlığa qovuşdurdu məni. Rəbb məndən yanadır, qorxmaram; insan mənə nə edə bilər? Rəbb məndən yanadır, mənim köməkçimdir... Rəbbə sığınmaq insana güvənməkdən yaxşıdır. Rəbbə sığınmaq soylulara güvənməkdən yaxşıdır... İtələdilər məni, az qalsın ki, yıxılırdım, amma Rəbb kömək etdi mənə... O qurtardı məni. Sevinc və zəfər səsləri gəlir doğruların çadırından... Rəbbin etdiklərini eşitdirəcəyəm... Bax, budur Rəbbin qapısı! Doğrular girə bilər oradan. Sənə şükr edirəm, çünki mənə cavab verdin, xilaskarım oldun... Rəbbin işidir bu, gözümüzdə möcüzə bir işdir! Bu gün Rəbbin yaratdığı gündür, ona görə sevinib coşaq! Nə olar ya Rəbb, qurtar bizi, nə olar, müvəffəqiyyətli et bizi! Müqəddəs hesab edilsin Rəbbin adı ilə gələn!... Rəbb Allahdır, işıqlandırdı bizi... Allahım Sənsən, şükr edirəm Sənə, Allahım Sənsən, ucaldaram Səni. Rəbbə şükr edin, çünki O, yaxşıdır, sevgisi sonsuzdur. (Zəbur, 118:1-29)

Nə xoş yolları təmiz olanlara, Rəbbin qanununa görə yaşayanlara! Nə xoş Onun öyüdlərinə uyanlara, bütün qəlbiylə Ona yönələnlərə! Heç haqsızlıq etməzlər, Onun yolunda gedərlər. Qoyduğun şərtlərə diqqətlə əməl etmələrini buyurdun. Kaş ki, qərarlı olam Sənin qaydalarına tabe olmağa! Heç utanmayacağam, bütün buyruqlarını izlədikcə. Şükr edəcəyəm Sənə təmiz ürəklə, ədalətli hökmlərini öyrəndikcə. Qaydalarını yerinə yetirəcəyəm, buraxma məni heç bir zaman! Gənc insan yolunu necə təmiz tutar? Sənin sözünü tutmaqla. Bütün qəlbimlə Sənə yönəlirəm, izn vermə buyruqlarından sapmağıma! Ağlımdan çıxarmaram sözünü, Sənə qarşı günah işləməmək üçün. Təriflər olsun Sənə ya Rəbb, mənə qaydalarını öyrət. ... Bütün hökmlərini dodaqlarımla təkrarlayıram. Sevinc duyuram öyüdlərini izlərkən, sanki mənim olur bütün xəzinələr. Şərtlərini dərin düşünürəm, yollarını izlərkən. Zövq alıram qaydalarından, sözünü unutmayacağam... Gözlərimi aç, qanunundakı möcüzələri görüm. Qəribəm bu dünyada, buyruqlarını məndən gizləmə (hikmətlərini öyrət mənə)! Ruhum tükənir, hər an hökmlərindən

ötrü darıxmaqdan... Uzaqlaşdır məndən küçümsəməyi, təhqirləri, çünki öyüdlərinə sadiqəm. Öndərlər toplanıb məni pisləsələr belə, mən qulun Sənin qaydalarını dərin düşünəcəyəm. Nəsihətlərin mənim zövqümdür, mənə ağıl verərlər... Qaydalarını öyrət mənə! Şərtlərini anlamağıma kömək et ki, möcüzələrinin üzərində düşünüm... Sözünə uyğun olaraq gücləndir məni! Yalan yoldan uzaqlaşdır, Qanununa uyğun olaraq lütf et mənə. Mən sədaqət yolunu seçdim, hökmlərini uyğun hesab etdim. Öyüdlərinə dörd əllə sarıldım ya Rəbb, utandırma məni! Mənə hüzur verdiyin üçün buyruqların yönündə yürüyəcəm. Qaydalarını necə izləyəcəyimi öyrət mənə ya Rəbb, belə ki, onları sonadək izləyim. Anlamağıma kömək et, qanununa tabe olum, bütün qəlbimlə onu yerinə yetirim. Buyruqların yönündə yol göstər mənə, çünki yolundan zövq alaram. Qəlbimi haqsız qazanca deyil, Öz öyüdlərinə yönəlt. Gözlərimi boş şeylərdən çevir, məni Öz yolunda yaşat... Sənin qanunların yaxşıdır. Çox darıxıram Sənin şərtlərindən ötrü! Məni doğruluğunun içində yaşat! Mənə sevgini göstər ya Rəbb, sözünə uyğun olaraq qurtar məni! O zaman məni alçaldanlara lazım olan cavabı verə bilərəm, çünki Sənin sözünə güvənirəm. Həqiqətini ağzımdan salma, çünki Sənin hökmlərinə ümid bağladım. Qanununa davamlı, sonsuzadək uyacağam. Azad gedəcəyəm, çünki Sənin şərtlərinə yönəldim mən. Padşahların önündə Sənin öyüdlərindən danışacağam... Sənin buyruqlarından zövq alır, onları sevirəm. Hörmət və sevgi duyuram buyruqlarına, dərin düşünürəm qaydalarını... Sözün mənə həyat verir. Çox əyləndilər lovğalar mənimlə, yenə də qanunundan ayrılmadım. Keçmişdə verdiyin hökmləri xatırlayınca təsəlli tapdım ya Rəbb... Sənin qaydalarındır tərənnümümün mövzusu, qonaq olduğum bu dünyada. Gecə adını xatırlayaram ya Rəbb, Qanununa uyaram. Tək etdiyim, Sənin şərtlərinə uymaqdır... Ya Rəbb, “Sözlərini yerinə yetirəcəyəm” dedim. Bütün qəlbimlə Sənə yalvardım. Lütf et mənə, sözünə uyğun olaraq. Tutduğum yolları düşündüm, Sənin öyüdlərinə görə addım atdım. Buyruqlarına uymaq üçün əlimi tez tutdum, vaxt itirmədim. Pislərin ipi məni sarıdı, qanunu unutmadım... Hökmlərin üçün gecə yarısı qalxıb Sənə şükr edərəm. Dostuyam bütün Səndən qorxanların, şərtlərinə uyanların. Yer üzü sevginlə doludur ya Rəbb, qaydalarını öyrət mənə! Ya Rəbb, yaxşılıq etdin quluna... Mənə ağıl və bilgi ver, çünki inanıram buyruqlarına. Acı çəkmədən əvvəl yoldan sapırdım, amma indi sözünə tabe oluram. Sən yaxşısan, yaxşılıq edərsən; mənə qaydalarını öyrət. Təkəbbürlülər yalanlarla məni ləkələdi, amma mən bütün qəlbimlə Sənin şərtlərinə uyaram. Onların ürəyi yağ bağladı, mən isə zövq alıram qanunundan. Yaxşı oldu acı çəkməyim; çünki qaydalarını öyrənirəm... Qanunun mənim üçün minlərlə qızıl və gümüşdən daha qiymətlidir. Sənin əllərin (45) məni yaratdı, şəkil verdi. Anlamağıma kömək et ki, buyruqlarını öyrənim. Səndən qorxanlar məni görüncə sevinsin, çünki Sənin sözünə ümid bağladım. Bilirəm ya Rəbb, hökmlərin ədalətlidir... Mehribanlıq göstər mənə, yaşayım, çünki qanunundan zövq alıram... Sənin şərtlərini düşünürəm. Mənə dönsün Səndən qorxanlar, öyüdlərini bilənlər. Qəlbim tam uysun qaydalarına, belə ki, utanmayım... Sənin sözünə ümid bağladım mən... Bütün buyruqların etibarlıdır; haqsız yerə zülm edirlər, kömək et mənə! Az qalmışdı silsinlər məni yer üzündən, amma mən Sənin şərtlərindən ayrılmadım. Qoru məni sevgin üçün, əməl edim... öyüdlərinə. Ya Rəbb, sözün göylərdə sonsuza qədər qalar. Sədaqətin nəsillər boyu sürər, qurduğun yer üzü möhkəm dayanar. Bu gün hökmlərinə uyğun var olan hər şey Sənə qulluq edir. Əgər qanunun zövq qaynağım olmasaydı, çəkdiyim acılardan yox olardım. Şərtlərini əsla unutmayacağam, çünki onlarla mənə həyat verdin. Qurtar məni, çünki Səninəm, Sənin şərtlərinə yönəldim. Pislər məni yox etməyi gözləyərkən, mən Sənin öyüdlərini araşdırıram. Nöqsansız olan hər şeyin bir sonu olduğunu gördüm, amma Sənin buyruğun sərhəd tanımaz. Nə qədər sevirəm qanunu! Bütün gün düşünürəm onun üzərində. Buyruqların məni düşmənlərimdən müdrik edər, çünki həmişə ağlımdadır onlar. Bütün müəllimlərimdən daha ağıllıyam, çünki nəsihətlərin üzərində düşünürəm. Yaşlılardan daha müdrikəm, çünki Sənin şərtlərinə uyuram. Çəkinirəm hər pis yoldan, Sənin sözünə əməl etmək üçün. Ayrılmaram hökmlərindən, çünki mənə Sən öyrətdin. Necə şirindir verdiyin sözlərin, baldan şirindir mənə! Sənin şərtlərinə tabe olmaqla müdriklik qazanıram, buna görə nifrət edirəm hər səhv yoldan. Sözün addımlarım üçün çıraq, yolum üçün işıqdır. Ədalətli hökmlərini izləyəcəyimə and içdim, andımı tutacağam. Çox çətinlik çəkdim ya Rəbb; qoru həyatımı sözün üçün. Ağzımdan çıxan qəlbimdəki tərifləri qəbul et ya Rəbb, mənə hökmlərini öyrət. Həyatım hər an təhlükədədir, yenə də unutmaram qanunu. Pislər tələ qurdu mənə, yenə də sapmadım Sənin şərtlərindən. Nəsihətlərin sonsuza qədər mirasımdır, ürəyimin sevincidir onlar. Qərarlıyam sonadək Sənin qaydalarına tabe olmağa... Sənin qanunu sevirəm. Sığınacağım və qalxanım (köməkçim, qoruyucum) Sənsən, Sənin sözünə ümid bağlayaram. Ey pislər, məndən uzaq durun, Allahımın buyruqlarını yerinə yetirim... Dəstək ol mənə, həyat tapım... Möhkəm tut məni (qoru məni) xilas olum, həmişə qaydalarına diqqət yetirim... Mənə qaydalarını öyrət. Mən Sənin qulunam, mənə ağıl ver ki, öyüdlərini anlaya bilim... Sənin buyruqlarını, qızıldan, saf qızıldan daha çox sevirəm; qoyduğun şərtlərin hamısını doğru bilirəm, hər səhv yoldan çəkinərəm. Möcüzəli nəsihətlərin var, buna görə onlara könüldən uyaram. Sözlərinin mənası nur saçar, təmiz insanlara

ağıl verər. Ağzım açıq, təngnəfəsəm, çünki buyruqlarından ötrü darıxıram. Mənə lütflə bax (mənə lütf et), Adını sevənlərə həmişə etdiyin kimi. Addımlarımı gücləndir verdiyin söz üçün, heç bir günah mənə hakim olmasın. Qurtar məni insan təzyiqindən, şərtlərinə uya bilim. Üzün (nurun) işıq saçsın qulunun üzərinə, qaydalarını öyrət mənə... Sən ədalətlisən ya Rəbb, hökmlərin doğrudur. Buyurduğun nəsihətlərin doğru və tam etibarlıdır... Düşmənlərim unutdu Sənin sözlərini. Sözün çox etibarlıdır, qulun onu sevər... Amma şərtlərini unutmuram. Ədalətin sonsuza qədər doğrudur, qanunun gerçəkdir... Amma buyruqların mənim zövqümdür. Nəsihətlərin sonsuzadək doğrudur; mənə ağıl ver ki, yaşayım. Bütün qəlbimlə səslənirəm... Ya Rəbb! Sənin qaydalarına uyacağam. Sənə səslənirəm, qurtar məni, öyüdlərinə əməl edim. Gün çıxmadan qalxıb kömək diləyirəm, Sənin sözünə ümid bağladım. Verdiyin söz üzərində düşünüm deyə, gecə boyunca yuxu girmir gözümə... Yaxınlaşır pislik ardınca qaçanlar, qanunundan uzaqlaşırlar. Halbuki Sən yaxınsan, ya Rəbb, bütün buyruqların gerçəkdir. Çoxdan bəri anladım öyüdlərini sonsuzadək verdiyini... Qurtuluş pislərdən uzaqdır, çünki Sənin qaydalarına yönəlmirlər. Çox mehribansan ya Rəbb, hökmlərinə uyğun qoru məni. Mənə zülm edənlər, düşmənlərim çoxdur, yenə də sapmadım Sənin öyüdlərindən... Bax, nə qədər sevirəm şərtlərini, sevgin üçün ya Rəbb, qoru məni. Sözlərinin təməli gerçəkdir, doğru hökmlərinin hamısı sonsuzadək sürəcək... Halbuki qəlbim Sənin sözünlə titrəyər. Qənimət tapan biri kimi verdiyin sözlərdə sevinc taparam. Diksinib iyrənərəm yalandan, amma Sənin qanununu sevirəm... Qanunu sevənlər böyük xoşbəxtlik tapar, heç bir şey onlara təsir etməz. Ya Rəbb, xilasına ümid bağlayar, buyruqlarını yerinə yetirərəm. Öyüdlərinə könüldən bağlanıb onları çox sevərəm. Öyüdlərini, şərtlərini tətbiq edərəm, çünki bütün davranışlarımı görərsən Sən... Ağıl ver mənə!... Qurtar məni! Dodaqlarımdan təriflər axsın, çünki mənə qaydalarını öyrədirsən... Çünki bütün buyruqların doğrudur... Xilasından ötrü darıxıram ya Rəbb, qanunun zövq qaynağımdır. Məni yaşat ki, Sənə təriflər deyim, hökmlərin mənə köməkçi olsun. (Zəbur, 119:1-175)

Çətinliyə düşüncə Rəbbə səsləndim... Ya Rəbb, qurtar məni yalançı dodaqlardan, hiyləgər dillərdən!... Mən sülh tərəfdarıyam, amma sözə başlayanda onlar döyüşə qalxır! (Zəbur, 120:1-7)

... Haradan kömək gələcək? Yeri göyü yaradan Rəbbdən gələcək kömək. O, ayağının sürüşməsinə izn verməz, Səni qoruyan mürgüləməz... (Allah) nə yatar, nə də mürgüləyər. Sənin qoruyucun Rəbbdir, O, sağ tərəfində sənə kölgədir (Rəhmətdir, qoruyandır). Gündüz Günəş, gecə Ay sənə zərər verməz. Rəbb hər pislikdən Səni qoruyar, əsirgəyər canını. İndidən sonsuzadək Rəbb qoruyacaq gediş-gəlişini. (Zəbur, 121:1-8)

Mənə: "Rəbbin evinə (Allahın adının xatırlandığı məscidə) gedək" deyiləndə sevinərəm. Ayağımız Sənin qapılarında (Allahın adının xatırlandığı məscidlərin girişində)... "Hüzur tapsın Səni sevənlər! Üzərlərinə xoşbəxtlik, saraylarına hüzur hakim olsun!" Qardaşlarım, dostlarım üçün, "Xoşbəxt olun!" deyirəm... Yaxşılıq diləyirəm sənə. (Zəbur, 122:1-9)

Təriflər olsun Rəbbə!... Yeri-göyü yaradan Rəbbin adı köməkçimizdir. (Zəbur, 124:6-8)

Rəbbə güvənənlər... sarsılmaz, sonsuzadək qalar. (Zəbur, 125:1)

Evi Rəbb tikməzsə, tikənlər boş yerə çalışar. Şəhəri Rəbb qorumazsa, gözətçi boş yerə gözləyər. Ey zəhmətlə qazanılan çörəyi yeyənlər, Rəbb sevdiklərini rahat yatırdar. (Zəbur, 127:1-2)

Nə xoş Rəbbdən qorxana, Onun yolunda gedənə! Əməyinin məhsulunu yeyəcəksən, xoşbəxt və müvəffəqiyyətli olacaqsan... Budur, Rəbbdən qorxan adam belə müqəddəs hesab ediləcək. (Zəbur, 128:1-4)

Dərinliklərdən Sənə səslənirəm ya Rəbb... Ya Rəbb, Sən günahların hesabını aparsan, kim sağ qalar ya Rəbb? Amma Sən bağışlayansan, ona görə Səndən qorxsunlar. Rəbbi gözləyirəm (Allahı sevirəm, Allahın rizasını axtarıram), qəlbim Rəbbi gözləyir (Allahı sevir), ümid bağlayıram Onun sözünə. Səhəri gözləyənlərdən, bəli, səhəri gözləyənlərdən daha çox qəlbim Rəbbi gözləyir (Allahı sevir, Allahın rizasını axtarır)... Rəbbə ümid bağla! Çünki Rəbbdə sevgi, tam qurtuluş vardır. (Zəbur, 130:1-7)

Ya Rəbb, qəlbimdə qürur yoxdur, gözüm yüksəklərdə deyil... Özümü sakitləşdirib hüzur tapdım... Rəbbə ümid bağla indidən sonsuzadək! (Zəbur, 131:1-3)

Din alimləri doğruluğa bürünsün, sadiq qulların sevinclə səslənsin... Qurtuluş verəcəyəm din alimlərinə; həmişə sevinc tərənnümləri söyləyəcək sadiq qulları. (Zəbur, 132:9, 16)

Nə yaxşıdır, nə gözəldir, birlik içində qardaş kimi yaşamaq! (Zəbur, 133:1)

Ey sizlər, Rəbbin bütün qulları... Rəbbə təriflər deyin! Yeri-göyü yaradan Rəbb... (Zəbur, 134:1-3)

Rəbbə təriflər deyin! Rəbbin adına təriflər deyin, Ey Rəbbin qulları!... Rəbbə təriflər deyin, çünki Rəbb yaxşıdır. Adını ilahilərlə öyün, çünki xoşdur bu... Bilirəm, Rəbb böyükdür... üstündür. Rəbb nə istəsə, edər göylərdə, yer üzündə, dənizlərdə, bütün dərinliklərdə. Yer üzünün dörd tərəfindən buludlar yüksəldər, yağış üçün şimşək çaxdırar, külək əsdirər... Ya Rəbb, adın sonsuzadək sürəcək, bütün nəsillər Səni xatırlayacaq. Rəbb... qullarına acıyar. Xalqların bütləri qızıl və gümüşdən düzəldilmişdir, insan əlinin əsəridir. Ağızları var danışmazlar, gözləri var görməzlər, qulaqları var eşitməzlər, nəfəs alıb-verməzlər... Rəbbə təriflər deyin ey Rəbbdən qorxanlar!... Rəbbə təriflər deyin! (Zəbur, 135:1-21)

Şükr edin Rəbbə, çünki O, yaxşıdır, sevgisi sonsuzdur... Sevgisi sonsuzdur; şükr edin… Sevgisi sonsuzdur; böyük möcüzələr yaradan tək varlığa, sevgisi sonsuzdur; göyləri müdrikliklə yaradana, sevgisi sonsuzdur; yeri suların üzərinə döşəyənə, sevgisi sonsuzdur; böyük işıqlar yaradana, sevgisi sonsuzdur; gündüzə hakim olsun deyə Günəşi, sevgisi sonsuzdur; gecəyə hakim olsun deyə Ayı və ulduzları yaradana, sevgisi sonsuzdur... Düşmənlərimizdən bizi qurtarana, sevgisi sonsuzdur; bütün canlılara yemək verənə, sevgisi sonsuzdur; şükr edin göylərin (və yerin) Allahına, sevgisi sonsuzdur. (Zəbur, 136:1-9, 24-26)

Bütün qəlbimlə Sənə şükr edirəm ya Rəbb... Səni ilahilərlə tərifləyərəm. Adına şükr edərəm, sevgin, sədaqətin üçün... Səsləndiyim gün mənə cavab verdin, ruhuma güc verdin, məni ürəkləndirdin. Şükr etsin Sənə ya Rəbb, yer üzü padşahlarının hamısı... Etdiyin işləri tərənnüm etsinlər ya Rəbb, çünki çox ucasan. Rəbb təvazökarlara göz qoyar (qoruyar)... Çətinliyə düşsəm, məni qoruyar... məni qurtarar. Ya Rəbb, hər şeyi edərsən mənim üçün. Sevgin sonsuzdur ya Rəbb, əlinin əsərini (46) əsirgəmə! (Zəbur, 138:1-8)

Ya Rəbb... Oturub-durmağımı bilərsən, niyyətimi... anlayarsan. Getdiyim yolu, yatdığım yeri əhatə edərsən, bütün etdiklərimdən xəbərin var. Hələ sözü ağzıma almadan söyləyəcəyim hər şeyi bilərsən ya Rəbb. Məni hər tərəfdən əhatə etdin, əlini üzərimə qoydun (47)... Göylərə çıxsam, oradasan (Allahın zatı hər yeri örtmüşdür)... Səhərin qanadlarını alıb uçsam, dənizin kənarına qonsam, orada əlin (elmin) yol göstərər mənə, sağ əlin tutar məni (48). Desəm ki, "Qaranlıq məni örtsün, ətrafımdakı işıqlıq gecəyə dönsün". Qaranlıq belə qaranlıq sayılmaz Sənin üçün, gecə gündüz kimi işıldayar, qaranlıqla işıqlıq birdir Sənin üçün. Ruhumu Sən yaratdın, ana rəhmində məni Sən hördün. Sənə təriflər deyərəm, çünki müdhiş və möcüzə yaradılmışam. Necə möcüzə işlərin var! Bunu çox yaxşı bilirəm... Hələ ana bətnində ikən gözlərin (49) gördü məni; mənə ayrılan günlərin heç biri gəlmədən hamısı Sənin kitabına yazılmışdı. Haqqımdakı fikirlərin (50) necə də qiymətlidir ey Allah, sayı nə çoxdur! Qum dənələrindən çoxdur saysam. Oyanıram, hələ Səninləyəm... Öndər ol mənə sonsuz həyat (Cənnət) yolunda! (Zəbur, 139:1-24)

Ya Rəbb, qurtar məni pis insandan, qoru məni zalımdan. Onlar ürəklərində pislik hazırlayar, döyüşü davamlı qızışdırar, ilan kimi dillərini itiləyərlər, gürzə zəhəri var dodaqlarının altında. Ya Rəbb, qoru məni pisin əlindən, qoru məni zalımdan... Ya Rəbb: "Allahım Sənsən". İltimasıma qulaq as ya Rəbb. Ey hakim Rəbb, böyük xilaskarım... Pislərin diləyini yerinə yetirmə ya Rəbb, planını irəli aparma!... Bilirəm, Rəbb məzlumu müdafiə edər... Şübhəsiz, doğrular Sənin adına şükr edəcək, dürüstlər Sənin hüzurunda oturacaq. (Zəbur, 140:1-13)

Səni çağırıram ya Rəbb, köməyimə gəl (mənə rəhmət et)!... Ya Rəbb, ağzıma gözətçi qoy, dodaqlarımın qapısını qoru! Ürəyim pisliyə meyl etməsin, cinayətkarların fitnəsinə bulaşmayım... Doğru insan mənə vursa, yaxşılıq sayılar; danlasa, başa sürülən yağ kimidir, başım rədd etməz onu. Çünki duam həmişə pislərə qarşıdır. Ancaq gözləyərəm Səndə, ey hakim Rəbb, Sənə sığınıram, məni himayəsiz buraxma! Qoru məni qurduqları tələdən, cinayətkarların tələsindən. Mən güvənlikdə keçib gedərkən, öz toruna düşsün pislər. (Zəbur, 141:1-10)

Yüksək səslə yalvarıram Rəbbə, yüksək səslə Rəbbə yalvarıram... Gedəcəyim yolu Sən bilirsən... Ya Rəbb: "Sığınacağım, yaşadığımız bu dünyada nəsibim Sənsən" deyirəm. Səsimi dinlə, çünki çox çarəsizim; qurtar məni dalıma düşənlərdən, çünki məndən güclüdürlər. (Zəbur, 142:1-6)

Duamı eşit ya Rəbb, yalvarışlarıma qulaq as! Sədaqətinlə, doğruluğunla cavabla məni! Keçmiş günləri xatırlayır, bütün etdiklərini dərin düşünürəm... Əllərimi Sənə açıram, qəlbim quru torpaq kimi Sənə susayıb... Səhərlər eşitdir mənə sevgini, çünki Sənə güvənirəm; mənə gedəcəyim yolu bildir, çünki duam Sənədir. Düşmənlərimdən qurtar məni ya Rəbb; Sənə sığınıram. Mənə rizanı öyrət, çünki Allahımsan mənim. Sənin yaxşı Ruhun (rəhmətin, nurun) düz yolda mənə öndər olsun! Ya Rəbb, Adın naminə həyat ver mənə, doğruluğunla qurtar məni çətinlikdən. Sevgindən ötrü... Çünki Sənin qulunam mən. (Zəbur, 143:1-12)

... Rəbbə təriflər olsun! Odur mənim vəfalı dostum, qalam (51), qurtarıcım, dəstəyim, qalxanım (qoruyucum), Ona sığınıram... İnsan bir nəfəsi xatırladır, günləri keçib gedən bir kölgə kimidir... Ey Allah, Sənə yeni bir tərənnüm (ilahi) söyləyim, Səni on telli çənglə, ilahilərlə tərifləyim. Qurtar məni, azad et... Nə xoş Allahı Rəbb olan xalqa! (Zəbur, 144:1-15)

Ey Allahım... Səni ucaldacağam, Adını sonsuza qədər tərifləyəcəyəm. Səni hər gün tərifləyəcək, adını sonsuza qədər ucaldacağam. Rəbb böyükdür, yalnız O tərifə layiq olandır, ağıl çatmaz böyüklüyünə. Etdiklərin nəsildən nəslə şükrlə xatırlanacaq, möhtəşəm işlərin eşitdiriləcək. Düşünəcəyəm möcüzə işlərini, insanlar böyüklüyündən, uca əzəmətindən danışacaq. Etdiyin müdhiş işlərin gücündən danışacaqlar, mən də Sənin böyüklüyünü eşitdirəcəyəm. Bənzərsiz yaxşılığının xatirələrini qeyd edəcək, sevinc tərənnümləriylə tərifləyəcəklər doğruluğunu. Rəbb lütfkar və rəhmlidir... Sevgisi dərindir. Rəbb hamıya qarşı yaxşıdır, şəfqəti bütün əsərlərini əhatə edir. Bütün yaratdıqların (52) Sənə şükr edər ya Rəbb, sadiq qulların Sənə təriflər deyər... Hər kəsin ümidi Sənədir, onlara yeməklərini vaxtında verən Sənsən. Əlini açar (53), bütün canlıları doyurarsan dilədiklərində. Rəbb bütün etdiklərində ədalətli, etdiyi bütün işlərdə rəhmlidir. Rəbb Özünə yalvaran, səmimi yalvaran hər kəsə yaxındır. Diləyini yerinə yetirər Özündən qorxanların, fəryadlarını eşidər, onları qurtarar. Rəbb qoruyar Özünü sevən hər kəsi... Rəbbə təriflər desin ağzım! Bütün canlılar Onun müqəddəs adına sonsuzadək təriflər düzsün. (Zəbur, 145:1-21)

Rəbbə təriflər deyin! Ey könlüm, Rəbbə təriflər de. Yaşadıqca Rəbbə təriflər deyəcək, var olduqca Allahıma ilahilər söyləyəcəyəm. Öndərlərə, sizi qurtara bilməyəcək insanlara güvənməyin. O, son nəfəsini verincə torpağa dönər, o gün qanunları da bitər. Nə xoş... ümidi Allahı Rəbbdə olana! Yeri-göyü, dənizi və içindəki hər şeyi yaradan, sonsuza qədər həqiqəti qoruyan, əzilənlərin haqlarını verən, aclara yemək verən Odur. Rəbb əsirləri azad edər, korların gözünü açar, beli bükülənləri düzəldər, doğruları sevər. Rəbb qəribləri qoruyar, yetimə, dul qadına kömək edər, pislərin yolunu isə sapdırar... Rəbbə təriflər deyin! (Zəbur, 146:1-10)

Rəbbə təriflər deyin! Nə gözəldir, necə xoşdur xoş Allahımızı ilahilərlə tərifləmək! Ona tərif yaraşar. Rəbb... ulduzların sayını təyin edər... Rəbbimiz böyük və çox güclüdür, sonsuzdur anlayışı. Rəbb məzlumlara kömək edər, pisləri yerə qədər alçaldar. Rəbbi şükrlə tərənnüm edin, Allahımızı lira ilə, ilahilərlə öyün. Odur göyləri buludlarla örtən, yer üzünə yağış göndərən, dağlarda ot bitirən. O, yem verər heyvanlara, səsləşən quzğun balalarına... Rəbb Özündən qorxanlardan, sevgisinə ümid bağlayanlardan xoşlanar. Rəbbi ucalt... Yer üzünə buyruğunu göndərər, sözü sürətlə yayılar. Yun kimi qar yağdırar, qırov kül kimi yayılar. ... İri dolu sovurar, kim dözə bilər soyuğuna? Buyruq verib əridər buzları, küləyini əsdirər, sular axmağa başlayar... Rəbbə təriflər deyin! (Zəbur, 147:1-20)

Rəbbə təriflər deyin! Göylərdən Rəbbə təriflər deyin, ucalardan Ona təriflər deyin! Ey bütün mələkləri, Ona təriflər deyin, təriflər deyin Ona... Ey Günəş, Ay, Ona təriflər deyin, təriflər deyin Ona, ey işıldayan bütün ulduzlar! Ey göylərin göyləri və göylərin üstündəki sular, Ona təriflər deyin! Rəbbin adına təriflər desinlər, çünki O, buyruq verincə var oldular. Bir qanun qoydu, onu keçməzlər... Yer üzündən Rəbbə təriflər deyin, ey dəniz canlıları, bütün dənizlər, şimşək, dolu, qar, buludlar, Onun buyruğuna uyan fırtınalar, dağlar, bütün təpələr, meyvə ağacları, sidr ağacları, vəhşi və ev heyvanları, sürünənlər, uçan quşlar, yer üzünün padşahları, bütün xalqlar, öndərlər, yer üzünün bütün idarəçiləri, cavanlar, gənc qızlar, yaşlılar, uşaqlar!

Rəbbin adına təriflər desinlər, çünki yalnız Onun adı ucadır. Onun ucalığı yerin-göyün üstündədir... Rəbbə təriflər deyin! (Zəbur, 148:1-14)

Rəbbə təriflər deyin! Rəbbə yeni bir tərənnüm söyləyin, sadiq qullarının yığıncağında. Onu tərənnümlərlə öyün!... Təriflər desinlər Onun adına, dəf və lira çalıb Onu ilahilərlə tərifləsinlər!... Rəbb təvazökarları zəfər tacıyla bəzər. Bu şərəflə xoşbəxt olsun sadiq qulları, sevinc tərənnümləri oxusunlar yataqlarında! Ağızlarında Allaha uca təriflər... Rəbbə təriflər deyin! (Zəbur, 149:1-9)

Rəbbə təriflər deyin!... Gücünü göstərən göylərdə təriflər deyin Ona! Təriflər deyin Ona müdhiş işlərinə görə! Təriflər deyin Ona bənzərsiz böyüklüyünə yaraşan şəkildə! Boru çalıb Ona təriflər deyin! Çəng və lira ilə Ona təriflər deyin! Dəf və rəqslə Ona təriflər deyin! Saz və neylə Ona təriflər deyin! Zənglərlə Ona təriflər deyin! Cingildəyən zənglərlə Ona təriflər deyin! Bütün canlı varlıqlar Rəbbə təriflər desin! Rəbbə təriflər deyin! (Zəbur, 150:1-6)

Bu məsəllər (hz Süleymanın məsəlləri), müdrikliyə və tərbiyəyə çatmaq, ağıllı sözləri anlamaq, müvəffəqiyyətə aparan tərbiyəni əldə edib doğru, haqlı və ədalətli olanı etmək, təmiz adamı ehtiyatlı, gənc adamı bilikli və bəsirətli etmək üçündür... Müdrik adam dinləsin və biliyini artırsın, ağıllı adam həyat hünəri qazansın. (Süleymanın məsəlləri, 1:1-6)

Rəbb qorxusudur biliyin təməli. Axmaqlar isə müdrikliyi və tərbiyəni küçümsəyər... Oğlum, səni azdırmağa çalışan günahkarlara təslim olma. Belə deyə bilərlər: "Bizimlə gəl, adam öldürmək üçün pusqu quraq, zövq uğruna günahsızları tələyə salaq... Bir çox qiymətli mal ələ keçirər, evlərimizi qənimətlə doldurarıq. Gəl, sən də bizə qatıl, təkcə bir kisəmiz olacaq". Oğlum, belələri ilə getmə, onların tutduğu yoldan uzaq dur. Çünki ayaqları pisliyə qaçar, çəkinmədən qan tökərlər... Başqasına tələ quran öz qurduğu pusquya düşər. Yalnız öz canıdır tələyə saldığı. Haqsız qazanca düşkün olanların sonu belədir. Bu düşkünlük onları canlarından edər. (Süleymanın məsəlləri, 1:7-19)

Müdriklik çöldə yüksəkdən səslənir...: "Ey axmaqlar, axmaqlığı nə vaxtadək sevəcəksiniz? istehza edənlər nə vaxtadək istehzadan zövq alacaq? Ağılsızlar nə vaxtadək bilgidən nifrət edəcək? Xəbərdar etdiyimdə yola gəlin, o zaman sizə qəlbimi açar, sözlərimi anlamanıza kömək edərəm. Amma sizi çağırdığım zaman məni rədd etdiniz. Əlimi uzatdım, önəm verən olmadı. eşitməzlikdən gəldiniz bütün öyüdlərimi, nəsihətlərimi eşitmək istəmədiniz... Bilikdən nifrət etdiniz. Rəbbdən qorxmağı rədd etdiniz. (Allahı tənzih edirik.) Öyüdlərimi istəmədiniz, nəsihətlərimi küçümsədiniz. Bu səbəblə, tutduğunuz yolun meyvəsini yeyəcəksiniz, öz kələyiniz sizə bəs edəcək. Axmaq adamlar döndərildiklərinin qurbanı olacaq. Ağılsızlar laqeydsizliklərinin içində yox olub gedəcək. Amma məni dinləyən güvənlik içində yaşayacaq, pislikdən qorxmayacaq, hüzur tapacaq". (Süleymanın məsəlləri, 1:20-33)

Oğlum, müdrikliyə qulaq asıb ürəkdən ağıla yönələrək sözlərimi qəbul edər və buyruqlarımı ağlında tutsan; bəli, ağılı çağırıb ona könüldən səslənsən, gümüş kimi onu axtarsan, onu axtarsan xəzinə kimi, Rəbb qorxusunu anlayıb Allahı yaxından tanıyarsan. Çünki müdrikliyin qaynağı Rəbbdir. Onun ağzından (Allahın sözləri) bilgi və anlayış çıxar. Doğruları müvəffəqiyyətə çatdırar, qalxanıdır (qoruyandır, əsirgəyəndir) dürüst yaşayanların. Ədalətli olanların addımlarını qoruyar, sadiq qullarının yoluna göz qoyar. Onda anlayarsan hər yaxşı yolu, nəyin doğru, haqlı və ədalətli olduğunu. Çünki qəlbin müdrikliklə dolacaq, zövq alacaqsan bilikdən. Bəsirət sənə keşikçi olacaq və ağıl səni qoruyacaq. Bunlar səni pis yoldan, əxlaqsızın sözlərindən qurtaracaq. Onlar ki, qaranlıq yollarda getmək üçün doğru yoldan ayrılarlar. Pislik etməkdən xoşlanar, zövq alarlar pisliyin ifratından. Yolları qarışıq, yaşayışları yanlışdır... Bu səbəblə, sən yaxşıların yolunda get, doğruların izindən get. Çünki ölkədə yaşayacaq olan doğrulardır, dürüst kəslərdir orada qalacaq olanlar. Pislər ölkədən çıxarılacaq, xainlər atılacaq. (Süleymanın məsəlləri, 2:1-20)

Oğlum, unutma öyrətdiklərimi, ağlında tut buyruqlarımı. Çünki bunlar ömrünü uzadacaq, həyat illərini, xoşbəxtliyini artıracaq. Sevgini, sədaqəti heç yanından ayırma, bağla onları boynuna, yaz qəlbinin lövhəsinə. Beləcə, Allahın (qatında) və insanların gözündə alqış və hörmət qazanacaqsan. Rəbbə güvən bütün qəlbinlə, öz ağlına bel bağlama. Etdiyin hər işdə Rəbbi an, O, Sənin yolunu düzənliyə çıxarar. Özünü müdrik biri olaraq görmə, Rəbbdən qorx, pislikdən uzaq dayan. Beləcə, vücudun sağlamlıq və fərahlıq tapar. Sərvətinlə və məhsulunun novbarı ilə Rəbbi sevgiylə an. O zaman anbarların ağzına qədər dolar. (Süleymanın məsəlləri, 3:1-10)

Müdrikliyə çatana, ağlı tapana nə xoş! Gümüşdənsə onu qazanmaq daha yaxşıdır. Onun faydası qızıldan daha çoxdur. Çox qiymətlidir ləl-cəvahiratdan, diləyəcəyin heç bir şey onunla müqayisə edilə bilməz... Yolları sevinc yollarıdır, bəli, bütün yolları xoşbəxtliyə aparır. Müdriklik həyat ağacıdır ona sarılanlara, nə xoş ondan möhkəm tutanlara!... Oğlum, yaxşı öyüdə, bəsirətə sarıl. Əsla gözünü ayırma onlardan. Onlar sənə həyat verəcək və boynuna gözəl bir bəzək olacaq. O zaman güvənlikdə gedərsən, səndələmədən. Qorxmadan uzanıb şirin-şirin yatarsan. Gözlənilməz fəlakətdən və ya pislərin düçar olduğu müsibətdən qorxma. Çünki səni qoruyan Rəbbdir, tələyə düşməkdən səni O qoruyacaq. Əlindən gəldiyi qədər yaxşılığa haqqı olanlardan yaxşılığı əsirgəmə. Əlində varkən qonşuna "Bu gün get, sabah verərəm" demə. Sənə güvənib yanında yaşayan qonşuna pislik hazırlama... Zalıma qibtə etmə, onun yollarından heç birini seçmə. Çünki Rəbb azğınlardan xoşlanmaz, amma doğruların can dostudur. Rəbb pislərin evini lənətləyər, doğruların oturduğu yeri isə müqəddəs hesab edər. Rəbb istehza edənlərə istehza edər, amma təvazökarlara lütf edər. Müdriklər şərəfi miras alacaq, ağılsızlara yalnız rüsvayçılıq qalacaq. (Süleymanın məsəlləri, 3:13-35)

... Diqqət edin ki, anlayışlı olasınız. Çünki sizə gözəl dərs verirəm, ayrılmayın öyrətdiklərimdən... "Söylədiklərimə ürəkdən sarıl... Müdrikliyə və ağıla sahib ol, dediklərimi unutma, onlardan ayrılma. Müdriklikdən ayrılma, o səni (Allahın diləməsiylə) qoruyar. Sev onu, sənə (Allahın diləməsiylə) göz qoyar. Müdrikliyə ilk addım ona sahib çıxmaqdır. Bütün sərvətin bahasına başa gəlsə də, ağıla sahib çıx. Onu qoru, o da (gözəl əxlaqlı, müdrik olmaq) səni ucaldacaq, ona sarılsan, səni şərəfləndirəcək. Başına zərif bir çələng, görkəmli bir tac geydirəcək". Dinlə oğlum, sözlərimi mənimsə ki, uzansın ömürün. Səni müdriklik yolunda öyrədər, doğru yollara yönəldərəm. Ayağın dolaşmadan yürüyərsən. Aldığın tərbiyəyə sarıl, buraxma, onu göstər, çünki odur həyatın. Pislərin yoluna ayaq qoyma, getmə alçaqların yolunda, o yoldan çəkin, yanından belə keçmə, yolunu dəyiş. Çünki pislik etmədikcə yatmaz onlar, yuxuları qaçar bəzilərini azdırmadıqca. Yedikləri pislik, içdikləri zülm məhsuludur. Halbuki doğruların yolu şəfəq işığı kimidir, gedərək zöhr günəşinin parlaqlığına çatar. Pislərin yolu isə zülmət qaranlıq kimidir, niyə büdrədiklərini bilməzlər. Oğlum, sözlərimə diqqət et, dediklərimə qulaq as. Ağlından çıxmasın bunlar, onları qəlbinə yerləşdir. Çünki onları tapan üçün həyat, canına şəfadır bunlar. Hər şeydən əvvəl qəlbini qoru, çünki həyat ondan qaynaqlanır. Yalan çıxmasın ağzından, uzaq tut dodaqlarını sapqın sözlərdən. Gözlərin həmişə önə baxsın, düz önə! Gedəcəyin yolu düzəlt, o zaman bütün işlərin rahat olar. Sapma sağa sola, ayağını pislikdən uzaq tut. (Süleymanın məsəlləri, 4:1-27)

Oğlum, müdrikliyimə diqqət et, ağıllı sözlərimə qulaq as. Beləliklə, həmişə bəsirətli olub dodaqlarınla biliyi qoruyarsan... Yoxsa... ah çəkib inləyərsən ömrünün son günlərində, vücudun tükəndiyində. "Öyrədilməkdən niyə bu qədər nifrət etdim, qəlbim nəsihətlərə niyə əhəmiyyət vermədi?" deyərsən. "Müəllimlərimin sözünü dinləmədim, məni öyrədənlərə qulaq asmadım"... Rəbb insanın tutduğu yola göz qoyar, atdığı hər addıma nəzarət edər. Pis adamı öz günahları ələ verəcək, günahının kəməndi həmin an bağlayacaq onu. Hədsiz axmaqlığı onu yoldan çıxaracaq, tərbiyəni əhəmiyyətsiz hesab etdiyi üçün öləcək. (Süleymanın məsəlləri, 5:1-23)

Ey tənbəl, get, qarışqalara bax, onların həyatından müdriklik öyrən... Nə vaxtadək yatacaqsan, ey tənbəl? Nə vaxt qalxacaqsan yuxundan? "Bir az yatım, bir az mürgüləyim" deməmiş yoxluq bir quldur kimi, yoxsulluq bir axın kimi gələr üzərinə. Ağzında yalanla gəzən soysuz və fitnəkardır. Göz qırpar, bir çox ayaq oyunu, əl-qol hərəkətləri edər əxlaqsız, qəlbində pislik hazırlayar, çəkişmə yaradar durmadan. Buna görə qəflətən müsibətə uğrayacaq, birdən-birə çarəsiz qalıb yox olacaq. Rəbbin razı olmadığı şeylər bunlardır: Qürurlu gözlər, yalançı dil, günahsız qanı tökən əllər, kələkbaz ürək, pisliyə aparan ayaqlar, yalan nəfəs alan yalançı şahid və qardaşlar arasında çəkişmə yaradan adam. (Süleymanın məsəlləri, 6:6-19)

Zina edən adam ağıldan məhrumdur. Etdikləri ilə özünü yox edər. Payına düşən... şərəfsizlikdir, əsla xilas ola bilməz rüsvaydan. (Süleymanın məsəlləri, 6:32-33)

Oğlum, sözlərimi yerinə yetir, ağlında tut buyruqlarımı. Buyruqlarımı yerinə yetir ki, yaşayasan (Cənnət əhlindən olasan). Öyrətdiklərimi göz bəbəyi kimi qoru. Onları üzük kimi barmaqlarına keçir, qəlbinin lövhəsinə yaz. Müdrikliyə "sən bacımsan", ağıla "qohumumsan" de. (Süleymanın məsəlləri, 7:1-4)

Müdriklik çağırır, ağıl səsini yüksəldir. Yol kənarındakı təpələrdə, yolların birləşdiyi yerdə dayanır o. Şəhərin girişində, qapıların yanında, səsini yüksəldir: "Ey insanlar, sizə səslənirəm, dəvətim insan soyunadır! Ey səfehlər, ehtiyatlı olmağı öyrənin; ağıllı olmağı öyrənin, ey ağılsızlar! Söylədiyim gözəl sözləri dinləyin, ağzımı doğruları söyləmək üçün açıram. Ağzım həqiqəti eşitdirər, çünki dodaqlarım pislikdən xoşlanmaz. Ağzımdan çıxan hər söz doğrudur, yoxdur yanlış və ya pis olanı. Açıq-aşkardır hamısı anlayana, biliyə çatan doğruluğunu bilər onların. Gümüşün yerinə tərbiyə, qızılın yerinə bilik qazan. Çünki müdriklik ləl-cəvahiratdan qiymətlidir, dilədiyin heç bir şey onunla müqayisə edilə bilməz. Mən müdriklik kimi ehtiyatı özümə iqamət qazandım. Bilik və bəsirət məndədir. Rəbbdən qorxmaq pislikdən nifrət etmək deməkdir. Qürurdan, kibirdən, pis yoldan, sapqın ağızdan nifrət edirəm. (Süleymanın məsəlləri, 8:1-13)

Düzgünlük yolunda, ədalətin izindən gedirəm... Günbəgün sevinclə dolub daşdım, hüzurunda həmişə coşdum. Onun dünyası xoşbəxtliyim, insanları (saleh möminlər) sevincim idi. Uşaqlarım, indi məni dinləyin: Yolumu izləyənlərə nə xoş! Nəsihətlərimi dinləyin və müdrik olun, görməzlikdən gəlməyin onları. Məni dinləyən... adama nə xoş! Çünki məni tapan həyat tapar və Rəbbin rizasını qazanar. Məni qulaq ardına vuran isə özünə zərər verər... (Süleymanın məsəlləri, 8:20, 31-36)

... Ağılın yolunu izləyin... Müdrik adamı xəbərdar etsən, səni sevər. Müdrik adamı öyrətsən, daha müdrik olar, doğru adama öyrətsən, biliyini artırar. Rəbb qorxusudur müdrikliyin təməli. Ağıl müqəddəs olanı (Allahı) tanımaqdır... Müdriksənsə müdrikliyinin faydası sənədir, İstehza etsən, acısını tək sən çəkərsən. Ağılsız qadın qalmaqalçı və maymaqdır, heç nə bilməz. Evinin qapısında, şəhərin ən yüksək yerində oturub yoldan keçənləri, öz yollarından gedənləri çağırmaq üçün, "Kim maymaqdırsa bura gəlsin" deyər. Ağıldan məhrum olanlara da "Oğurlanan su şirin, gizlin yeyilən yemək ləzzətlidir" deyər. Lakin evinə girənlər ölümə getdiklərini, ona qonaq olanlar ölülər diyarının (Cəhənnəmin) dibinə endiklərini bilməzlər. (Süleymanın məsəlləri, 9:6-18)

Haqsız qazanılan sərvətin faydası yoxdur, amma düzgünlük ölümdən (Cəhənnəmdən) qurtarar. Rəbb doğru adamı ac qoymaz, amma pislərin istəyini boşa çıxarar. Tənbəl əllər insanı yoxsullaşdırar, çalışqan əl zəngin edər... Bərəkət doğru adamın başına yağar, pislər isə zülmlərini sözlə gizləyər. Doğrular təriflə, pislər nifrətlə xatırlanar. Müdrik adam buyruqları qəbul edər, çənəsi boş axmaq isə müsibətə düçar olar. Dürüst adam güvənlikdə yaşayar, amma hiyləgərin yolundan gedən ifşa ediləcək. Hiyləgərliklə göz qırpan acılara səbəb olar. Çənəsi boş axmaq da müsibətə düçar olar. Doğru adamın ağzı həyat mənbəyidir, pislər isə zülmlərini sözlə gizləyərlər. Nifrət çəkişməni böyüdər, sevgi hər günahı bağışlayar. Ağıllı adamın dodaqlarından müdriklik axar, amma ağıldan məhrum olan kürəyindən kötək yeyər. Müdrik adam bilik toplayar, axmağın ağzı isə onu müsibətə yaxınlaşdırar... Tərbiyəyə qulaq asan həyat yolunu tapar. Nəsihətləri rədd edən isə başqalarını yoldan azdırar... Böhtan atan ağılsızdır. Çox danışanın günahı az olmaz, ağıllı adam isə dilini qoruyar. Doğru adamın dili saf gümüş kimidir, pisin niyyətləri isə dəyərsizdir. Doğru adamın sözləri bir çoxlarını bəsləyər, axmaqlar isə ağıl məhrumluğundan ölər. Rəbbin bərəkətidir adamı zəngin edən, Rəbb ona dərd verməz. Pislik ağılsızlar üçün əyləncə kimidir. Ağlı başında olanlar üçün isə müdriklik eyni şeydir. Pis adamın qorxduğu başına gələr, doğru adam isə diləyinə çatar... Doğru adam sonsuzadək qalar (54). Dişlər üçün sirkə, gözlər üçün tüstü nədirsə, tənbəl ulaq da özünü göndərən üçün elədir. Rəbb qorxusu ömürü uzadar, pislərin ömrü isə qısadır (bərəkətsizdir). Doğrunun ümidi onu sevindirər, pisin ümidi isə boşa çıxar. Rəbbin yolu dürüst üçün sığınacaq, fitnəkar üçün isə müsibətdir. Doğru adam heç vaxt sarsılmaz... Doğru adamın ağzından müdriklik çıxar... Doğru adamın dodaqları deyiləcək sözü bilər, pisin ağzından isə sapqın sözlər çıxar. (Süleymanın məsəlləri, 10:2-32)

Rəbb hiyləli tərəzidən xoşlanmaz, hiyləsiz çəkidən razı qalar. Təkəbbürün ardınca rüsvayçılıq gələr, amma müdriklik təvazökarlardadır. Yaxşı insanın dürüstlüyü ona yol göstərər, xainin yalanı isə müsibətə aparar. Qəzəb günü sərvət işə yaramaz, halbuki düzgünlük ölümdən (Cəhənnəmdən) qurtarar. Dürüst insanın doğruluğu onun yolunu düzəldər, pis adam olarsa, pisliyi üzündən məhv olar. Yaxşının doğruluğu onu qurtarar, amma xaini öz tamahı ələ verər. Pis adam öldüyündə ümidləri yox olar, güvəndiyi güc də bitər. Doğru adam çətinlikdən xilas olar, onun yerinə çətinliyi pis adam çəkər. Allahsız adam başqalarını ağzı ilə müsibətə aparar, halbuki doğrular bilik sayəsində xilas olar. Doğruların müvəffəqiyyətinə şəhər bayram edər... Dürüstlərin bərəkəti ilə şəhər inkişaf edər, amma pislərin ağzı şəhəri viran edər. Başqasını kiçik görən ağıldan məhrumdur, ağıllı adam isə dilini qoruyar. Qeybətçi sirr saxlaya bilməz, halbuki etibarlı insan sirdaş olar. Yol göstərəni olmayan xalq məhv olar, məsləhətçisi çox olan zəfərə gedər... Şəfqətli qadın şərəf, zalımlar isə yalnız sərvət qazanar.

Xeyirxahın faydası özünədir, qəddar isə öz başına bəla gətirər. Pis adamın qazancı aldadıcıdır, düzgünlük əkənin mükafatı isə etibarlıdır. Qəlbi doğru olan həyata (Cənnətə) qovuşar, pisliyin ardınca gedən ölümünü hazırlayar (Cəhənnəmə gedər). Rəbb sapqın qəlbi olana pis baxar, dürüst yaşayandan razı qalar. Bilin ki, pis adam cəzasız qalmaz, doğruların soyu isə xilas olar. Ağıldan məhrum qadının gözəlliyi donuzun burnundakı qızıl halqaya bənzəyir. Doğruların istəyi həmişə yaxşılıqla nəticələnər, pislərin ümidi isə qəzəblə. Əliaçıq olan daha çox qazanar, haqq yeyənin sonu isə yoxsulluqdur. Comərd olan bolluğa çatacaq, başqasına su verənə su veriləcək. Xalq buğda toplayanı lənətləyər, amma buğda satan bərəkət tapar. Yaxşılığı məqsəd bilən uğur qazanar, pisliyi məqsəd hesab edən isə pisliyə uğrayar. Zənginliyinə güvənən başı aşağı gedəcək, halbuki doğrular, budağındakı yarpaq kimi inkişaf edəcək... (Süleymanın məsəlləri, 11:1-31)

Tərbiyəni sevən biliyi də sevər, tərbiyədən nifrət edən axmaqdır. Yaxşı adam Rəbbin lütfünə çatar, amma kələkbazı Rəbb məhkum edər. Pislik adamı güvənliyə qovuşdurmaz... Yaxşı qadın ərinin tacıdır... Doğruların qanunları ədalətli, pislərin öyüdləri aldadıcıdır. Pislərin sözləri ölüm tələsidir, doğruların danışığı isə onları qurtarar. Pislər ölüb yox olar, doğru adamın evi salamat qalar. Adam ağıl nisbətində təriflənər, yanlış düşüncəli kiçik görülər... Pisin mehribanlığı belə zülmlüdür... Pis adam pislərin qənimətini istəyər, amma düz insanların kökü məhsul verər. Pis adamın günah sözləri özü üçün tələdir, amma doğru adam çətinliyi sovuşdurar. İnsan ağzının məhsulu ilə yaxşılıq qazanar, əlinin əməyinə görə də qarşılığını alar. Axmağın yolu öz gözündə doğrudur, müdrik adam isə öyüdə qulaq asar. Axmaq əsəbiləşdiyini dərhal biruzə verər, amma ehtiyatlı olan alçaldılmağa önəm verməz. Dürüst şahid doğrunu söyləyər, yalançı şahid isə yalan nəfəs alar. Düşünmədən deyilən sözlər qılınc kimi kəsər, müdriklərin dili isə şəfa verər... Pislik hazırlayanın qəlbi hiylə ilə, sülhü nəsihət edənin qəlbi isə sevinclə doludur. Doğru adama heç zərər gəlməz, pisin başı isə bəladan xilas olmaz. Rəbb yalançı dodaqları pisləyər, amma həqiqətə uyanlardan razı qalar... Narahat qəlb insanı həlak edər, amma gözəl söz sevindirər. Doğru adam yoldaşına da yol göstərər, pisin tutduğu yol isə özünü sapdırar... Doğru yol həyat qaynağıdır, bu yol ölümsüzlüyə aparır (55). (Süleymanın məsəlləri, 12:1-28)

Müdrik adam tərbiyəni sevər, istehza edən tənqid olunsa da, önəm verməz. Yaxşı insan ağzından çıxan sözlərə görə mükafat alar, amma xainlərin nəfəsi zülmdür. Dilini tutan canını qoruyar, amma boşboğazın sonu müsibətdir... Doğru adam yalandan nifrət edər, pisin sözləri isə pisdir, biabırçıdır. Düzgünlük dürüst yaşayanı qoruyar, pislik günahkarı həlak edər... Doğruların işığı parlaq olar, pislərin çırası sönər. Qürurdan ancaq qovğa çıxar, öyüd dinləyən isə müdrikdir... Nəsihətlərə qulaq asmayan əvəzini ödəyər, buyruqlara (Allahın buyruqlarına) hörmətli olan isə mükafatını alar. Müdriklərin öyrətdikləri həyat qaynağıdır, insanı ölüm tələsindən uzaqlaşdırar (56). Ağıllı davranış hörmət qazandırar, xainlərin yolu isə müsibətə aparar. Ehtiyatlı adam işini bilərək edər, ağılsız adam isə axmaqlığını göstərər. Pis çapar bəlaya düşər, etibarlı elçi isə şəfa gətirər. Tərbiyəyə yanaşmayanı yoxluq və rüsavyçılıq gözləyir, amma tənqidə qulaq asan şərəflənər... Ağılsız pislikdən uzaq qala bilməz. Müdriklərlə oturub-duran müdrik olar, ağılsızlarla dost olan isə zərər görər. Günahkarı fəlakət buraxmaz, doğruların mükafatı isə rifahdır... Sevən ata (oğlunu) diqqətlə tərbiyə edər... (Süleymanın məsəlləri, 13:1-25)

Doğru yolda gedən Rəbbdən qorxar... Axmağın sözləri kürəyinə kötəkdir, amma müdrikin dodaqları özünü qoruyar... Etibarlı şahid yalan danışmaz, yalançı şahid isə yalan nəfəs alar. İstehza edən müdrikliyi axtarsa da, tapa bilməz, ağıllı üçün isə bilik qazanmaq asandır. Ağılsız adamdan uzaq dur, çünki sənə öyrədəcək bir şeyi yoxdur. Ehtiyatlı adamın müdrikliyi nə edəcəyini bilməsidir, ağılsızların axmaqlığı isə aldanmaqdır... Dürüstlər isə yaxşı niyyətlidir... Doğru adamın evi abad olacaq. Elə yol var ki, insana düz kimi görünər, amma sonu ölümdür (57)... Qəlbi dönük olan tutduğu yolun, yaxşı adam da etdiklərinin mükafatını alacaq. Sadəlövh hər sözə inanar, ehtiyatlı olan isə atdığı hər addımı hesablayar. Müdrik adam Rəbbdən qorxduğu üçün pislikdən uzaqlaşar, ağılsız isə böyüklük göstərib özünə güvənər. Tez hirslənən axmaq kimi davranar, hiyləgərdən hamı nifrət edər. Maymaqların mirası ağılsızlıqdır, ehtiyatlı kəslərin tacı isə bilikdir... Qonşunu xor görmək günahdır, nə xoş məzluma lütf edənə! Pislik hazırlayan yolunu itirməzmi? Halbuki yaxşılıq hazırlayan sevgi və sədaqət qazanar. Hər əmək qazanc gətirər, amma mənasız danışıq yoxsulluğa aparar... Ağılsızlar axmaqlığı ilə tanınar. Dürüst şahid can qurtarar, yalançı şahid hiyləgərdir. Rəbbdən qorxan tam güvənlikdədir, Rəbb onun uşaqlarına da sığınacaq olacaq. Rəbb qorxusu həyat qaynağıdır (salehlərin Cənnəti qazanmalarına vəsilə olar), insanı ölüm tələsindən (Cəhənnəm əzabından) uzaqlaşdırar... Gec hirslənən ağıllıdır, tez əsəbiləşən axmaqlığını göstərər. Dinc ürək bədənin həyat qaynağıdır, həsəd isə insanı

həlak edər... Yoxsula acıyan Yaradanı ucaldar. Pis adam düçar olduğu müsibətlə həlak olar... Müdriklik ağıllı adamın qəlbinə sığınar... Düzgünlük xalqı ucaldar, halbuki günah hər hansı bir xalq üçün rüsvayçılıqdır. (Süleymanın məsəlləri, 14:1-34)

Yumşaq cavab qəzəbi yatırar, halbuki incidən söz qəzəbi alovlandırar. Müdrikin dili bilikdən gözəl istifadə edər, ağılsızın ağzından isə axmaqlıq axar. Rəbbin gözü (58) hər yerdə olanı görər, pislərə də, yaxşılara da göz qoyar. Nəzakətli dil həyat verər, pis dil isə ruhu incidər. Axmaq atasının xəbərdarlıqlarını kiçik görər, ehtiyatlı adam tənqidə qulaq asar. Doğru adamın evi böyük xəzinə kimidir, pisin gəliri isə sıxıntı yeridir. Müdriklərin dodaqları bilik yayar, amma ağılsızların qəlbi elə deyil... Doğruların duası Onu razı edər. Rəbb pis adamın yolundan razı qalmaz, doğruluğun ardından gedəni sevər... İstehza edən tənqiddən xoşlanmaz, müdriklərə gedib məsləhətləşməz. Xoşbəxt qəlb üzü sevindirər, acı qəlb ruhu əzər. Ağıllı qəlb bilik axtarar, ağılsızın ağzı isə axmaqlıqla bəslənər... Xoşbəxt bir qəlb sahibinə davamlı ziyafətdir. Yoxsul olub Rəbbdən qorxmaq, zəngin olub qayğı içində yaşamaqdan üstündür. Sevgi dolu mühitdə tərəvəz yemək, nifrət dolu mühitdə kök danadan yaxşıdır. Kəmhövsələ adam çəkişmə yaradar, səbirli adam qovğanı yatırar. Tənbəlin yolu tikanlı çəpər kimidir, doğrunun yolu isə enli küçəyə bənzəyər. Müdrik uşaq atasını sevindirər, ağılsız uşaq isə anasını kiçik görər. Ağıldan məhrum olan axmaqlığı ilə sevinər, amma ağıllı insan dürüst həyat sürər. Qarşılıqlı danışıq olmazsa, planlar boşa çıxar, məsləhətçilərin çoxluğu ilə müvəffəqiyyət əldə edilər. Uyğun cavab sahibini xoşbəxt edər, yerində deyilən söz nə gözəldir! Ağıllı adam həyata (Cənnətə) gedən yoldadır, bu da ölülər diyarına (Cəhənnəmə) enməyini önləyər. Rəbb qürurlunun evini yıxar... Rəbb pisin qanunlarından razı qalmaz, təmiz düşüncələrdən razı qalar. Haqsız qazanca düşkün adam öz evinə çətinlik verər, rüşvətdən nifrət edən isə rahat yaşayar. Doğru adamın ağlı cavabını yaxşı ölçər, pisin ağzı pislik saçar. Rəbb pislərdən uzaq durar, halbuki doğruların duasını eşidər (razılıq edər). Gülən gözlər qəlbi sevindirər, yaxşı xəbər insana fərahlıq verər. Həyat verən sözləri dinləyən müdriklər arasında yerləşər. Tərbiyədən qaçan özünə zərər verər, tənqidə qulaq asan isə ağıl qazanar. Rəbb qorxusu müdriklik öyrədər, təvazökarlıq da şərəfin şərtidir. (Süleymanın məsəlləri, 15:1-33)

İnsan hər etdiyini təmiz sanar, amma niyyətlərini ölçən Rəbbdir. Edəcəyin işləri Rəbbə əmanət et, o zaman qanunların reallaşar. Rəbb hər şeyi məqsədi üçün yaratdı, pis adamı da şər günü üçün. Rəbb qəlbi qürurlu olanı pis görər, bilin ki, elələri cəzasız qalmaz. Sevgi və bağlılıq günahları bağışladar, Rəbb qorxusu insanı pislikdən uzaqlaşdırar. Rəbb adamın yaşayışından razı olarsa, düşmənlərini belə onunla barışdırar. Düzgünlüklə qazanılan az şey, haqsızlıqla qazanılan böyük gəlirdən yaxşıdır. Padşah ədaləti tapdalamamalıdır. Doğru ölçü və tərəzi Rəbbindir (59), bütün çəkiləri O təyin edər. Padşahlar pislikdən çəkinər, çünki taxtın zəmanəti ədalətdir. Padşah doğru söyləyəndən razı qalar, dürüst danışanı sevər... Müdriklik qazanmaq qızıldan daha qiymətlidir, ağıla sahib olmaq da gümüşdən üstündür. Dürüstlərin tutduğu yol pislikdən uzaqlaşdırar, yoluna diqqət yetirən canını qoruyar. Qürurun ardından müsibət, kibirli ruhun ardından da məğlubiyyət gələr. Məzlumlar arasında təvazökar olmaq, qürurlularla soyğun malı paylaşmaqdan yaxşıdır. Öyüdə qulaq asan müvəffəqiyyətə çatar, Rəbbə güvənən xoşbəxt olar. Müdrik qəlbli insanlara ağıllı deyilir, şirin söz razı salma gücünü artırar. Ağıl sahibinə həyat qaynağı, axmaqlıq isə axmaqlara cəzadır. Müdrikin ağlı dilinə yön verər, dodaqlarının razı salma gücünü artırar. Xoş sözlər bal kimidir, cana şirin və bədənə şəfadır. Elə yol var ki, insana düz kimi görünər, amma sonu ölümdür (Cəhənnəmdir)... Alçaqlar başqalarına pislik hazırlayar, danışıqları qızğın atəş kimidir. Kəmhövsələ adam çəkişməni qızışdırar, qeybətçi can dostlarını ayırar. Zalım adam başqalarını tovlayar və onları pis yola yönəldər. Göz qırpmaq kələyə, hiyləli gülümsəmə pisliyə işarədir... Səbirli adam igiddən üstündür, özünü yoxlayan da şəhərlər fəth edəndən üstündür... Hər qərarı Rəbb verər. (Süleymanın məsəlləri, 16:1-33)

Hüzur içində quru bir loxma qovğa və ziyafət dolu evdən yaxşıdır... Qızıl ocaqda, gümüş putada təmizlənər, qəlbi təmizləyən isə Rəbbdir. Pis adam fəsad dolu dodaqları dinləyər, yalançı da təxribatçı dilə qulaq asar... Sevgi istəyən adam günahları bağışlayar, qeybət edən isə can dostlarını ayırar... Pis adam ancaq üsyana meyllidir... Azğınlığı üzərində olan bir ağılsızla qarşılaşmaq balalarından olmuş dişi ayı ilə qarşılaşmaqdan betərdir. Yaxşılığın qarşılığını pisliklə ödəyənin evindən pislik azalmaz. Qovğanın başlanğıcı su sızıntısına bənzər, müsibətə gətirib çıxarmadan çəkişməni burax. Pisi bağışlayanı da, doğrunu məhkum edəni də Rəbb pisləyər. Ağılsız biri müdriklik satın almaq üçün niyə pul xərcləsin? Onsuz da ağıldan məhrumdur! Dost həmişə sevər, qardaş çətin gündə bəlli olar... Üsyanı sevən qovğanı sevər... Dili ilə aldadan da bəlaya düşər. Ağılsız özünü doğurana dərddir... Ruh fərahlığı sağlamlıq gətirər, əzgin ruh isə vücudu qocaldar. Pis adam ədaləti sapdırmaq üçün gizlin rüşvət alar. Ağıllı adam gözünü müdriklikdən ayırmaz, ağılsızın gözü isə həmişə sağda-soldadır... Bilikli adam az danışar, ağıllı adam sakit ruhludur... (Süleymanın məsəlləri, 17:1-28)

Tərs adam öz mənfəətini güdər, yaxşı öyüdə həmişə qarşı çıxar. Ağılsız adam bir şey anlamaqdan çox öz fikirlərini danışmaqdan xoşlanar. Pisliyi alçaldılmaq, eyibi rüsvayçılıq izləyər. Müdrik adamın ağzından çıxan sözlər dərin sular kimidir, müdrikliyin mənbəyi də coşğun bir çaydır. Pisi himayə etmək də, günahsızdan ədaləti əsirgəmək də yaxşı deyil. Ağılsızın dodaqları çəkişməyə gətirib çıxarar... Ağılsızın ağzı özünü məhv edər, dodaqları da canına tələdir... Zəngin sərvətini bir qala, aşılmaz bir sədd sanar. Qəlbin qürurunu məğlubiyyət, təvazökarlığı isə şərəf izləyər. Dinləmədən cavab vermək axmaqlıq və abırsızlıqdır... Ağıllı adam biliyi satın alar, müdrikin qulağı da bilik arxasındadır... Müsibətə aparan dostlar vardır, amma elə dost var ki, qardaşdan yaxındır insana. (Süleymanın məsəlləri, 18:1-24)

Dürüst yaşayan bir yoxsul olmaq, yalançı bir ağılsız olmaqdan yaxşıdır. Biliksiz həvəs işə yaramaz, tələsmək insanı yanıldar... Yalançı şahid cəzasız qalmaz, yalan nəfəs alan xilas ola bilməz... Ağlı izləyən bolluğa qovuşar... Ağıllı adam səbirlidir, qüsurları xoş görməsi ona şərəf qazandırar... Ağıllı qadın Rəbbin hədiyyəsidir. Tənbəllik insanı laqeydliyə aparar, avara adam da ac qalar. Allah buyruğuna uyan canını qoruyar (Cənnəti qazanar), getməsi gərəkən yolları önəmsiz görən ölər (Cəhənnəm əzabıyla qarşılıq tapar). Yoxsula acıyan adam Rəbbə borc vermiş olar, etdiyi yaxşılıq üçün Rəbb onu mükafatlandırar... Öyüdə qulaq as, tərbiyəni qəbul et ki, qalan ömrün boyu müdrik olasan. İnsan ürəyində çox şey hazırlayar, amma reallaşan Rəbbin məqsədidir. İnsandan istənən vəfadır, yoxsul olmaq yalançı olmaqdan yaxşıdır. Rəbb qorxusu dolğun və dərdsiz bir həyata qovuşdurar... Ağıllı adamı tənqid etsən biliyinə bilik qatar... Oğlum, nəsihətlərimi dinləməsən, bilik qaynağı olan sözlərdən saparsan... Pislərin ağzı fəsadla bəslənər. (Süleymanın məsəlləri, 19:1-28)

Qovğadan qaçmaq insan üçün şərəfdir, halbuki hər axmaq mübahisəyə hazırdır... İnsanın niyyətləri dərin quyunun suyu kimidir, ağıllı adam onları ortaya çıxarar. İnsanların çoxu "Vəfalıyam" deyər. Amma sadiq birisini kim tapa bilər? Doğru və dürüst bir ataya sahib olan uşağa nə xoş!... Rəbb hiyləli tərəzidən, hiyləli ölçüdən xoşlanmaz... Eşidən qulağı da, görən gözü də Rəbb yaratmışdır. Çoxlu qızılın, ləl-cəvahiratın ola bilər, amma bilik axıdan dodaqlar daha qiymətlidir... Qanunlarını məsləhətləşərək et... "Bu pisliyin əvəzini sənə verəcəyəm" demə; Rəbbi gözlə, O, səni qurtarar... Rəbb hiyləli tərəzidən xoşlanmaz. İnsanın addımlarını Rəbb yönləndirər... Düşünmədən vəd etmək təhlükəlidir. Müdrik padşah pisləri ayırd edər... İnsanın ruhu Rəbbin işığıdır (Allahın nurunun təcəllisidir)... Sevgi və sədaqət padşahın güvəncəsidir. Onun taxtını sağlamlaşdıran sevgidir. (Süleymanın məsəlləri, 20:3-28)

Padşahın qəlbi Rəbbin əlindədir, kanaldakı su kimi onu istədiyi yönə çevirər. İnsan izlədiyi hər yolun doğru olduğunu sanar, amma niyyətlərini ölçən Rəbbdir. Rəbb Özünə qurban verilməsindən çox doğruluğun və ədalətin yerinə yetirilməsini istəyər. Qürurlu baxışlar və qürurlu qəlb pislərin çırası və günahıdır.... Haqsız qazanılan sərvət duman kimi keçicidir və ölüm (60) tələsidir. Pislərin zülmü özlərini süpürüb aparar, çünki doğrunu etməyə yanaşmazlar. Günahkarın yolu qarışıq, pak adamın etdikləri isə düzdür… Pisin can atdığı şey pislikdir, heç kimə acımaz… Müdrik olan öyrədiləndən bilik qazanar... Yoxsulun fəryadına qulağını tıxayanın fəryadına cavab verilməyəcək… Haqq yerinə gəlincə doğru adam sevinər, fitnəkar dəhşətə düşər. Ağıldan uzaqlaşan özünü ölülərin arasında görər (61). Zövqünə düşkün olan yoxsullaşar… Müdrikin evi qiymətli əşya və zeytun yağı ilə doludur, ağılsızın isə malını xırman sovurar. Doğruluğun və sevginin ardınca gedən həyat, rahatlıq və şərəf tapar… Qürurlu, lovğa və istehza edən: Bunlar təkəbbürlü insan adlarıdır. Tənbəlin istəyi onu ölümə aparar, çünki əlləri çalışmaqdan çəkinər; bütün gün istəklərini sayıb oturar, halbuki doğru adam əsirgəmədən verər… Pis adam özünə güclü bir görünüş verər, yaxşı insan isə tutduğu yoldan əmindir. Rəbbə qarşı müvəffəqiyyətli ola biləcək müdriklik, ağıl və qanun yoxdur. At döyüş günü üçün hazır saxlanılar, amma zəfər verən Rəbbdir. (Süleymanın məsəlləri, 21:1-31)

... Hörmət gümüş və qızıldan yaxşıdır. Zənginlə yoxsulun ortaq yönü budur: Hər ikisini də Rəbb yaratdı… Təvazökarlığın və Rəbb qorxusunun mükafatı zənginlik, şərəf və həyatdır (62). Pisin yolu tikan və tələ ilə doludur. Canını qorumaq istəyən bunlardan uzaq durar. Uşağı tutmalı olduğu yola görə yetişdir, yaşlandığında o yoldan ayrılmaz... Fəsad əkən dərd biçər, qəzəbinin dəyənəyi yox olar. Səxavətli adam müqəddəs hesab edilər, çünki yeməyini yoxsullarla paylaşar. İstehza edəni qov, qovğa bitər; çəkişmə və alçaltmalar da sona çatar... Rəbb biliyə göz qoyub qoruyar, xainin sözlərini isə yox edər... Sərvətini böyütmək üçün yoxsulu əzənin ... sonu yoxsulluqdur. (Süleymanın məsəlləri, 22:1-16)

Qulaq as, müdriklərin sözlərini dinlə, öyrətdiyimi yadda saxla. Sözlərimi qəlbində saxlasan xoşbəxt olarsan, onlar həmişə hazır olsun dodaqlarında. Rəbbə güvənməyin üçün bu gün bunları sənə, bəli, sənə də bildirirəm. Sənin üçün otuz söz yazdım,

bilik və öyüd sözləri... Belə ki, etibarlı, doğru sözləri biləsən, beləcə, səni göndərənə etibarlı cavab verə biləsən. Yoxsulu yoxsul olduğu üçün soymağa çalışma, düşkünü məhkəmədə əzmə. Çünki onların mühakiməsini Rəbb müdafiə edəcək... Kəmhövsələ adamla yoldaşlıq etmə; tez hirslənənlə yola çıxma. Yoxsa onun yollarına alışar, özünü tələyə düşmüş görərsən. (Süleymanın məsəlləri, 22:17-25)

Nəsihətləri yadda saxla, bilik dolu sözlərə qulaq as. Uşağını tərbiyə etməkdə geri qalma... Oğlum, müdrik olsan, mənim ürəyim də sevinər. Dodaqların doğru danışdığında könlüm də coşar. Günahkarlara qibtə etməkdənsə həmişə Rəbb qorxusunda yaşa. Beləcə, bir gələcəyin olar və ümidin boşa çıxmaz. Oğlum, dinlə və müdrik ol, qəlbini doğru yolda tut... Yaşlandığı zaman ananı xor görmə. Həqiqəti satın al və satma; müdrikliyi, tərbiyəni, ağlı da. Doğru adamın atası coşduqca coşar, müdrik davranan oğulun atası sevinər… (Süleymanın məsəlləri, 23:12-24)

Pislərə qibtə etmə, onlarla birlikdə olmağı istəmə. Çünki qəlbləri zülm hazırlayar, dodaqları bəlalardan danışar. Ev müdrikliklə tikilər, ağılla gücləndirilər. Bilik sayəsində otaqları hər cür qiymətli, gözəl əşya ilə dolar. Müdriklik gücdən, bilik də böyük qüvvətdən üstündür… Zəfər qazanmaq üçün bir çox məsləhətçi lazımdır… Pislik hazırlayan adam hiyləgər kimi bilinəcək... İstehza edəndən hamı nifrət edər. Çətin gündə cəsarətini itirsən, deməli gücün azdır. Ölüm təhlükəsində olanları xilas et, ölmək üzrə olanları qoru. "Bax, bunu bilmirdim" desən də, insanın ürəyindəkini bilən anlamazmı? Sənin canını qoruyan anlamazmı?... Müdriklik də canın üçün elədir, onu bil. Müdrikliyi tapsan, bir gələcəyin olar və ümidin boşa çıxmaz. Ey pis adam, doğru adamın evinə pusqu qurma, onu yıxmağa çalışma. Çünki doğru adam yeddi dəfə yıxılsa, yenə qalxar, amma pislər fəlakətdə yox olar. Düşmənin zəifləməyinə və səndələməyinə sevinmə. Yoxsa Rəbb məmnun olmaz... Pislik edənlərə hirslənib kədərlənmə, onlara etina etmə. Çünki pislərin gələcəyi yoxdur... Oğlum, Rəbbə... hörmət göstər, üsyankarlarla yoldaşlıq etmə... Bunlar da müdriklərin sözləridir: Mühakimə edərkən tərəf saxlamaq yaxşı deyil. Pisə "Günahsızsan" deyən hakimi xalqlar lənətləyər, qınayar... Dürüst cavab həqiqi dostluğun işarəsidir... Başqalarına qarşı səbəbsiz şahidlik etmə və dilinlə aldatma. "Mənə etdiyini mən də ona edəcəyəm, əvəzini verəcəyəm mənə etdiyini" demə. Tənbəlin tarlasından, ağılsızın bağından keçəndə hər yeri tikanların, otların örtdüyünü gördüm; daş divar da uçmuşdu. Gördüklərimi dərin düşündüm, seyr etdiklərimdən ibrət aldım. "Bir az mürgüləyim, bir az yatım" deməmiş yoxluq bir quldur kimi, yoxsulluq bir axın kimi gələr üzərinə. (Süleymanın məsəlləri, 24:1-34)

Yerində deyilən söz gümüş oymalardakı qızıl alma kimidir. Qızıl sırğa və ya qızıl bir bəzək nədirsə, dinləyən qulaq üçün müdrikin tənqidi də elədir. Biçində qar sərinliyi necədirsə, etibarlı elçi də özünü göndərənlər üçün elədir... Yağışsız bulud və yel necədirsə, vermədiyi hədiyyə ilə öyünən adam da elədir. Səbirlə bir hökmdar belə razı salınar, şirin dil ən güclü müqaviməti qırar. Başqasına qarşı yalançı şahidlik edən toppuz, qılınc və ya iti ox kimidir. Çətin gündə xainə güvənmək, çürük dişə və ya şikəst ayağa güvənmək kimidir. Düşmənin acsa, doyur; susayarsa, su ver. Bunu etməklə onu utandırarsan və Rəbb səni mükafatlandırar... Pisin önündə susan doğru adam suyu bulanmış bulaq, çirklənmiş quyu kimidir... Özünə nəzarət edə bilməyən adam dağılmış, səddsiz şəhər kimidir. (Süleymanın məsəlləri, 25:11-28)

Yazın ortasında qar, biçində yağışın uyğun olmadığı kimi, ağılsıza da şərəf yaraşmaz.... Ağılsıza axmaqlığına görə cavab vermə, yoxsa sən də onun səviyyəsinə enərsən. Ağılsıza axmaqlığına uyğun cavab vermə, yoxsa özünü müdrik sanar. Ağılsızın əli ilə xəbər göndərən öz ayaqlarını kəsən biri kimi, özünə zərər verər. Ağılsızın ağzında məsəl iflicin sallanmış ayaqları kimidir. Ağılsızı şərəfləndirmək daşı sapanda bağlamaq kimidir. Sərxoşun əlindəki tikanlı budaq nədirsə, ağılsızın ağzındakı məsəl də odur... Özünü müdrik görəni tanıyırsanmı? Ağılsız belə ondan daha ümidlidir... Rəzəsinin üzərində dönən qapı kimi, tənbəl də yatağında dönüb yatar. Tənbəl əlini boşqaba salar, yenidən ağzına aparmağa ərinər. Tənbəl özünü ağıllı cavab verən yeddi adamdan daha müdrik sanar... Odun bitincə atəş sönər, qeybətçi yox olunca qovğa bitər. Köz üçün kömür, atəş üçün odun nədirsə, çəkişməni alovlandırmaq üçün qovğa edən də elədir... Əzizləyən dodaqlarla pis qəlb, minalanmış torpaq üzə bənzər. Ürəyi nifrət dolu adam sözləri ilə niyyətini gizləməyə çalışar, amma qəlbi hiylə ilə doludur. Gözəl sözlərinə aldanma, çünki qəlbində yeddi pis şey vardır. Nifrətini hiylə ilə örtsə belə, pisliyi cəmiyyətin qarşısında ortaya çıxar. Başqasının quyusunu qazan içinə öz düşər, daşı diyirlədən altında qalar. Yalançı dil incitdiklərindən nifrət edər, rüsvayçı ağızdan müsibət gəlir. (Süleymanın məsəlləri, 26:1-28)

Sabahla öyünmə, çünki nə gətirəcəyini bilə bilməzsən. Səni öz ağzın deyil, başqaları təriflәsin, öz dodaqların deyil, özgəsi təriflәsin. Daş ağırdır, qum bir yükdür, amma axmağın təhriki ikisindən də ağırdır. Qəzəb zalım, hiddət azğındır... Açıq bir tənqid, gizli tutulan sevgidən yaxşıdır. Düşmənin gözəllikləri hiylədir, amma dostun səni yaxşılığın üçün yaralayar... Gözəl qoxu və büxur cana fərah verər, dostun verdiyi öyüd insana şirin gəlir. (Süleymanın məsəlləri, 27:1-10)

Dəmir dəmiri bilər, insan da insanı... Su görünüşümüzü necə əks etdirirsə, ürək də insanın içini əks etdirər. Ölüm və fəlakət diyarı insana doymaz (63), insanın gözü də heç doymaz. Qızıl ocaqda, gümüş putada yoxlanar, insansa aldığı təriflə yoxlanar. (Süleymanın məsəlləri, 27:17-21)

Pis adam özünü qovan olmasa belə qaçar, doğrular isə gənc aslan kimi ürəklidir. Üsyançı ölkə çox başlı olar, amma ağıllı, bilikli adam nizam gətirər. Yoxsulu əzən yoxsul məhsulu xarab edən leysan yağış kimidir. Qanunu tərk edən pisi tərifləyər, yerinə yetirən isə pisə qarşı çıxar. Pislər ədalətdən anlamaz, Rəbbə yönələnlər isə hərtərəfli anlayar. Dürüst bir yoxsul olmaq sui-istifadə ilə zəngin olmaqdan yaxşıdır. Müqəddəs qanunu (64) yerinə yetirən uşaq ağıllıdır... Dürüst kəsləri pis yola çevirən öz qazdığı çuxura düşər. Yaxşılığı dürüst olanlar miras alacaq. Zəngin özünü müdrik sanar, amma ağıllı yoxsul onun qəlbini oxuyar. Doğruların zəfəri coşğu ilə qeyd olunar... Günahlarını gizləyən müvəffəqiyyətli olmaz, etiraf edib buraxan isə mərhəmət tapar. Günahdan çəkinən necə də xoşbəxtdir! İnadcıllıq edən isə bəlaya düşər. Yoxsul xalqı idarə edən pis adam nərildəyən aslan və təcavüzkar ayı kimidir. Qəddar öndərin ağlı azdır; haqsız qazancdan nifrət edən isə uzun ömürlü olar. Alnı ağ yaşayan xilas olar, sui-istifadə edən qəflətən müsibətə düçar olar. Torpağını işlədənin çörəyi bol olar, xəyal arxasında qaçan isə yoxsul olar. Etibarlı adam bolluğa çatar, zəngin olmağa can at isə bəladan xilas ola bilməz... Xəsis sərvət arxasında qaçar, yoxsulluğa düşəcəyini düşünməz... Acgöz qovğa çıxarar, Rəbbə güvənən isə bolluq içində yaşayar. Özünə güvənən ağılsızdır, müdrik davranan güvənlikdə olar. Yoxsula verən möhtac olmaz, yoxsulu görməməzlikdən gələn isə bir çox lənətə uğrayar. (Süleymanın məsəlləri, 28:1-27)

Dəfələrlə xəbərdar edildiyi halda dikbaşlıq edən qəflətən müsibətə uğrayacaq, çarə yoxdur. Doğru kəslər çoxalınca xalq sevinər, pis adam hökmdar olunca xalq inləyər... Ədalətlə idarə edən padşah ölkəsinə dəstək olar, ağır vergilər qoyan isə məhv edər. Başqasının üzünə gülən adam ona tələ qurar. Pisin üsyanı özünə tələ olar, doğru adam isə tərənnüm (ilahi) söyləyər və sevinər. Doğru adam yoxsulların haqqını verər, pis adam haqqın nə olduğunu bilməz. İstehza edənlər şəhərləri beləcə qarışdırar, müdriklər isə qəzəbi yatırar. Müdrik adama qarşı mühakiməsi olan axmaq qəzəblənər, istehza edər və rahatlıq verməz. Qana susayanlar dürüst adamdan nifrət edər, doğrular isə onun canını qoruyar. Ağılsız həmişə hirslənməyə hazırdır, müdrik isə qəzəbinə hakim olar... Yoxsulları ədalətlə idarə edən padşahın taxtı həmişə güvənlikdə olar... Pislər çoxalınca üsyan da çoxalar, amma doğrular onların məğlub olduğunu görəcək. Oğlunu tərbiyə et, o da sənə hüzur verəcək və könlünü xoş edəcək. Vəhydən məhrum olan xalq hədd bilməz. Nə xoş müqəddəs qanunu (65) yerinə yetirənə!... Qəzəbli adam çəkişmə yaradar, kəmhövsələ adamın üsyanı az olmaz. Qürur insanı hörmətdən salar, təvazökarlıq isə şərəf qazandırar... İnsandan qorxmaq tələdir, amma Rəbbə güvənən güvənlikdə olar. Hökmdarın gözünə girmək istəyən çoxdur, amma Rəbbdir insana ədalət verən. Doğrular haqsızlardan çəkinər, pislər də dürüst yaşayanlardan. (Süleymanın məsəlləri, 29:1-27)

Allahın hər sözü etibarlıdır, O, Özünə sığınan hər kəsə qalxandır (qoruyucudur)... Ey Allah... Saxtakarlığı, yalanı məndən uzaq tut... (Süleymanın məsəlləri, 30:5-8)

Elələri var ki, özlərini tərtəmiz bilərlər, halbuki pisliklərindən təmizlənmiş deyildirlər. Elələri var ki, özlərindən üstün adam tanımazlar, hamıya yuxarıdan baxarlar. Elələri var ki, dişləri qılınc, çənələri bıçaqdır... (Süleymanın məsəlləri, 30:12-14)

Dünyada dörd kiçik varlıq vardır ki, çox müdrik davranarlar: Qarışqalar güclü olmayan bir birlikdir, amma yeməklərini yaydan yığarlar. Dovşanlar da gücsüz bir birlikdir, amma yuvalarını qaya oyuqlarında düzəldərlər. Çəyirtkələrin başçısı yoxdur, amma dəstə-dəstə irəliləyərlər. Kərtənkələni əl ilə tutmaq mümkündür, amma şah saraylarında gəzir... Ordusunun başındakı padşah "Əgər axmaq kimi özünü ucaltdınsa və ya pislik hazırladınsa, dayan və düşün! Çünki südü döyüncə kərəyağı... necə çıxırsa, qəzəbi qurdalayınca da qovğa çıxar". (Süleymanın məsəlləri, 30:24-33)

Ağzını haqqını müdafiə edə bilməyən və kimsəsizin mühakiməsi üçün aç. Ağzını aç və ədalətlə mühakimə et, məzlumun, yoxsulun haqqını müdafiə et. Yaxşı qadını kim tapa bilər? Onun dəyəri ləl-cəvahiratdan çox üstündür. Əri ona ürəkdən

güvənər və qazancı azalmaz. Qadın ona pisliklə deyil, həyatı boyunca yaxşılıqla cavab verər... Məzluma qollarını açar, yoxsula əlini uzadar... Güc və şərəfə bürünmüşdür, gələcəyə etibarlı baxar. Ağzından müdriklik axar, dili yaxşılıq nəsihət edər. Evin işlərini idarə edər, tənbəllik etməz... Cazibədarlıq hiyləgər, gözəllik mənasızdır; amma Rəbbə hörmətli qadın tərifə layiqdir. Əllərinin layiq olduğunu verin özünə, etdikləri üçün şəhər məşvərətində təriflənsin. (Süleymanın məsəlləri, 31:8-31)

## TÖVRATDA ALLAHIN YARATDIĞI GÖZƏLLİKLƏRDƏN NÜMUNƏLƏR

### Allahın camalı

Rəbbdən tək diləyim, tək istəyim budur: Rəbbin gözəlliyini seyr etmək (66), məscidində Ona heyran olmaq üçün ömrümün bütün günlərini Onun evində keçirmək. (Zəbur, 27:4)

O, hər şeyi vaxtında gözəl yaratdı. İnsanların qəlbinə sonsuzluq anlayışını qoydu. Yenə də insan Allahın etdiyi işi əvvəldən sona qədər anlaya bilməz. (Vaiz, 3:11)

"Varmı Sənin kimisi... ya Rəbb? Sənin kimi müqəddəslikdə əzəmətli, heybəti ilə tərifə dəyər, möcüzələr yaradan varmı? (Misirdən çıxış, 15:11)

Hökmranlıq və heybət Allaha məxsusdur, uca göylərdə nizam quran Odur. (Əyyub, 25:2)

### Əşyalardakı gözəlliklər

Səddli şəhərlər, məhsuldar torpaqlar ələ keçirdilər. Gözəl əşyalarla dolu evlərə, qazılmış anbarlara, bağlara, zeytunluqlara, çoxlu meyvə ağacına sahib oldular. Yeyib doydular, bəsləndilər və onlara etdiyin böyük yaxşılıqlara sevindilər. (Nehemya, 9:25)

Onu gözəl hədiyyələrlə qarşıladın, başına təmiz qızıldan tac qoydun. (Zəbur, 21:3)

Bilik sayəsində otaqları hər cür qiymətli, gözəl əşya ilə dolar. (Süleymanın məsəlləri, 24:4)

### Gözəl bitkilər

Asuriyə bax! Livanda bir sidr ağacı idi, meşəyə kölgə salan gözəl budaqları var idi. Çox yüksək idi, başı buludlara çatırdı. (Yezekel, 31:3)

Gözəllikdə bənzərsiz idi. Budaqları getdikcə uzandı, çünki kökü çoxlu su içirdi. (Yezekel, 31:7)

Sıx budaqlarla o sidr ağacını gözəlləşdirdim... (Yezekel, 31:9)

Yarpaqları gözəl idi, hamıya çatacaq qədər çoxlu meyvəsi var idi. Vəhşi heyvanlar kölgəsində sığınır, göydə uçan quşlar budaqlarına qonurdu. Hər canlı ondan bəslənirdi. (Daniel, 4:12)

### Gözəl yeməklər

hazırladığı gözəl yeməklə çörəyi Yaqubun əlinə verdi. (Yaradılış, 27:17)

Birinci gün meyvə ağaclarının gözəl meyvələrini, xurma budaqlarını, sıx yarpaqlı ağac budaqlarını, vadi qovaqlarını yığıb Allahınız Rəbbin qarşısında yeddi gün şənlik edəcəksiniz. (Levililər, 23:40)

### Gözəl məkanlar

Ucalıq, ululuq Onun hüzurundadır, güc və gözəllik Onun məscidindədir. (Zəbur, 96:6)

Yeyib doyduğunuzda gözəl evlər qurub yerləşdiyinizdə... (Qanunun təkrarı, 8:12)

… İqamətgahların necə də gözəldir! (Səhrada saylar, 24:5)

İzn ver ki, Şəriyə çayından keçib qarşı tərəfdəki o məhsuldar ölkəni, o gözəl dağlıq bölgəni və Livanı görüm. (Qanunun təkrarı, 3:25)

Gözəl tarlalar, məhsuldar asmalar… Nəşəli şəhərdəki xoşbəxtlik dolu evlər üçün... (Yeşaya, 32:12)

… Tikmədiyiniz böyük və gözəl şəhərləri, yığmadığınız yaxşı əşyalarla dolu evləri, siz əmək vermədən qazılmış anbarları, tikmədiyiniz bağları, zeytunluqları olan ölkəyə aparacaq… (Qanunun təkrarı, 6:10)

… Rəbbin sizə verdiyi bu gözəl torpaqlardan... (Yeşua, 23:13)

… Rəbbin sizə verdiyi bu gözəl ölkədən… (Yeşua, 23:16)

**Gözəl ətirlər**

Gözəl ətir və büxur cana fərahlıq verər, dostun verdiyi öyüd insana şirin gələr. (Süleymanın məsəlləri, 27:9)

Gözəl ətirdən razı qalan Rəbb... (Yaradılış, 8:21)

… Sənə gətirilən mallar arasında işlənmiş dəmir, darçın, gözəl ətirli qamış var idi. (Yezekel, 27:18)

Padşah divanda ikən nard çiçəyinin gözəl qoxusu yayıldı. (Nəğmələr nəğməsi, 1:12)

"Yeməyin üçün verdiyim yeməyi -incə unu, zeytun yağını, balı gözəl qoxulu kimi onlara verdin. Belə etdin" deyir hakim Rəbb. (Yezekel, 16:19)

Nard çiçəyi və zəfəranla, gözəl ətirli qamış və darçınla, hər cür büxur ağacı ilə, mirra və əzva ilə, hər cür seçmə ədviyyatla. (Nəğmələr nəğməsi, 4:14)

Harunun oğlu Elazar işıq üçün zeytun yağından, gözəl qoxulu büxurdan, gündəlik taxıldan və məsh yağından -iqamətgahdan və içindəki hər şeydən- müqəddəs yer və əşyalarından məsul olacaq. (Səhrada saylar, 4:16)

Şam üçün zeytun yağı, məsh yağı ilə gözəl qoxulu büxur üçün ədviyyat. (Misirdən çıxış, 25:6)

Harun hər səhər şamlara qulluq edərkən qurbangahın üzərində gözəl ətirli büxur yanacaq. (Misirdən çıxış, 30:7)

Bu nadir ədviyyatı götür: 500 şekel maye mirra, yarısı qədər, yəni 250 şekel gözəl ətirli darçın və qamış. (Misirdən çıxış, 30:23)

Bunlardan ətriyyatçı kimi gözəl ətirli müqəddəs bir məsh yağı hazırla. Ona müqəddəs məsh yağı deyiləcək. (Misirdən çıxış, 30:25)

Sonra Rəbb Musaya belə dedi: "Gözəl ətirli ədviyyat -balzam, onika, ilan kölgəsi və xalis kündür- götür. Hamısı eyni miqdarda olsun". (Misirdən çıxış, 30:34)

Bir ətriyyatçı kimi bunlardan gözəl ətirli bir büxur hazırla. (Misirdən çıxış, 30:35)

Məsh yağını, müqəddəs yer üçün gözəl qoxulu büxuru tam sənə buyurduğum kimi hazırlasınlar. (Misirdən çıxış, 31:11)

Qəndil, məsh yağı və gözəl ətirli büxur üçün ədviyyat və zeytun yağı gətirdilər. (Misirdən çıxış, 35:28)

Ətriyyatçı kimi müqəddəs məsh yağı və gözəl ətirli təmiz büxur hazırladı. (Misirdən çıxış, 37:29)

… Məsh yağını, gözəl ətirli büxuru, çadırın giriş hissəsinin pərdəsini; müqəddəs məskənlə şüvüllərini, bütün dəstlərini, qazanı, qazan ayaqlığını… Musaya göstərdilər. (Misirdən çıxış, 39:33)

Rəbbin özünə buyurduğu kimi üzərində gözəl ətirli büxur yandırdı. (Misirdən çıxış, 40:27)

**Gözəl söz**

"Qorxmağa gərək yoxdur; sizə də, uşaqlarınıza da baxacağam". Onlara xoş, gözəl sözlərlə inam verdi. (Yaradılış, 50:21)

Narahat qəlb insanı məhv edər, amma gözəl söz sevindirər. (Süleymanın məsəlləri, 12:25)

Uyğun cavab sahibini şad edər, yerində deyilən söz nə gözəldir! (Süleymanın məsəlləri, 15:23)

Qəlb təmizliyini və gözəl sözləri sevən padşahın dostluğunu qazanar. (Süleymanın məsəlləri, 22:11)

Qəlbimdən gözəl sözlər daşır… Dilim ustad bir yazıçının qələmi kimi olsun. (Zəbur, 45:1)

Müdrik olmayana necə nəsihətlər verdin! Güclü biliyi çox gözəl öyrətdin! (Əyyub, 26:3)

## TÖVRATDA KAİNATDAKI

## NİZAM VƏ YARADILIŞ

### Göylərin və Yer üzünün yaradılışı

Başlanğıcda Allah göyü və yeri yaratdı. Yer boş idi, yer üzünün şəkilləri yox idi; ucsuz-bucaqsız qaranlıqlarla örtülmüşdü... (Yaradılış, 1:1-2)

Allah "Suların ortasında bir qübbə olsun, suları bir-birindən ayırsın" deyə buyurdu. Və elə oldu. Allah göy qübbəsini yaratdı. Qübbənin altındakı suları üstündəki sulardan ayırdı. Qübbəyə "Göy" adını verdi... (Yaradılış, 1:6-8)

... Rəbb Allah göyü və yeri yaratdığında… (Yaradılış, 2:4-5)

... Tək Rəbb Sənsən. Göyləri, göylərin göylərini, bütün göy cisimlərini, yer üzünü və içindəki hər şeyi, dənizləri və içlərindəki hər şeyi Sən yaratdın... Bütün göy cisimləri Sənə qulluq edər. (Nehemya, 9:6)

Allah "Göyün altındakı sular bir yerə toplansın, quru torpaq görünsün" deyə buyurdu və elə də oldu. Quru sahəyə "Quru", toplanan sulara "Dəniz" adını verdi... (Yaradılış, 1:9-10)

Göy və yer bütün maddələri ilə tamamlandı. (Yaradılış, 2:1)

Ya Rəbb Allahım, necə ulusan! Əzəmətlisən və ucasan… Yer üzünü təməllər üzərinə qurdun, əsla sarsılmasın deyə. (Zəbur, 104:1, 5)

### İşığın yaradılışı

Allah "İşıq olsun" deyə buyurdu və işıq oldu... Onu qaranlıqdan ayırdı. (Yaradılış, 1:3-4)

### Gecə və gündüzün yaradılışı

(Allah) İşığa "Gündüz", qaranlığa "Gecə" adını verdi. Axşam oldu, səhər oldu... (Yaradılış, 1:5)

"Dünya durduqca əkin əkmək, biçmək, isti, soyuq, yaz, qış, gecə, gündüz həmişə olacaq". (Yaradılış, 8:22)

### Göy cisimlərinin yaradılışı

Allah belə buyurdu: "Göy qübbəsində gündüzü gecədən ayıracaq, yer üzünü işıqlandıracaq işıqlar olsun. Əlamətləri, mövsümləri, günləri, illəri göstərsin". Və elə də oldu. Allah böyüyü gündüzə, kiçiyi gecəyə hakim olan iki böyük işığı və ulduzları yaratdı. Yer üzünü işıqlandırmaq, gündüzə və gecəyə hakim olmaq, işığı qaranlıqdan ayırmaq üçün onları göy qübbəsinə yerləşdirdi... (Yaradılış, 1:14-17)

Ey hakimimiz Rəbb, necə uca Adın var yer üzündə! Səmanı əzəmətinlə örtdün... Seyr edərkən əsərin olan göyləri, oraya qoyduğun Ayı və ulduzları, soruşuram özümdən: "İnsan nədir ki... ?" (Zəbur, 8:1-4)

### Göylərin nizam halındakı yaradılışı

Gündüz işıq olsun deyə Günəşi yaradan, gecə işıq olsun deyə Ayı, ulduzları nizama qoyan, dalğaları guruldasın deyə dənizi qabardan Rəbb-Onun adı hər şeyə hakim Rəbbdir... (Yeremya, 31:35-36)

Başınızı qaldırıb göylərə baxın. Kim yaratdı bütün bunları? Ulduzları sıra ilə görünən edir, hər birini adı ilə çağırır. Böyük qüdrəti, üstün gücü sayəsində hamısı öz yerində dayanır. (Yeşaya, 40:26)

Mövsümlərində çıxarda bilərsənmi bürcləri? Böyük və kiçik ayıya yol göstərə bilərsənmi? Bilirsənmi göylərin qanunlarını?... (Əyyub, 38:32-33)

**Dünyanın kainatdakı mövqesi**

O, boşluğun üzərinə şimal göylərini yayar, yoxluğun üzərinə dünyanı asar. (Əyyub, 26:7)

**Günəşin orbiti**

Günəş doğulur, Günəş batır, və yerinə həmişə doğulduğu yerə gedir. (Vaiz, 1:5)

**Küləklərin nizam halındakı hərəkəti**

Külək cənuba gedər, şimala dönər, dönə-dönə əsib həmişə eyni yolu izləyər. (Vaiz 1, 1:6)

**Sulardakı dövr və nizam**

Allah elə böyükdür ki… Su damlalarını yuxarı çəkər, buxarından yağış damladar. Buludlar nəmini tökər, insanların üzərinə bol yağış yağdırar. (Əyyub, 36:26-28)

Küləyə güc verdiyi, suları ölçdüyü, yağışa qayda qoyduğu, ildırıma yol açdığı zaman, (Əyyub, 28:25-26)

Göydən enən yağış və qar torpağı sulamadan, yeri yaşıllaşdırmadan, əkinçiyə toxum, yeyənə çörək vermədən necə göyə dönməzsə... (Yeşaya, 55:10)

Buludları meydana gətirdiyində, dənizin mənbələrini gücləndirdiyində, sular buyruğundan kənar keçməsinlər deyə dənizə sərhəd çəkdiyində, Dünyanın təməllərini gücləndirdiyində... (Süleymanın məsəlləri, 8:29)

Dağları aşıb dərələrə axdı, onlar üçün təyin etdiyin yerlərə doğru. Bir sərhəd qoydun önlərinə, keçməsinlər, gəlib yer üzünü bir daha örtməsinlər deyə. (Zəbur, 104:8-9)

Bütün çaylar dənizə axar, yenə də dəniz dolmaz. Çaylar həmişə çıxdıqları yerə dönər. (Vaiz 1, 1:7)

**Atmosferin qoruyucu xüsusiyyəti**

... Göyləri pərdə kimi örtən, ... çadır kimi quran Odur. (Yeşaya, 40:22)

**Heyvanların yaradılışı**

Allah "Sular canlı varlıqlarla dolub daşsın, yer üzünün üzərində, göydə quşlar uçsun" deyə buyurdu. Allah böyük dəniz heyvanlarını, sularda qaynaşan canlıları və uçan müxtəlif varlıqları yaratdı. Allah "Törəyib artın, çoxalın, dənizləri doldurun, yer üzündə quşlar çoxalsın" deyə buyurdu... (Yaradılış, 1:20-22)

Allah "Yer üzüdə növbənöv canlı varlıq, evcil və vəhşi heyvan, sürünən hasil olsun" deyə buyurdu. Və elə də oldu. Allah növbənöv vəhşi heyvan, evcil heyvan, sürünən yaratdı. (Yaradılış, 1:24-25)

Əsərlərinin üzərinə onu (insanı) hakim etdin, hər şeyi ayaqlarının altına sərdin; davarları, malları, vəhşi heyvanları, göydəki quşları, dənizdəki balıqları, dənizdə hərəkət edən bütün canlıları. Ey hakimimiz Rəbb, necə uca Adın var yer üzündə! (Zəbur, 8:6-9)

**Bitkilərin yaradılışı**

Allah "Yer üzü bitkilər, toxum verən otlar, növünə görə toxumu meyvəsində olan meyvə ağacları hasil etsin" deyə buyurdu və elə də oldu. Yer üzü bitkilər, növünə görə toxum verən otlar, toxumu meyvəsində olan meyvə ağacları hasil etdi... (Yaradılış, 1:11-12)

"Budur, yer üzündə toxum verən hər otu, toxumu meyvəsində olan hər meyvə ağacını sizə verirəm. Bunlar sizə yemək olacaq. Vəhşi heyvanlara, göydəki quşlara, sürünənlərə -nəfəs alan bütün heyvanlara- yemək olaraq yaşıl otları verirəm". Və elə də oldu. (Yaradılış, 1:29-30)

**İnsanın yaradılışı**

Rəbb Allah Adəmi torpaqdan yaratdı və... həyat nəfəsi (Allahın ruhundan üfləməsi) üflədi. Beləcə, Adəm yaşayan varlıq oldu. (Yaradılış, 2:7)

Allah "İnsanı ... yaradaq" dedi, "Dənizdəki balıqlara, göydəki quşlara, ev heyvanlarına, sürünənlərə, bütün yer üzünə hakim olsun"... (Allah) insanları kişi və qadın olaraq yaratdı. (Yaradılış, 1:26-27)

Onları kişi və qadın olaraq yaratdı və müqəddəs hesab etdi. Yaradıldıqları gün onlara "İnsan" adını verdi. (Yaradılış, 5:2)

Sizə əzələlər verəcək, üzərinizdə ət yaradıb dəri ilə örtəcəyəm. Onlara ruh verəcəyəm, canlanacaqsınız. O zaman Mənim Rəbb olduğumu anlayacaqsınız. (Yezekel, 37:6)

Mənə ət və dəri geydirdin, məni sümüklərlə, sinirlərlə toxudun. Mənə həyat verdin, sevgi göstərdin… (Əyyub, 10:11-12)

Torpağa dönənə qədər çörəyini alın təri töküb qazanacaqsan. Çünki torpaqsan, torpaqdan yaradıldın və yenə torpağa dönəcəksən. (Yaradılış, 3:19)

Ana rəhmindəki uşağın necə ruh və bədən aldığını bilmədiyin kimi, hər şeyi yaradan Allahın etdiklərini də bilə bilməzsən. (Vaiz, 11:5)

Səni yaradan, rəhmdə sənə şəkil verən, sənə kömək edən Rəbb belə deyir... (Yeşaya, 44:2)

**Darvinist "Təbiət ana" inancının azğınlığı**

Onlar ağaca "atamsan", daşa "bizi sən doğurdun" deyirlər. Çünki Mənə üzlərini deyil, arxalarını çevirdilər... (Vaiz, 1:27)

**Gözəl əxlaqın sağlamlığa müsbət təsiri**

Rəbbdən qorx, pislikdən uzaq dur. Beləcə, vücudun sağlamlıq və fərahlıq tapar. (Süleymanın məsəlləri, 3:7-8)

Sakit ürək vücudun həyat qaynağıdır, hirs isə insanı daxildən məhv edər. (Süleymanın məsəlləri, 14:30)

Rəbb qorxusu ömrü uzadar... (Süleymanın məsəlləri, 10:27)

Doğruluğun və sevginin ardınca gedən həyat, bolluq və hörmət tapar… (Süleymanın məsəlləri, 21:21)

Təvazökarlığın və Rəbb qorxusunun mükafatı zənginlik, şərəf və həyatdır. (Süleymanın məsəlləri, 22:4)

Xoş sözlər bal kimidir, cana şirin və şəfadır. (Süleymanın məsəlləri, 16:24)

Ruh fərahlığı sağlamlıq gətirər, əzgin ruh isə vücudu qocaldar. (Süleymanın məsəlləri, 17:22)

Gülən gözlər ürəyi sevindirər, yaxşı xəbər insana fərahlıq verər. (Süleymanın məsəlləri, 15:30)

## TÖVRATDA SƏNƏT VƏ MEMARLIQ

**Qızıl örtmələr**

... Süleyman iç divarların üzünə təmiz qızıl çəkdirdi. (2 Salnamələr, 3:4)

Ana tərəfin divarlarının üzünə də əvvəlcə, şam taxtası, sonra təmiz qızıl çəkdirdi; xurma ağacı və zəncir naxışları ilə bəzətdi. (2 Salnamələr, 3:5)

Girişlərin, qapı kandarlarının, divar və qapıların üzünə qızıl çəkdirdi... (2 Salnamələr, 3:7)

... Süleyman yuxarı otaqlara da qızıl çəkdirdi. (2 Salnamələr, 3:7)

Şam ağacından hər biri iki taylı, dözümlü iki qapı düzəltdirdi. Bunların da üstündə… xurma ağacları və çiçək naxışları oydurdu. Oymaların üzərinə düz şəkildə qızıl çəkdirdi. (1 Padşahlar, 6:34-35)

Süleyman fil dişindən böyük bir taxt düzəltdirib üzünə təmiz qızıl çəkdirdi. (1 Padşahlar, 10:18)

Çərçivə və girişlərin üzünə qızıl çəkdirdi, girişlərin keçəcəyi halqaları da qızıldan düzəltdirdi… Pərdə üçün akasiya ağacından dörd dirək düzəldib üzünə  qızıl çəkdi… Pərdəni asmaq üçün qarmaqları olan beş dirək düzəldib başlıqlarına, kənarlarına qızıl çəkdirdi. Dirəklərə beş tunc altlıq düzəltdi. (Misirdən çıxış, 36:34-38)

Akasiya ağacından bir sandıq düzəltsinlər… İçinə də, üzünə də təmiz qızıl çək... Akasiya ağacından şüvül düzəldib üzünə qızıl çək. (Misirdən çıxış, 25:10-13)

Akasiya ağacından bir masa düzəlt. Uzunluğu iki, eni bir, hündürlüyü bir yarım arşın (67)  olsun. Masanın üzünə təmiz qızıl çək. Ətrafına qızıl pərvaz düzəlt. (Misirdən çıxış, 25:23-24)

Şüvülləri akasiya ağacından düzəlt, üzünə qızıl çək. Masa onlarla daşınacaq. (Misirdən çıxış, 25:28)

Çərçivələrin və şüvüllərin üzünə qızıl çək, girişlərin keçəcəyi halqaları da qızıldan düzəlt. (Misirdən çıxış, 26:29)

Pərdəni asmaq üçün akasiya ağacından beş dirək düzəlt, üzünə qızıl çək. qarmaqları da qızıldan olsun. Dirəklər üçün tuncdan beş altlıq tök. (Misirdən çıxış, 26:37)

İçinə də, çölünə də təmiz qızıl çəkdi. Ətrafına qızıldan pərvaz düzəltdi. İkisi bir tərəfdə, ikisi də o biri tərəfdə olmaqla sandığın dörd küncündəki ayaqlara taxmaq üçün qızıldan halqa tökdü. Akasiya ağacından şüvüllər düzəldib üzünə qızıl çəkdi. (Misirdən çıxış, 37:2-4)

Masanın üzünə təmiz qızıl çəkdi. Ətrafına qızıldan pərvaz düzəltdi. (Misirdən çıxış, 37:11)

Şüvülləri akasiya ağacından düzəltdi, üzünə qızıl çəkdi. (Misirdən çıxış, 37:15)

**Taxta örtmələr**

Süleyman məscidi tikib tamamladı. Üstünü sidr ağacından dirəklərlə, qalın taxtalarla bağladı. (1 Padşahlar, 6:9)

Məscidin iç divarlarının səthini sidr ağacları ilə döşəyib üstlərini döşəmədən tavana qədər taxtalarla örtdü. Məscidin döşəməsini isə şam taxtaları ilə döşətdi. (1 Padşahlar, 6:15)

... Döşəmədən tavana qədər sidr taxtasından olan bir divarla o biri tərəflərdən ayrıldı. Bu tərəfin uzunluğu iyirmi arşin idi. (1 Padşahlar, 6:16)

Daşlar görünməsin deyə məscidin içi, üzəri boranı və çiçək naxışları ilə oyulmuş sidr taxtaları ilə örtüldü. (1 Padşahlar, 6:18)

Bu otağının içinin uzunluğu, genişliyi və hündürlüyü iyirmi arşin idi. Süleyman otağa təmiz qızıl çəkdirdi. Qurbangahı (Allaha qurban kəsilən yer) də sidr taxtaları ilə döşətdi. (1 Padşahlar, 6:20)

Həyətin divarlarını üç cərgə yonma daşla və bir cərgə sidr ağacı girişləri ilə düzəltdirdi. (1 Padşahlar, 6:36)

Taxt eyvanını (68), yəni hökmlərin veriləcəyi taxt eyvanını da düzəltdirdi. Bu eyvan da başdan ayağa sidr taxtaları ilə örtülmüşdü. (1 Padşahlar, 7:7)

**Oyma və yonma sənəti**

İç otağının girişinə zeytun ağacından iki çərçivəli (69) bir qapı düzəltdirdi. Çərçivəli qapının genişliyi məscidin genişliyinin beşdə biri qədər idi. İydə ağacından düzəldilən iki qapının üzərinə... xurma ağacları və çiçək naxışları oydurdu... (1 Padşahlar, 6:31-32)

Daşlar görünməsin deyə məscidin içi, üzərinə boranı və çiçək naxışları oyulmuş sidr taxtaları ilə örtüldü. (1 Padşahlar, 6:18)

Eyni şəkildə əsas bölmənin girişinə də zeytun ağacından qapı çərçivələri düzəltdirdi. Bu çərçivəli qapı məscidin genişliyinin dörddə biri qədər idi. Bundan başqa, şam ağacından hər biri iki tərəfli, möhkəm iki qapı düzəltdirdi. Bunların da üstünə... xurma ağacları və çiçək naxışları oydurdu. Oymaların üzərinə düz şəkildə qızıl çəkdirdi. (1 Padşahlar, 6:33-35)

Bir tərəfdə xurma ağacına baxan insan üzü, o biri tərəfdə xurma ağacına baxan gənc aslan üzü. Məscid... xurma ağacı oymaları ilə bəzənmişdi. Döşəmədən girişin üstündəki hissəyə qədər əsas bölmənin divarları... xurma ağacı oymaları ilə örtülmüşdü... Qoşa qapısı var idi. Hər qapının iki rəzəli qanadı var idi. Divarlara olduğu kimi, əsas bölmənin qapılarına da... xurma ağacı oymaları həkk edilmişdi. Çöldə, eyvanın önündə ağacdan bir asma tavan var idi. Eyvanın yan divarlarındakı qəfəsli pəncərələrin iki tərəfi xurma ağacı oymaları ilə örtülmüşdü. Məscidin yan otaqları ilə asma tavanları belə idi. (Yezekel, 41:19-26)

... Yaqut, topaz, ay daşı, sarı yaqut, oniks, yaşma, lazurit, firuzə və zümrüdlə, növbənöv qiymətli daşla bəzənmişdin. Yonma və oyma işlərinin hamısı qızıldan idi. Bunlar yaradıldığın gün hazırlanmışdı. (Yezekel, 28:13)

Daş kəsmə və yonmada, ağac oymasında, hər cür sənət sahəsində çalışsın. (Misirdən çıxış, 31:5)

Baş dini xidmətçinin efodu ilə (70) sinəbəndi üçün oniks və o biri sağanaq daşlar. (Misirdən çıxış, 25:7)

**Bəzəkdə bitki naxışlarından istifadə edilməsi**

Təmiz qızıldan bir şamdan düzəltdi. Ayağı və gövdəsi döymə qızıldan idi. Çanaq, tumurcuq və çiçək naxışları özündən idi. Üç qolu bir tərəfdə, üç qolu o biri tərəfdə olmaqla altı qollu idi. Hər qolda badam çiçəyini xatırladan üç çanaq, tumurcuq və çiçək naxışı var idi. Altı qol da eyni idi. Şamdanın gövdəsində badam çiçəyini xatırladan dörd çanaq, tumurcuq və çiçək naxışı var idi. (Misirdən çıxış, 37: 17-20)

Şamdan ayağı və çiçək naxışları döymə qızıldan Rəbbin Musaya göstərdiyi nümunəyə görə düzəldildi. (Səhrada saylar, 8:4)

Təmiz qızıldan bir şamdan düzəlt. Ayağı, gövdəsi döymə qızıldan olsun. Çanaq, tumurcuq və çiçək naxışları özündən olsun. Şamdan üç qolu bir tərəfdə, üç qolu o biri tərəfdə olmaqla altı qollu olsun. Hər qolda badam çiçəyini xatırladan üç çanaq, tumurcuq və çiçək naxışı olsun. Altı qol da eyni olsun. Şamdanın gövdəsində badam çiçəyini xatırladan dörd çanaq, tumurcuq və çiçək naxışı olsun. (Misirdən çıxış, 25:31-34)

Cübbənin kənarını göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan nar naxışları ilə bəzədilər. (Misirdən çıxış, 39:24)

Sütun başlıqlarının hər biri torla örtülmüşdü. Torun üzəri yeddi cərgə hörülmüş zəncirlə və iki cərgə nar naxışı ilə bəzənmişdi. Eyvandakı dörd arşın hündürlüyündəki sütun başlıqları da zanbaq şəklində idi. Hər iki sütun başlığında hörülmüş torun yanındakı çıxıntının yuxarı ətrafında cərgə halında iki yüz nar naxışı var idi. (1 Padşahlar, 7:17-20)

Sütunların yumru başlıqlarını bəzəyən iki ədəd hörülmüş torun üzərini iki sıra halında bəzəyən dörd yüz nar naxışı. (1 Padşahlar, 7:42)

Hovuz kənarlarının aşağısındakı iki sıra zanbaq naxışı ilə birlikdə tökülmüşdü. Hər arşında on dənə olan bu naxışlar hovuzun hər tərəfini əhatə edirdi. (1 Padşahlar, 7:24)

Daşlar görünməsin deyə məscidin içi üzəri boranı və çiçək naxışları ilə oyulmuş sidr taxtaları ilə örtüldü. (1 Padşahlar, 6:18)

Məscidin iç və çöl otaqlarının bütün divarlarını... xurma ağacları və çiçək naxışları ilə bəzətdi... İydə ağacından düzəldilən iki qapının üstünə... xurma ağacları və çiçək naxışları oydurdu... Üzünə qızıl çəkdirdi... Bunların da üstünə... xurma ağacları və çiçək naxışları oydurdu. Oymaların üzərinə düz şəkildə qızıl çəkdirdi. (1 Padşahlar, 6: 29-35)

Əsas bölmənin divarlarına da əvvəlcə şam taxtası, sonra təmiz qızıl çəkdirdi; xurma ağacı və zəncir naxışları ilə bəzətdi. (2 Salnamələr, 3:5)

Boyunbağıya bənzər zəncirlər düzəltdirib sütunların üzərinə qoydurdu. Yüz nar naxışı düzəltdirib zəncirlərə taxdırdı. (2 Salnamələr, 3:16)

İki sütun və iki yumru sütun başlığı, bu başlıqları bəzəyən iki hörülmüş tor, sütunların yumru başlıqlarını bəzəyən iki hörülmüş torun üzərini iki sıra halında bəzəyən dörd yüz nar naxışı. (2 Salnamələr, 4:12-13)

Hər sütun on səkkiz arşın hündürlüyündə idi, üzərlərində tunc bir başlıq var idi. Başlığın hündürlüyü üç arşın idi, ətrafı tuncdan torla və nar naxışları ilə bəzənmişdi. O biri sütun da tor naxışları ilə bəzənmişdi və o birinə bənzəyirdi. (Yeremya, 52:21-22)

Yanlarda doxsan altı nar naxışı var idi. Başlığı əhatə edən tor naxışının üzərində cəmi yüz nar naxışı var idi. (Yeremya, 52:23)

Hər iki tərəfdəki gözətçi otaqlarında, otaqların arasındakı divarlarda və eyvanın bütün divarlarında içəri baxan qəfəsli pəncərələr var idi. Bölmə divarları xurma ağacı naxışları ilə örtülmüşdü. (Yezekel, 40:16)

Pəncərələrin, eyvanın, xurma ağacı naxışlarının ölçüsü, şərqə baxan qapının ölçüsü ilə eyni idi... Yeddi pilləsi var idi, eyvan bunların önündə idi. İki qapı çərçivəsi də xurma ağacı naxışları ilə örtülmüşdü. (Yezekel, 40:22-26)

Cübbənin kənarlarını göy, bənövşəyi, qırmızı iplikdən nar naxışları ilə bəzə, aralarına qızıl zınqırovlar tax. (Misirdən çıxış, 28:33)

**Qızıldan bəzək əşyaları**

İç otağın önünə yerləşdirilən və qaydaya uyğun olaraq yandırılan təmiz qızıl şamdanlarla çiçək bəzəkləri, şamlar, maşalar. Bunlar təmiz qızıldan idi. Təmiz qızıldan fitil maşaları, çanaqlar, qablar, büxurdanlar və məscidin qızıl qapıları... (2 Salnamələr, 4:20-22)

Masa üçün təmiz qızıldan qablar, boşqablar, su dəstiləri, taslar düzəltdi. Təmiz qızıldan bir şamdan düzəltdi. Ayağı, gövdəsi döymə qızıldan idi. Çanaq, tumurcuq və çiçək naxışları özündən idi. (Misirdən çıxış, 37:16-17)

Süleymanın Rəbbin məscidi üçün düzəltdirdiyi qızıl əşyalar bunlar idi: Qurbangah... iç otağın girişinə beşi sağa, beşi sola yerləşdirilən təmiz qızıl şamdanlar, çiçək bəzəkləri, şamlar, maşalar, təmiz qızıl taslar, fitil maşaları, çanaqlar, qablar, büxurdanlar... Əsas bölmənin qapı rəzələri də qızıldan idi. (1 Padşahlar, 7:48-50)

Süleyman təsvirə uyğun şəkildə düzəltdirdiyi on qızıl şamdanı Məscidin içinə beşi sağda, beşi solda olmaqla yerləşdirdi. Düzəltdirdiyi on masanın beşini  Məscidin sağına, beşini soluna yerləşdirdi. Bundan başqa, yüz qızıl çanaq düzəltdirdi. (2 Salnamələr, 4:7-8)

Qızıl oyuqlar və təmiz qızıldan iki zəncir düzəlt. Zəncirləri hörmə qaytan kimi edib oyuqlara yerləşdir. (Misirdən çıxış, 28:13)

... Süleymanın qədəhləri ilə Livan meşəsi adındakı sarayın bütün əşyaları təmiz qızıldan düzəlmiş, gümüşdən heç istifadə edilməmişdi... (1 Padşahlar, 10:21)

Tumurcuqları, qolları bütöv olan şamdan təmiz döymə qızıldan olsun. Şamdan üçün yeddi şam düzəlt; şamlar qarşısını işıqlandıracaq şəkildə yerləşdirilsin. Fitil maşaları, tabaqları təmiz qızıldan olsun. Bütün dəstləri daxil şamdana bir talant (71) təmiz qızıl istifadə edilsin. (Misirdən çıxış, 25:36-39)

Akasiya ağacından bir sandıq düzəltsinlər. Boyu iki yarım, eni və hündürlüyü bir yarım arşın olsun. İçini də, çölünü də təmiz qızılla ört. Ətrafına qızıl pərvaz düzəlt. (Misirdən çıxış, 25:10-11)

Masa üçün təmiz qızıldan qablar, boşqablar, su dəstiləri, taslar düzəlt... (Misirdən çıxış, 25:29)

Təmiz qızıldan bir şamdan düzəlt. Ayağı, gövdəsi döymə qızıldan olsun... Tumurcuqları, qolları bütöv olan şamdan təmiz döymə qızıldan olsun... Fitil maşaları, tabaqları təmiz qızıldan olsun. Bütün dəstləri daxil şamdana bir talant təmiz qızıl istifadə edilsin. (Misirdən çıxış, 25:31-39)

Sinəbənd üçün təmiz qızıldan hörmə zəncirlər düzəlt. İki qızıl halqa düzəlt, sinəbəndin üst iki küncünə bir halqa qoy. İki hörmə qızıl zənciri sinəbəndin künclərindəki halqalara tax. (Misirdən çıxış, 28:22-24)

Təmiz qızıldan zınqırovlar düzəltdilər və xidmət üçün istifadə edilən cübbənin ətəyinin ucundakı narların arasına zınqırovlar qoydular. Eynilə Rəbbin Musaya buyurduğu kimi etdilər. (Misirdən çıxış, 39:25-26)

Təmiz qızıldan bir şamdan düzəltdi. Ayağı, gövdəsi döymə qızıldan idi. Çanaq, tumurcuq və çiçək naxışları özündən idi... Tumurcuqları, qolları bütöv olan şamdan təmiz döymə qızıldan idi. Şamdan üçün təmiz qızıldan yeddi şam, fitil maşaları, sinilər düzəltdi. Bütün dəstləri daxil şamdana bir talant təmiz qızıl istifadə edildi. (Misirdən çıxış, 37:17-24)

Dörd qızıl halqa töküb dörd ayağına tax. İkisi bir tərəfdə, ikisi də o biri tərəfdə olsun. (Misirdən çıxış, 25:12)

Əlli qızıl qarmaq düzəlt, pərdələrə salıb çadırı birləşdir. Beləcə, iqamətgah bütöv olacaq. (Misirdən çıxış, 26:6)

Onu gözəl hədiyyələrlə qarşıladın, başına təmiz qızıldan tac qoydun. (Zəbur, 21:3)

### Gümüşdən istifadə

Dörd gümüş ayaq üstündə duran akasiya ağacından üzərinə qızıl çəkilmiş dörd dirəyə as. Qarmaqları qızıldan olsun. (Misirdən çıxış, 26:32)

Pərdələr üçün iyirmi dirək düzəldilsin; dirəklərin ayağı tuncdan, qarmaqları və çənbərləri gümüşdən olsun. (Misirdən çıxış, 27:10)

Həyətin ətrafındakı bütün dirəklər gümüş çəmbərlərlə düzəldilsin. Qarmaqları gümüşdən, ayaqları tuncdan olsun. (Misirdən çıxış, 27:17)

Pərdələr üçün ayaqları tuncdan, qarmaqları və çənbərləri gümüşdən olan iyirmi dirək düzəltdi. (Misirdən çıxış, 38:10)

Şimal tərəfi üçün yüz arşın uzunluğunda pərdələr, iyirmi dirək, dirəklər üçün iyirmi tunc ayaq düzəldildi. Dirəklərin qarmaqları ilə çənbərləri gümüşdən idi. Həyətin qərb tərəfi üçün əlli arşın uzunluğunda pərdə, on dirək, on ayaq düzəldildi. Dirəklərin qarmaqları ilə çənbərləri gümüşdən idi. (Misirdən çıxış, 38:11-12)

### Asma tavanlar

Süleyman əlli arşın uzunluğunda, otuz arşın enində sütunlu bir eyvan düzəltdirdi. Eyvanın önündə sütunlara söykənən asma tavan var idi. (1 Padşahlar, 7:6)

... Çöldə, eyvanın önündə ağacdan bir asma tavan var idi. Eyvanın yan divarlarındakı qəfəsli pəncərələrin iki tərəfi xurma ağacı oymaları ilə örtülmüşdü. Məscidin yan otaqları və asma tavanları belə idi. (Yezekel, 41:25-26)

### Bəzəkli hovuzlar

... Tökmə tuncdan on arşın diametrində, beş arşın dərinliyində, çevrəsi otuz arşın olan yumru bir hovuz düzəltdi. Hovuz kənarlarının aşağısındakı iki sıra boranı naxışı ilə birlikdə tökülmüşdü. Hər arşında on dənə olan bu naxışlar hovuzu bütöv əhatə edirdi. Hovuz üçü şimala, üçü qərbə, üçü cənuba, üçü də şərqə baxan on iki öküz heykəli üzərinə oturdulmuşdu. Öküzlərin sağrıları iç tərəfə dönmüşdü. Hovuzun çəpəri dörd barmaq qalınlığında idi; kənarları kasa kənarını, su zanbağını xatırladırdı. İki min bat su götürürdü. (1 Padşahlar, 7:23-26)

Hovuz və hovuzu daşıyan on iki öküz heykəli, vedrələr, kürəklər, çanaqlar... Bütün bu əşyalar parlaq tuncdan idi. (1 Padşahlar, 7:44-45)

Tökmə tuncdan on arşın diametrində, beş arşın dərinliyində, çevrəsi otuz arşın olan yumru bir hovuz düzəltdirdi. Hovuzun çölü öküz qabartmaları ilə əhatə edilmişdi. Hər arşında on dənə olan bu qabartmalar iki sıra halında idi və gövdə ilə birlikdə tökülmüşdü. Hovuz üçü şimala, üçü qərbə, üçü cənuba, üçü də şərqə baxan on iki öküz heykəli üzərinə oturdulmuşdu. Öküzlərin sağrıları iç tərəfə dönmüşdü. Hovuzun çəpəri dörd barmaq qalınlığında idi; kənarları kasa kənarını, su zanbağını xatırladırdı. Üç min bat su götürürdü. (2 Salnamələr, 4:2-5)

Qol-qanad atan meşə ağaclarını sulamaq üçün hovuzlar düzəltdim. (Vaiz, 2:6)

**Qəfəsli pəncərələr**

Süleyman Məsciddə çölə tərəf daralan qəfəsli pəncərələr düzəltdirdi. (1 Padşahlar, 6:4)

Qəfəsli pəncərələr üç sıra halında bir-birinə baxan şəkildə düzəlmişdi. Qapılar və qapı çevrələri dörd bucaqlı idi. Pəncərələr isə üç sıra halında bir-birinə baxan şəkildə düzəlmişdi. (1 Padşahlar, 7:4-5)

Hər iki tərəfdəki gözətçi otaqlarında, otaqların arasındakı divarlarda və eyvanın bütün divarlarında içə baxan qəfəsli pəncərələr var idi. Bölmə divarları xurma ağacı naxışları ilə örtülmüşdü. (Yezekel, 40:16)

Qapı kandarları, qəfəsli pəncərələr, kandarın önündəki üç mərtəbəni əhatə edən koridorlar döşəmədən pəncərələrə qədər ağacla örtülmüşdü. Pəncərələr açılıb-bağlanan idi… Eyvanın yan divarlarındakı qəfəsli pəncərələrin iki tərəfi xurma ağacı oymaları ilə örtülmüşdü... (Yezekel, 41:16, 26)

**Dəbdəbəli taxtlar**

... Fil dişindən böyük taxt düzəltdirib üzərinə təmiz qızıl çəkdirdi. Taxtın altı pilləsi, bir də qızıl ayaqlı kətili var idi. Bunlar taxta bağlanmışdı. Oturacağın iki tərəfində qollar, hər qolun yanında bir aslan heykəli var idi. Altı pillənin iki tərəfində on iki aslan heykəli var idi. Heç bir padşahlıqda beləsi düzəldilməmişdi. (2 Salnamələr, 9:17-19)

... Fil dişindən böyük bir taxt düzəltdirib üzərinə təmiz qızıl çəkdirdi. Taxtın altı pilləsi, arxa tərəfində yumru bir başlığı var idi. Oturacağın iki tərəfində qollar, hər qolun yanında bir aslan heykəli var idi. Altı pillənin iki tərəfində on iki aslan heykəli var idi. Heç bir padşahlıqda beləsi düzəldilməmişdi. (1 Padşahlar, 10:19-20)

**Sütunlar**

Uzunluğu yüz, eni əlli, hündürlüyü otuz arşın olan Livan meşəsi adında bir saray əlavə tikdirdi. Saray sidr girişləri yerləşdirilmiş dörd sıra halında sidr sütunlarının üzərində tikilmişdi. Sütunların üstündəki qırx beş girişin üstü sidr taxtaları ilə örtülmüşdü. Bir sıra on beş girişdən ibarət idi... Süleyman əlli arşın uzunluğunda, otuz arşın enində sütunlu bir eyvan düzəltdirdi. Eyvanın önündə sütunlara söykənmiş asma tavan var idi. (1 Padşahlar, 7:2-6)

... Hər birinin hündürlüyü on səkkiz arşın və çevrəsi on iki arşın olan iki tunc sütun tökdü. Sütunların üzərinə qoymaq üçün beş arşın hündürlüyündə tökmə tuncdan iki sütun başlığı düzəltdi. Sütun başlıqlarının hər biri torla örtülmüşdü. torun üzəri yeddi sıra hörülmüş zəncirlə və iki sıra nar naxışı ilə bəzənmişdi. Eyvanda dörd arşın hündürlüyündəki sütun başlıqları da zanbaq şəklində idi. Hər iki sütun başlığında, hörülmüş torun yanındakı çıxıntının yuxarısında sıra halında iki yüz nar naxışı vardı.. (1 Padşahlar, 7:15-20)

Mərmər sütunların üzərindəki gümüş çənbərlərə bənövşəyi və ağ rəngli iplikdən düzəlmiş kəndirlərlə bağlanmış ağ və göy qumaşlar asılmışdı. Porfir, mərmər, sədəf və bahalı daşlarla döşənmiş həyətə qızıl və gümüş divanlar yerləşdirilmişdi. (Ester, 1:6)

İki sütun və iki yumru sütun başlığı, bu başlıqları bəzəyən iki hörülmüş tor, sütunların yumru başlıqlarını bəzəyən iki hörülmüş torun üzərindəki iki sıra halında dörd yüz nar naxışı... tuncdan idi. (1 Padşahlar, 7:41-42, 45)

Süleyman otuz beş arşın hündürlüyündə iki sütun düzəltdirib məscidin önünə basdırtdı. Sütun başlıqları beş arşın hündürlüyündə idi. Boyunbağıya bənzər zəncirlər düzəltdirib sütunların üzərinə qoydurdu. Yüz nar naxışı düzəltdirib zəncirlərə taxdırdı. (2 Salnamələr, 3:15-16)

... Tunc sütunları, ayaqlıqları, tunc hovuzu parçalayıb tuncları Babilə apardılar... Süleymanın düzəltdirdiyi iki sütun, hovuz və altındakı on iki tunc öküz heykəlinə və ayaqlıqlara çoxlu tunc xərclənmişdi. Hər sütun on səkkiz arşın hündürlüyündə idi, ətrafı on iki arşın idi. Hər birinin qalınlığı dörd barmaq idi, içi boş idi. Üzərində tunc bir başlıq var idi. Başlığın hündürlüyü üç arşın idi, ətrafı tuncdan tor və nar naxışları ilə bəzənmişdi. O biri sütun da tor naxışları ilə bəzənmişdi və o birinə bənzəyirdi.

Yanlarda doxsan altı nar naxışı var idi. Başlığı əhatə edən tor naxışının üzərində cəmi yüz nar naxışı var idi. (Yeremya, 52:17-23)

Eyvanın uzunluğu iyirmi arşın, eni on iki arşın idi. Oraya pillələr qalxırdı. Qapı çərçivələrinin hər birinin yanında sütunlar var idi. (Yezekel, 40:49)

**Həyətlər**

İqamətgaha bir həyət tik. Həyətin cənub tərəfi üçün yüz arşın uzunluğunda, nəfis toxunmuş incə kətan pərdələr düzəldəcəksən. (Misirdən çıxış, 27:9)

Böyük həyət üç sıra yonma daş və bir sıra sidr girişlərindən ibarət bir divarla əhatə edilmişdi... (1 Padşahlar, 7:12)

Dini xidmətçilərin həyətini, böyük həyətlə qapılarını düzəltdirdi. Qapıları tuncla örtdürdü. (2. Tarixlər, 4:9)

Həyətin girişində göy, bənövşəyi, qırmızı iplikə, nəfis toxunmuş incə kətandan iyirmi arşın uzunluğunda naxışlı bir pərdə olsun. Dörd dirəyi və dörd ayağı olsun. Həyətin ətrafındakı bütün dirəklərə gümüş çənbərlər düzəldilsin. Qarmaqları gümüş, ayaqları tunc olsun. Həyətin uzunluğu yüz, eni əlli, ətrafındakı pərdələrin hündürlüyü beş arşın olsun. Pərdələri nəfis toxunmuş incə kətandan, ayaqları tuncdan olsun. İqamətgahda hər cür xidmət üçün istifadə ediləcək bütün alətlər, iqamətgahın və həyətin bütün dirəkləri də tuncdan olsun. (Misirdən çıxış, 27:16-19)

**Pərdələr**

Çadırın giriş hissəsinə göy, bənövşəyi, qırmızı ipliklə nəfis toxunmuş incə kətandan naxışlı bir pərdə düzəlt. Pərdəni asmaq üçün akasiya ağacından beş dirək düzəlt, üzünə qızıl çək. Qarmaqları da qızıl olsun. Dirəklər üçün tuncdan beş daban tök. (Misirdən çıxış, 26:36-37)

... Pərdələr göy, bənövşəyi, qırmızı ipliklə nəfis toxunmuş incə kətandan olsun... üzəri nəfis bəzənsin. Hər pərdənin boyu iyirmi səkkiz, eni dörd arşın olsun. Bütün pərdələr eyni ölçüdə olsun. Pərdələr beş-beş bir-birinə əlavə olunub iki dəst pərdə düzəldilsin. Birinci dəstin kənarına göy ilməklər aç. O biri dəstin kənarına da eyni şeyi et. (Misirdən çıxış, 26:1-4)

Göy, bənövşəyi, qırmızı ipliklə nəfis toxunmuş incə kətandan bir pərdə düzəlt... üzərini nəfis bəzə. Dörd gümüş ayaq üstündə dayanan, akasiya ağacından qızıl çəkilmiş dörd dirəyin üzərinə as. Qarmaqları qızıldan olsun. (Misirdən çıxış, 26:31-32)

İqamətgaha bir həyət sal. Həyətin cənub tərəfinə yüz arşın uzunluğunda nəfis toxunmuş incə kətan pərdələr düzəlt. Pərdələrə iyirmi dirək düzəldilsin; dirəklərin ayağı tuncdan, qarmaqları və çevrələri gümüşdən olsun. Şimal tərəfinə yüz arşın uzunluğunda pərdələr, iyirmi dirək, dirəklər üçün iyirmi tunc ayaq düzəldilsin. Dirəklərin qarmaqları və çevrələri gümüş olsun... Həyətin girişində göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan iyirmi arşın uzunluğunda naxışlı bir pərdə olsun. Dörd dirəyi və dörd ayağı olsun... Həyətin uzunluğu yüz, eni əlli, ətrafındakı pərdələrin hündürlüyü beş arşın olsun. Pərdələri nəfis toxunmuş incə kətan, ayaqları tunc olsun. (Misirdən çıxış, 27:9-18)

Çalışanların arasındakı bacarıqlı adamlar iqamətgahı on pərdədən düzəltdilər... Onları göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan düzəltdi, üzərini... nəfis bəzədi. Hər pərdənin hündürlüyü iyirmi səkkiz, eni dörd arşın idi. Bütün pərdələr eyni ölçüdə idi. Pərdələri beş-beş əlavə edib iki dəst pərdə düzəltdi. Birinci dəstin kənarına göy ilməklər açdı. O biri

dəstin kənarına da eyni şeyi etdi... Əlli qızıl qarmaq düzəltdi, pərdələri qarmağa keçirib çadırı birləşdirdi. Beləcə, iqamətgah bütöv hala gəldi. (Misirdən çıxış, 36:8-13)

Göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan bir pərdə düzəltdi, üzərini... nəfis bəzədi. Pərdə üçün akasiya ağacından dörd dirək düzəldib üzərinə qızıl çəkdirdi. Qarmaqları da qızıldan idi. Dirəklər üçün dörd gümüş ayaq tökdü. Çadırın giriş hissəsinə göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan naxışlı bir pərdə düzəltdi. Pərdəni asmaq üçün qarmaqlı beş dirək düzəldib başlıqlarına və çevrələrinə qızıl çəkdirdi. Dirəklərə beş tunc ayaq düzəltdi. (Misirdən çıxış, 36:35-38)

İqamətgaha bir həyət saldı. Həyətin cənub tərəfinə yüz arşın uzunluğunda nəfis toxunmuş incə kətan pərdələr düzəltdi. Pərdələr üçün ayaqları tuncdan, qarmaqları və çevrələri gümüşdən iyirmi dirək düzəltdi... Həyətin ətrafındakı bütün pərdələr nəfis toxunmuş incə kətan idi... Həyətin girişindəki pərdə göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş naxışlı incə kətandan düzəldilmişdi. Uzunluğu iyirmi, hündürlüyü həyətin pərdələri kimi beş arşın idi. (Misirdən çıxış, 38:9-18)

**Tikilmiş paltarlar**

Müdriklik verdiyim bacarıqlı adamlara söylə, Haruna paltar tiksinlər.... Tikəcəkləri paltarlar bunlardır: Sinəbənd, efod (72), cübbə, naxışlı mintan, sarıq, kəmər... Qızıl, göy, bənövşəyi, qırmızı iplikdən və incə kətandan istifadə etsinlər. Efodu qızıl ilə, göy, bənövşəyi, qırmızı ipliklə və nəfis toxunmuş incə kətandan nəfis tiksinlər. (Misirdən çıxış, 28:3-6)

Harunla oğulları üçün incə kətandan nəfis toxunmuş mintanlar (73), sarıqlar, bəzəkli başlıqlar, incə kətan papaqlar, göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan naxışlı kəmər düzəltdilər; eynilə Rəbbin Musaya buyurduğu kimi. (Misirdən çıxış, 39:27)

Nəfis bir hökm sinəbəndi hazırla. Onu da efod kimi qızıl ilə və göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan tik. Dörd künc, eni və uzunu bir qarış olsun; iki dəfə qatlansın. Üzərində dörd sıra daş oyuğu düzəlt. Birinci sırada yaqut, topaz, zümrüd; ikinci sırada firuzə, lacivərd daşı, ay daşı (ağ əqiq); üçüncü sırada yaqut, əqiq, ametist; dördüncü sırada sarı yaqut, oniks (qara əqiq) və yaşma olsun. Daşlar qızıl oyuqlara qoyulsun. (Misirdən çıxış, 28:15-20)

Sinəbənd üçün təmiz qızıldan hörmə zəncirlər düzəlt. İki qızıl halqa düzəlt, sinəbəndin üst iki küncünə bir halqa qoy. İki hörmə qızıl zənciri sinəbəndin künclərindəki halqalara tax. (Misirdən çıxış, 28:22-24)

Efodun altından geyilən cübbəni tam göy iplikdən tik... Cübbənin bütün kənarını göy, bənövşəyi, qırmızı iplikdən nar naxışları ilə bəzə, aralarına qızıl zınqırovlar tax. Ətəyin ucu zınqırov və narlarla tamamilə örtülsün. (Misirdən çıxış, 28:31-34)

İncə kətandan tikilən bir mintan toxu, incə kətandan bir sarıq, bir də naxışlı kəmər düzəlt. (Misirdən çıxış, 28:39)

... Ayrıca, Rəbbin Musaya buyurduğu kimi Haruna müqəddəs paltarlar tikildi. Efodu qızıl ilə göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan tikdilər. (Misirdən çıxış, 39:1-2)

Qızılı incə qatlar halında döyüb göy, bənövşəyi, qırmızı iplik və incə kətanın arasına işləmək üçün tel halında kəsdilər. Efodun iki küncünə çiyinliklər düzəldib birləşdirdilər. Efodun üzərindəki nəfis toxunmuş şərid efodun bir parçası kimi qızıl ilə göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan idi; eynilə Rəbbin Musaya buyurduğu kimi idi. (Misirdən çıxış, 39:3-5)

**Qiymətli daşlarla bəzəmə**

Allahımın məscidinə material vermək üçün var gücümlə çalışdım. Qızıl əşyalar üçün qızıl, gümüş üçün gümüş, tunc üçün tunc, dəmir üçün dəmir, taxta üçün ağac verdim. Bundan başqa, oniks, sağanaq daşlar, bəzək daşları, müxtəlif rənglərdə qiymətli daşlar və çoxlu mərmər verdim. (1 Salnamələr, 29:2)

Məscidi qiymətli daşlarla bəzətdi... (2 Salnamələr, 3:6)

... Porfir, mərmər, sədəf və bahalı daşlarla döşənmiş həyətə qızıl və gümüşdən sidrlər yerləşdirilmişdi. (Ester, 1:6)

Efod kimi qızıl ilə göy, bənövşəyi, qırmızı ipliklə, nəfis toxunmuş incə kətandan nəfis bir sinəbənd tikdilər. Dörd künc, eni və uzunu bir qarış idi, iki yerə qatlanmışdı. Üzərində dörd sıra daş oyuğu həkk etdilər. Birinci sırada yaqut, topaz, zümrüd; ikinci sırada firuzə, lacivərd daşı, ay daşı; üçüncü sırada yaqut, əqiq, ametist; dördüncü sırada sarı yaqut, oniks, yaşma var idi. Daşlar qızıl oyuqlara qoyulmuşdu. On iki daş var idi... (Misirdən çıxış, 39:8-14)

... Yaqut, topaz, ay daşı, sarı yaqut, oniks, yaşma, lacivərd daşı, firuzə və zümrüdlə, növbənöv qiymətli daşla bəzənmişdi. Yonma və oyma işlərin hamısı qızıldan idi. Bunlar yaradıldığın gün hazırlanmışdılar. (Yezekel, 28:13)

... Sinəbəndi üçün oniks və o biri sağanaq daşlar. (Misirdən çıxış, 25:7)

Üzərində dörd sıra daş oyuğu düzəlt. Birinci sırada yaqut, topaz, zümrüd; ikinci sırada firuzə, lacivərd daşı, ay daşı; üçüncü sırada yaqut, əqiq, ametist; dördüncü sırada sarı yaqut, oniks və yaşma olsun. Daşlar qızıl oyuqlara qoyulsun. On iki daş olsun… (Misirdən çıxış, 28:17-21)

**Allahın verdiyi bir nemət olaraq**

**Estetika və sənət anlayışı**

Rəbb Musaya belə dedi: "... Bacarıq, anlayış, bilik və hər cür ustalıq vermək üçün onu ruhumla doldurdum. Belə ki, qızıl, gümüş və tuncdan istifadə edib nəfis şeylər hazırlasın; daş kəsmə və yonmada, ağac oymada, hər cür sənət sahəsində çalışsın... Sənə buyurduğum işlərin hamısını edə bilsinlər deyə, o biri bacarıqlı adamlara üstün qabiliyyət verdim. (Misirdən çıxış, 31:1-6)

Musa israillilərə "Baxın!" dedi, "Rəbb... bacarıq, anlayış, bilik və hər cür ustalıq vermək üçün onu Öz ruhu ilə doldurdu. Belə ki, qızıl, gümüş və tuncdan istifadə nəfis şeylər hazırlasın; daş kəsmə və yonmada, ağac oymada, hər cür sənət sahəsində çalışsın. Rəbb... öyrətmək qabiliyyəti də verdi. Onlara üstün bacarıq verdi. Belə ki, nəfislik istəyən hər cür işdə, oymada, göy, bənövşəyi, qırmızı iplik və incə kətan düzəltməkdə, toxuma və naxış işlərində, hər sənət sahəsində hünərli olsunlar. (Misirdən çıxış, 35:30-35)

***QEYDLƏR:***

1. "İman edən, saleh möminlər" mənasındadır.
2. Allahın camalı; Allahın nuru
3. Allahın Ədl (adil olan, ədaləti əmr edən) adının təcəlli etməsi mənasında istifadə edilmişdir.
4. Allahın Sani (Sənətkar, sonsuz gözəllikləri sənətinin içində yaradan) adı təşbeh üsulu ilə izah edilir.
5. Allahın Ədl (adil olan, ədaləti əmr edən) adının təcəlli etməsi mənasında istifadə edilmişdir.
6. Allah uca adlarından biri də Məlcadır (özünə sığınılan). Allahın Məlca adının təcəlli etməsi mənasındadır.
7. Allahın "Səmi (eşidən)" adı təşbehlə bildirilmişdir.
8. Saleh möminlərin Cənnət neməti olaraq Allahın Camalını görmələri nəzərdə tutulur.
9. Allahın inayəti nəzərdə tutulur.
10. Allahın inayəti, möminlərə sevinc, hüzur və güvən verən olduğu təşbehlə izah edilir.
11. Allahın qoruyan olması təşbehlə izah edilir.
12. Allahın "sənətkar, sonsuz gözəllikləri sənətinin içində yaradan" mənasını verən "Sani" adının təşbehlə izahıdır.

13. Allah qullarına yol göstərən, onları hidayətə çatdırandır.
14. Allaha möminlərin "pisliklərinin örtülməsi, səhvlərinin bağışlanması üçün" dua edilməsi mənasındadır.
15. Allah Məlcadır (özünə sığınılan). Təşbehlə Allahın bu sifəti izah edilir.
16. Saleh möminlərin Cənnət neməti olaraq Allahın uca Camalını görmələri nəzərdə tutulur.
17. Allaha ibadət edilən məkanı təsvir etmək üçün istifadə edilən bir təşbehdir.
18. Allahın zatı; Allahın rizası.
19. Allahın Mömin (əminlik verən, əmin edən) adının təcəlli etməsi təşbeh üsulu ilə izah edilir.
20. Təşbeh üsulu ilə "Allahın himayəsi, qoruması" nəzərdə tutulur.
21. Təşbeh üsulu ilə Allahın inayəti, iman edənlər üzərindəki qoruması izah edilir.
22. Təşbeh üsulu ilə Allahın inayəti, iman edənlər üzərindəki qoruması izah edilir.
23. Təşbeh üsulu ilə Allahın qorumasına, rəhmətinə sığınma nəzərdə tutulur.
24. Allahın Hadi (hidayət lütf edən, doğru yola çatdıran) adı təşbeh üsulu ilə izah edilir.
25. Allah Məlcadır (özünə sığınılan). Təşbehlə Allahın bu adı izah edilir.
26. Allahın rizasını, rəhmətini və Cənnətini qazanmaq təşbehlə izah edilir.
27. Allahın Məlca (özünə sığınılan) adı təşbehlə izah edilir.
28. Allahın inayəti və aləmlərin nuru olması təşbeh üsulu ilə izah edilir.
29. Təşbeh üsulu ilə Allahın himayəsi, qoruması nəzərdə tutulur.
30. Allahın Məlca (özünə sığınılan) adının təcəlli etməsi mənasındadır.
31. Allaha ibadət edilən məkanı təsvir etmək üçün istifadə edilən bir təşbehdir.
32. Təşbeh üsulu ilə Allahın himayəsi, qoruması nəzərdə tutulur.
33. Təşbeh üsulu ilə Allahın himayəsi, qoruması nəzərdə tutulur.
34. Allahın hər şeyi bilən, hər şeydən xəbərdar olan olduğu təşbehlə izah edilir.
35. Allahın "Nur" adı nəzərdə tutulur.
36. Allahın köməyi, xilası təşbeh üsulu ilə izah edilmişdir.
37. Allahın Ədl adı nəzərdə tutulur. Allah ədalət edənlərin ən xeyirlisidir.
38. Allah qəzəbdən münəzzəh olandır. Nəzərdə tutulan Allahın Müəzzib (əzab edən) adının təcəlli etməsidir.
39. Allahın üstün güc və qüdrəti təşbehlə izah edilir.
40. Allahın nuru təşbehlə izah edilir.
41. Allahın qoruyan, əsirgəyən olduğu ifadə edilir.
42. Allahın üstün güc və qüdrət sahibi olduğu təşbehlə izah edilir.
43. Allahın rəhmətinə sığınmaq nəzərdə tutulur.
44. Allahın qoruyan, əsirgəyən olduğu təşbehlə izah edilir.
45. Allahın "sənətkar, sonsuz gözəllikləri sənətinin içində yaradan" mənasındakı "Sani" adının təcəlliləri mənasındadır.
46. Allahın "sənətkar, sonsuz gözəllikləri sənətinin içində yaradan" mənasındakı "Sani" adının təcəlliləri mənasındadır.
47. Allahın inayəti təşbeh üsulu ilə izah edilir.
48. Allahın "qoruyan" mənasındakı "Asim" adının təcəllisi nəzərdə tutulur.
49. Allahın "Basar" adının təcəllisi olaraq hər an hər şeyi ən yaxşı görən mənasında istifadə edilir.
50. Rəhmətinin nümunələri, qulları üçün yaratdığı nemətlər mənasında istifadə edilmişdir.
51. Allahın "özünə sığınılan" mənasındakı "Məlca" adının təcəlli etməsi mənasındadır.
52. Rəbbimizin yaratdığı hər şey nəzərdə tutulur.
53. Allahın "kərimi bol olan, comərd olan" mənasındakı "Kərim" adınının təcəlli etməsi mənasında istifadə edilir.
54. Allahın rizasını qazananlara sonsuz Cənnət həyatının olduğu müjdə verilir.
55. Allahın rizasını qazananlara sonsuz Cənnət həyatının olduğu müjdə verilir.
56. Buradakı həyat və ölüm Cənnət və Cəhənnəmin təşbehli izahıdır.
57. Buradakı "ölüm" sonsuz Cəhənnəm əzabının təşbehlə izahıdır.

58. Allahın "Basar" adının təcəllisi olaraq hər an hər şeyi ən yaxşı görən mənasında istifadə edilir.
59. Rəbbimizin ədaləti, hər şeyin hesabını ən yaxşı bilən olması təşbehlə izah edilir.
60. Buradakı "ölüm" sonsuz Cəhənnəm əzabının təşbehlə izahıdır.
61. Buradakı "ölüm" sonsuz Cəhənnəm əzabının təşbehlə izahıdır.
62. Saleh möminlərin həm dünyada, həm də axirətdə gözəllik içində yaşaması nəzərdə tutulur.
63. Buradakı "ölüm və fəlakət diyarı" sonsuz Cəhənnəm əzabının təşbehlə izahıdır.
64. Allahın əmr və tövsiyələri nəzərdə tutulur.
65. Allahın əmr və tövsiyələri.
66. Saleh möminlərin Cənnət neməti olaraq Allahın uca Camalını görmələri nəzərdə tutulur.
67. Təxminən 68 santimetrə bərabər olan uzunluq ölcüsü.
68. Bir tərəfi çölə açıq olan otaq.
69. Qapı və pəncərənin yerləşdiyi  çərçivə
70. Antarinin üzərindən geyilən bir növ paltar.
71. Talant təxminən 30 kq-a bərabər çəki vahididir.
72. Antarinin üzərindən geyilən bir növ paltar.
73. Köynəyin üzərindən geyilən qollu jilet.

## *ƏLAVƏ HİSSƏ:*

## *TƏKAMÜLÜN YANLIŞLIĞI*

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini rədd etmək məqsədi ilə ortaya atılan, lakin müvəffəqiyyətli ola bilməyən və elmdən kənar qalan mənasız fikirdən başqa bir şey deyil. Canlının cansız maddələrdən təsadüfən meydana gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çoxlu möcüzəvi bir nizam olduğunun elm tərəfindən isbat edilməsi ilə dəlilsiz hala gəlmişdir. Beləcə, Allahın bütün kainatı və canlıları yaratdığı həqiqəti elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsinə dəstək olmaq üçün dünya səviyyəsində aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, tərəfli şərh olunmasına, elm adı altında deyilən yalanlara və  edilən saxtakarlıqlara dayanır.

Ancaq bu təbliğat həqiqəti  gizləyə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixindəki ən böyük yanılma olduğu son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə, 1980-ci illərdən sonra aparılan araşdırmalar darvinist

iddiaların tamamilə səhv olduğunu ortaya qoymuş və bu gerçək bir çox alim tərəfindən də dilə gətirilmişdir. Xüsusilə, ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrdən olan çox sayda tədqiqatçı alim darvinizmin etibarsızlığını görür, canlıların mənşəyini artıq "yaradılış həqiqəti ilə" açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini digər bir çox əsərlərimizdə bütün elmi detalları ilə göstərdik və göstərməyə davam edirik. Ancaq mövzunu daşıdığı böyük əhəmiyyət səbəbi ilə burada da yekunlaşdırmaqda fayda vardır.

**Darvini yıxan çətinliklər**

Təkamül nəzəriyyəsi tarixinin qədim yunanlara qədər gedib çıxan bir nəzəriyə olmasına baxmayaraq, əhatəli olaraq 19-cu əsrdə ortaya atıldı. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən əhəmiyyətli yenilik Çarlz Darvinin 1859-cu ildə nəşr olunan "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı fərqli canlı növlərinin Allahın ayrı-ayrı yaratdığı həqiqətinə qarşı çıxırdı. Darvinə görə, bütün növlər ortaq bir atadan gəlirdilər və zamanla kiçik dəyişmələrlə fərqliləşiblər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya dayanmırdı; özünün də qəbul etdiyi kimi yalnız bir "məntiq yürütmək" idi. Hətta Darvinin kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı uzun hissədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox əhəmiyyətli suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin önündəki çətinliklərin inkişaf edən elm tərəfindən aşılacağını, yeni elmi tapıntıların nəzəriyyəsini gücləndirəcəyini ümid edirdi. Bunu kitabında tez-tez ifadə etmişdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin təməl iddialarını bir-bir dayaqsız buraxmışdır.

Darvinizmin elm qarşısındakı uduzması üç təməl başlıqda araşdırıla bilər:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.
2) Nəzəriyyənin qarşıya qoyduğu "təkamül mexanizmləri"nin, həqiqətdə təkmilləşdirici bir təsirə sahib olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.
3) Qalıq qeydləri təkamül nəzəriyyəsinin nəzərdə tutduqlarının tam əksinə bir cədvəl ortaya qoyur.

Bu hissədə bu üç təməl başlığını ana xətləri ilə araşdıracağıq.

## Keçilə bilinməyən ilk pillə:

**Həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada ortaya çıxan tək bir canlı hüceyrədən gəldiklərini iddia edir. Tək bir hüceyrənin necə oldu ki, milyonlarla kompleks canlı növünü meydana gətirdiyi və əgər həqiqətən bu cür bir təkamül reallaşmışdırsa, niyə bunun izlərinin qalıq qeydlərində olmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül müddətinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Haqqında danışılan o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün, o "ilk hüceyrə"nin heç bir məqsəd, plan və tənzimləmə olmadan, təbiət qanunları içində təsadüfi olaraq meydana gəldiyini iddia edir. Yəni nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, bilinən ən fundamental biologiya qanunlarına zidd bir iddiadır.

**"Həyat həyatdan gəlir"**

Darvin kitabında həyatın mənşəyi mövzusundan heç danışmamışdı. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə bir quruluşa sahib olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri insanların inandığı "öz-özünə törəyən nəsil" adlı nəzəriyyəyə görə, cansız maddələrin təsadüfən bir yerə gəlib canlı bir varlıq meydana gətirə biləcəklərinə inanırdılar. Bu dövrdə böcəklərin yemək artıqlarından, siçanların da buğdadan meydana gəldiyi məşhur bir düşüncə idi. Bunu isbat etmək üçün maraqlı təcrübələr aparılmışdı. Çirkli bir əskinin üzərinə bir az buğda qoyulmuş və bir az gözlədikdə bu qarışıqdan siçanların meydana gələcəyi zənn edilmişdi.

Ətlərin qurdlanması da həyatın cansız maddələrdən törəyə bildiyinə bir dəlil sayılırdı. Halbuki daha sonra aydın olacaqdı ki, ətlərin üzərindəki qurdlar öz-özlərinə meydana gəlmirlər, ağcaqanadların gətirdikləri gözlə görülməyən sürfələrdən çıxırdılar.

Darvinin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən meydana gələ bildikləri inancı elm dünyasında məşhur bir qəbul görürdü.

Halbuki Darvinin kitabının nəşr olunmasından beş il sonra məşhur fransız bioloq Luis Pastor təkamülə əsas təşkil edən bu inancı qəti olaraq təkzib etdi. Pastor apardığı uzun təcrübələr nəticəsində aldığı nəticəni belə yekunlaşdırmışdı:

Cansız maddələrin həyat meydana gətirə biləcəyi iddiası artıq qəti olaraq tarixə basdırılmışdır (1).

Təkamül nəzəriyyəsinin müdafiəçiləri Pastorun tapıntılarına qarşı uzun müddət müqavimət göstərdilər. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin kompleks quruluşunu ortaya çıxardıqca həyatın öz-özünə meydana gələ biləcəyi iddiasının etibarsızlığı daha da açıq hala gəldi.

**20-ci əsrdəki nəticəsiz səylər**

20-ci əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq bu işlər müvəffəqiyyətsizliklə nəticələnəcək və Oparin bu etirafı etmək məcburiyyətində qalacaqdı:

Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamını əhatə edən ən qaranlıq nöqtəni meydana gətirir (2).

Oparinin yolunu izləyən təkamülçülər həyatın mənşəyi mövzusunu həll edəcək təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stanley Miller tərəfindən 1953-cü ildə təşkil edildi. Miller ibtidai yer atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə qurğusunda birləşdirib və bu qarışığa enerji əlavə edib proteinlərin quruluşunda istifadə edilən bir neçə orqanik molekul (aminoasid) sintez etdi.

O illərdə təkamül adına əhəmiyyətli bir mərhələ kimi tanıdılan bu təcrübənin etibarlı olmadığı və təcrübədə istifadə edilən atmosferin gerçək dünya şərtlərindən çox fərqli olduğu növbəti illərdə ortaya çıxacaqdı (3).

Uzun sürən bir səssizlikdən sonra Millerin özü də istifadə etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi (4).

Həyatın mənşəyi problemini açıqlamaq üçün 20-ci əsr boyunca aparılan bütün təkamülçü səylər davamlı müvəffəqiyyətsizliklə nəticələndi. "San Diego Scripps" institutundan məşhur geokimyaçı Jefrey Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə nəşr olunan bir məqalədə bu həqiqəti belə qəbul edir:

Bu gün 20-ci əsri geridə qoyarkən hələ 20-ci əsrə girdiyimizdə sahib olduğumuz ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: Həyat yer üzündə necə başladı (5).

**Həyatın kompleks quruluşu**

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda belə böyük çətinliyə düşməsinin başlıca səbəbi ən sadə zənn edilən canlı quruluşların belə inanılmaz dərəcədə kompleks quruluşlara sahib olmasıdır. Canlı hüceyrəsi insanların düzəltdiyi bütün texnoloji məhsullardan daha kompleksdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriyalarında belə cansız maddələr bir yerə gətirilərək canlı bir hüceyrə çıxarıla bilmir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər əsla təsadüflərlə açıqlana bilməyəcək qədər çoxdur. Hüceyrənin ən fundamental quruluş maddəsi olan proteinlərin təsadüfi olaraq sintez edilmə ehtimalı; 500 aminoasidlik orta hesabla bir protein üçün 10950/1-dir. Ancaq riyaziyyatda 1050/1-dən kiçik ehtimallar praktik olaraq "qeyri-mümkün" sayılır. Hüceyrənin nüvəsində yerləşən və genetik məlumatı saxlayan DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi məlumatın əgər kağıza köçürülsə, 500 səhifədən ibarət olan 900 cildlik bir kitabxana meydana gətirəcəyi hesablanmışdır.

Bu nöqtədə çox maraqlı bir dilemma əlavə var: DNT yalnız bəzi xüsusiləşmiş proteinlərin (fermentlərin) köməyi ilə cütləşə bilər. Amma bu fermentlərin sintezi də ancaq DNT-dəki məlumatlar yönündə reallaşır. Bir-birindən asılı olduqlarından cütləşmənin meydana gəlməsi üçün ikisi də eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə meydana gəldiyi ssenarisini çarəsiz duruma salır. “San Diego California” universitetindən məşhur təkamülçü professor Lesley Orqel, “Scientific American” jurnalının oktyabr 1994 tarixli sayında bu həqiqəti belə etiraf edir:

Son dərəcə kompleks quruluşlara sahib olan proteinlərin və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfi olaraq meydana gəlmələri həddindən artıq ehtimaldan kənardır. Amma bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Dolayısı ilə insan həyatın kimyəvi yollarla ortaya çıxmasının əsla mümkün olmadığı nəticəsinə gəlmək məcburiyyətində qalır (6).

Şübhəsiz, əgər həyatın təbii faktorlarla ortaya çıxması qeyri-mümkündürsə, bu vəziyyətdə həyatın fövqəltəbii bir şəkildə "yaradıldığını" qəbul etmək lazımdır. Bu həqiqət əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə keçərsiz edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvin nəzəriyyəsini keçərsiz duruma salan ikinci böyük nöqtə nəzəriyyənin "təkamül mexanizmləri" olaraq qarşıya qoyduğu iki anlayışın həqiqətdə heç bir təkmillləşdirici gücə sahib olmadığının aydınlaşmasıdır. Darvin ortaya atdığı təkamül iddiasını tamamilə "təbii seleksiya" mexanizminə bağlamışdı. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə aydın olurdu: Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...

Təbii seleksiya təbii seçmə deməkdir. Təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə dayanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhdid edilən bir maral sürüsündə daha sürətli qaçan marallar həyatda qalır. Beləcə, maral sürüsü sürətli və güclülərdən meydana gəlir. Amma, əlbəttə, bu mexanizm maralları təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Bu səbəbdən təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə sahib deyil. Darvin də bu həqiqətin fərqinə varırdı və “Növlərin mənşəyi” adlı kitabında "Faydalı dəyişikliklər meydana gəlmədiyi müddətcə təbii seleksiya heç bir şey edə bilməz" demək məcburiyyətində qalmışdı (7).

**Lamarkın təsiri**

Bəs, bu "faydalı dəyişikliklər" necə meydana gələ bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı içində bu sualı Lamarka əsaslanıb cavablandırmağa çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə canlılar yaşayış dövrlərində keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəsilə köçürürlər və nəsildən nəsilə yığılan bu xüsusiyyətlər nəticəsində yeni növlər ortaya çıxırdı. Məsələn, Lamarka görə zürafələr ceyranlardan törəmişdir, yüksək ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən nəsilə boyunları uzanmışdı.

Darvin də bənzəri nümunələr vermiş, məsələn, “Növlərin mənşəyi” adlı kitabında yemək tapmaq üçün suya girən bəzi ayıların zamanla balinalara çevrildiyini iddia etmişdi (8).

Amma Mendelin kəşf etdiyi və 20-ci əsrdə inkişaf edən genetika elmi ilə dəqiqləşən irsilik qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə köçürülməsi əfsanəsini qəti olaraq rədd etdi. Beləcə, təbii seleksiya "öz başına" və dolayısı ilə tamamilə təsirsiz bir mexanizm olaraq qalmış olurdu.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir həll tapa bilmək üçün 1930-cu illərin sonlarında "Müasir sintetik nəzəriyyə"ni və ya daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiyaya "faydalı dəyişiklik səbəbi" olaraq mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya köçürtmə səhvləri nəticəsində yaranan pozulmaları əlavə etdi.

Bu gün də hələ dünyada təkamül adına keçərliliyini qoruyan model neodarvinizmdir. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının "mutasiyalara" yəni genetik pozğunluqlara söykənən bir müddət nəticəsində meydana gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz duruma salan açıq bir elmi həqiqət vardır: Mutasiyalar canlıları inkişaf etdirməzlər, əksinə, həmişə canlılara zərər verərlər.

Bunun səbəbi çox sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində yaranan hər hansı təsadüfi bir təsir ancaq zərər verər. Amerikalı genetik B. G. Ranganathan bunu belə açıqlayır:

Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamüllü bir inkişaf meydana gətirə bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə xüsusiləşmiş bir orqanizmdə meydana gələ biləcək təsadüfi bir dəyişmə ya təsirsizdir, ya da zərərlidir. Bir qol saatında meydana gələn təsadüfi bir dəyişmə qol saatını inkişaf etdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsirsiz olar. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, onu dağıdar (9).

Necə ki, bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı inkişaf etdirən mutasiya nümunəsi müşahidə edilməmişdir. Bütün mutasiyaların zərərli olduğu görülmüşdür. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" olaraq göstərdiyi mutasiyalar həqiqətdə canlıları yalnız korlayan, şikəst edən genetik hadisələrdir. (İnsanlarda mutasiyanın ən çox görülən təsiri xərçəngdir.) Əlbəttə, korlayıcı bir mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, "öz başına heç bir şey edə bilməz". Bu həqiqət bizlərə təbiətdə heç bir "təkamül mexanizmi"nin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə də təkamül deyilən xəyali müddət yaşanmış ola bilməz.

## Fosil (qalıq) qeydləri:

### Ara nümunələrin izi yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin yaşanmadığının ən açıq göstəricisi isə fosil (qalıq) qeydləridir.

Təkamül nəzəriyyəsinə görə bütün canlılar bir-birlərindən törəmişlər. Əvvəldən var olan bir canlı növü zamanla bir başqasına çevrilmiş və bütün növlər bu şəkildə ortaya çıxmışlar. Nəzəriyyəyə görə, bu çevrilmə yüz milyonlarla il davam edən uzun bir zaman kəsiyini əhatə etmiş və addım-addım irəliləmişdir.

Bu vəziyyətdə iddia edilən uzun çevrilmə müddətində saysız "ara növlər" meydana gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq bir tərəfdən də bəzi sürünən xüsusiyyətləri qazanan yarı balıq, yarı sürünən canlılar yaşamalıdır. Yaxud sürünən xüsusiyyətlərini daşıyarkən bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanan sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçiş müddətində olduqları üçün şikəst və qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri varlıqlara "ara keçid nümunəsi" adını verirlər.

Əgər həqiqətən bu cür canlılar keçmişdə yaşamışdırsa, bunların saylı və növləri milyonlarla, hətta milyardlarla olmalıdır. Və bu əcaib canlıların fosillərinə, mütləq fosil qeydlərində rast gəlinməldir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşadıqlarının dəlilləri də yalnız fosil qalıqları arasında ola bilər (10).

### Darvinin puç olan ümidləri

Ancaq 19-cu əsrin ortalarından bu yana dünyanın dörd tərəfində çoxlu fosil araşdırmaları aparıldığı halda keçiş nümunələrinə rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və araşdırmalarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə qüsursuz və nöqsansız bir şəkildə ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq (fosil alimi) Derek W. Ager bir təkamülçü olmasına baxmayaraq bu həqiqəti belə etiraf edir:

Problemimiz budur: Fosil qeydlərini detallı olaraq araşdırdığımızda istər növlər, istərsə də siniflər səviyyəsində olsun davamlı olaraq eyni həqiqətlə qarşılaşırıq; pilləli təkamüllə inkişaf edən deyil, birdən-birə yer üzündə yaranan qruplar görürük (11).

Yəni fosil qeydlərində bütün canlı növləri arasında heç bir keçiş nümunəsi olmadan qüsursuz şəkilləri ilə birdən-birə ortaya çıxırlar. Bu, Darvinin nəzərdə tutduğunun tam əksinədir. Əlavə də bu canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü bir dəlildir. Çünki bir canlı növünün öz-özünə təkmilləşən heç bir atası olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının tək izahı o növün yaradılmış olmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Douglas Futuyma tərəfindən də qəbul edilir:

Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında verilə biləcək yeganə iki açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və qüsursuz bir şəkildə ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişmə müddəti sayəsində özlərindən əvvəl var olan bəzi canlı növlərindən təkmilləşərək meydana gəlməlidirlər. Amma əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxmışlarsa, o halda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmış olmalıdırlar (12).

Fosillər isə canlıların yer üzündə qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin zənn etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəmə gətirdikləri mövzu insanın mənşəyi mövzusudur. Bu mövzudakı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bəzi varlıqlardan gəldiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu müddətdə müasir insanla ataları arasında bəzi "ara nümunə"lərin yaşadığı iddia edilir. Həqiqətdə tamamilə xəyali olan bu ssenaridə dörd təməl "kateqoriya" sayılır:

1- Australopithecus
2- Homo habilis
3- Homo erectus
4- Homo sapiens

Təkamülçülər insanların sözdə ilk meymunabənzər atalarına "cənub meymunu" mənasını verən "Australopithecus" adını verirlər. Bu canlılar həqiqətdə soyu tükənmiş bir meymun növündən  başqa bir şey deyil. Məşhur ingilis və amerikalı iki anatomiyaçı Lord Solly Zuckerman və prof. Charles Oxnardın “Australopithecus” nümunələri üzərində apardığı çox geniş əhatəli tədqiqat bu canlıların yalnız soyu tükənmiş bir meymun növünə aid olduğunu və insanlarla heç bir bənzərliklərinin olmadığını göstərmişdir (13).

Təkamülçülər insan təkamülünün bir sonrakı mərhələsini də "homo", yəni insan olaraq sinifləndirirlər. İddiaya görə “homo” ardıcıllığındakı canlılar “Australopithecus”lardan daha çox inkişaf etmişlər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ard-arda düzərək xəyali bir təkamül sxemi meydana gətirirlər. Bu sxem xəyalidir, çünki həqiqətdə bu fərqli siniflər arasında təkamüllü bir əlaqə olduğu qətiyyən isbat edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin 20-ci əsrdəki ən əhəmiyyətli müdafiəçilərindən biri olan Ernst Mayr "“Homo sapiens”ə uzanan zəncir həqiqətdə itmişdir" deyərək bunu qəbul edir (14).

Təkamülçülər "Australopithecus > Homo habilis > Homo erectus > Homo sapiens" sıralamasını yazarkən bu növlərin hər birinin bir sonrakının atası olduğu təəssüratını verirlər. Halbuki paleoantropoloqların son tapıntıları “Australopithecus”, “Homo habilis” və “Homo erectus”un dünyanın fərqli bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir (15).

Bundan başqa “Homo erectus” sinifləməsinə aid insanların bir hissəsi çox müasir zamanlara qədər yaşamış, “Homo sapiens” “Neandertalensis” və “Homo sapiens sapiens” (müasir insan) ilə eyni mühitdə yan-yana olmuşlar (16).

Bu isə, əlbəttə, bu siniflərin bir-birlərinin ataları olduqları iddiasının keçərsizliyini açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stephen Jay Gould özünün də bir təkamülçü olmasına baxmayaraq darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

Əgər bir-biri ilə paralel bir şəkildə yaşayan üç fərqli hominid (insana xas) xətti varsa, o halda bizim soy ağacımıza nə oldu? Açıqdır ki, bunların biri digərindən gələ bilməz. Bundan başqa, biri digəri ilə müqayisə edildiyində təkamüllü bir inkişaf tərzi göstərmirlər (17). Qısa olaraq mediyada və ya dərs kitablarında yer alan xəyali bəzi "yarı meymun, yarı insan" canlıların şəkilləri ilə, yəni sırf təbliğat yolu ilə dəstəklənməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi təməli olmayan bir nağıldan ibarətdir.

Bu mövzunu uzun illər araşdıran, xüsusilə "Australopithecus" fosilləri üzərində 15 il tədqiqat aparan İngiltərənin ən məşhur və hörmətli alimlərindən Lord Solly Zuckerman bir təkamülçü olmasına baxmayaraq ortada meymunabənzər canlılardan insana uzanan həqiqi bir soy ağacı olmadığı nəticəsinə çatmışdır.

Zuckerman bir də maraqlı bir "elm şkalası" tərtib etmişdir. Elmi olaraq qəbul etdiyi bilik sahələrindən elmdən kənar qəbul etdiyi bilik sahələrinə qədər bir yelpik hazırlamışdır. Zuckermanın bu cədvəlinə görə ən "elmi", (yəni konkret məlumatlara dayanan) bilik sahələri kimya və fizikadır. Yelpikdə bunlardan sonra biologiya elmləri, sonra da ictimai elmlər gəlir. Yelpiyin ən aşağısında, yəni ən "elmdən kənar" sayılan hissəsində isə Zuckermana görə telepatiya, altıncı hiss kimi "duyğu sonrası qəbul etmə" anlayışları və bir də "insanın təkamülü" vardır! Zuckerman yelpiyin bu yerini belə açıqlayır:

Obyektiv həqiqətin sahəsindən çıxıb bioloji elm olaraq fərz edilən bu sahələrə (yəni duyğu sonrası qəbul etməyə və insanın fosil tarixinin şərh olunmasına) girdiyimizdə təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görərik. Belə ki, nəzəriyyələrinə qəti inanan bu adamların ziddiyyətli bəzi qərarların eyni anda qəbul etmələri belə mümkündür (18).

Budur, insanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi fosilləri birtərəfli şəkildə izah etmələrindən ibarətdir.

**Darvin düsturu!**

İndiyədək araşdırdığımız bütün texniki dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə axmaq bir inanca sahib olduqlarını bir də uşaqların anlaya biləcəyi qədər açıq bir nümunə ilə yekunlaşdıraq.

Təkamül nəzəriyyəsi həyatın təsadüfən meydana gəldiyini iddia edir. Dolayısı ilə bu iddiaya görə cansız və şüursuz atomlar bir yerə gələrək əvvəlcə, hüceyrəni meydana gətirmişlər və sonra eyni atomlar bir şəkildə digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək; həyatın elementi olan karbon, fosfor, azot, kalium kimi elementləri bir yerə gətirdiyimizdə bir topa meydana gələr. Bu atom topası hansı əməliyyatdan keçirilsə də, tək bir canlı meydana gətirə bilməz. İstəyirsinizsə, bu mövzuda bir "təcrübə" hazırlayaq və təkamülçülərin əslində müdafiə etdikləri, amma yüksək səslə dilə gətirə bilmədikləri iddianı onlar adına "Darvin düsturu" adı ilə arşdıraq:

Təkamülçülər çox sayda böyük bir qabın içinə həyatın quruluşundakı fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə olan ancaq bu qarışığın içində olmasını lazım gördükləri vəsaitləri də bu qablara əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də (tək birinin belə təsadüfi meydana gəlmə ehtimalı 10-950 olan) zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə istilik və nəmlik versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Qabların başına da dünyanın ən öndə gələn alimlərini qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən nəsilə köçürərək növbəti milyardlarla, hətta trilyonlarca il davamlı qabların başında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtlərin var olması lazım olduğuna inanılırsa, hamısını istifadə etmək sərbəst olsun. Ancaq nə etsələr etsinlər, o qablardan qətiyyən bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, rəngarəng kəpənəkləri və bunun kimi milyonlarla canlı növündən heç birini meydana gətirə bilməzlər. Yalnız burada bir neçəsini saydığımız bu canlı varlıqları deyil, bunların tək bir hüceyrəsini belə əldə edə bilməzlər.

Qısası, şüursuz atomlar bir yerə gələrək hüceyrəni meydana gətirə bilməzlər. Sonra yeni bir qərar verib, bir hüceyrəni ikiyə bölüb, sonra ard-arda başqa qərarlar alıb elektron mikroskopunu tapan, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında izləyən professorları meydana gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat tapar. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd bir mənasız sözdür. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az belə düşünmək üstdəki nümunədə olduğu kimi, bu həqiqəti açıq şəkildə göstərər.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən izah edə bilməyəcəyi bir başqa mövzu isə göz və qulaqdakı üstün qəbul etmə keyfiyyətidir.

Gözlə əlaqədar mövzuya keçməzdən əvvəl, "Necə görürük?" sualına qısa cavab verək. Bir cisimdən gələn şüalar gözdə retinaya tərs halda düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beynin arxa hissəsindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə çatır. Bu elektrik siqnalları bir silsilə əməliyyatdan sonra beyindəki bu mərkəzdə görüntü kimi hiss olunur. Bu məlumatdan sonra indi düşünək:

Beyin işığa bağlıdır. Yəni beyinin içi tamamilə qaranlıqdır, işıq beyinin olduğu yerə girə bilməz. Görüntü mərkəzi deyilən yer qaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

Üstəlik bu o qədər dəqiq və keyfiyyətli bir görüntüdür ki, 21-ci əsr texnologiyası belə hər cür imkana baxmayaraq, bu dəqiqliyi təmin edə bilməmişdir. Məsələn, bu anda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Bu anda gördüyünüz dəqiqlik və keyfiyyətdəki bu görüntünü başqa bir yerdə gördünüzmü? Bu qədər dəqiq bir görüntünü sizə dünyanın bir nömrəli televizor şirkətinin çıxardığı ən inkişaf etmiş televizor ekranı da verə bilməz. 100 ildir ki, minlərlə mühəndis bu dəqiqliyə çatmağa çalışırlar. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, araşdırmalar aparılır, plan və dizaynlar inkişaf etdirilir. Yeni bir televizor ekranına baxın, bir də bu anda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük bir dəqiqlik və keyfiyyət fərqinin olduğunu görəcəksiniz. Üstəlik, televizor ekranı sizə iki ölçülü bir görüntü göstərir, halbuki siz üç ölçülü, dərin bir perspektivi izləyirsiniz.

Uzun illərdir ki, on minlərlə mühəndis üç ölçülü ekran düzəltməyə, gözün görmə keyfiyyətinə çatmağa çalışırlar. Bəli, üç ölçülü bir ekran sistemi düzəldə bildilər, amma onu da eynək taxmadan üç ölçülü görmək mümkün deyil, qaldı ki, bu süni bir üç ölçüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiyası kimi durur. Heç bir zaman gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görüntü meydana gəlməz. Kamerada da, televizorda da mütləq görüntü itkisi meydana gəlir.

Təkamülçülər bu keyfiyyətli və dəqiq görüntünü meydana gətirən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi biri sizə, otağınızdakı televizor təsadüflər nəticəsində meydana gəldi, atomlar bir yerə gəlib bu görüntünü meydana gətirən aləti meydana gətirdi desə, nə düşünərsiniz? Minlərlə adamın bir yerə gəlib edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha primitiv olan bir görüntünü meydana gətirən alət təsadüfən meydana gələ bilmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gələ bilməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulaq üçün də keçərlidir. Xarici qulaq, ətrafdakı səsləri qulaq çanağı vasitəsilə qəbul edib orta qulağa çatdırır; orta qulaq aldığı səs titrəyişlərini gücləndirib daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri beyindəki eşitmə mərkəzinə verir.

Gözdəki durum qulaq üçün də keçərlidir, yəni beyin, işıq kimi səsə də bağlıdır, səs keçirməz. Bu səbəbdən çölü nə qədər gurultulu olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən dəqiq səslər beyində qəbul edilir. Səs keçirməyən beyninizdə bir orkestrin simfoniyalarını dinləyirsiniz, sıxlıq bir mühitin bütün səs-küyünü eşidirsiniz. Amma o

anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada iti bir səssizliyin hakim olduğu görüləcək. Dəqiq bir görüntü əldə edə bilmək ümidi ilə texnologiya necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdir davam etdirilir. Səs yazma cihazları, musiqi mərkəzləri, bir çox elektronik alət, səs qəbul edən musiqi sistemləri bu işlərdən bəziləridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada çalışan minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq, qulağın meydana gətirdiyi dəqiqlik və keyfiyyətdə bir səs əldə edilməmişdir.

Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi yazdıqda mütləq səsin bir qismi itir və ya az da olsa, mütləq əngəl meydana gələr və ya musiqi mərkəzini açdığınızda hələ musiqi başlamadan bir xışıltı mütləq eşidərsiniz. Ancaq insan bədənindəki texnologiyanın məhsulu olan səslər son dərəcə dəqiq və qüsursuzdur. Bir insan qulağı heç vaxt musiqi setində olduğu kimi, xışıltı və ya əngəl qəbul etməz; səs necədirsə, tam və dəqiq bir şəkildə onu qəbul edir. Bu vəziyyət insan yaradıldığı gündən indiyədək belədir. İndiyə qədər insanların düzəltdiyi heç bir görüntü və səs cihazı, göz və qulaq qədər həssas və müvəffəqiyyətli bir qəbul edici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunlardan başqa böyük bir həqiqət yenə vardır.

***Beyinin içində görən və eşidən şüur kimə aiddir?***

Beyinin içində rəngli dünyanı seyr edən, simfoniyaları, quşların civiltisini dinləyən, gülü iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar elektrik siqnalı olaraq beyinə gedir. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə meydana gəldiyinə dair bir çox məlumat oxuyubsunuz. Ancaq bu mövzu haqqındakı ən əhəmiyyətli həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: Beyində bu elektrik siqnallarını görüntü, səs, qoxu və hiss hesab edən kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac duymadan bütün bunları qəbul edən bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini meydana gətirən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruh görüntünü seyr etmək üçün gözə, qulağa, buruna ehtiyac duymaz. Bunlardan əlavə düşünmək üçün beyinə ehtiyac duymaz.

Bu açıq və elmi həqiqəti oxuyan hər insanın beyinin içindəki bir neçə kub santimetirlik qaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığdıran uca Allahı düşünməli, Ondan qorxmalı, Ona sığınmalıdır.

***Materialist bir inanc***

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi tapıntılarla açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, qarşıya qoyduğu təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və fosillər nəzəriyyənin tələb etdiyi ara formaların yaşamadığını göstərir. Bu vəziyyətdə, əlbəttə, təkamül nəzəriyyəsinin elmə zidd bir düşüncə olaraq bir kənara atmaq lazımdır. Necə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə elmin gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsi israrla elmin gündəmində tutulmaqdadır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid olunmasını "elmə hücum" kimi göstərməyə belə çalışırlar. Yaxşı, bəs niyə?...

Bu vəziyyətin səbəbi təkamül nəzəriyyəsinin bəzi çevrələr üçün özündən əsla imtina edilə bilməyəcək doğma bir inanc olmasıdır. Bu çevrələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə gətirilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər. Bəzən bunu açıq şəkildə etiraf da edirlər. Harvard Universitetindən məşhur bir genetik və eyni zamanda öndə gələn bir təkamülçü Richard Lewontin "əvvəl materialist, sonra alim" olduğunu belə etiraf edir:

Bizim materializmə bir inancımız var, “a priori” (əvvəldən qəbul edilmiş, doğru fərz edilmiş) bir inancdır bu. Bizi dünyaya materialist bir izah gətirməyə məcbur edən şey elmin üsulları və qaydaları deyil. Əksinə, materializmə olan “a priori”yə bağlılığımız səbəbi ilə dünyaya materialist bir izah gətirən araşdırma üsullarını və anlayışları hazırlayırıq. Materializm mütləq doğru olduğuna görə də ilahi bir izahın səhnəyə girməsinə icazə verə bilmərik (19).

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğruna yaşadılan bir doqma olduğunun açıq ifadələridir. Bu doqma maddədən başqa heç bir varlığın olmadığını fərz edir. Bu səbəblə də cansız, şüursuz maddənin həyatı yaratdığına inanır. Milyonlarla fərqli canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz içindəki qarlılıqlı təsirlərlə, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddənin içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağıla, həm də elmə zidd bir qəbuldur. Amma darvinistlər öz deyimləri ilə “ilahi bir izahın səhnəyə girməməsi” üçün bu qəbulu müdafiə etməyə davam edirlər.

Canlıların mənşəyinə materialist zehniyyətlə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: Bütün canlılar üstün bir güc, bilik və ağıla sahib olan bir Yaradıcının əsərləridir. Yaradıcı bütün kainatı yoxdan var edən, qüsursuz şəkildə təşkil edən və bütün canlıları yaradıb şəkilləndirən Allahdır.

***Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli cadusudur***

Burada bunu da ifadə etmək lazımdır ki, zehniyyətsiz, heç bir ideologiyanın təsiri altında qalmadan, yalnız ağıl və məntiqindən isitifadə edən hər kəs elm və mədəniyyətdən uzaq cəmiyyətlərin xurafatlarını xatırladan təkamül nəzəriyyəsinin inanılması qeyri-mümkün bir iddia olduğunu asanlıqla anlayacaq.

Yuxarıda da ifadə edildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir qabın içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman içində düşünən, bir çox tapıntının müəllifi olan professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi alimlərin, Frank Sinatra, Charlton Heston kimi sənətçilərin, bununla yanaşı ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Üstəlik, bu axmaq iddiaya inananlar alimlər, professorlar, mədəni və təhsilli insanlardır. Bu səbəblə, təkamül nəzəriyyəsi üçün “dünya tarixinin ən böyük və ən təsirli cadusu” ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin önünə sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan bir başqa inanc və ya iddia yoxdur. Bu, qədim misirlilərin günəş tanrısı Relsə, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə ibadət etməsindən, hz İbrahim qövmünün əlləri ilə düzəltdikləri bütlərə, hz Musa qövmünün qızıldan düzəltdikləri buzova ibadətlərindən daha dəhşətli və ağıla sığmaz bir korluqdur. Həqiqətdə bu vəziyyət Allahın Quranda işarə etdiyi bir ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlanacağını və həqiqətləri görməkdə aciz duruma düşəcəklərini bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**… Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində isə bu insanların möcüzələr görsələr belə, inanmayacaq qədər ovsunlandıqlarını belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar yenə də: “Gözümüz bağlanmış, biz sehrlənmişik”, - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş bir kütlənin üzərində bu cadunun təsirli olması insanların həqiqətlərdən bu qədər uzaq tutulması və 150 il bu cadunun təsirini itirməməsi isə sözlə izah edilə bilməyəcək qədər heyrət verici bir vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, axmaqlıq və məntiqsizliklərlə dolu iddialara inanmaları başa düşülə bilər. Ancaq dünyanın dörd tərəfindəki insanların şüursuz və cansız atomların ani bir qərarla bir yerə gəlib fövqəladə bir təşkilat, intizam, ağıl və şüur göstərib qüsursuz bir sistemlə işləyən kainatı, həyat üçün uyğun olan hər cür xüsusiyyətə sahib olan Yer planetini və saysız kompleks sistemlə təchiz edilmiş canlıları meydana gətirdiyinə inanmasının “cadu”dan başqa bir izahı yoxdur.

Necə ki, Allah Quranda inkarçı fəlsəfəni müdafiə edən bəzi adamların etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz Musa və firon arasında keçən bir hadisə ilə bizlərə bildirir. Hz Musa firona haqq dini izah etdiyində firon hz Musaya öz “bilikli sehrbazları” ilə insanların toplandığı bir yerdə qarşılaşmasını istəyir. Hz Musa sehrbazlara əvvəlcə onların bacarıqlarını göstərməyini deyir. Bu hadisənin açıqlandığı ayə belədir:

**(Musa: ) “Siz atın” – dedi. Onlar (əllərindəkiləri və əsaları yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrbazları öz “hiylə”ləri ilə (hz Musa və ona inananlar xaricində) insanların hamısını ovsunlaya bilmişlər. Ancaq onların atdıqlarına qarşı hz Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə “uydurduqlarını udmuş”, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: “Əsanı tulla!” – deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, daha əvvəl insanları ovsunlayaraq təsir edən bu adamların etdiklərinin bir saxtakarlıq olduğu başa düşülmüşdür. İndiki dövrdə də bir sehr təsiri ilə elm adı altında son dərəcə axmaq iddialara inanan və bunları müdafiə etmək üçün həyatını həsr edənlər əgər bu iddialardan imtina etməsələr, həqiqətlər tam mənası ilə ortaya çıxdığında və “sehr pozulduğunda” pis vəziyyətə düşəcəklər. Necə ki, təxminən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist bir fəlsəfəçi olan, ancaq daha sonra həqiqətləri görən Malcolm Muggeridge təkamül nəzəriyyəsinin yaxın gələcəkdə süqut edəcəyi vəziyyəti belə açıqlayır:

**Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq olunduğu sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük zarafat vəsaitlərindən biri olacağına inandım.** Gələcək nəsil bu qədər səhv və naməlum bir fərziyyənin inanılmaz bir saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaq (20).

Bu gələcək uzaqda deyil, əksinə, yaxın zamanlarda insanlar “təsadüflər”in ilah ola bilməyəcəklərini anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən şiddətli sehri olaraq təyin olunacaq. Bu şiddətli sehr böyük sürətlə dünyanın dörd tərəfində insanların üzərindən qalxmağa başlamışdır. Təkamül yalanının sirrini öyrənən bir çox insan bu yalana necə aldandığını heyrətlə düşünürlər.

**“Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Bilən Sən, hikmət sahibi Sənsən”**

**(Bəqərə surəsi, 32)**

*QEYDLƏR :*


1. Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, s. 2
2. Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953, s.196
3. “New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, s. 1328-1330
4. Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, s. 7
5. Jeffrey Bada, Earth, Şubat 1998, s. 40
6. Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, s. 78
7. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 189
8. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 184
9. B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988
10. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 179
11. Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, s. 133
12. Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. s. 197
13. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 75-94; Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, sf. 389
14. J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992
15. Alan Walker, Science, c. 207, 1980, sf. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, sf. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, s. 272
16. Time, Kasım 1996
17. S. J. Gould, Natural History, c. 85, 1976, s. 30
18. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 19
19. Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak 1997, s. 28
20. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, s.43

Tövrat Allahın hz Musaya vəhy etdiyi mübarək bir kitabdır. Ancaq Tövrat sonradan təhrif edilmiş və içinə insan sözləri qatılaraq haqq kitab olmaq xüsusiyyətini itirmişdir. Bu səbəblə, bu gün əlimizdəki Tövrat "müxərrəf (təhrif edilmiş) Tövrat"dır.

Günümüzdəki Tövrat Quran ayələri və Peyğəmbər əfəndimizin (s.ə.v.) hədisləri ilə birlikdə araşdırıldığında içində haqq dinə aid bir çox mövzunun qorunduğu, bir çox gözəl və hikmətli izahları ehtiva etdiyi görünər. Allahın birliyi, Allah qorxusu, Allah sevgisi, Allaha itaət və təslimiyyət, şükr və dua, iman coşğusu və sevinci, yenidən diriliş, qiyamət günü kimi inanc əsaslarının təhrif olunmuş Tövratın içində dağınıq da olsa, mövcud olduğu görünür. Bundan başqa, günümüzdəki Tövratda ədalət, şəfqət, mərhəmət, təvazökarlıq kimi əxlaqi dəyərlərlə birlikdə oğurluq etməmək, zinadan çəkinmək, hiylə etməmək, faizlə pul istifadə etməmək, donuz əti yeməmək kimi haqq dinə aid bir çox hökmə də rast gəlmək olar.

Tövratın pozulan qisimləri şeytanın müdaxiləsinin, təsirinin hiss edildiyi hissələrdir. Bunlar təmizləndiyində geriyə şeytani müdaxiləyə məruz qalmayan qisimləri qalır. Bu da müxərrəf Tövratdakı dəyişdirilmiş, sonradan əlavə olunmuş bu hissələr diqqətlə ayrıldığında həqiqi Tövratın əldə olunacağı mənasını verir. (Ən doğrusunu Allah bilir.) Bu qisimlər qəlbə şəfalı, ruha nur və fərahlıq verən sözlərdir. “Maidə” surəsinin 44-cü ayəsində bildirildiyi kimi, "hidayət və nur" olan qisimlərdir. Oxuduğunuz bu kitabda yer alan Tövrat açıqlamaları da yalnız Quran ayələrinə və Peyğəmbərimizin (s.ə.v.) sünnəsinə uyğun qisimlərdir, hikmətli və gözəl nəsihətlərdir.

Əlbəttə ki, müsəlmanlar yalnız Qurana tabe olmaqla mükəlləfdirlər. Lakin Tövratdan Allahın sözləri olduğuna hüsnü-zənn etdiyimiz bu qisimlər üzərində düşünə bilər, bunlardan öyüd ala bilər və hikmətindən faydalana bilərlər. Allahın izni ilə bu kitab müsəlmanların iman dərinliyinə bir vəsilə, dindar yəhudilərdən səmimiyyətlə səhv izahlara uyanlara bir xəbərdarlıq və xatırlatma olacaq.

## *YAZIÇI HAQQINDA*

Harun Yəhya təxəllüsündən istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. 1980-ci illərdən indiyədək imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bunlarla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının keçərsizliyini və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin yanlış təməllərini və azğın tətbiqlərini gözlər önünə gətirməkdir. Necə ki, yazıçının bu günə qədər 60 ayrı dilə çevrilən təxminən 250 əsəri, dünya səviyyəsində geniş bir oxucu kütləsi tərəfindən izlənilir.

Harun Yəhya külliyyatı (Allahın izni ilə) 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa bir vəsilə olacaq.